AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
AKAD. Z. M. BÜNYADOV ADINA ŞƏRQŞÜNASLIQ İNSTİTUTU

# ZƏMANƏMİZİN DAHİ AZƏRBAYCANLISI

## (MƏQALƏLƏR TOPLUSU)

BAKI – 2023

*AMEA akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun*
*Elmi Şurasının qərarı ilə çap olunur.*

**Elmi redaktor:** akademik Gövhər Baxşəliyeva

Zəmanəmizin dahi azərbaycanlısı (məqalələr toplusu)
Bakı: "Elm", – 264 səh.

ISBN 978-9952-556-74-2

© akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu, 2023

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur.

Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.

Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Tariximizin gedişatının və həyatımızın ahənginin köklü surətdə dəyişdiyi, azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı bu illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir. Ulu Öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soy-kökə qayıdışı təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir.

Böyük siyasi iradəyə, sarsılmaz əqidəyə malik olan Heydər Əliyevin tükənməz dövlət idarəçiliyi istedadı onun SSRİ-nin rəhbərlərindən biri kimi çalışdığı və irimiqyaslı layihələr həyata keçirdiyi illərdə özünü bir daha parlaq surətdə təzahür etdirmişdir. Heydər Əliyev bütün varlığı ilə sevdiyi və canından əziz bildiyi doğma xalqının mənafelərini daim önə çəkmiş və respublikamızın inkişafı üçün malik olduğu bütün imkanlardan istifadə etmişdir.

Zamanın hökmü ilə ötən əsrin 90-cı illərində dövlət müstəqilliyini bərpa edən Azərbaycan Ermənistanın təcavüzü, xarici təzyiqlər və daxili çəkişmələr üzündən dünyanın siyasi xəritəsindən silinmək və dövlətçiliyini itirmək təhlükəsi ilə qarşılaşmışdır. Taleyimizin həll olunduğu ağır bir zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirmiş, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtarmış, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını almış, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etmişdir. Heydər Əliyevin ölkəmizə rəhbərliyi illəri xalqımızın nadir tarixi imkandan faydalanaraq, böyük əziyyətlər bahasına öz müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir.

Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlamış, öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin canlı təcəssümü olmuşdur. Geniş bilik və dərin təfəkkür sahibi olan Heydər Əliyev düşünülmüş və cəsarətli qərarları ilə təkcə müstəqillik dövründə deyil, bütün dövrlərdə Azərbaycan

ictimaiyyətini ən ciddi şəkildə düşündürən məsələləri uğurla həll etmişdir. Ulu Öndər cəmiyyət həyatının müxtəlif sahələri arasında üzvi bağlılığı aydın görərək, müəllifi olduğu milli inkişaf strategiyasında ictimai, siyasi, sosial, iqtisadi, mədəni və digər sahələrdə qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş və məharətlə həyata keçirmişdir. Heydər Əliyevin milli neft strategiyasının uğurla reallaşdırılması nəticəsində xalqımız öz təbii sərvətlərinin tam sahibinə çevrilmiş və qısa müddətdə ölkəmizin inkişafına güclü təkan verən resurslar əldə edilmişdir. Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması və bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi, demokratik, hüquqi dövlət quruculuğu, nizami ordunun yaradılması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləridir. Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri olmuşdur.

Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır. Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir.

Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı – Milli Qurtuluş Günü kimi qeyd edir.

Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasında 2023-cü il "Heydər Əliyev İli" elan edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham Əliyev**

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 sentyabr 2022-ci il

**Gövhər Baxşəliyeva**
AMEA-nın vitse-prezidenti,
akad. Z. M. Bünyadov adına Şərqşünaslıq İnstitutunun
baş direktoru, akademik

# HEYDƏR ƏLİYEV VƏ İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATI

**Açar sözlər**: Heydər Əliyev, siyasət, əlaqə, təşkilat, münaqişə

1993-cü ildə hakimiyyətə yenidən qayıtdığı ilk günlərdən Ümummilli Lider Heydər Əliyev Azərbaycanın xarici siyasətini yeniləşdirdi və ölkəni strateji maraqları əsasında yenidən qurdu. O, ilk növbədə sabiq hakimiyyətin xarici siyasət sahəsində buraxdığı kobud səhvləri və bunun nəticəsində Azərbaycan ətrafında formalaşmış çox gərgin beynəlxalq siyasi vəziyyəti aradan qaldırmaq istiqamətində iş aparmağa başladı, ölkənin strateji maraqlarını region dövlətlərinin və Qafqazda xüsusi təsiri olan ayrı-ayrı dövlətlərin maraqları ilə uzlaşdırmağa yönəlmiş siyasət yürütməyə başladı. Hələ Milli Məclisin sədri seçilərkən o, xarici siyasətin başlıca vəzifələrini və istiqamətlərini müəyyənləşdirdi: “Azərbaycanın müstəqilliyini təmin edən atributlardan biri xarici siyasətdir, Azərbaycanın sağlam xarici siyasəti olmalıdır, düşünülmüş xarici siyasəti olmalıdır, uzaqgörən xarici siyasəti olmalıdır, elə xarici siyasəti olmalıdır ki, Azərbaycanı dünya dövlətləri birliyinə bağlasın, Azərbaycanın bütün dövlətlərlə əlaqəsini, Azərbaycanın mənafeyini təmin etsin və Azərbaycanı de-fakto dünya miqyasında bir müstəqil dövlət kimi tanıtmağı təmin edə bilsin. Azərbaycanın indiyə qədər belə sağlam düşüncəli xarici siyasəti olmayıbdır”. Sözünə davam edərək, Heydər Əliyev bu sahədə buraxılan səhvlərə diqqəti yönəldir: “Azərbaycanın bütün dövlətlərlə gərək bərabərhüquqlu əlaqəsi olsun, Türkiyə ilə, İran ilə, qonşu Gürcüstan ilə, Rusiya ilə də, Amerika ilə də, Avropa dövlətləri ilə də, Ərəbistan dövlətləri ilə də, müsəlman dövlətləri ilə, türkdilli dövlətlərlə də, Orta Asiya dövlətləri ilə, Qazaxıstanla da bərabərhüquqlu əlaqələri olmalıdır”. Heydər Əliyev son illərdə Azərbaycanın xarici siyasətində yer tutan özünütəcrid xəttinin tamamilə yolverilməz və milli maraqlara zidd olduğunu vurğulayır. O, özünütəcrid xəttinin acı nəticəsi kimi dünyanın Azərbaycanı tanımamasını, problemlərimizi bilməməsini, haqq səsimizi eşitməməsini göstərir və belə siyasəti “özümüzün özümüzə vurduğumuz zərbə” adlandırır. Ölkənin mənafelərini qorumaq istiqamətində hərtərəfli ölçülüb-biçilmiş addımların atılmasının gərəkliyini vurğulayan Heydər Əliyev Azərbaycanın dövlətçilik mənafelərini hər şeydən uca tutaraq müxtəlif dövlətlərin bütövlükdə Qafqaz və bilavasitə respublikamız üzərində qurulmuş iqtisadi maraq və nüfuz dairəsi uğrunda mübarizələrini nəzərə alaraq, çevik manevrlər və xüsusi taktiki gedişlər etdi. Beləliklə, xarici siyasət xəttində mövcud reallıqları nəzərə alan və ölkənin mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. İlk növbədə müstəqil Azərbaycan dövlətinin beynəlxalq

münasibətlər sistemində yeri, Avropa ölkələri və ABŞ-la, yeni müstəqil dövlətlər və Rusiya ilə, türkdilli dövlətlər və Türkiyə, müsəlman dünyası və İranla, nüfuzlu beynəlxalq təşkilatlarla əlaqələrin yaxın dövr üçün prioritetləri müəyyənləşdirildi və tədricən həyata keçirilməyə başlandı. Azərbaycan müstəqillik qazandıqdan sonra İslam Əməkdaşlıq Təşkilatına üzv oldu. Heydər Əliyev müsəlman ölkələri arasında əməkdaşlığı möhkəmlətməyi, sülh şəraitini təmin etməyi, mənəvi dəyərlərimizi, mədəniyyətimizi, ənənələrimizi qoruyub saxlamaq və inkişaf etdirməyi əldə rəhbər tutan bu beynəlxalq təşkilatla yaxından əməkdaşlıq etmək, onun vasitəsi ilə müsəlman dünyasının haqq işimizdə bizə dəstəyinə nail olmaq prinsiplərini xarici siyasətimizin vacib istiqaməti hesab edərək bu təşkilatın bütün imkanlarından səmərəli istifadə etmək zərurətini vurğulamışdı. 1993-cü ilin ikinci yarısından başlayaraq bu istiqamətdə görülən işlər sanki yeni nəfəs aldı, İƏT ilə ölkəmiz arasındakı əlaqə və təmaslar intensivləşməyə və fəallaşmağa başladı. 23 noyabr 1993-cü ildə İƏT-ə üzv ölkələrin xarici işlər nazirlərinin keçirilmiş koordinasiya toplantısı Ermənistanın Azərbaycan Respublikasına qarşı təcavüzü ilə bağlı regiondakı vəziyyəti müzakirə edərək özünün ölkəmizlə bağlı ilk sənədlərindən biri olan bəyanatı qəbul etdi. Toplantı iştirakçılarına Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin müraciəti təqdim edilmişdi. Müraciətdə Ermənistanın Azərbaycanın 20 faizdən çox ərazisinin işğalı nəticəsində ölkədə yaranmış vəziyyət, bir milyondan artıq qaçqın ordusunun olması öz əksini tapmışdı. Toplantı iştirakçıları Ermənistan-Azərbaycan münaqişəsinin genişlənməsi ilə bağlı dərin narahatlıq hisslərini ifadə etmiş və Ermənistanın təcavüzünün sülhə və əmin-amanlığa təhlükə yaratdığını qeyd etmişdilər. Toplantı iştirakçıları eyni zamanda Azərbaycan Prezidentinin Azərbaycan qaçqınlarına təcili humanitar yardım göstərilməsi barədəki müraciətini dəstəklədiklərini bildirmişlər. Bundan sonra ölkəmiz ilə İƏT arasında əlaqələr Prezident Heydər Əliyevin göstərişi ilə daha da intensivləşdi. Azərbaycan bu təşkılatın informasiya, maliyyə və siyasi dəstək göstərmək imkanlarından tam gücü ilə istifadə etməyə başladı. 1994-cü ilin sentyabr ayında İƏT xarici işlər nazirlərinin Pakistan İslam Respublikasının İslamabad şəhərində keçirilmiş VII Konfransı Ermənistan-Azərbaycan münaqişəsi üzrə daha bir qətnamə qəbul etdi. Qətnamədə Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü və Azərbaycan Respublikası ərazilərinin 20 faizdən çoxunun işğalı qətiyyətlə pislənmiş, münaqişənin dövlətlərin ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərinə hörmət əsasında ədalətlə və sülh yolu ilə həllinə çağırış səsləndirilmişdir. Ulu öndər Heydər Əliyevin İƏT Baş katibi, doktor Həmid əl-Qabidlə 1994-cü ilin noyabr ayında Bakıda keçirdiyi görüşlər və danışıqlar respublikamızla İƏT arasındakı əməkdaşlığı daha da fəallaşdırmaqla yanaşı, bir sıra müsəlman ölkələri ilə diplomatik münasibətlər yaratmaq nöqteyi-nəzərindən də çox mühüm əhəmiyyət kəsb etmişdir. Belə ki, İƏT Baş katibi səfərdən qayıtdıqdan sonra respublikamızın o vaxtadək diplomatik münasibətlər qurmadığı müsəlman ölkələrinin rəhbərlərinə məktubla müraciət edərək, onların diqqətini bu məsələyə cəlb etmişdir. 1994-cü ilin may ayından etibarən Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığındakı səfirinə İƏT Baş Katibliyində Azərbaycanın daimi nümayəndəsi

funksiyasını daşımaq həvalə edildikdən sonra, səfirlik vasitəsilə İƏT Baş Katibi və onun müxtəlif qurumları ilə mütəmadi və səmərəli iş aparılmağa başlanmışdı. Azərbaycan Respublikasının İƏT-nin beynəlxalq aləmdəki nüfuz və imkanlarından lazımi səviyyədə istifadə edə bilməsi istiqamətində Prezident Heydər Əliyevin 1994-cü ilin iyul ayında Səudiyyə Ərəbistanına rəsmi səfəri dönüş nöqtəsi oldu. Azərbaycan Prezidentinin Səudiyyə Ərəbistanı kralı Fəhd bin Əbdüləziz Əl-Səudla faydalı danışıqları və İƏT rəhbərliyi ilə səmərəli görüşləri müsəlman aləmində ölkəmizə olan maraq və diqqəti daha da artırdı. Azərbaycanın islam aləminin bir hissəsi olması bir daha yüksək səviyyədə təsdiqləndi. Ermənistan-Azərbaycan münaqişəsi ilk dəfə 1994-cü ildə İƏT-in BMT ilə əməkdaşlığı üzrə problemlər siyahısına salındı. Münaqişənin informasiya cəhətdən və siyasi tərəfdən işıqlandırılması, dünya səviyyəsində onun həlli yollarının və üsullarının araşdırılması ölkəmiz üçün çox mühüm əhəmiyyət kəsb edirdi. 1994-cü ilin dekabr ayında ilk dəfə olaraq Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İƏT-ə üzv ölkələrin Dövlət və Hökumət Başçılarının Zirvə toplantısında iştirak etdi. Toplantıya yola düşərkən jurnalistlərlə söhbətində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İslam Əməkdaşlıq Təşkilatının nüfuzlu beynəlxalq təşkilat olduğunu qeyd edərək bu təşkilatın Azərbaycan üçün əhəmiyyətini çox yüksək dəyərləndirdi: “İslam ölkələri dünyanın böyük bir hissəsini təşkil edirlər. Onların bir milyarddan artıq əhalisi var. İslam Əməkdaşlıq Təşkilatı bu ölkələrin ümumi potensialından istifadə edərək həm ümumbəşəri proseslərdə iştirak edir, həm də İslam ölkələrinə məxsus spesifik problemlərin həll olunmasına çalışır. Mən şəxsən hesab edirəm ki, hər bir belə regional təşkilat əhəmiyyətlidir və bu kimi təşkilatlar öz səylərini, nəhayət, birləşdirə bilsələr, dünyada sülh daimi olar, əmin-amanlıq, təhlükəsizlik təmin edilə bilər. Ona görə də mən bu Zirvə toplantısına həvəslə gedirəm və şübhəsiz ki, bu toplantıdan çox şey gözləyirəm bir də ona görə ki, İslam Əməkdaşlıq Təşkilatı öz əvvəlki toplantısında da qətnamə qəbul edərək Ermənistanın Azərbaycana təcavüzünü pisləyib, bu barədə beynəlxalq təşkilatlara müraciətlər edibdir”. Ulu öndər bu toplantını bir növ ATƏT-in üzvü olan ölkələrin Dövlət və Hökumət Başçılarının Budapeşt Zirvə toplantısının davamı hesab edir, orada da Azərbaycan üçün taleyüklü bir çox yeni qərarların qəbul ediləcəyini gözləyirdi. Elə buna görə də orada bu istiqamətdə bir sıra işlər görüləcəyini bəyan etmişdi. Sammitdə Azərbaycan və onun rəhbəri bütün dövlət başçılarının, diplomatların, KİV nümayəndələrinin, demək olar ki, bütün islam dünyasının diqqət mərkəzində idi. Bu, islam ölkələri toplantısında ölkəmizin başçısının ilk iştirak etdiyi sammit, onlara Azərbaycan həqiqətlərini çatdırmaq üçün əldə olunmuş ilk geniş fürsət idi. Bu həm də İƏT-ə üzv olan dövlət başçıları üçün Azərbaycanla yaxından tanış olmaq, onun rəhbərini dinləmək, ölkəmizlə əlaqələr qurmaq, Prezident Heydər Əliyevin simasında həm də təşkilata yenicə üzv qəbul olunmuş müsəlman respublikalarının dünya siyasətinin bir çox məsələləri ilə bağlı nöqteyi-nəzəri ilə tanış olmaq üçün fürsət yaradırdı. Heydər Əliyev həmişə olduğu kimi bu Zirvə toplantısında da ölkəmizi layiqincə təmsil edərək onun imicini yüksəklərə qaldırdı. Sammitdə Prezidentimizin çıxışı xüsusi diqqət və rəğbətlə qarşılandı, dəfələrlə alqışlara səbəb oldu. Son dövrdə ölkəmizin

başına gələn fəlakətlərdən, Ermənistan-Azərbaycan münaqişəsinin səbəblərindən və onun həlli yollarından, müsəlman dünyasının qarşılaşdığı kəskin problemlərdən açıq, hərarətlə və səmimiyyətlə danışan Azərbaycan Prezidenti dünyaya və islam aləminə bizim baxışlarımızı yüksək tribunadan bəyan etdi. Azərbaycan Respublikasının Prezidenti konfransda Asiya dövlətləri adından nitq söylədi. O, göstərdi ki, VII Kasablanka Zirvə toplantısı dünya müsəlmanlarının həmrəyliyinin daha da möhkəmlənməsində, islam dövlətlərinin nüfuz və qüdrətinin artmasında yeni bir mərhələ olacaqdır, islam aləminin qarşılaşdığı çətinliklərin və problemlərin dünya ictimaiyyəti tərəfindən daha aydın başa düşülməsinə geniş imkanlar yaradacaqdır.

Böyük öndər İƏT ilə olan əlaqələrimizi daim öz nəzarəti altında saxlamış, onların durmadan inkişafı üçün müvafiq tədbirlər görülməsinə, bu sahədə ardıcıl iş aparılmasına xüsusi diqqət verirdi. 1996-cı il sentyabr ayının 21-də Bakıda keçirilən İslam İnkişaf Bankının Beynəlxalq İnvestisiya Konfransı məhz belə tədbirlərdən idi. Bu konfransın işində də Azərbaycan Prezidenti şəxsən iştirak etmişdir. Konfransda çıxış edən Azərbaycan Prezidenti bildirmişdir ki, İslam İnkişaf Bankının belə böyük tərkibdə, yüksək səviyyədə konfransının Azərbaycanda keçirilməsini yüksək qiymətləndirir və bunu Azərbaycan Respublikası ilə İslam ölkələri, İslam İnkişaf Bankı arasında mövcud olan sıx əlaqələrin təzahürü hesab edir. Prezident Heydər Əliyev əmin olduğunu bildirmişdir ki, İslam İnkişaf Bankının Azərbaycanda ilk dəfə keçirdiyi konfransı bundan sonra həm İslam İnkişaf Bankının bütün müsəlman ölkələrindəki fəaliyyətinə təkan verəcək, həm də İslam İnkişaf Bankı və onun ətrafında olan iş adamları ilə Azərbaycan arasındakı əlaqələri daha da genişləndirəcəkdir. 1997-ci ildə Prezident Heydər Əliyev Tehranda İƏT-nin VIII Zirvə toplantısında iştirak etmiş, geniş məruzə ilə çıxış etmiş və çoxsaylı görüşlər keçirmişdir. Prezidentimizin orada söylədiyi nitqi və keçirdiyi görüşləri islam aləmində geniş reaksiyaya səbəb olmuşdur. Beləliklə, Prezident Heydər Əliyevin gərgin zəhməti və yorulmaz fəaliyyəti nəticəsində ilk vaxtlar İƏT Baş Katibliyi Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı respublikamızın mövqeyini dəstəkləyən bəyanatlar verdiyi halda, sonrakı mərhələdə İƏT konfransları Ermənistan-Azərbaycan münaqişəsi haqqında daha kəskin qətnamələr qəbul etmişdir. Bu qətnamələrdə Ermənistan-Azərbaycan münaqişəsi birmənalı şəkildə Ermənistan Respublikasının Azərbaycan Respublikasına təcavüzü kimi qiymətləndirilir. İƏT xarici işlər nazirlərinin 1993-cü ildə Karaçidə keçirilmiş XXI, 1994-cü ildə Kasablankada keçirilmiş XXII, 1995-ci ildə Konakridə keçirilmiş XXIII konfransları Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münaqişə haqqında qətnamələr qəbul etdi. İƏT xarici işlər nazirlərinin 1996-cı ildə Cakartada keçirilmiş XXIV konfransında müvafiq qətnamənin adı dəyişdirilərək, "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında" adlandırılmışdır. O vaxtdan etibarən xarici işlər nazirlərinin bütün konfranslarında bu qəbildən olan qətnamələrin adı dəyişilməz qalmışdır. Qeyd etmək lazımdır ki, İƏT dövlət və hökumət başçılarının 1997-ci ildə Tehranda keçirilmiş VIII, 2000-ci ildə Dohada keçirilmiş IX və 2003-cü ildə Malayziyanın Putracaya şəhərində keçirilmiş X konfransları eyniadlı qətnamələr qəbul

etmişdir. Əvvəlki qətnamələrdən fərqli olaraq, son qətnamələr xeyli təkmilləşdirilmiş, onlara yeni bəndlər əlavə edilmişdir: "İƏT bütün dövlətləri təcavüzkarı münaqişəni dərinləşdirməyə təşviq edən və Azərbaycan ərazilərinin işğalını davam etdirməyə imkan yaradan silah və döyüş sursatı təchizatından imtina etməyə çağırır; İƏT-ə üzv dövlətləri və dünya birliyinin digər ölkələrini Ermənistanın təcavüzünə və Azərbaycan ərazilərinin işğalına son qoyulması üçün təsirli siyasi və iqtisadi təzyiqlərdən istifadəyə dəvət edir; hesab edir ki, Azərbaycan ona dəymiş ziyana görə kompensasiya almaq hüququna malikdir və bu ziyanın tam şəkildə ödənilməsi üçün məsuliyyət Ermənistanın üzərinə düşür; bu məsələ üzrə İƏT-ə üzv dövlətlərin mövqeyi barədə ATƏT-in hazırkı sədrinə məlumat verməsini İƏT Baş katibindən tələb edir" və s. İƏT dövlət və hökumət başçılarının təkcə 2003-cü ilin oktyabr ayında Putracayada keçirilmiş X Zirvə Konfransının qəbul etdiyi qətnamələr Azərbaycan-İƏT münasibətlərinin indiki vəziyyətinin əyani göstəricisidir. Konfrans qeyd edilən siyasi qətnamə ilə yanaşı, "Azərbaycan Respublikasına iqtisadi yardım göstərilməsi haqqında" qətnamə qəbul etmişdir. Qətnamədə Ermənistanın Azərbaycan Respublikasının Dağlıq Qarabağ və digər bölgələrinin işğalı, bir milyonadək əhalinin öz yurdundan zorla qovulması ilə müşayiət olunan əməlləri pislənir, ölkənin tarixi üçün belə çətin və böhranlı vaxtda Azərbaycan hökuməti və xalqı ilə tam həmrəylik ifadə olunur, Azərbaycan xalqının əzab-əziyyətini yüngülləşdirmək məqsədilə İƏT-ə üzv dövlətlərə, islam qurumlarına, eləcə də beynəlxalq təşkilatlara müraciət edilir ki, respublikamıza lazımi iqtisadi, maliyyə və humanitar yardım göstərsinlər.

Ümummilli liderimiz Heydər Əliyev İƏT və onun müxtəlif ölkələrdə yerləşən mərkəzləri ilə ölkəmiz arasında əlaqələr yaradılmasını, ədəbiyyat, mədəniyyət və sənət əsərlərimizin islam dünyasında da öyrənilməsini və yayılmasını həmişə mühüm saymış, bunun üçün bütün tədbirlərin görülməsi barədə müvafiq tapşırıqlar vermişdir. 1997-ci il mayın 8-də İstanbulda olarkən respublikamızın Prezidenti orada yerləşən İƏT tarix və mədəniyyət mərkəzini (İRSİCA) də ziyarət etmişdir. O, öz çıxışlarında qeyd etmişdir ki, islam tarixinə aid Azərbaycanda da böyük araşdırmalar aparılır. Bu araşdırmalar islam dünyasında geniş təbliğ edilməlidir. İslam Əməkdaşlıq Təşkilatının İstanbuldakı bu mərkəzi ilə Azərbaycan Elmlər Akademiyasının, onun Şərqşünaslıq İnstitutunun və respublikamızdakı bir sıra mərkəzlərin əlaqələrinin daha da sıxlaşdırılması vacibdir. Yaradılacaq belə münasibətlər xalqlarımızın və islam tarixinin, mədəniyyətinin öyrənilib daha geniş təbliğ edilməsində mühüm rol oynaya bilər. Ulu öndər qeyd etmişdir ki, Azərbaycanın görkəmli şəxsiyyətlərinin yaradıcılığı və xalqımızın qədim tarixə malik mədəniyyəti ümumtürk və islam tarixində özünəməxsus yer tutur. Türk və islam tarixləri yenidən işlənib hazırlanarkən orada Azərbaycanın mütəfəkkir şəxsiyyətlərinin həyat və yaradıcılığı da öz layiqli əksini tapmalıdır. Dövlət başçısı bildirmişdir ki, Azərbaycan mədəniyyətinin, incəsənətinin zəngin tarixi vardır. Bu tarixin öyrənilib yayılmasının əhəmiyyəti böyükdür. Yola salmağa hazırlaşdığımız XX əsrdə Azərbaycan ədəbiyyatında, mədəniyyətində, incəsənətində əldə olunmuş uğurlar isə xüsusilə təqdirəlayiq və cahanşümul nailiyyətlərdir. Görkəmli bəstəkar Üzeyir Hacıbəyov dahi

Nizaminin və Füzulinin "Leyli və Məcnun" poemaları əsasında 1908-ci ildə "Leyli və Məcnun" operası yaratdı, Qara Qarayev isə 1960-cı ildə "Leyli və Məcnun" simfonik poemasını bəstələyərək klassik Şərq mövzusunu müasir sənət səviyyəsinə çatdırdı. Əlbəttə, xalqımızın içərisindən çıxmış belə dahi şəxsiyyətlərin sayı olduqca çoxdur və onların hər birinin yaradıcılığı haqqında saatlarla, günlərlə söhbət açmaq olar. Onlar həm də islam dünyasının böyük şəxsiyyətləri olduqlarına görə bu adamların yaradıcılığının islam aləmində və türk, ərəb dünyasında geniş öyrənilib yayılması olduqca vacibdir. Sözünün sonunda Azərbaycan Prezidenti vurğulamışdır ki, bununla bağlı olaraq İslam Əməkdaşlıq Təşkilatının mərkəzi ilə Azərbaycanın əlaqələrinin daha da sıxlaşdırılması üçün birgə tədbirlər hazırlanmasının və keçirilməsinin təşkilinə diqqəti artırmaq vacibdir. Məhz ümummilli liderimizin bu tövsiyələri əsasında AMEA Şərqşünaslıq İnstitutu ilə İRSİCA arasında sıx əlaqə yaranmış və bu gün də bir çox istiqamətləri əhatə edən birgə əməkdaşlıq davam edir, müştərək mövzular işlənilir, qarşılıqlı ezamiyyətlər həyata keçirilir, birgə elmi tədbirlər təşkil edilir.

## Heydar Aliyev and the Organization of Islamic Cooperation
## Summary

**Keywords:** Heydar Aliyev, politics, communication, organization, conflict

The 90th anniversary of the National leader Heydar Aliyev is approaching. On the eve of it, there is a great need to look through and analyse his manybranched activities, internal and external policies, and his great governmental work once more. In the given report only the smallest part of this activity – his policy related to the Organization of Islam Cooperation and some other activities – is investigated. Some analysis will be given on all the above-mentioned points.

**Gövhər Baxşəliyeva**
AMEA-nın vitse-prezidenti,
akad. Z. M. Bünyadov adına Şərqşünaslıq İnstitutunun
baş direktoru, akademik

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ŞƏRQ SİYASƏTİ

**Açar sözlər:** Şərq, sülh, ölkə, Dağlıq Qarabağ, nəticə

Tarixi inkişafın qaçılmaz qanunauyğunluğu nəticəsində Sovetlər Birliyi dağıldıqdan sonra Azərbaycan öz müstəqilliyini bərpa etdi, bununla da çoxəsrlik tarixinin yeni mərhələsinə qədəm qoydu. Qarşıda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin yaratdığı ağır nəticələri aradan qaldırmaq, ölkədə əmin-amanlıq yaratmaq, sabitliyi bərpa etmək, iqtisadiyyatı dirçəltmək, dövlətçiliyi xilas etmək kimi çox mürəkkəb vəzifələr dayanmışdı. Belə bir ağır vəziyyətdə geniş xalq kütlələrinin arzu və tələbi ilə yenidən hakimiyyətə qayıdan ümummilli liderimiz Heydər Əliyevin çoxşaxəli və gərgin fəaliyyəti başladı.

Dövlət quruculuğunun bütün sahələri kimi müstəqil dövlətimizin yeni beynəlxalq münasibətlərinin qurulması da Heydər Əliyevin adı ilə bağlıdır. Qüdrətli dövlətlərin mənafelərinin toqquşduğu mühüm geostrateji mövqeyi, zəngin yeraltı və yerüstü sərvətləri ilə böyük dövlətlərin diqqətini çəkən Azərbaycanda bütün bu məsələlərin həlli böyük müdriklik, uzaqgörənlik və polad siyasi iradə tələb edirdi.

İlk günlərdən Heydər Əliyev dövlətin xarici siyasətinin istiqamətlərini, prinsiplərini, xarakterini müəyyənləşdirdi. O, ilk növbədə AXC hakimiyyətinin xarici siyasət sahəsində buraxdığı kobud səhvləri və bunun nəticəsində Azərbaycan ətrafında formalaşmış çox gərgin beynəlxalq siyasi vəziyyəti aradan qaldırmaq istiqamətində iş aparmağa başladı, ölkənin strateji maraqlarını region dövlətlərinin və Qafqazda xüsusi təsiri olan ayrı-ayrı dövlətlərin maraqları ilə uzlaşdırmağa yönəlmiş siyasət yürütməyə başladı. Hələ Milli Məclisin sədri seçilərkən Heydər Əliyev xarici siyasətin başlıca vəzifə və prioritetlərini müəyyənləşdirdi: "Azərbaycanın müstəqilliyini təmin edən atributlardan biri xarici siyasətdir, Azərbaycanın sağlam xarici siyasəti olmalıdır, düşünülmüş xarici siyasəti olmalıdır, uzaqgörən xarici siyasəti olmalıdır, elə xarici siyasəti olmalıdır ki, Azərbaycanı dünya dövlətləri birliyinə bağlasın, Azərbaycanın bütün dövlətlərlə əlaqəsini, Azərbaycanın mənafeyini təmin etsin və Azərbaycanı de-fakto dünya miqyasında bir müstəqil dövlət kimi tanıtmağı təmin edə bilsin. Azərbaycanın indiyə qədər belə sağlam düşüncəli xarici siyasəti olmayıbdır...

Azərbaycanın bütün dövlətlərlə gərək bərabərhüquqlu əlaqəsi olsun, Türkiyə ilə, İran ilə, qonşu Gürcüstan ilə, Rusiya ilə də, Amerika ilə də, Avropa dövlətləri ilə də, Ərəb dövlətləri ilə də, müsəlman dövlətləri ilə də, türkdilli dövlətlərlə də, Orta Asiya dövlətləri ilə, Qazaxıstanla da bərabərhüquqlu əlaqələri olmalıdır...

Mən hesab edirəm ki, xarici siyasət sahəsində böyük səhvlər buraxılıbdır və bu səhvlər düzəldilməlidir. Xarici siyasətdə dövlətlər həmişə həm ikitərəfli müqavilələr bağlayırlar,

həm də cürbəcür ittifaqlara daxil olurlar. Məsələn, təsəvvür edin, Amerika kimi böyük bir dövlət, dünya miqyasında ən güclü bir dövlət təkbaşına hərəkət etmədi, onun bir neçə ittifaqları var".

H. Əliyev 90-cı illərin əvvəllərində Azərbaycanın xarici siyasətində yer tutan özünütəcrid xəttinin tamamilə yolverilməz və milli maraqlara zidd olduğunu vurğulayır. O, özünütəcrid xəttinin acı nəticəsi kimi dünyanın Azərbaycanı tanımaması, problemlərimizi bilməməsi, haqq səsimizi eşitməməsini göstərir və belə siyasəti "özümüzün özümüzə vurduğumuz zərbə" adlandırır. Ölkənin mənafelərini qorumaq istiqamətində emosiyadan uzaq, hərtərəfli ölçülüb-biçilmiş addımların atılmasının gərəkliyini vurğulayan H. Əliyev Azərbaycanın dövlətçilik mənafelərini hər şeydən uca tutaraq müxtəlif dövlətlərin bütövlükdə Qafqaz və bilavasitə respublikamız üzərində qurulmuş iqtisadi maraq və nüfuz dairəsi uğrunda mübarizələrini nəzərə alaraq, çevik manevrlər və xüsusi taktiki gedişlər etdi. Onun müstəqil Azərbaycanın dövlət quruculuğu, xarici və daxili siyasəti haqqındakı fikirləri, ideya və düşüncələri, ötən dövrün dərslərindən istifadə edilməklə ölkəmizin işıqlı gələcəyinin gerçəkləşməsinə yönəldilmişdir. Şərq müdrikliyini və Qərb praqmatizmini özündə birləşdirən xarici siyasət konsepsiyasını açıqlayan Heydər Əliyev bildirmişdir: "Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı faydalı əlaqələr yaratmaqdan və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqeyini möhkəmlətmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir. Bizim xarici siyasətimiz sülhsevər siyasətdir, heç bir dövlətin suverenliyinə, ərazi bütövlüyünə toxunmaq məqsədi güdmürük. Lakin eyni zamanda nəyin bahasına olursa-olsun respublikanın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü xarici siyasət vasitəsilə təmin etməyə çalışacağıq. Güman edirəm ki, bundan sonra görülən işlər Azərbaycanın daha geniş tanınmasına şərait yaradacaqdır və respublikamız dünya dövlətləri birliyində öz layiqli yerini tutacaqdır... Bizim daxili siyasətimiz, xarici siyasətimiz dünya demokratiyasının açdığı yolla, demokratik prinsiplər əsasında gedəcəkdir".

Göstərilən prinsiplər dövlətimizin xarici siyasətdə rəhbər tutduğu əsas vəzifələrdə öz əksini tapmışdır. Onlardan:

- mənafeyi Azərbaycanın dövlətçilik və milli mənafeləri ilə uyğun gələn, üst-üstə düşən dövlətlərlə tərəfdaşlıq və müttəfiqlik münasibətləri yaratmaq, respublikamızı beynəlxalq mövqelərinin möhkəmlənməsi üçün onların imkanlarından istifadə etmək,
- regionda gərginliyin aradan qaldırılmasına və mehriban qonşuluq münasibətlərinin yaradılmasına səy göstərmək,
- dövlətimizin bütün beynəlxalq və regional qurumlarda, iqtisadi, elmi-texniki, mədəni, humanitar və s. təşkilatlarda fəal iştirakına çalışmaq, düşünülmüş və xalqımızın mənafeyinə uyğun xarici iqtisadi siyasət yeritmək, ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiya olunması üçün bütün xarici və daxili amillərdən istifadə etmək, – və sairə kimi te-

zislərə nəzər saldıqda görürük ki, aparılan düzgün xarici siyasət bir çox sahələrdə artıq konkret nəticə vermişdir. Getdikcə Azərbaycanın xarici siyasəti sahəsində əsaslı dönüş yarandı. Axtarışlar dövrü başa çatdı və yeni mərhələ başlandı. Beləliklə, xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkənin köklü mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. İlk növbədə müstəqil Azərbaycan dövlətinin beynəlxalq münasibətlər sistemində yeri, Avropa ölkələri və ABŞ-la, yeni müstəqil dövlətlər və Rusiya ilə, türkdilli dövlətlər və Türkiyə, müsəlman dünyası və İranla əlaqələrin yaxın dövr üçün prioritetləri müəyyənləşdirildi və tədricən həyata keçirilməyə başladı. Dövlətlərarası münasibətlərdə qarşılıqlı əlaqələr genişlənərək bəzi anlarda şəxsi dostluq münasibətlərinə çevrildi.

Azərbaycan coğrafi mövqeyinə görə Şərqin və Qərbin arasında yerləşir. Şərq və Qərb arasındakı strateji mövqeyimizdən yararlanan respublika rəhbərliyi öz xarici siyasətində Azərbaycanın Şərqlə Qərb arasında siyasi, iqtisadi, elmi, mədəni və s. sahələrdə körpü rolunu oynamasından maksimum istifadə etməyə çalışırdı. Məşhur "Şərq – incəlik tələb edir" deyimi var. Heydər Əliyevin xarici siyasətində, Şərqə münasibətdə, qonşu ölkələrlə, xüsusilə Türkiyə, İran və s. ölkələrlə münasibətlərdə mahir davranış, incəlik həmişə duyulurdu.

Ölkəmizlə çoxsaylı dini, mədəni, etnik tellərlə bağlı olan Yaxın və Orta Şərq ölkələrinə münasibətdə dünya siyasətinin istiqamətlərini və qanunauyğunluqlarını çox gözəl anlayan Prezident bu ölkələrlə düzgün münasibətlərin qurulmasına nail olmuşdur. Regionda yerləşən bütün dövlətlərlə yaxın əlaqələr saxlamaq, bu əlaqələri inkişaf etdirib daha da möhkəmləndirmək Azərbaycan üçün çox vacib idi. Burada əsasən dünyada geostrateji əhəmiyyətə malik olan, eyni zamanda region problemləri ilə hər hansı bir əlaqəsi olan və bizə coğrafi və siyasi cəhətdən yaxın olan ölkələrlə münasibətlərə daha çox diqqət yetirilirdi. Belə ölkələrə birinci növbədə Türkiyə, İran, Səudiyyə Ərəbistanı, Misir, Pakistan və s. aiddir. Bu və İslam Konfransı Təşkilatına daxil olan digər ölkələrin Azərbaycana dəstəyi, mənəvi yardımı gənc dövlətimiz üçün çox vacib idi. Bütün bu amilləri nəzərə alan Heydər Əliyevin apardığı siyasət nəticəsində bu sahədə böyük uğurlar qazanılmış və qazanılmaqdadır.

Ümumiyyətlə, Heydər Əliyevin Şərq dünyası, eyni zamanda onların rəhbərləri ilə əlaqələri 70-ci illərdən qurulmağa, formalaşmağa başlamış, Azərbaycan müstəqilliyini qazandıqdan sonra isə indiki vəziyyətə – mehriban qonşuluq və bərabərhüquqlu əməkdaşlıq münasibətləri səviyyəsinə çatmışdır.

Heydər Əliyevin 1982-1987-ci illərdə Misirə, Pakistana, İordaniyaya, Suriyaya, İraqa, Yəmənə və başqa ölkələrə səfərləri və islam dünyasının kral Hüseyn, Hafiz Əsəd, Yasir Ərafat və digər bu kimi liderləri ilə görüşləri onu dünyada aparıcı siyasətçilərdən biri kimi tanıtdı. O, köhnə əlaqələrini bərpa edərək respublikamızın dünyada öz mövqeyini möhkəmlətməsi üçün yeni münasibətlər yaratdı.

Türkiyə ilə əməkdaşlığın ilk dövrlərindən iki ölkə arasında hərtərəfli münasibətlərin hüquqi bazası yaradılmışdır. Bir çox sahələrə aid saziş, protokollar imzalanmışdır. Müntəzəm surətdə hər iki dövlətin müxtəlif səviyyələrdə rəsmi nümayəndə heyətləri Bakıda və Ankarada görüşür, birgə əməkdaşlıq məsələləri haqqında müzakirələr keçirirlər. Türkiyə

dünya dövlətləri arasında birinci olaraq Azərbaycanı suveren dövlət kimi tanımış, ölkəmizlə diplomatik əlaqələr yaratmışdır. Müstəqilliyimizin ilk günlərindən Türkiyə bütün sahələrdə ölkəmizə dəstək vermiş, dayaq olmuşdur. O, bəzən öz maraqlarından belə keçərək Qarabağ probleminin həlli, beynəlxalq təşkilatlarda Azərbaycanın dəstəklənməsi üçün çox işlər görmüşdür. Türkiyənin Ermənistanla münasibətləri məhz Azərbaycana görə tam fərqlidir. Türkiyə Ermənistanı təcavüzkar kimi tanıyır və Azərbaycanın işğal olunmuş torpaqları azad olunmayana qədər heç vaxt Ermənistanla əlaqələrini bərpa etməyəcəyini dəfələrlə bəyan edib.

1994-cü il fevral ayının 8-11-də Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev Türkiyə Respublikasına dövlət başçısı kimi ilk dəfə rəsmi səfər etdi. Səfər zamanı iki ölkə arasında 16 sənəd imzalandı. Bir çox görüşlər keçirildi. Sonralar ölkə Prezidenti dəfələrlə Türkiyədə rəsmi səfərlərdə olmuş və bu zaman qəbul olunmuş çoxsaylı sənədlər daim Azərbaycan-Türkiyə dostluq və qardaşlıq əlaqələrinin genişlənməsinə xidmət etmişdir.

Heydər Əliyev türk dünyasının problemlərinə də daim diqqət yetirmişdir. İstanbulda İqtisadi Əməkdaşlıq Təşkilatının II forumunun iştirakçılarına 5 iyul 1993-cü il tarixli müraciətində o özünün türklük düşüncəsinin əsas aspektlərini açıqlamışdır: ayrı-ayrı türk dövlətlərinin müstəqilliyinin müdafiə olunması, türk dünyasının birliyinə çalışılması və həmin birliyin dünyada harmoniya yaradılmasına xidmət etməsi.

Türk dünyasına məxsus, indi müstəqil dövlətlərə çevrilən sabiq sovet respublikaları ilə qonşuluq, dostluq və qardaşlıq münasibətlərinin bərpası və inkişaf etdirilməsi məhz yuxarıdakı prinsiplərdən irəli gəlirdi. Azərbaycan indiyə qədər türk dövlətləri başçılarının bütün sammitlərində iştirak etmiş, bu ittifaqı möhkəmləndirmək üçün əlindən gələni əsirgəməmişdir. 2000-ci ildə Azərbaycanda keçirilən növbəti sammit bütün türk dünyası və türk dövlətləri ailəsi üçün çox mühüm olan və gələcək əməkdaşlıq üçün proqram xarakteri daşıyan məşhur “Bakı bəyannaməsi”nin elan edilməsi ilə başa çatmışdır.

Azərbaycanla ən uzun sərhədlərə malik olan İranla mehriban qonşuluq münasibətlərinin ölkəmiz üçün zəruriliyini, İranla Azərbaycan arasında çoxsaylı mədəni, tarixi və etnik tellərin olmasını gözəl anlayan Prezident bu sahədə də uzaqgörən, düşünülmüş, tarazlaşdırılmış siyasətə üstünlük verdi. 1992-1993-cü illərdə əvvəlki iqtidarın bu istiqamətdə yol verdiyi səhvlər nəticəsində yaranan problemləri yada salsaq, Azərbaycan-İran münasibətlərinin xüsusi əhəmiyyət kəsb etməsi aydınlaşar. İran İslam Respublikası rəsmi olaraq 12 mart 1992-ci ildə Azərbaycanın müstəqilliyini tanıdı. Azərbaycan-İran münasibətləri Heydər Əliyev hakimiyyətə gəldikdən sonra yüksələn xətlə inkişaf etməyə başlamışdır. Azərbaycan Prezidenti İranla dostluq, qardaşlıq və əməkdaşlıq prinsiplərinə əsaslanan xarici siyasət konsepsiyamızı müəyyənləşdirdi.

Ölkələrimiz arasındakı əlaqələr günü-gündən genişlənməkdə, inkişaf etməkdədir. Elə regionda, ölkəmizdə və İranda baş verən dəyişikliklər də bu prosesə yaxından yardım edir. İran ilə münasibətlərin formalaşdırılmasında Azərbaycan Respublikasının İran İslam Respublikasının şimal əraziləri ilə iqtisadi-coğrafi oxşarlığı, respublikamızda yaşayan azərbay-

canlıların İranda yaşayan azərbaycanlılarla etnik, dini, tarixi, mədəni eyniliyi kimi amillər nəzərə alınmağa başlandı. Müxtəlif xarakterli əlaqələr daha da genişləndi. Sərhədlər açıldı, gediş-gəliş, ticari əlaqələr çoxaldı, müxtəlif müqavilələr bağlandı.

Heydər Əliyevin düzgün siyasəti nəticəsində ölkəmiz Xəzər dənizinin statusu ilə əlaqədar müstəqil siyasət apararaq öz sektoruna aid neft yataqlarını işlətdi, eyni zamanda Azərbaycanın demokratik, hüquqi, dünyəvi dövlət kimi inkişaf edərək İranda yaşayan soydaşlarımızın ictimai şüurunun formalaşmasına təsirinin güclənməsinə nail oldu.

Prezident Heydər Əliyev İranla əlaqələrimizin hərtərəfli, qarşılıqlı faydalı inkişaf etdirilməsini ölkəmizin xarici siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirərək, qonşu dövləti rəsmi səfərlə ziyarət etdi, həyatımızın bir çox sahələrinə aid müqavilələrin bağlanmasına nail oldu.

Ərəb dünyasının nəhəngləri olan Səudiyyə Ərəbistanı, Misir Ərəb Respublikası, müsəlman dünyasının liderləri olan İndoneziya, Pakistan, Malayziya və başqa dövlətlərlə də qardaşlıq və dostluq əlaqələri qurmaq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindən biri kimi Prezident Heydər Əliyev tərəfindən diqqətə alındı. Əlbəttə, regiondakı siyasi durum bu siyasətin taktika və strategiyasını qurmaqda mühüm və başlıca amillərdən biri oldu.

Məlumdur ki, Yaxın və Orta Şərq regionundakı bütün ictimai-siyasi ab-havanı müəyyənləşdirən əsas məsələ – yarım əsr davam edən İsrail – ərəb qarşıdurmasıdır. Ərəb dünyası və İsrail arasındakı gərginliyin hələ də qalması, Fələstin probleminin bu günədək həll olunmaması hər iki tərəfə münasibətdə Azərbaycan Respublikasının həyati maraqlarına cavab verən bir siyasətin aparılmasının vacibliyini göstərir. Bu siyasi xətt konstruktiv olmalı, birtərəfli xarakter daşımalıdır. Bir tərəfdən İsraillə əlaqələrimizdə ölkəmizdə böyük bir yəhudi icmasının yaşayaraq fəaliyyət göstərdiyini, iqtisadi, mədəni, elmi və hərbi sahələrdə bu ölkə ilə əməkdaşlıq etməyin bizim strateji maraqlarımıza cavab verdiyini nəzərə almalı, digər tərəfdən güclü potensiala malik olan ərəb dünyası ilə islam aləminə məxsus olmamız, ənənəvi iqtisadi və mədəni əlaqələrimizin mövcudluğu yaddan çıxarılmamalıdır.

Azərbaycan Prezidenti Heydər Əliyevin apardığı xarici siyasət xətti bütün bunları incəlikləri ilə nəzərə aldı. Düzgün ölçülmüş və tarazlaşdırılmış siyasi xəttin nəticəsidir ki, ölkəmiz həm İKT çərçivəsində böyük müvəffəqiyyətlər qazanmış, həm də İsraillə sabit və konstruktiv əməkdaşlıq edir.

Bu gün Azərbaycanın əksər ərəb dövlətləri ilə (Səudiyyə Ərəbistanı, Misir, Birləşmiş Ərəb Əmirlikləri, Küveyt, Suriya və s.) gözəl dostluq və əməkdaşlıq münasibətləri var. Ölkəmizdə bir sıra ərəb ölkələrinin səfirlikləri fəaliyyət göstərir. Azərbaycanın Səudiyyə Ərəbistanı Krallığı, Misir və BƏƏ-də səfirlikləri var. Yaxın gələcəkdə Küveyt və Suriya kimi ərəb ölkələrində də səfirliklərimizin açılması nəzərdə tutulub. 1994-cü ildə Heydər Əliyev Səudiyyə Ərəbistanı Krallığında səfərdə olmuş, “Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında iqtisadiyyat, ticarət, investisiya, texnika, mədəniyyət, gənclər və idman sahələrində əməkdaşlığa dair Baş Saziş” imzalanmışdır.

Azərbaycan müstəqillik qazandıqdan sonra İslam Konfransı Təşkilatına üzv oldu. Heydər Əliyev müsəlman ölkələri arasında əməkdaşlığı möhkəmlətməyi, sülh şəraitini təmin etməyi, mənəvi dəyərlərimizi, mədəniyyətimizi, ənənələrimizi qoruyub saxlamaq və inkişaf etdirməyi əldə rəhbər tutan bu beynəlxalq təşkilatla yaxından əməkdaşlıq etmək, onun vasitəsi ilə müsəlman dünyasının haqq işimizdə bizə dəstəyinə nail olmaq prinsiplərini xarici siyasətimizin vacib istiqaməti hesab edərək bu təşkilatın bütün imkanlarından səmərəli istifadə etmək zərurətini vurğuladı. Azərbaycan 1991-ci ildən İKT-nin üzvü idi və bu təşkilatla əməkdaşlıq sahəsində müəyyən işlər görülmüşdür. Lakin bunlar kifayət deyildi. Heydər Əliyevin 1993-cü ildə yenidən hakimiyyətlə gəlişindən sonra bu istiqamətdə görülən işlər sanki yeni nəfəs aldı.

İKT xarici işlər nazirlərinin 1993-cü ildə Karaçidə keçirilmiş XXI, 1994-cü ildə Kasablankada keçirilmiş XXII, 1995-ci ildə Konakridə keçirilmiş XXIII konfransları Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münaqişə haqqında qətnamələr qəbul etmişdir. İKT xarici işlər nazirlərinin 1996-cı ildə Cakartada keçirilmiş XXIV konfransında müvafiq qətnamənin adı dəyişdirilərək, “Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında” adlandırılmışdır.

Konfrans ölkəmizlə bağlı daha bir sənəd – “Ermənistan Respublikasının təcavüzü nəticəsində Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində islam tarixi və mədəniyyət abidələrinin məhv edilməsi və dağıdılması haqqında” qətnaməni qəbul etmişdir.

Respublikamızla bağlı bütün qətnamə layihələrinin təqdim etdiyimiz şəkildə, mübahisəsiz, heç bir düzəliş və təftişə məruz qalmadan qəbul olunması bir daha təsdiq edir ki, islam aləmi problemlərimizlə yaxından tanışdır və bizi dönmədən dəstəkləyir. Bu da öz növbəsində düzgün qurulmuş xarici siyasətimizin nəticəsidir. Prezident Heydər Əliyevin İKT dövlət və hökumət başçılarının 1994-cü ildə Kasablankada keçirilmiş VII və 1997-ci ildə Tehranda keçirilmiş VIII zirvə konfranslarında şəxsi iştirakı, oradakı nitqi və keçirdiyi görüşləri islam aləmində geniş reaksiyaya səbəb olmuşdur. İKT-nin sabiq Baş katibi İzəddin İraqi dövlət başçılarının Tehran zirvə konfransı günlərində Azərbaycan Prezidenti ilə keçirdiyi görüşdən sonra jurnalistin sualına verdiyi aşağıdakı cavab fikrimizə əyani sübutdur: “Mən fəxr edirəm ki, Azərbaycan Prezidenti Heydər Əliyevlə görüşdüm, onun fikirlərini dinlədim. Fəxr edirəm ki, o, təşkilatımızın işinə yüksək qiymət verdi. Biz təşkilatımızın Azərbaycanla əlaqələrinin daha da sıxlaşması üçün əlimizdən gələni edəcəyik... Mən cənab Prezidenti əmin etdim ki, İKT həmişə Azərbaycanın tərəfində olmuş və bundan sonra da olacaqdır. Mən cənab Prezidenti həmçinin əmin etdim ki, Azərbaycan torpaqlarının işğaldan azad edilməsi bizim dəyişməz mövqeyimizdir. Mən belə hesab edirəm ki, Azərbaycanın İKT ilə sıx əməkdaşlıq etməsi Prezident Heydər Əliyevin böyük zəkaya, ağıla malik olduğuna dəlalət edir”.

Məlumdur ki, xarici siyasət daxili siyasətdən doğur və onun məntiqi nəticəsidir. Prezident Heydər Əliyevin Şərq siyasətini qısaca da olsa nəzərdən keçirəndə, onun etdiyi səfərləri, reallaşdırdığı görüşləri, verdiyi müsahibələri, bağladığı müqavilələri, müəyyənləş-

dirdiyi istiqamət və prinsipləri təhlil edəndə bir daha bu qənaətə gəlirik ki, onun apardığı xarici siyasət də daxili siyasəti kimi daim bir mərama, bir məqsədə, bir amala xidmət edib – müstəqil Azərbaycanı yaşatmaq, onu hərtərəfli inkişaf etdirmək, problemlərimizi həll etmək, xalqımızın dünya xalqları birliyində özünəlayiq yer tutmasına nail olmaq.

**National Leader Heydar Aliyev's Eastern Policy**

**Summary**

**Keywords:** East, peace, country, Nagorno-Karabakh, result

The establishment of new international relations in the independent Republic of Azerbaijan is connected with the name of Heydar Aliyev just as all other areas of state building are. First of all, he began to work in the direction of eliminating the gross mistakes made by the APFP government in the field of foreign policy and the very tense international political situation that had been formed around Azerbaijan as a result of those mistakes and began to implement a policy aimed at reconciling the strategic interests of the country with the interests of the regional states and those of states with special influence in the Caucasus. When considering President Heydar Aliyev's Eastern policy, even briefly, when we analyze his visits, meetings, interviews, contracts, directions and principles, we come to the conclusion that his foreign policy, like his domestic policy, had a single goal to serve - to keep independent Azerbaijan alive, to develop it comprehensively, to its problems, to make sure that our nation occupies a worthy place in the community of world nations.

**Elman Quliyev**
ADPU-nun professoru, Türkoloji mərkəzin
Türk ədəbiyyatı bölməsinin müdiri
elman.guliyev1958@gmail.com

# HEYDƏR ƏLİYEV FENOMENİ: DAHİ ŞƏXSİYYƏTİN DAHİ ŞƏXSİYYƏTƏ DƏYƏRİ KONTEKSTİNDƏ

**Açar sözlər:** Heydər Əliyev, Mustafa Kamal Atatürk, dahi, türk

Türk dünyasının iki nəhəng şəxsiyyəti və nəhəng siyasi liderləri olan Qazi Mustafa Kamal Atatürk və Ulu öndər Heydər Əliyev haqqında hər zaman düşünərkən və ya barələrində yazı yazmağa başlayarkən XI əsr türk mənəviyyatımızın qızıl kitabı "Divani lüğət-it türk"də yer alan aşağıdakı sözlər bir anlığa düşüncələrimə hakim kəsilir: "Tanrının inayəti ilə günəş türk bürclərində doğdu və göylərin bütün dairələri onların mülkləri üzərinə döndü, Tanrı onlara türk adını verdi və onları yer üzünə hakim qıldı. Dövrümüzün xaqanlarını onlardan çıxardı, dünya millətlərinin idarə cilovunu onların əlinə tapşırdı, onları hamıdan üstün elədi, onları haqq üzrə qüvvətləndirdi" (Mahmud Kaşğarlı, "Divani lüğət-it türk", I cild, Bakı, 2006, səh. 54 ). Bu sözlərin hikməti kimi zəngin və qədim tariximizin şan-şöhrəti olan Mete, Atilla, Alp Ər Tonqa, Oğuz Kağan, Əmir Teymur, Şah İsmayıl Xətai, Sultan Süleyman, Ərtoğrul, Osman Qazi, Qanuni Sultan Süleyman, Sultan Əbdülhəmid və s. türk siyasi liderlərinin, Mahmud Kaşğarlının sözləri ilə desək, "dünya millətlərinin idarə cilovlarını əllərində saxlamaq və hamıdan üstün olmaq" bacarıqlarının kökündə bir Tanrı inayətinin dayandığı təsdiqini tapır. Qədim türk inanclarından birində deyildiyi kimi: "Tanrı istəməsə, kimsə hökmdar ola bilməz".

"Türk dünyasının əvəzsiz şəxsiyyəti, böyük öndər, dahi Mustafa Kamal Atatürk" (Heydər Əliyev) haqqında düşüncələrdə də bu hikmətdən doğan məntiqin aparıcılığı böyük önəm təşkil edir. Azərbaycanın xalq şairi Zəlimxan Yaqubun söylədiyi kimi:

Tanrı qüdrətiydi, Allahdı, nəydi,
Əyilməz başları önündə əydi.

Mustafa Kamal Atatürk geniş anlamda Tanrının türk dünyasına bəxş etdiyi mücadiləçi, xilaskar, dövlət qurucusu və s. olaraq BÖYÜK TÜRK idi. Azərbaycanın xalq şairi Bəxtiyar Vahabzadənin poeziyasında Atatürk şəxsiyyətinin xilaskarlıq və liderlik missiyası belə ifadə olunur:

Zaman ötdükcə nədən səcdə qılır hər kəs ona
Bir böyük millətə hər gün ata doğmuş o ana
Atatürkün sinəsi, yurdun alınmaz qalası,
Atatürk millətinin həm atası, həm balası.

Atatürk bir lider olaraq elə bir əbədilik qazanmışdır ki, zaman-zaman dünyanın müxtəlif yerlərində onun şəxsiyyəti araşdırma obyekti olmuş, haqqında möhtəşəm filmlər çəkilmiş, sənətin və ədəbiyyatın baş obrazına çevrilmişdir.

Təbii olaraq Atatürk fenomeni siyasi liderlərin də daim maraq dairəsində olmuş, dünyanın bir çox nüfuzlu siyasi xadimləri Mustafa Kamal Atatürkün şəxsiyyətini, siyasi və milli-tarixi xidmətlərini yüksək dəyərləndirmişlər. Bu sırada müasir Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyevin daha böyük, eyni zamanda fərqli fikirləri xüsusi əhəmiyyət kəsb edir. Ulu öndər Heydər Əliyevin dahi şəxsiyyət Mustafa Kamal Atatürk haqqında söylədiyi fikirlər **bir böyük türkün digər bir böyük türk haqqında**, o cümlədən bir dövlətin dövlət təhlükəsizliyini təmin edən, ona əbədi müstəqillik bəxş edən siyasi liderin eyni taleyi yaşamış və eyni missiyanı yerinə yetirmiş başqa bir siyasi lider barəsində analitik düşüncə əsaslı ictimai-siyasi görüşlər sistemini təşkil edir. Heydər Əliyevin Mustafa Kamal Atatürklə bağlı fikirlərində hərtərəfli, eyni zamanda kompleks yanaşmanı izləmək mümkündür. Çünki vətənini və xalqını sevən, ona min bir tellə bağlı olan bir vətəndaş, bir türk və bir uzaqgörən siyasi lider kimi Heydər Əliyevin Türkiyəyə və onun qurucusu Mustafa Kamal Atatürkə sevgiləri səbəbsiz deyildi. 6 may 1997-ci il tarixində Ankarada bir jurnalistin – "Atatürkün adını tez-tez çəkməyiniz nə ilə əlaqədardır?" – sualına Heydər Əliyevin verdiyi cavabda bu sevginin səbəblərini aydın şəkildə görmək mümkündür:

"Mən Türkiyə haqqında, Türkiyə Cümhuriyyəti, onun keçdiyi yol barədə sadəcə olaraq öz fikirlərimi deyirəm. Mən dostam, qardaşam, Mustafa Kamal Atatürk haqqında dediyim sözlər yetərlidir. Əgər istəyirsiniz yenə də deyim".

Ulu öndər Heydər Əliyev "bir millət iki dövlət" prinsipini əsas götürərək Türkiyə ilə Azərbaycan arasında birliyin, inkişafın, siyasi maraqların təməlində doğmalıq və qardaşlıq münasibətlərinin dayandığına xüsusi önəm vermişdir. Heydər Əliyev Azərbaycanla Türkiyə arasındakı qardaşlığın təməlində milli-tarixi bağlarla yanaşı, Atatürk ideyalarının da mühüm rol oynadığını xüsusi qeyd etmişdir. Heydər Əliyev bir çox çıxış və müsahibələrində Mustafa Kamal Atatürkün "Azərbaycanın kədəri kədərimiz, sevinci sevincimizdir" sözlərini dilə gətirməklə Atatürk ideyalarında mövcud olan prinsipial Azərbaycan sevgisindən məmnunluq duymuş və Azərbaycanın Türkiyəyə münasibətində eyni mövqedə olduğunu xüsusi şəkildə qeyd etmişdir. Ulu öndər Heydər Əliyevin 8 may 1997-ci il tarixində "Çırağan" və "Suis" hotellərində Türkiyənin TRT, "Samanyolu", NTV televiziya kanallarının rəhbəri və Türkiyənin iş adamları ilə görüşlərindəki çıxışlarında həm Atatürkə olan rəğbətin şahidi olur, həm də Atatürkün Azərbaycanla bağlı atdığı addımların xarakter və əhəmiyyəti açıqlanır: "Türkiyə də, biz də böyük öndər Mustafa Kamal Atatürkün sözlərini tez-tez xatırlayırıq. O vaxtilə demişdir ki, Azərbaycanın dərdi bizim dərdimizdir, Azərbaycanın sevinci bizim sevincimizdir. Biz də deyirik ki, Türkiyənin dərdi bizim dərdimizdir, Türkiyənin sevinci bizim sevincimizdir. Mustafa Kamal Atatürk nə qədər müdrik adamdır. Bu sözləri hələ 30-cu illərdə demişdir. Onda hələ Ermənistan Azərbaycan arasında belə

savaş, münaqişə yox idi, qan tökülmürdü. Ancaq o – böyük Mustafa Kamal Atatürk 1918-1920-ci illərdə həmin o erməni müəlliflərinin, daşnaklarının azərbaycanlıların başına nə bəlalar gətirdiklərini yaxşı bilirdi. Məhz Mustafa Kamal Atatürkün və onun kimi insanların iradəsi nəticəsində 1918-1920-ci illərdə Türkiyənin Qafqaz ordusu Azərbaycana gəldi, Naxçıvanda, Qarabağda, Gəncədə, Bakıda azərbaycanlıları erməni qırğınından xilas etdi. Biz bunları unutmuruq". Mustafa Kamal Atatürkün Azərbaycanla bağlı atdığı addımları sadalayarkən Heydər Əliyevin tarixə səyahəti məqsədli səciyyə daşıyır və bu yanaşma bir neçə baxımdan əhəmiyyət kəsb edir. Bu yanaşmada Atatürkün Azərbaycan sevgisi, türkün türkə qardaşlıq münasibəti, erməni daşnaklarının Azərbaycanın müxtəlif bölgələrində törətdikləri soyqırımı hadisələri diqqətə çatdırılır və ən başlıcası isə Azərbaycan-Türkiyə qardaşlığının əbədiliyinə inam nümayiş etdirilir.

Heydər Əliyev Atatürkün Türkiyə üçün xidmətlərindən danışarkən onun dövlət quruculuğu fəaliyyətinə xüsusi önəm verir. O, Atatürkün müstəqil dövlət quruculuğu yolunda atdığı addımları alqışlayır, bugünkü Türkiyənin uğurlarının təməlində Atatürk ideyalarının dayandığını fəxr ilə diqqətə çatdırır. Heydər Əliyev Atatürkün dövlət yaratmaq yox, həm də dövləti yaşatmaq və inkişaf etdirmək yollarındakı xidmətlərini də təqdir etmiş, Türkiyənin milli-mənəvi dəyərlərə bağlı olmasında və bəşəri ideyalara inteqrasiyasında Atatürk yolunun əhəmiyyətinə böyük dəyər vermişdir. Heydər Əliyevin 30 oktyabr 1998-ci ildə İstanbulda "Mərmərə" qrupunun Strateji Araşdırmalar Vəqfinin keçirdiyi mərasimdəki nitqində Atatürkün Türkiyənin dövlətçilik tarixində tutduğu mövqe belə dəyərləndirilir: "Mustafa Kamal Atatürk Cümhuriyyəti yaratdı, amma eyni zamanda da onu qurdu, yaşatdı. Şübhəsiz ki, hər bir yeni işi yaratmaq asan deyil. Bu böyük iradə, ağıl, qəhrəmanlıq tələb edir. Ancaq qurulan hər bir şey yaşaya bilmir, Mustafa Kamal Atatürkün xidmətləri bir də ondan ibarətdir ki, o, Türkiyə Cümhuriyyətinin nəinki əsasını qoydu, həm də onu qurdu, onun bütün təsisatlarını yaratdı, onu yaşatdı, böyük dövlət etdi, bugünkü nəsillərə, gənclərə əmanət edərək özünü əbədiyyətə qovuşdurdu". Diqqət etdikdə görürük ki, Heydər Əliyev Atatürkün dövlət quruculuğu fəaliyyətindən danışarkən dövlətçilik üçün vacib olan bütün detallara toxunmuş, Atatürkün qurucu rəhbər obrazını göz önünə gətirməklə Atatürk yolunun uğurlarından bəhs açmış, bugünkü nəsli Atatürkə hədsiz hörmət və sədaqət ruhunda tərbiyələndirməyə çağırış etmişdir: "Böyük öndər Mustafa Kamal Atatürkün xidmətləri bu gün hər kəsin gözünün önünə gəlir. O, hər kəsin ürəyindədir... Biz Azərbaycanda çox sevinirik və fəxr edirik ki, Türkiyə Cümhuriyyəti ardıcılı olaraq, davamlı, sürətlə, inamla Mustafa Kamal Atatürkün yolu ilə gedir".

Heydər Əliyev Atatürk şəxsiyyətinə müasir Türkiyənin və türk xalqının bir zamanlar yaşamış olduğu keşməkeşli tarixi olaylar prosesində dəyər verir, bu məqsədlə onun misilsiz lider və böyük rəhbər keyfiyyətləri üzərində xüsusi dayanır. Eyni taleyi yaşayan insan kimi Heydər Əliyevin Atatürkə bu kontekstdə münasibətində Atatürk ucalığının mahiyyəti və təfərrüatları açıqlanır, tarixi simvola çevrilən Atatürk şəxsiyyətinə olan sevgi və rəğbətin səbəblərinə cavab tapılır. Qeyd etməliyik ki, Heydər Əliyevin natiqlik məharəti, o cümlədən

təfərrüatları üzə çıxarıb mahiyyət müstəvisində dəyərləndirmək səriştəsi Atatürklə bağlı hər hansı analitik fikrin ortaya çıxmasını təmin edir. Məsələn, Atatürkün "Yurdda sülh, cahanda sülh, bölgədə sülh" prinsiplərini Azərbaycanın Qafqaz siyasəti üçün örnək hesab edən Heydər Əliyev müəyyən məqamlarda Atatürk yolunun Azərbaycan üçün də əhəmiyyət kəsb etdiyini açıq etiraf etməkdən çəkinmir.

Ulu öndərimiz Heydər Əliyevin 16 aprel 1999-cu il tarixində Türkiyə prezidenti Süleyman Dəmirəl ilə görüşündə söylədiyi nitq bu baxımdan xarakterikdir: "Azərbaycan xarici siyasətində və ilk növbədə Qafqazda apardığı strateji kursunda böyük Atatürkün "Yurdda sülh, cahanda sülh" prinsipləri gerçəkləşdirilərək daim həyata keçirilir".

Heydər Əliyevin Ankarada Atatürk məqbərəsini ziyarət etdiyi zamanlarda, o cümlədən 1997-ci ildə "Nərgiz tv" televiziyasının təsis etdiyi "Dünyada ilin adamı" və 1999-cu ildə Atatürk Beynəlxalq Sülh Mükafatı kimi ali təltiflərin təqdimində etdiyi çıxış və kütləvi informasiya vasitələrinə verdiyi müsahibələrində Atatürkə olan sonsuz məhəbbətini bir daha diqqətə çatdırmış, aldığı mükafatın Atatürkün adını daşıdığı üçün indiyə qədər aldığı mükafatlardan üstün hesab etdiyini bəyan etmiş, Atatürk ideyalarının təkcə Türkiyə üçün deyil, həm də Azərbaycan üçün əhəmiyyətli olduğunu vurğulamışdır: "Böyük öndər Mustafa Kamal Atatürkün adını daşıyan mükafatı almaq mənim üçün böyük şərəfdir. Hesab edirəm bu mükafat mənim indiyə qədər aldığım mükafatlardan ən alisidir". Heydər Əliyevin Atatürk məqbərəsini ziyarət etdiyi zaman Azərbaycandan gətirdiyi torpağı Atatürk məzarının yanına qoymasını bir neçə baxımdan əlamətdar hesab etmək olar. Bu bir tərəfdən eyni millət anlamında Azərbaycan-Türkiyə qardaşlığını, digər tərəfdən Azərbaycan xalqının Atatürkə olan sevgisini, başqa bir tərəfdən isə Heydər Əliyevin sözləri ilə desək "Azərbaycanın Mustafa Kamal Atatürkü özünün öndəri, özünün qəhrəmanı, özünün müdrik şəxsiyyəti hesab etməsini" əks etdirir.

Heydər Əliyev Azərbaycanda Atatürkün adını daşıyan küçə və meydanlardan danışarkən onları iki baxımdan xarakterizə etmişdir. Heydər Əliyev Bakıda, Gəncədə, Naxçıvanda, Sumqayıtda Atatürkün şərəfinə adlandırılan küçə və prospektləri Azərbaycanda Atatürkün adının əbədiləşdirilməsi ilə yanaşı, geniş mənada Türkiyənin nümayişi baxımından da əhəmiyyətli hesab edir.

Heydər Əliyev Türkiyə və türk dünyası qarşısında xidmətlərinə görə Mustafa Kamal Atatürkü xalqı üçün, torpağı üçün müqəddəslər müqəddəsi hesab etmiş, onun ideyalarına, qoyub getdiyi dəyərli irsinə böyük hörmət və ehtiramını ifadə etmişdir. Heydər Əliyev Atatürkün demokratik dövlət quruculuğundakı xidmətlərini, xarici qüvvələrin təsiri ilə Türkiyəni parçalanmaqdan qurtarmasını, Türkiyəni yeni inkişaf yoluna çıxararaq dünyanın aparıcı dövlətləri sırasında yer almasına nail olmasını və s. təkcə Türkiyə xalqının və Türkiyə dövlətinin deyil, həm də türk dünyasının xoşbəxtliyi hesab edir, bir Azərbaycan türkü və bir Azərbaycan dövlətinin prezidenti olaraq bununla fəxr etdiyini açıq şəkildə bəyan edir: "Biz hamımız bununla fəxr edirik ki, belə bir Türkiyə var, Mustafa Kamal Atatürk Cümhuriyyəti var".

Hesab edirik ki, ümummilli Heydər Əliyevin bu müdrik kəlamları bu gün olduğu kimi gələcəkdə də aktuallığını itirməyəcək və hər bir azərbaycanlının dilində əhəmiyyətli ifadə kimi səslənəcəkdir: “Nə yaxşı ki, Türkiyə var, nə yaxşı ki, Mustafa Kamal Atatürk Cümhuriyyəti var...”

## The Heydar Aliyev Phenomenon: Genius Person in the Eyes of another Genius
## Summary

**Keywords:** Heydar Aliyev, Mustafa Kemal Ataturk, genius, Turkish

The great leader Heydar Aliyev's thoughts about Mustafa Kemal Ataturk form a system of socio-political meetings of one great Turk about another great Turk. Taking the principle of "one nation, two states" as the basis, Heydar Aliyev gave special importance to the fact that relations of kinship and brotherhood are the basis of unity, development, and political interests between Turkey and Azerbaijan.Heydar Aliyev specifically noted that the ideas of Ataturk played an important role in the foundation of the brotherhood between Azerbaijan and Turkey, along with national-historical ties. It is possible to observe a complex approach in Heydar Aliyev's ideas about Ataturk.

**Məryəm Seyidbəyli**
AMEA akad. Z. M. Bünyadov adına Şərqşünaslıq İnstitutu,
Şərq ölkələrinin tarixşünaslığı şöbəsinin müdiri,
t.e.d., professor
mseyidbeyli@mail.ru

# MÜSTƏQİL AZƏRBAYCAN DİASPORUNUN TƏŞKİLATLANMASI PROSESİNDƏ HEYDƏR ƏLİYEVİN ROLU

**Açar sözlər:** Heydər Əliyev, Azərbaycan diasporu, mühacirət tarixi, tarixşünaslıq, milli kadr siyasəti

**Diaspor konsepsiyasının tarixi.** Azərbaycan diasporunun tarixi kifayət qədər uzun bir zaman kəsiyini əhatə edir. Diasporun təşəkkülü, formalaşması və inkişaf tarixi bilavasitə xalqın mühacirət tarixi ilə bağlıdır. Mühacirətin tarixi də uzaq keçmişdən başlamışdır. Qədim imperiyaların, sonra isə Sasanilərin, Ərəb xilafətinin və digər dövlətlərin Azərbaycanda işğalçı siyasəti mühacirətə səbəb olmuşdur. Təkcə monqolların yürüşləri minlərlə ailənin zorla Orta Asiyaya köçürülməsi ilə nəticələnmişdir. Bu da həmin yerlərdə Azərbaycan mənşəli etnik-milli icmaların yaranmasına gətirib çıxarmışdır.

Arxiv sənədlərindən əldə etdiyimiz məlumatlara görə, XIX-XX əsrlər Azərbaycan ərazisində miqrasiya prosesləri daha geniş və kütləvi şəkil almışdır. XIX əsrin I yarısında Rusiya ilə Qacarlar dövləti arasında Gülüstan (12 oktyabr 1813-cü il) və Türkmənçay (10 fevral 1828-ci il) müqavilələrinin imzalanmasından sonra Azərbaycanın çar Rusiyası tərəfindən işğalı ilə razılaşmayan on minlərlə azərbaycanlı xarici ölkələrə, əsasən də Osmanlı dövlətinə üz tutdu. Çarizmin həyata keçirdiyi müstəmləkəçilik siyasətinin əsasında işğal edilmiş ərazilərin ruslaşdırılması və xristianlaşdırılması, həmin ərazilərdə özünün etnik-siyasi dayaqlarının yaradılması məqsədi dururdu.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə və İkinci Dünya müharibəsinə qədər olan dövrlərdə də azərbaycanlılar miqrasiya prosesinə qoşularaq xarici ölkələrə getmiş və eyni zamanda deportasiyaya məruz qalmışdır [1, 20].

Göründüyü kimi, Azərbaycan zaman-zaman viranedici hücumlara məruz qalmış və bunun nəticəsində azərbaycanlılar özlərinin tarixi torpaqlarından bütün dünyaya yayılmışdır. Tarixin faciəli gedişatı nəticəsində illərdən bəri parçalanmış, bütün dünyaya səpələnmiş azərbaycanlılarla əlaqələrin qurulması və möhkəmləndirilməsi işi ilə sistemli və müntəzəm məşğul olan ictimai təşkilatın yaradılmasına böyük ehtiyac yaranmışdı. Lakın başqa ölkələrdə məskunlaşmış həmvətənlərimizlə əlaqə yaratmaq imkanına malik deyildik. Çünki keçmiş sovet dövlətinin qadağaları buna imkan vermirdi. Sovet sisteminin müəyyən qadağalarına baxmayaraq, Azərbaycan xalqının böyük təəssübkeşi olan ulu öndər Heydər Əliyev həmvətənlərimizlə əlaqə saxlamaq üçün əlindən gələni əsirgəməmişdir. Məhz belə çətin və mürəkkəb dövrdə Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan KP MK bürosunun 1973-cü il

28 avqust tarixli iclasının qərarı ilə Azərbaycan Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti nəzdində xaricdə yaşayan həmvətənlərlə əlaqə şöbəsi yaradıldı. Heydər Əliyev tərəfindən təklif edilən və qəbul olunan qərarda deyilirdi: "1. Azərbaycan Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətinin nəzdində tərkibi üç nəfərdən ibarət olan xaricdəki həmvətənlərlə əlaqə şöbəsi yaradılsın. 2. Azərbaycan SSR Nazirlər Sovetinə tapşırılsın ki, şöbənin yaradılması və saxlanılması ilə bağlı məsələyə baxsın və həll etsin". Bundan sonra xaricdə yaşayan həmvətənlərimizlə əlaqə qurmağa imkan və şərait yarandı. Şöbənin işini daha da gücləndirmək, xaricdə yaşayan həmvətənlərimizin sayı, onların fəaliyyəti haqqında ətraflı məlumat əldə etmək, soydaşlarımızla sıx əlaqə yaratmaq məqsədilə Heydər Əliyev "Vətən" cəmiyyətinin yaradılması üçün müvafiq strukturlara tapşırıqlar verdi. Ulu öndər bu tapşırıqları verənə qədər belə bir cəmiyyətin yaradılması ilə əlaqədar artıq Moskva ilə danışıqlar aparmışdı. Kommunist ideologiyasının hökmranlıq etdiyi bir vaxtda "Vətən" cəmiyyətinin yaradılması bu təşəbbüsdə olanlara "millətçi" damğası vurulması ilə nəticələnə bilərdi. Buna baxmayaraq, Heydər Əliyevin uzaqgörənliyi və müdrikliyi bu işi uğurla nəticələndirdi [2, 7].

**Heydər Əliyevin diaspor siyasəti.** Tarixi təcrübə göstərir ki, diaspor siyasətinin düzgün inkişafı dövlətlərarası münasibətlərin inkişafına müsbət təsir göstərir. Düzgün olmayan strategiya isə öz növbəsində milli, dini ayrı-seçkiliyin yaranmasına gətirib çıxara bilər və son nəticədə etnik partlayış faktoruna çevrilə bilər. Deməli, dövlətin düşünülmüş diaspor siyasəti öz xalqının milli təhlükəsizliyinə, dünyanın müxtəlif yerlərində yaşayan soydaşlarının hüquq və azadlıqlarına təminat verir. Diasporun təşkilatlanması bir tərəfdən etnik birliyin varlığını, ənənəvi formalarını reallaşdırır, digər tərəfdən isə diaspor mədəniyyətin ənənəvi subyektindən hüququn və siyasətin obyektinə çevrilməyə çalışaraq öz funksiyalarını genişləndirir və dərinləşdirir. Bir sözlə, xalqın siyasi həyatında diasporun rolu əhəmiyyətli dərəcədə önəmlidir. Ona görə ki, Bir xalqın dünyada güclü diaspora malik olması beynəlxalq qurumlarda həmin dövlətin xeyrinə qərarların qəbul edilməsində, digər dövlətlərin qeyd olunan dövlətə qarşı loyal münasibətlər sərgiləməsində mühüm əhəmiyyət kəsb edir. Yəni dövlət digər dövlətlərin daxilində müəyyən gücə sahib olur ki, bu da öz növbəsində, xarici siyasətdə öz köməyini göstərir. Bu baxımdan Azərbaycanın da xarici ölkələrdə mütəşəkkil və güclü diasporunun olması çox vacibdir. Güclü diasporun mövcudluğu doğma Vətənin güclənməsinə xidmət etməklə bərabər, həm də dünya azərbaycanlıları arasında geniş əlaqələrin yaradılmasına, onların milli və vətəndaş hüquqlarının qorunmasında səylərin birləşdirilməsinə zəmin yaradır [3, 284].

Məlumdur ki, Azərbaycanlıların xarici ölkələrə miqrasiyası prosesi və onların dünyanın müxtəlif ölkələrində icmalar şəklində məskunlaşması qədim tarixə malik olsa da, XX əsrin sonunda Azərbaycan diasporunun siyasi-mədəni fenomen kimi təşkilatlanması və formalaşması bilavasitə ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Müasir mərhələdə milli diasporun Azərbaycan Respublikası tərəfindən məqsədyönlü şəkildə dəstəklənməsi və ona göstərilən qayğı dövlət siyasətinin başlıca prinsipləri kimi məhz ulu öndər Heydər

Əliyev tərəfindən işlənib hazırlanmışdır. Hələ o, Azərbaycan Respublikası Naxçıvan MR-nın Ali Məclisinə sədrlik etdiyi illərdə dünyada yaşayan azərbaycanlıların təşkilatlanması və diaspor potensialının yaranması istiqamətində konkret işlər görmüşdür. Doğma vətəndən kənarda yaşayan soydaşlarımızın aqibəti daim onu düşündürmüş, onların birliyinin təmin edilməsində, təşkilatlanmasında, milli təməllər üzərində bir qüvvə kimi formalaşmasında mükəmməl diaspor qurumunun yaradılmasını tale yüklü bir məsələ kimi diqqət mərkəzində saxlamışdır. Diaspor fəaliyyətinin Azərbaycan xalqı üçün yüksək əhəmiyyət daşıdığını bilən H. Əliyev deyirdi: "Biz istəyirik ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar həmin bölgələrin vətəndaşı kimi, istədikləri kimi yaşasınlar. Ancaq heç vaxt öz milli köklərini, milli mənsubiyyətini itirməsinlər" [4, 2015].

Heydər Əliyevin qarşısında duran əsas vəzifələrdən biri xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması, onların ölkəmizin ümumi maraqlarının müdafiəsi işinə cəlb edilməsi olmuşdur. Dünya Azərbaycanlılarının Həmrəylik Gününün təsis edilməsi, Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi, "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Azərbaycan Respublikası Qanununun qəbulu, Xarici ölkələrdə yaşayan azərbaycanlılarla iş üzrə Dövlət Komitəsinin yaradılması bu sahədə dövlət siyasətinin nə qədər məqsədyönlü və genişmiqyaslı olduğuna bariz nümunədir.

Ümummilli Liderimiz 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə xarici ölkələrdə yaşayan soydaşlarımıza müraciətlərindən birində demişdir: "Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün dövlət bayramı kimi qeyd edilməsi xalqımızın milli azadlıq mübarizəsinin məntiqi nəticəsi olaraq artıq xoş ənənəyə çevrilmişdir. Qədim və zəngin tarixə malik olan Azərbaycan xalqının dirçəlişini, tərəqqisini və milli birliyini əks etdirən, onu müstəqil dövlətçilik uğrunda müqəddəs və məsuliyyətli mübarizəyə səfərbər edən həmrəylik günü hər bir azərbaycanlı üçün inam və ümid anıdır. Hal-hazırda dünyanın müxtəlif ölkələrində milyonlarla soydaşımız yaşayır, işləyir, fəaliyyət göstərir. Buna baxmayaraq, onların milli-mənəvi varlığını yaşadan yeganə bir dövlət var. Bu, müstəqil, suveren Azərbaycan Respublikasıdır. Dünya azərbaycanlılarının birliyi və həmrəyliyi ideyasının əsasını da məhz Azərbaycan dövlətçiliyinə, xalqımızın dilinə, dininə, milli-mənəvi varlığına və ümumbəşəri dəyərlərə hörmət, onların daim qorunmasına, yaşamasına qayğı təşkil edir" [5, 19].

Hamıya məlumdur ki, Azərbaycançılıq ideologiyasının formalaşması uzun tarixə malik olsa da, Azərbaycançılıq ideologiyası dövlət siyasətinin prioritet istiqaməti kimi ilk dəfə Ulu öndər Heydər Əliyev tərəfindən irəli sürülmüşdür. O çalışırdı ki, dünyada yaşayan bütün azərbaycanlıları azərbaycançılıq ideologiyası ətrafında birləşdirsin və bildirirdi ki, "Bizim hamımızın bir vətəni var. Bu, Azərbaycan dövlətidir. Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dilini, dinini, milli adət-ənənələrini unutmamalıdır. Onun qəlbi daim doğma Azərbaycanla, müstəqil Azərbaycanla bir vurmalıdır". Heydər Əliyev milli diasporun tarixi vətənə bağlılığına, bununla əlaqədar olan problemlərin həllinə mühüm əhəmiyyət vermişdir. Dünya azərbaycanlılarının siyasi və ideoloji birliyinin təminatı

baxımından Heydər Əliyevin 2002-ci il 5 iyul tarixli Fərmanı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi (hazırda Diasporla İş üzrə Dövlət Komitəsi adlanır) yaradılmış və nəticədə diaspor təşkilatlarının təşəkkülü və formalaşması prosesi daha geniş vüsət almışdır [6, 4,5]. 2002-ci il dekabrın 27-də "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Azərbaycan Respublikasının qanunu qəbul edilmişdir [7, 112-119]. Bu Qanun xaricdə yaşayan azərbaycanlılarla bağlı Azərbaycan Respublikasının dövlət siyasətinin məqsəd və prinsiplərini və bu siyasətin həyata keçirilməsi ilə əlaqədar dövlət orqanlarının fəaliyyətinin əsaslarını müəyyən etdi [8, 27.12.2002/№ 413-IIQ]. Şübhəsiz ki, ümummilli lider Heydər Əliyev bu tarixi qərarlara imza atmaqla Azərbaycan diasporunun daha mütəşəkkil şəkildə və dinamik fəaliyyətinə əsas yaratmış oldu.

Göründüyü kimi, Azərbaycan diasporunun təşkilatlanmasında, mütəşəkkil qüvvəyə çevrilməsində ümummilli liderimizin çox böyük rolu olmuşdur. Heydər Əliyev xarici siyasətdə strateji hədəfləri düzgün müəyyənləşdirərək qeyd etmişdir ki, müasir dövrdə hər bir dövlətin qüdrəti yalnız iqtisadi resurslarla deyil, həm də onun xaricdə formalaşdırdığı diasporun gücü ilə ölçülür. Bu sahəyə xüsusi diqqət yetirmədən xarici siyasətdə hansısa ciddi nailiyyətlər qazanmaq, habelə milli məsələlərin beynəlxalq müstəvidə qaldırılmasına nail olmaq mümkün deyil. Məhz bu səbəbdən də Azərbaycan hakimiyyəti dünya azərbaycanlılarının həmrəyliyinə nail olmaq üçün üzərinə düşən tarixi missiyanı məsuliyyətlə yerinə yetirməyə, bu sahədə sistemli və ardıcıl siyasət yeritməyə çalışmışdır. Hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci vitse-prezidenti Mehriban xanım Əliyeva tərəfindən həyata keçirilən diaspor siyasəti də ümummilli lider H. Əliyevin milli birlik və həmrəylik prinsiplərinə söykənir. Azərbaycanın mədəniyyət paytaxtı Şuşada keçirilən Dünya azərbaycanlılarının V Zəfər qurultayında ölkə başçısı, ali baş komandan İlham Əliyev bir daha vurğulamışdı ki: "Əlbəttə, biz hamımız – Azərbaycanda yaşayan azərbaycanlılar istəyirik ki, xaricdə yaşayan azərbaycanlılar öz tarixi Vətəni ilə sıx bağlı olsunlar". Hal-hazırda Azərbaycan diasporu azərbaycançılıq ideologiyası əsasında daha da güclənir.

## The Role of Heydar Aliyev in the Process of Organizing the Independent Azerbaijani Diaspora

**Summary**

**Keywords:** Heydar Aliyev, Azerbaijani diaspora, emigration history, historiography, national personnel policy


National leader Heydar Aliyev is an outstanding personality who has written his name in golden letters in the latest history of Azerbaijan. The Great Leader has an exceptional role in the restoration, reformation and development of the statehood traditions of independent Azerbaijan. Although the emigration history of Azerbaijan was formed in the early and

middle ages, the functioning mechanisms of the modern Azerbaijani diaspora began to take a more conceptual form from the beginning of the last century. After the restoration of the sovereignty of our country, our compatriots who continued to live and work in the allied republics of the Soviet Union gave impetus to the new stage of these mechanisms. The national personnel policy carried out by the national leader who led Azerbaijan for many years during the Soviet Union has made a great contribution to the socio-economic and cultural development of Azerbaijan, as well as to the reconstruction and evolution of the Azerbaijani diaspora. The President of the Republic of Azerbaijan, Ilham Aliyev, continues the current political course of Heydar Aliyev, who further expanded the diaspora policy during the period of independence, successfully and in accordance with the ultra-modern requirements of the time.

**Ədəbiyyat siyahısı**


1. Aslan Bayramov. Tarixi faciələrimiz: deportasiya, repressiya və soyqırımı. "AM965" MMC-nin mətbəəsi, Bakı. 2015. s. 416. s.20
2. Mirkazım Kazımov. Dünya azərbaycanlılarının birliyi müstəqil Azərbaycanı daha da qüdrətləndirir. "Xalq" qəzeti. 2010. N 289. s.7.
3. Vəli Həbiboğlu. Heydər Əliyev və Azərbaycan diasporu. Bakı, Qartal-2001, 358 səh. s. 284
4. Babanlı Yəhya. Azərbaycan diasporunun dövlətlərarası münasibətlərin inkişafında rolu (1991-2011): fəls. d-ru a. dər. al. üçün təq. ed. diss-ya. İxtisas: 5503.02 Vətən tarixi /AMEA A.A.Bakıxanov ad. Tarix İnstitutu. Bakı: 2015.
5. Günel Məlikli. 31 dekabr tarixi dünya azərbaycanlılarının birliyinin carçısıdır! İki sahil. 2020. № 235. S. 19.
6. Рамиз Мехтиев. Азербайджанская диаспора: современные вызовы и организация системной деятельности. Бакинский рабочий. 9 июля 2016. С.4-5
7. Hüseynova Leyla. Dünya azərbaycanlılarının təşkilatlanması Heydər Əliyevin Azərbaycan tarixi məsələlərinin tərkib hissəsi kimi. Dünya azərbaycanlıları: tarix və müasirlik. Elmi-nəzəri toplu. V buraxılış. Bakı Universiteti nəşriyyatı. 2017. S. 353. S.112-119
8. Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 27 dekabr 2002-ci il. № 413-IIQ

**Lalə Əhmədova**
AMEA akad. Z. M. Bünyadov adına Şərqşünaslıq İnstitutu,
Mərkəzi Asiya ölkələri şöbəsinin baş elmi işçisi,
professor, f.e.d
lala-axmedova@mail.ru

# HEYDƏR ƏLİYEVİN DÖVLƏT QURUCULUĞUNDA DİL MƏSƏLƏSİ

"Hər bir millətin dili onun üçün çox əzizdir. Bizim üçün Azərbaycan dili, ana dilimiz həddindən artıq əzizdir. Çünki çox illər ana dilimiz, Azərbaycan dili həyatımızda geniş yer ala bilməmişdir. Amma buna baxmayaraq hər bir azərbaycanlı dilin qorunub-saxlanılmasında az da olsa, çox da olsa, xidmətlərini göstərmişdir".

**Heydər Əliyev**

## GİRİŞ

**Açar sözlər**: dövlət quruculuğu, dil, strategiya, milli-mənəvi dəyərlər.

Ümummilli liderin ideyalarını layiqincə yerinə yetirən Azərbaycan Prezidenti İlham Əliyev doğma dilimizə, milli adət-ənənələrimizə, qədim mədəniyyətimizə böyük həssaslıqla yanaşır.

Beləliklə, minilliklər boyu formalaşan və bu günümüzə gəlib çatan Azərbaycan dili xalqımızın qədimliyinin simvolu, qürur mənbəyidir. Bu gün müstəqil bir dövlətimizin mövcudluğu dilimizin qorunması, dünya dilləri içərisində layiqli yer tutması baxımından vacib tarixi imkandır. Məhz Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu dil siyasəti bu sahədə əldə etdiyimizi uğurların əsasını təşkil edir.

Bu gün Heydər Əliyev şəxsiyyətini dəyərləndirmək cəhdində olmaq, tarixə, zamana, gələcəyə qiymət vermək iddiası qədər çətindir. Çünki Heydər Əliyev şəxsiyyəti fərdi-subyektiv ölçülərə, bütövlükdə tarixə, zamana sığmır. Özünün böyük həyatı ilə zamanın çərçivəsinə sığmayan bir insan sözə heç vaxt sığa bilməz. Çünki, bu tarixi şəxsiyyətin fəaliyyətinin hər səhifəsi, hər mərhələsi əlliillik Azərbaycan tarixinin mərhələləri ilə üst-üstə düşür, bəzən, hətta indi arxada qalmış o tarixin bütövlükdə dərkini şərtləndirir.

Heydər Əliyevin siyasi-mənəvi irsinə hər dəfə müraciət edəndə bu sahədə Azərbaycan xalqının mili-mənəvi dəyərlərinin necə dərin problemlərinin öz əksini tapdığının şahidi olursan.

Heydər Əliyevin 1969-cu ildə respublika rəhbərliyinə gəlişi Azərbaycan dilinə rəsmi münasibəti çox sürətlə və əsaslı sürətdə dəyişdirdi. Dövlət dili sahəsində fəaliyyətə respublika rəhbəri onun işlənmə sferasını və fəaliyyət dairəsini genişlənməkdən başladı.

Azərbaycan KP MK-nın 1969-cu il iyul plenumunda respublikanın rəhbəri seçilən Heydər Əliyevin gündəlik fəaliyyətinə, ümum-milli siyasi xəttində Azərbaycan dilinə qayğı mühüm yer tuturdu. Rus dilini nə qədər gözəl öyrənib, həmin dildə ölkənin tanınmış ictimai-

siyasi xadimlərinin belə qibtə etdikləri bir səviyyədə danışsa, nitqlər söyləsə, məruzələr etsə də, doğma Azərbaycan dilinin cazibəsindən heç zaman qopmamışdı.

Sovet dövrünün ehkamları respublika rəhbərlərindən bütün rəsmi tədbirlərdə yalnız rus dilində danışmağı tələb edirdi. Heydər Əliyev bu qaydanı formal olaraq pozmurdu, həqiqətən də, bütün qurultaylarda, plenumlarda məhz rus dilində çıxış edirdi. Lakin rəsmiyyətçilikdən kənara çıxmaq üçün azacıq imkan düşən kimi o, Azərbaycan dilinə müraciət edirdi. Özü də, demək olar, heç vaxt əvvəlcədən hazırlanmış mətnlərdən istifadə etmir, sözlərini sinədən deyirdi. 1972-ci illərin ortalarında yazıçıların biri ona "yoldaş Əliyev, Siz azərbaycanca nə gözəl danışırsınız" deyəndə, Heydər Əliyev gülümsəyərək belə cavab vermişdi: "Sən niyə mənim rusca gözəl danışmağıma deyil, azərbaycanca danışmağıma təəccüb edirsən? Bu dil mənim ana dilimdir, mən bu dili bilməliyəm! Eləcə də hamımız". Bunlar adi sözlər deyildi. Bu sözlərin Azərbaycan ziyalılarının milli tərbiyəsinə təsirinin gücü ana dilinə uzun müddətdən bəri davam edən çox soyuq münasibətə son qoya bildi [2].

Heydər Əliyevin bitkin elmi-nəzəri əsaslarla, praktik tətbiqə əsaslanan Azərbaycan dili siyasəti böyük uğurlar qazanıb desək, yanılmarıq. Vaxtı ilə öz doğma dilində danışa bilməyən, yaxud danışmaq istəməyən bir sıra yüksək vəzifəli dövlət məmurları Heydər Əliyevin ciddi tələbkarlığı nəticəsində indi Azərbaycan dilində sərbəst danışırlar.

Bununla bərabər, Heydər Əliyev hesab edirdi ki, Azərbaycanın milli ruhunun yüksəlişinə təkan verən şərtlərdən biri ana dilində təhsil almaqdır. Bu prosesin inkişaf etdirilməsi məqsədi ilə 1969-1982-ci illərdə respublikanın şəhərlərində, kənd və qəsəbələrində yüzlərlə uşaq bağçası və məktəb tikilib, istifadəyə verildi, ali məktəblərin sayı 12-dən 17-yə, bunlarda təhsil alan tələbələrin sayı isə 70 min nəfərdən 100 min nəfərə çatmışdı.

1978-ci ilin ən böyük hadisəsi çoxlarının müqavimətinə baxmayaraq, Azərbaycan dilinə dövlət dili statusu verilməsi oldu. Heydər Əliyev Respublikaya rəhbərliyi dövründəki fəaliyyətinin nəticəsi olaraq, 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin dövlət statusu təsbit edildi. Dövr baxımından, sözün əsl mənasında, qəhrəmanlığa bərabər olan bu addım gələcəyin müstəqil, yeni Azərbaycanı naminə atılmışdı.

Azərbaycan dilinin Konstitusiyada dövlət dili kimi təsbit edilməsi və idarəçilikdə geniş işlədilməsi, demək olar, bütün böyük klassiklərin yubileylərinin Ümumittifaq miqyasında keçirilməsi, İmadəddin Nəsimiyə, Cəfər Cabbarlıya, Nəriman Nərimanova abidələrin ucaldılması, Azərbaycan mədəniyyətinin Sovet ittifaqında ön mövqelərə çıxması, elmi, ədəbi, mədəni abidələrin planlı şəkildə tədqiqi və nəşri və s. bütün bunlar Heydər Əliyevin siyasətinin əməli nəticələridir. Böyük Vətəndaş bu fəaliyyəti son dərəcə yüksək siyasi məharət və peşəkarlıq səviyyəsində həyata keçirirdi. Sovet dövlətinin çox qüdrətli bir dövründə Heydər Əliyev Azərbaycan dilinin dövlət dili olması barədə Konstitusiyaya xüsusi maddənin nəinki yazılmasına, eyni zamanda əlavə bir abzasın daxil edilməsinə də nail olmuşdu. Həmin abzas belə idi: "Azərbaycan SSR dövlət orqanlarında, mədəniyyət və maarif idarələrində Azərbaycan dilinin işlədilməsini təmin edir və onun hərtərəfli inkişafına dövlət qayğısı göstərir". Konstitusiyanın qəbul olunduğu dövr, onun törətdiyi çətinliklər nəzərə alınarsa, bu, böyük rəhbərin öz xalqına, öz dilinə, həqiqətən, qəhrəmanlığa bərabər xidməti idi.

“Böyük qayıdış”dan sonrakı dövrün də öz çətinlikləri var idi. Cəmi bir il hakimiyyətdə olanlar dövlət dilinin adı Konstitusiyada “Azərbaycan dili” olmasına baxmayaraq, tələm-tələsik onu Milli Məclisdə “türk dili” ilə əvəz etmişdilər. Ölkə Prezidenti kimi Heydər Əliyev bu səhvin düzəldilməsi üçün xeyli əmək və vaxt sərf etməli oldu. Məsələlərin hərtərəfli müzakirələrindən sonra Azərbaycan Prezidenti, Konstitusiya Komissiyasının sədri Heydər Əliyev yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın 5 noyabr 1995-ci ildə keçirilən iclasında müzakirələrin məntiqi nəticəsi kimi dövlət dilimizin adı barədə öz qəti fikrini bildirdi: “Tarixi köklərimizə, tarixi keçmişimizə böyük hörmət və ehtiramımızı bildirərək, eyni zamanda bu gün deməliyik ki, XX əsrdə bizim dilimiz öz inkişaf dövrünü keçib, formalaşıb, özünəməxsus adını götürüb və gəlib dövlət dili səviyyəsinə çatıb. İndi bunun adını dəyişdirib başqa ad qoymaq heç bir nöqteyi-nəzərdən, həm fəlsəfi nöqteyi-nəzərdən, həm Azərbaycanın dövlətçiliyi nöqteyi-nəzərindən, ölkəmizin bu günü və gələcəyi nöqteyi-nəzərindən düz deyil”. Əbədiyaşar Prezidentimiz dövlət dilimizin adı sahəsində gördüyü işlər ölkəmizin, xalqımızın, millətimizin, dövlətimizin adına uyğun olaraq, dövlət dilimizin adının da Azərbaycan dili olması ilə nəticələndi [3].

Heydər Əliyevin ana dilinə müraciət etməsi müəyyən mənada sanki, gözlənilmədən, bədahətən idi. Bunun dəqiq ifadə edilməsi sonralar olmuşdur. Artıq müstəqillik illərində Heydər Əliyev ana dilinə münasibətini, televiziya və informasiya texnologiyaları da daxil olmaqla, həyatımızın bütün sahələrində Azərbaycan dilinin mövqeyinin möhkəmləndirilməsinə dair xüsusi fərmanlarda və tədbirlərdə son dərəcə aydın ifadə edərək, eyni zamanda öz çıxışlarında da bu mövzuya müraciət edəcəkdir. Onun bu mövzuda çoxsaylı fikirlərindən birini xatırlamaq istərdik: “Millətin milliliyini saxlayan onun dilidir. Şübhəsiz ki, musiqi də, ədəbiyyat da, ayrı-ayrı tarixi abidələr də millətin milliliyini təsdiq edir. Amma millətin milliliyini ən birinci təsdiq edən onun dilidir. Əgər Azərbaycan dili olmasa, Azərbaycan dilində ədəbiyyat da olmaz. Azərbaycan dili olmasa, Azərbaycan dilində mahnılar olmaz, musiqi olmaz. Bunların hamısı bir-birinə bağlıdır. Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi, inkişaf etməsi də bizim ən böyük nailiyyətlərimizdən biridir. Bu, təkcə dil məsələsi deyil, həm də azərbaycançılıq məsələsidir”.

2001-ci ildə Ümummilli liderimizin imzaladığı “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” Fərman isə yalnız cari bir sənəd deyil, xüsusi tarixi əhəmiyyət daşıyan böyük siyasi hadisə idi. Məhz Ulu öndər Heydər Əliyevin yürütdüyü dil siyasətinin nəticəsində bütün dövlət və qeyri-hökumət təşkilatlarında, indiyə qədər Azərbaycan dilindən istifadə etməmiş qurumlarda dövlət dili bərqərar edildi. Latın qrafikasına keçid prosesi başa çatdırıldı. 30 sentyabr 2002-ci ildə isə Ulu öndər Heydər Əliyev tərəfindən “Azərbaycan Respublikasında dövlət dili haqqında” Qanun təsdiq olundu. Bu sənədə görə, Azərbaycan Respublikası Azərbaycan dilinin dövlət dili olaraq işlədilməsini öz müstəqil dövlətçiliyinin başlıca əlamətlərindən biri sayır, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi qayğısına qalır, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli-mədəni özünüifadə ehtiyaclarının ödənilməsi üçün zəmin yaradır. Qanun Azərbaycan Respublikasında Azərbaycan dilinin dövlət dili kimi hüquqi statusunu nizamlayır və xeyli dərəcədə təkmilləşdirir. Ulu öndər Heydər Əliyevin

qərarı ilə 1 avqust tarixi hər il “Azərbaycan Əlifbası” və “Azərbaycan Dili Günü” kimi qeyd olunur. Müstəqilliyimizin 10-cu ildönümünə həsr olunmuş mərasimdə Ümummilli lider demişdir: "Bu on ildə bizim ən böyük nailiyyətlərimizdən biri Azərbaycan dövlət dilinin, ana dilinin hakim olmasıdır. Biz bütün dünyaya nümayiş etdiririk ki, dünyada Azərbaycan xalqı var, Azərbaycan milləti var, Azərbaycan dili var". Ümummilli lider Heydər Əliyevin məşhur bir fikrini dönə-dönə xatırlamaqla duyduğumuz qürurun böyük mənası var: "Millətin milliliyini saxlayan onun dilidir". Həmçinin, bundan əlavə, qəbul edilən digər Fərman və sərəncamlar əsasında dilimizin inkişafı, ana dilində təhsilin keyfiyyətinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılıb. Məhz Ümummilli liderimizin zəngin təcrübəsi, yüksək intellekti, milli mədəniyyətimizə və mənəviyyatımıza dərindən bələd olması və bağlılığı sayəsində 60-cı illərin sonlarından başlayaraq həyata keçirilən dil siyasəti doğma dilimizin günbəgün saflaşmasına, zənginləşməsinə və inkişaf etməsinə şərait yaratdı" [7].

Ümummilli liderin siyasi kursunu layiqincə davam etdirən Prezident İlham Əliyev də dilimizə, milli adət-ənənələrimizə, qədim mədəniyyətimizə böyük həssaslıqla yanaşır. Qətiyyətlə deyə bilərik ki, bu gün dilimizin inkişafının əsas qarantı da məhz ölkə Prezidentinin özüdür. Azərbaycan ədəbiyyatını, azərbaycanlı düşüncəsini əks etdirən sanballı əsərlərin latın qrafikasında yenidən nəşr edilməsi cənab İlham Əliyevin təşəbbüsü ilə reallaşıb. Ölkə rəhbərinin hələ 18 il öncə, 2004-cü il yanvarın 12-də "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"kı sərəncamı əlifba ilə bağlı problemləri aradan qaldırdı. Dövlət başçısının sonrakı sərəncamlarında isə 150 cildlik "Dünya ədəbiyyatı kitabxanası", 100 cildlik "Dünya uşaq ədəbiyyatı kitabxanası", 100 cildlik "Azərbaycan ədəbiyyatı kitabxanası" seriyasından olan nəşrlər respublika kitabxana şəbəkəsinin latın qrafikalı ədəbiyyat fondunu zənginləşdirdi. Bu sahədə mühüm və uğurlu tədbirlərdən biri də ölkə rəhbərinin 18 il bundan əvvəl imzaladığı "Azərbaycan milli ensiklopediyasının nəşri haqqında" sərəncamı oldu. Bu sərəncamların nəticəsində qiymətli kitabların çapı mənəvi xəzinəmizin zənginləşməsində mühüm rol oynadı.

Prezident İlham Əliyev milli xüsusiyyətlərimizin saxlanmasında ana dili və ədəbiyyatı mızın başlıca amillərdən olduğunu dəfələrlə diqqətə çəkərək demişdir: "Bizi millət kimi qoruyub saxlayan məhz dilimiz, ədəbiyyatımız, tariximiz, ənənələrimizdir". Ölkə Prezidenti İlham Əliyev bölgələrdə keçirdiyi görüşlərdə də həmişə dövlət atributlarına, xüsusilə də Azərbaycan dilinə, əlifbasına, mədəniyyətinə, incəsənətinə, milli adət-ənənələrinə xüsusi ehtiramla yanaşaraq onun dəyərlərindən söz açır. Prezident demişdir: "Ana dilimizə hörmət və qayğı daim olmalıdır. Biz ana dilimizi xarici təsirdən qorumalıyıq. Ana dilimiz bizim toxunulmaz sərvətimizdir. Azərbaycan xalqının formalaşmasında, müstəqil Azərbaycanın formalaşmasında ana dilimiz − Azərbaycan dili müstəsna rol oynamışdır. Biz elə etməliyik ki, dilimizin saflığını daim qoruyaq. Bu məsələyə çox ciddi diqqət göstərilməlidir". Sovet dönəmində Azərbaycan dilçilərinin dünyada gedən proseslərdən təcrid olunması ilə əlaqədar ölkəmizdə dilçilik sahəsində müəyyən boşluqlar yaranmışdı və bunları aradan qaldırmaq üçün dövlət başçısı İlham Əliyev 2013-cü il mayın 23-də "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı

haqqında" sərəncam imzalamışdır. Sərəncamda deyilir: "Son dövrlərdə müasir Azərbaycan ədəbi dilinin tükənməz imkanlarından lazımınca və düzgün istifadə edilməməsi diqqət çəkir. Ədəbi dilimizin özünəməxsus inkişaf qanunauyğunluqlarına xələl gətirə biləcək yad ünsürlərin üzə çıxarılması və qarşısının alınması istiqamətində mütəxəssislər heç də həmişə çeviklik nümayiş etdirə bilmirlər. Nəticə etibarilə dövlət dilimizin tətbiqi sahəsində bir sıra problemlər özünü qabarıq şəkildə büruzə verir". Beləliklə, minilliklər boyu formalaşan və bu günümüzə gəlib çatan Azərbaycan dili xalqımızın qədimliyinin simvolu, qürur mənbəyidir. Bu gün müstəqil bir dövlətimizin mövcudluğu dilimizin qorunması, dünya dilləri içərisində layiqli yer tutması baxımından vacib tarixi imkandır. Və bu gün Ulu öndər Heydər Əliyevin təməlini qoyduğu milli siyasətin fonunda milli dilimizin Azərbaycan dilinin mühafizəsi və inkişafı yönündə həyata keçirilən səmərəli tədbirlərin Prezident İlham Əliyev tərəfindən dövrün aktual çağırışlarına və qanunauyğunluqlarına müvafiq surətdə uğurla davam etdirilməsi Azərbaycan dilinin milli həmrəylik, bütövlük və identikliyi təmin edən əsas faktorlardan biri kimi çıxış etməsini şərtləndirib. Dövlət başçımızın dediyi kimi: "Azərbaycan dili o qədər zəngindir ki, heç bir xarici kəlməyə ehtiyac yoxdur. Bir daha demək istəyirəm ki, biz əsrlər boyu dilimizi qorumuşuq. Biz Azərbaycan dilinin saflığını təmin etməliyik".

Beləliklə, minilliklər boyu formalaşan və bu günümüzə gəlib çatan Azərbaycan dili xalqımızın qədimliyinin simvolu, qürur mənbəyidir. Bu gün müstəqil bir dövlətimizin mövcudluğu dilimizin qorunması, dünya dilləri içərisində layiqli yer tutması baxımından vacib tarixi imkandır. Məhz Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu dil siyasəti bu sahədə əldə etdiyimizi uğurların əsasını təşkil edir. Heydər Əliyevin dövlət quruculuğunda dil siyasəti və onu inkişaf etdirmək haqqında söylədiyi fikirləri belə ümumiləşdirmək və səciyyələndirmək olar:

1) xalqının mənəvi varlığı kimi ana dilini Azərbaycan dilini sevmək;

2) ana dilini dərindən və mükəmməl öyrənmək;

3) ana dilinin tədrisini yüksəltmək və onu intensivləşdirmək;

4) dilin zəngin lüğət tərkibindən və söz ehtiyatından bacarıqla istifadə etmək;

5) dilin qayğısına qalmaq, onun saflığını qorumaq, onunla fəxr etmək;

6) dilimizin-nitqimizin gözəlliyini duymaq, öyrənmək, mənimsəmək və bu gözəlliyi hər zaman hər yerdə təbliğ etmək, bu dildə düzgün danışmaqla hamıya nümunə olmaq [4].

Heydər Əliyevin Azərbaycana, onun sosial-mədəni, elmi-intellektual, iqtisadi, siyasi inkişafına, milli-mənəvi intibahına həsr olunan, xalqımızın tarixində bütöv mərhələ təşkil edən fenomenal fəaliyyətində milli dil siyasəti həmişə həlledici yer tuturdu. Təkcə yaşanılan dövrü, müasir mərhələni yox, Azərbaycan ədəbiyyat və mədəniyyətinin bütöv milli mühitini əhatə edən dil siyasəti xalqın tarixi uğurlarına əsaslanaraq, söykənərək, böyük perspektivlərə istiqamətlənib [5].

İnsanın böyüklüyü, dühası hər şeydən əvvəl onun mənsub olduğu xalqa xidmətinin miqyası, əhatə dairəsi, praktik nəticələri, tarixi perspektivləri ilə ölçülür. Xalqının, millətinin tarixi yolunda müstəsna rol oynayan, taleyüklü vəzifələr, epoxal missiyalar həyata keçirən, beləliklə, ümumxalq, ümummilli dayağa, xilaskara dönən insanlar dünyanın ən böyük, əbədi xoşbəxtlərindəndirlər. Heydər Əliyev tariximizə yazılan taleyin xoş töhfəsi, əvəzolunmaz

qisməti idi, xalqı daxilən, ruhən səfərbər edib böyük işlərə, böyük inkişafa istiqamətləndirmək üçün Tanrı payımız idi [6].

**Language issue in Heydar Aliyevs state building**

**Summary**

**Key words:** state building, language, strategy, national-moral values.

The great leader Heydar Aliyev is one of the most important personalities produced by our nation. The unparalleled services he rendered for Azerbaijan raised Heydar Aliyev to the top of the National leader. Every year May 10 is celebrated by our people as a national holiday. As it is known, the era of progress and development of the Azerbaijani people began with the coming to power of the great leader Heydar Aliyev, whose 100th anniversary will be celebrated this year. The purposeful policy carried out by our national leader Heydar Aliyev since the beginning of the 70s of the last century in the direction of protecting the national and moral values of our people, studying our history in the right direction, increasing the role of our mother tongue, and protecting literary and artistic examples from attacks, which emerged as the embodiment of the people's desire for freedom, led to the awakening of the national spirit in society. gave an impetus. President of Azerbaijan Ilham Aliyev, who duly implements the ideas of the national leader, is very sensitive to our native language, national traditions, and ancient culture.

Thus, the Azerbaijani language, which has been formed for thousands of years and has survived to this day, is a symbol of the antiquity of our people and a source of pride. Today, the existence of an independent state is an important historical opportunity in terms of protecting our language and taking a worthy place among the languages of the world. The language policy founded by the great leader Heydar Aliyev is the basis of our success in this field.

**Ədəbiyyat siyahısı**

1. Aforizmlər (Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışlarından seçilmiş müdrik fikirlər). Bakı: Azərbaycan Universiteti, 1997. 38s.
2. Axundov A. Heydər Əliyevin Azərbaycan dilinə qayğısı qəhrəmanlığa bərabər xidmətidir. Dirçəliş-XXIəsr, 2004, N74-75
3. Məmmədov M. Azərbaycanın dövlət dilinin inkişafının yeni dövründə Heydər Əliyev nitqlərinin səfərbər edici ruhu. Dirçəliş-XXIəsr, 2003, N63
4. Xudiyev N. Dil siyasətinin uğurları. Dirçəliş-XXIəsr, 2002, N58
5. Xudiyev N. Heydər Əliyev və Azərbaycan dili. Bakı: Təhsil, 1997. 288 s.
6. Xudiyev N. Heydər Əliyevin dil siyasətinin uğurları. Dirçəliş XXI əsr, 2004, N74-75
7. Azərbaycan dilinin inkişafında Heydər Əliyevin rolu //
8. https://sesqazeti.az/news/analytics/94849html

**Adil Mirabdullayev**
AMEA akad. Z. M. Bünyadov adına Şərqşünaslıq İnstitutu,
Mərkəzi Asiya ölkələri şöbəsinin baş elmi işçisi,
siyasi elmlər doktoru

## ULU ÖNDƏRİN ADI, İDEYALARI ƏSRLƏR BOYU YAŞAYACAQDIR

**Açar sözlər**: Heydər Əliyev, Azərbaycan, yeni tarix, müstəqillik, siyasət

Ümummilli liderimiz Heydər Əliyevin mənalı həyat yolu və fəaliyyəti tarixin sınağından şərəflə çıxmış bütöv bir idarəçilik məktəbidir. Milli özünüdərkin ən yüksək siyasi ifadəsi olan müstəqil dövlət ideyası Azərbaycanın ən yeni tarixində məhz Heydər Əliyevin adı, şəxsiyyəti ilə bağlıdır. Heydər Əliyev Azərbaycan xalqının və dövlətinin milli maraqlarını hər şeydən uca tutan, onu ümumi məqsədlər naminə səfərbər etməyi bacaran lider, dahi rəhbər idi.

Bu, danılmaz bir faktdır ki, Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü, respublikamızın siyasi-iqtisadi, mədəni və mənəvi yüksəlişi Heydər Əliyevin möhtəşəm siyasi və dövlətçilik fəaliyyəti ilə üzvi surətdə bağlıdır. Həyatını xalqına həsr etmiş nurlu zəka sahibi, əzəmətli şəxsiyyət olan Heydər Əliyev öz işıqlı əməlləri ilə müstəqilliyimizin bərpasında, möhkəmləndirilməsində, Azərbaycanın dünya miqyasında tanınmasında müstəsna xidmətlər göstərmişdir.

Ulu öndərimiz Heydər Əliyevin 1969-cu il iyulun 14-də Azərbaycanda hakimiyyətə gəldiyi və Azərbaycan KP MK-nın birinci katibi təyin olunduğu gün həyatımızın olduqca mühüm tarixi hadisəsi kimi yaddaşlarda əbədi qalıb. Dövlətçilik tariximizdə dinamik, hərtərəfli inkişaf və intibah epoxasının başlanğıcını qoyub. Hələ 1969-cu ildə respublikamıza rəhbərliyinin elə ilk günlərindən Heydər Əliyevin Azərbaycan dövlətinin və xalqımızın inkişafı istiqamətində gələcək fəaliyyətinin, atacağı addımların konturları aydın idi.

Qısa zaman kəsiyində Azərbaycan İttifaqın tərkibində o zaman üçün müasir iqtisadi potensiala malik olan, daim inkişaf edən respublikaya çevrildi. Məhz Heydər Əliyevin böyük səyi və qətiyyəti sayəsində həmin dövrdə İttifaq hökuməti Azərbaycanda xalq təsərrüfatının hərtərəfli yüksəlişi və intensiv inkişafını nəzərdə tutan beş xüsusi qərar qəbul etmişdir. Xalqımız üçün böyük tarixi əhəmiyyət daşıyan bu mühüm qərarlar 70-80-ci illərdə və daha sonrakı perspektivdə ölkəmizin sosial- iqtisadi inkişafının əsas istiqamətləri üzrə kompleks məsələləri müəyyənləşdirmişdir. Həyata keçirilən qlobal miqyaslı işlər sayəsində XX əsrin 70-80-ci illəri Azərbaycan tarixinə, sözün əsl mənasında, intibah dövrü kimi daxil olmuşdur. Müstəqil Azərbaycanın sosial-iqtisadi bünövrəsi məhz Heydər Əliyevin sayəsində ötən əsrin 70-80-ci illərində qoyuldu və ölkəmizin gələcəyi üçün möhkəm təməl yaradıldı. Yalnız sosial-iqtisadi yüksəliş deyil, o dövrdə milli-mənəvi dəyərlərə qayıdış da Heydər Əliyevin adı ilə bağlı idi.

Bu mənada Heydər Əliyevin sovet illərində ölkəmizə rəhbərliyini Azərbaycanın milli intibah dövrü kimi də səciyyələndirmək olar. Bu böyük şəxsiyyət sovet ideologiyasının bütün maneələrini adlayaraq, Azərbaycanın milli inkişaf konsepsiyasını önə çəkdi. Cəmiyyəti bütün sahələr üzrə gələcək mənəvi yüksəlişlərə ruhlandırmağı bacardı. Heydər Əliyev Azərbaycanın müstəqil dövlət olacağını qabaqcadan hiss edərək, buna lazımi zəmin formalaşdırmaq üçün əzmkarlıq və uzaqgörənliklə fəaliyyət göstərirdi. Ulu öndərimizin respublika rəhbərliyinə gəlişi ilə başlanmış vüsətli tərəqqi ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatımızda köklü dəyişikliklərlə müşahidə olunmuş, xalqımızın adət-ənənələrinin daha da zənginləşməsinə, milli mənlik şüurunun yüksəlişinə təkan vermişdir. Heydər Əliyevin milli intibahı təkan edən sürətli inkişaf strategiyası Azərbaycanı hələ 1969-1982-ci illərdə əsl təşəbbüskarlıq, quruculuq, yaradıcılıq meydanına çevirmiş, onu keçmiş İttifaq dövlətinin ən qabaqcıl, iqtisadi cəhətdən müstəqil yaşamaq imkanına malik iki respublika-sından biri kimi tanıtdırmışdır.

Heydər Əliyevin 1982-ci ildə SSRİ kimi nəhəng dövlətin ali rəhbərliyində təmsil olunmasının milli qürur və iftixar hissi yaradan amil kimi milli məfkurəvi rol oynamasını da xüsusi vurğulamaq vacibdir. Xalqın liderinin onun hüdudlarından kənarda tanınması və etiraf olunması qədər məfkurəyə və milli düşüncəyə yüksək səviyyədə müsbət təsir göstərən digər amil təsəvvür etmək çətindir. Ümummilli lider Heydər Əliyevin dünyanın iki super dövlətindən birinin rəhbərlərindən olması gerçəkliyini dərk etmək özü-özlüyündə milli-birləşdirici amil kimi məfkurə daşıyıcısı rolunu yerinə yetirirdi. Odur ki, tam əminliklə söyləmək mümkündür ki, Heydər Əliyevin XX əsrin son onilliklərində Azərbaycanın intibahı yolundakı xidmətləri, digər tərəfdən isə milli lider kimi birmənalı olaraq bütün xalq tərəfindən qəbul edilməsi milli azadlıq məfkurəsinin yeni mərhələdə formalaşmasında həlledici rol oynamış oldu.

Öz xalqı və Vətəni qarşısında misilsiz xidmətlərinə, tarixi roluna görə Heydər Əliyevi dünya miqyaslı siyasi nəhənglərlə – Mustafa Kamal Atatürk, Franklin Ruzvelt, Şarl de Qoll ilə müqayisə edirlər. Çünki o, Azərbaycan xalqının xilaskarı kimi öz missiyasını böyük əzm və şərəflə yerinə yetirmişdir.

Bildiyimiz kimi, Azərbaycanda dövlət müstəqilliyi haqqında Konstitusiya aktı 1991-ci ildə qəbul edilsə də, əslində ölkəmiz yalnız müdrik dövlət başçısı və uzaqgörən siyasətçi, xalqımızın böyük və fədakar oğlu Heydər Əliyevin 1993-cü ilin iyununda Azərbaycana hakimiyyətə qayıdışından sonra öz həqiqi müstəqilliyini qazana, onu qoruyub möhkəmləndirə və əbədi prosesə çevirə bilib.

Xalqımızın böyük oğlu Heydər Əliyev qarşıya çıxan bütün çətinliklərə sinə gərib, müstəqilliyimizi nəinki qoruyub saxladı, onu əbədiləşdirdi. Odur ki, müstəqil dövlətçiliyimizin həqiqi tarixi, dönüş anı məhz Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıdışı və Vətənin taleyi üçün məsuliyyəti öz üzərinə götürdüyü vaxtdan başlanır. Belə ağır dövrdə Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən böyük siyasətə qayıtdı, respublikanı fəlakətdən qurtarmaq üçün ölkədə sabitliyin təmin edilməsinə nail oldu, dövlətimizin iqtisadi

əsaslarının möhkəmləndirilməsi strategiyasının reallaşmasını təmin edən tədbirlər həyata keçirdi. Ölkəmizin dünya inteqrasiyasına qovuşması imkanlarını müəyyənləşdirdi.

Böyük idrak sahibi olan Heydər Əliyev ölkə iqtisadiyyatında, o cümlədən aqrar sfera-da yaranmış dərin böhranı özünəməxsus uzaqgörənliklə hərtərəfli təhlil edərək, xalqla, alim və mütəxəssislərlə dəfələrlə məsləhətləşmələr apardıqdan sonra, islahatların aparılmasının bu taleyüklü, ağır vəziyyətdən yeganə çıxış yolu olduğunu cəsarətlə irəli sürdü. O, ölkənin və xalqın müqəddəratını həll edən bu böyük və mürəkkəb islahatın hazırlanılması və həyata keçirilməsinin öhdəsindən də məharətlə gəldi.

Beləliklə, MDB məkanında ilk dəfə olaraq dərin bilik və zəngin təcrübəyə malik Heydər Əliyev cəsarət göstərərək, analoqu olmayan aqrar islahatlara start vermiş və onun rəhbərliyi altında Azərbaycanda bu islahatlar dönməz xarakter almışdır. Ümumiyyətlə, Heydər Əliyevin ikinci dəfə hakimiyyətdə olduğu 1993-2003-cü illərdə aqrar sahə ilə bağlı 50-dən artıq normativ-hüquqi aktlar qəbul edilmiş, çoxsaylı fərman və sərəncamlar imzalanmışdır.

Ardıcıl həyata keçirilən məqsədyönlü siyasət nəticəsində ölkəmiz bir sıra sahələrdə, o cümlədən aqrar sahədə nüfuzlu beynəlxalq regional təşkilatların üzvü olmuş, bu təşkilatlarla və inkişaf etmiş ölkələrlə səmərəli əməkdaşlıq qurmuş, həmin əlaqələr getdikcə genişlənir.

Bu gün Azərbaycan dinamik inkişaf edən, dünya birliyində layiqli yer tutan, müstəqil siyasət yürüdən bir dövlətdir. İndi planetimizin çox yerindən nəzərlər dünyada ən böyük enerji layihələrinin gerçəkləşdiyi Azərbaycana yönəlib. Təkcə biz yox, bütün dünya bilir ki, "Əsrin müqaviləsi"nin və digər neft kontraktlarının, iqtisadi və strateji baxımdan misilsiz əhəmiyyətə malik neft kəmərinin reallaşması Heydər Əliyevin xidmətidir. 1994-cü ildə çoxlarına qeyri-mümkün kimi görünən layihələri yalnız ulu öndərimizin şəxsi nüfuzu, qətiyyəti, uzaqgörənliyi sayəsində reallaşdırmaq mümkün olub.

Ümummilli liderimizin gərgin əməyi sayəsində 1994-cü ilədək davam edən iqtisadi tənəzzülə son qoyuldu. Makroiqtisadi göstəricilər ilbəil yüksəldi. Dinamik inkişaf dövrü başlandı. Azərbaycan dövlət müstəqilliyinin möhkəmləndirilməsində, milli sərvətlərimizdən ölkənin və xalqın mənafeyinə uyğun istifadə olunmasında ümummilli liderimiz Heydər Əliyevin uğurlu neft strategiyası olduqca əhəmiyyət kəsb edir. 1994-cü il sentyabrın 20-də dünyanın iri neft şirkətləri ilə imzalanmış "Əsrin müqaviləsi", bu müqavilə çərçivəsində Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi- Ərzurum qaz ixrac boru kəmərinin reallaşması Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsində müstəsna rol oynadı.

Azərbaycanda sahibkarlığın inkişafı da məhz ulu öndərimizin adı ilə bağlıdır. Ulu öndər iş adamlarına, sahibkarlara qayğını həmişə mühüm vəzifə kimi qarşıya qoyurdu. Ulu öndərin yerli və xarici sahibkarlarla görüşü, onların problemlərini öz dillərindən eşitməsi və bunun həlli yollarım birgə araşdırması qısa zamanda öz bəhrəsini verdi. İndi Azərbaycanda ümumi daxili məhsulun böyük əksəriyyəti məhz özəl sektorun payına düşür. Bütün bunlar Azərbaycanın daha da sürətli inkişafına güclü təkan verən alimlərdir.

Tarixi bu dövrdən etibarən başlanan Heydər Əliyev idarəetmə fəlsəfəsinin başlıca ideya-siyasi istiqaməti xalqın milli özünüifadəsinin bütün forma və vasitələrinin geniş vüsət alması, milli qürur hissinin güclənməsi və milli şüurun yüksəlişinə təkan verən sürətli inkişaf strategiyasının gerçəkləşdirilməsi ilə səciyyələnmişdir. Xalqın tarixi yaddaşının özünə qaytarılması onun qəlbində illərdən bəri sıxılıb qalmış milli dövlətçilik ideyasının gələcəkdə böyük hərəkətverici qüvvəyə çevrilməsi, müstəqil dövlətçilik ideyalarının gerçəkləşməsi üçün zəmin yaratdı.

Heydər Əliyevin siyasi zəkası sayəsində Azərbaycanın beynəlxalq aləmdən təcrid olunmaq təhlükəsi aradan qaldırılmışdır. Dünya siyasət meydanında cərəyan edən proseslərə təsir baxımından Azərbaycan rəhbəri həmişə öz sözü, öz çəkisi, öz sanbalı ilə seçilmişdir.

Ayrı-ayrı şəxslərə və siyasi qruplaşmalara xidmət edən silahlı birləşmələr Ali Baş Komandan Heydər Əliyevin məqsədyönlü və qətiyyətli siyasəti nəticəsində ləğv edildi, Milli Ordunun formalaşdırılması, Azərbaycanın nizami silahlı qüvvələrinin yaradılması ilə bağlı təxirəsalınmaz tədbirlər görüldü, orduda kütləvi fərarilik hallarına son qoyuldu, hərbi intizam möhkəmləndirildi. Bu gün Azərbaycanın suverenliyini, müstəqilliyini, ərazi bütövlüyünü qorumağa tam qadir olan orduya malik olması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında göstərdiyi misilsiz xidmətlərdən biri sayıla bilər.

Azərbaycanın daxilində yaranmış sabitlikdən və beynəlxalq aləmdə ölkəmizə artan inam və maraqdan istifadə edərək, 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" adlandırılan ilk neft müqaviləsi imzalandı. Onun gerçəkləşdirilməsi Heydər Əliyev tərəfindən işlənib hazırlanmış və müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasının əsasını təşkil edən neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür. Heydər Əliyev öz neft strategiyasının əsas mənasını Azərbaycanın zəngin təbii sərvətlərindən xalqın rifahı naminə daha da səmərəli istifadə etməkdə görürdü. Azərbaycanın iqtisadi suverenliyini əks etdirən ilk beynəlxalq neft müqaviləsi ölkə iqtisadiyyatının dinamik inkişafının əsasını qoydu və bu gün onun praktiki nəticələri göz qabağındadır. Azərbaycanın iri beynəlxalq layihələrdə iştirakı, Böyük İpək yolunun bərpası, nəqliyyat dəhlizlərinin Azərbaycan ərazisindən keçməsi Heydər Əliyev neft strategiyasının həyata keçirilməsinin bəhrəsidir.

Heydər Əliyevin fəaliyyətində iqtisadi islahatlar, bazar iqtisadiyyatının bərqərar olması, iqtisadi inkişafın təmin edilməsi, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası, özəlləşdirmə proqramının, aqrar islahatların həyata keçirilməsi ardıcıl prioritet sahələr olmuşdur.

Müstəqil Azərbaycanın ilk Konstitusiyasının müəllifi olan Heydər Əliyev demokratik, hüquqi dövlət quruculuğu istiqamətində davamlı siyasət yeridərək, ölkədə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün əsaslı zəmin yaratmışdır.

Heydər Əliyevin xarici siyasət məsələlərinə müstəsna əhəmiyyət verməsi, beynəlxalq miqyasda uğurlu və cəsarətli addımlar atması, milli məqsədlər naminə ən nüfuzlu tribunalardan bacarıq və məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi baxımından son dərəcə əhəmiyyətli olmuşdur.

Azərbaycan Heydər Əliyevin fəal diplomatiyası nəticəsində dünyanın demokratik dövlətlərinin və aparıcı ictimai təşkilatlarının ölkəmizə, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibətinin əsaslı surətdə dəyişməsinə nail ola bilmişdir. Heydər Əliyevin xarici siyasətinin əsasını sülh, beynəlxalq hüquq normalarına, sərhədlərin bütövlüyünə və toxunulmazlığına, dövlətlərin ərazi bütövlüyünə hörmət və qarşılıqlı surətdə faydalı əməkdaşlıq prinsipləri təşkil etmişdir.

Heydər Əliyevin formalaşdırdığı və inkişaf etdirdiyi Azərbaycançılıq fəlsəfəsi Azərbaycanın müasir dünyada yerini müəyyən etmiş, milli dövlətçiliyimizin ideyası əsasını təşkil edərək, dünya azərbaycanlılarının həmrəyliyi üçün möhkəm zəmin yaratmışdır. Azərbaycan ziyalısına son yüz illərdə ən ciddi bir şəkildə düşündürən milli dirçəliş problemləri bütöv şəkildə Heydər Əliyevin həmin illərdəki fəaliyyəti ilə strateji dövlət siyasətinə, elmdən, sosiologiyadan və fəlsəfədən əməli siyasət müstəvisinə keçmişdir.

Bütün həyatını xalqa sədaqətlə xidmətə həsr etmiş Heydər Əliyev öz titanik fəaliyyətində həmişə xalqa arxalanmış, ən çətin anlarda ona müraciət etmişdir. Xalq da heç vaxt ondan öz dəstəyini əsirgəməmişdir. Xalqın Heydər Əliyevə göstərdiyi böyük etimad və ehtiram hissləri müdrik rəhbərin dəfn mərasimində də bir daha bütün dünyaya əyani şəkildə nümayiş etdirildi. Bu, milyonlarla insanın öz rəhbərinə bəslədiyi səmimi hisslərin misli görünməmiş təzahürü idi.

Böyük öndərimizin titanik fəaliyyətinin digər mühüm nəticəsi Azərbaycanın beynəlxalq aləmdə özünə layiqli yer tutması, dünyanın inkişaf etmiş dövlətləri ilə səmərəli əlaqələr çərçivəsində bərabərhüquqlu əməkdaşlığa nail olmasıdır. Ardıcıl, düşünülmüş xarici siyasət kursu Azərbaycan dövlətinə demokratik dəyərləri hər şeydən uca tutan, dünya dövlətləri ilə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri quran, qonşuları ilə dinc şəraitdə yaşamağa üstünlük verən sülhsevər ölkə imicini qazandırmışdır. Məhz ümummilli liderimizin gərgin səyləri və yenilməz iradəsi nəticəsində Azərbaycan bu gün dünya birliyi tərəfindən tükənməz təbii sərvətləri, iqtisadi imkanları ilə yanaşı, mədəni, elmi, intellektual, yaradıcı potensiala malik ölkə kimi qəbul olunur. İndi dünyanın qüdrətli dövlətləri regionla bağlı bir çox məsələlərin həllində ölkəmizin dəstəyinə arxalanır, onunla etibarlı tərəfdaş kimi hesablaşırlar. Göründüyü kimi, ulu öndərimizin ideyaları yaşayır, inkişaf edir. Azərbaycan dövləti ulu öndərimizin ən layiqli siyasi varisi, Prezident İlham Əliyevin rəhbərliyi ilə daha yüksək zirvələrə doğru inamla irəliləyir.

Möhtərəm Prezidentimizin təşəbbüsü və rəhbərliyi ilə işlənib hazırlanmış dövlət proqramlarının icrası bütün sahələrdə misilsiz bir canlanma, işgüzarlıq ovqatı yaratmışdır. Möhtərəm Prezidentimiz İlham Əliyevin bəyan etdiyi kimi, Azərbaycanda Heydər Əliyev siyasətinə alternativ yoxdur və bu siyasət respublikamızın uğurlu inkişafının əvəzsiz təminatıdır. Əminik ki, Heydər Əliyev ideyaları, əməlləri əsrlər boyu yaşayacaqdır.

**The Name and Ideas of the Great Leader Will Live for Centuries**

**Summary**

**Keywords:** Heydar Aliyev, Azerbaijan, new history, independence, politics

The meaningful life and activity of our national leader Heydar Aliyev is a whole management school that has passed the test of history with honor. The idea of an independent state, which is the highest political expression of national self-awareness, is connected with the name and personality of Heydar Aliyev in the most recent history of Azerbaijan. Heydar Aliyev was a genius leader, who valued the national interests of the people and state of Azerbaijan above all else, and was able to mobilize them for common goals.It is an undeniable fact that a whole period of the most recent history of Azerbaijan, the political-economic, cultural and moral development of our republic is organically connected with Heydar Aliyev's great political and statesmanship activity.Heydar Aliyev, a brilliant and great personality who dedicated his life to his people, rendered exceptional services in the restoration and strengthening of our independence and recognition of Azerbaijan on a world scale with his bright deeds.

**Ədəbiyyat siyahısı:**

1. Müstəqilliyimiz əbədidir: Heydər Əliyevin çıxış və məqalələri. I-XLVI kitab. Azərnəşr. Bakı 1997-2013
2. Azərbaycan nefti dünya siyasətində. Əliyev İlham Heydər oğlu. Nəşriyyat, Azərbaycan nəşriyyatı. Bakı. 1997. 263 səh.
3. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti Həsənov Əli Məhəmmədəli oğlu Letterpress Bakı 2011 440 səh.
4. Müstəqilliyimizin təminatçısı. İ. Hüseynova. Monoqrafiya Bakı 2003. 502 səh.
5. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Yaqub Mahmudov Təsil nəşriyyatı Bakı 2002 328 səh.
6. "Гейдар Алиев. Жизнь замечательных людей" Андриянов Виктор Иванович, Мираламов Гусейнбала Фазилоглы 2005 Издатель: Молодая гвардия ISBN: 5-235-02800-7 Москва

**Səriyyə Gündoğdu**
AMEA akad. Z. M. Bünyadov adınaŞərqşünaslıq İnstitutu,
Türk filologiyası şöbəsinin müdiri, f.ü.f.d., dos.

# HEYDƏR ƏLİYEV SİYASƏTİNDƏ AZƏRBAYCAN-TÜRKİYƏ ƏLAQƏLƏRİNİN İNKİŞAF STRATEGİYASI

H. Əliyevin Azərbaycan xalqının iradəsi ilə vəzifə başında olması; Azərbaycan,
Qafqaz və region xalqları üçün böyük şansdır.
Türkiyə Cümhuriyyətinin 9-cu Cumhurbaşkanı
**Hörmətli Süleyman Dəmirəl**

**Açar sözlər**: Ulu Öndər, Heydər Əliyev, Türkiyə, siyasət

## Giriş

Ulu Öndər Heydər Əliyev müasir Azərbaycan və dünya tarixinə parlaq və silinməz iz qoymuş, qeyri-adi istedad sahibi, dahi şəxsiyyət, müdrik dövlət xadimi kimi əbədiləşmişdir. Azərbaycan tarixində əbədilik qazanan Ümummilli Lider Heydər Əliyevin mənalı həyat yolu, zəngin irsi və Azərbaycan xalqı üçün müstəsna xidmətləri gələcək nəsillər üçün böyük məktəbdir. Azərbaycan xalqının qazandığı müstəqillik məhz H. Əliyevin hakimiyyətə gəlişi ilə davamlı və güclü bir xarakter almışdır. Azərbaycan dövləti, dünya dövlətləri arasında Ulu Öndərin uzaqgörənliyi, müdrikliyi, qətiyyəti, zəngin dövlətçilik təcrübəsi sayəsində layiqli yerini almışdır.

Möhkəm təməllər üzərində qurulan Azərbaycan dövlət müstəqilliyi milli ruhun və azərbaycançılıq məfkurəsinin inkişafı ilə yeni zirvələr qət etmişdir. Bu mənada Azərbaycan Türk Dünyası və xüsusilə Türkiyə arasında olan siyasi, iqtisadi, ədəbi və mədəni əlaqələrdə yeni səhifələr açılmışdır.

Ortaq tarixi və mədəni əlaqələrə sahib olan Azərbaycan-Türkiyə keçmişdə olduğu kimi bu gün də bir millət iki dövlət kimi, dostluq və qardaşlıq bağları ilə bir-birinə bağlıdır. Tarixin ən çətin anlarında, istər Azərbaycanın müstəqilliyi, istərsə də Anadolu torpaqlarının düşməndən azad edilməsində bir-birinə arxa-dayaq olmuşdur.

## Sovet dövründən müstəqillik illərinə qədərki fəaliyyət

Tarixi materiallara baxdığımızda hələ 1969-1987-ci illərdən Azərbaycan-Türkiyə və hətta Sovet İttifaqı və Türkiyə arasındakı əlaqələrin qurulmasında Heydər Əliyev şəxsiyyəti-nin müstəsna rolu olmuşdur. Baxmayaraq ki, o dövrdə Heydər Əliyev Azərbaycan Kommu-nist Partiyasının Birinci Katibi və Politbüronun üzvü idi. Əlbəttə ki, o zamanlar bu əlaqələri yaratmaq o qədər də asan deyildi. Lakin ulu öndər hər fürsətdə, yaranan imkanlardan istifa-də edərək bu əlaqələrin güclənməsinə xidmət etmişdir. H. Əliyev Azərbaycan yazıçılarını,

alimlərini digər türk ölkələrinin yazıçı və elm adamları ilə birgə işləməyə çağırır. Bu baxımdan Yazıçılar Birliyinin 1981-ci il iyunun 12-13-də keçirilən VII qurultayında dediyi sözlər çox önəmlidir: "Müəlliflər, elm adamları, elmi qurumlar arasında əlaqələr son dərəcə zəifdir. Bu, bizim aramızda birliyin olmamasının, öz tariximizi dərk etməməyimizin göstəricisidir. Azərbaycan Ensiklopediyasının birinci cildi "Azərbaycan" maddəsi olmadan işıq üzü görüb. Türkdilli xalqların ölməz əsəri olan "Divani Lüğət-it Türk" nəşrə hazırlansa da, on beş ildən artıqdır ki, arxivdə toz basır. Xalqımızın keçmiş mədəniyyəti ilə bağlı simalarla tarixi əsərlər dilimizə tərcümə olunmayıb, onlarsız inkişafdan danışmaq mənasızdır" ( AMEA Əlyazmalar Arxiv 1964, vr. 108).

H. Əliyevin bu çıxışı ötən əsrin 70-ci illərində türk tarixi, ədəbiyyatı və mədəniyyəti ilə bağlı bir çox elmi araşdırmaların başlanmasına imkan yaratdı. İlk olaraq 1930-cu ildə qadağan olunmuş "Kitab-ı Dədə Qorqud" əsəri üzərində tədqiqatlarla başladı. Heydər Əliyev qoyulan qadağanı aradan qaldırmaq üçün  böyük işlər görür. Hətta Anarın ssenarisi əsasında "Dədə Qorqud" filmi çəkilmişdir. Elə sadəcə bu nümunə Heydər Əliyevin Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin qorunmasında və yaşadılmasındakı fəaliyyətinin və rolunun nə qədər böyük və misilsiz olduğunu göstərir.

Azərbaycan 1922-ci ildə Şərq Xalqlarının I Qurultayına və 1926-cı ildə I Türkologiya Qurultayına ev sahibliyi etdiyindən və latın əlifbasına keçən ilk türk ölkəsi olduğundan SSRİ tərkibində türk ölkələrinin mərkəzidir. O vaxtdan fəaliyyət göstərən əsas türkologiya elmi-tədqiqat jurnalı olan "Sovet türkologiyası" SSRİ Elmlər Akademiyası və Azərbaycan SSR Elmlər Akademiyasının tövsiyəsi ilə nəşr olunur. 1970-ci ildə H. Əliyevin dəstəyi ilə jurnalın redaksiya heyəti Bakıya köçür və Azərbaycanda çap olunmağa başlayır. Məşhur dilçi alim M. Ş. Şirəliyev jurnalın baş redaktoru təyin edilir. Bir il əvvəl H. Əliyevin 1969-cu ilin sentyabrında Sovet İttifaqı Kommunist Partiyasının İcraiyyə Komitəsinə yazdığı məktubda M. Şirəliyevə verir. SSRİ-də ilk dəfə olaraq türkoloq belə mühüm dövlət ordeninə layiq görülür. ( Qasımlı, 2006, 497)

Heydər Əliyev tərəfindən M. Ş. Şirəliyevin "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif olunması Türkologiya sahəsində bir ilk olan "Azərbaycan dilinin dialektologiya atlası"nın onun sədrliyi ilə hazırlanması olmuşdur. Atlasın hazırlanması zamanı nümayəndə heyəti məhz H. Əliyevin dəstəyi ilə İran, İraq (türkmənlərin yaşadığı bölgələrdə), Suriya, Gürcüstan, Ermənistan və Dağıstanda araşdırmalar aparmış, buradakı türklərin danışıq dillərində olan sözlərdən tərtib edilmişdir.

Azərbaycan müstəqillik qazandıqdan sonra da Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının başçısı seçildi və çox çətin dövr olaraq Azərbaycan tarixinə keçən 1987-1993-cü illərdə məhz Ulu Öndərin səyləri nəticəsində Türkiyə ilə sıx əlaqələr quraraq Naxçıvanı blokada vəziyyətindən çıxartmağa çalışmışdır.

1991-1993-cü illərdə Naxçıvana rəhbərliyi dövründə Heydər Əliyev tərəfindən respublikamızın müstəqilliyi yolunda mühüm addımlar atıldı, Muxtar Respublikanın adından "sovet sosialist" sözləri çıxarıldı, üç rəngli milli bayrağımız ilk dəfə Naxçıvanda

dövlət bayrağı kimi qəbul olundu, dünya azərbaycanlılarının həmrəyliyi günü müəyyən edildi, 20 yanvar faciəsinə siyasi qiymət verildi, SSRİ-nin saxlanılması barədə referendumdan imtina edildi, mühüm imperiya strukturlarının fəaliyyəti dayandırıldı, ilk dəfə olaraq sovet qoşun hissələri Muxtar Respublikadan çıxarıldı. Məhz bu dövrdə Türkiyə arasında yeni əlaqələr yaradıldı. Heydər Əliyevin müdrik siyasəti sayəsində ağır vəziyyətdə olan Naxçıvan çiçəklənməyə başladı. İlk dəfə olaraq Naxçıvandan yüz tələbə Türkiyəyə təhsil almaq üçün göndərildi. Bu əlaqələr Ulu Öndərin uzaqgörən siyasəti ilə sürətlə inkişaf etdirildi.

**1993-2003-cü illər arasında Azərbaycan-Türkiyə əlaqələri**

Bu gün Azərbaycan-Türkiyə arasında bütün sahələrdə olan əlaqələrin yüksək səviyyəyə gəlməsinin əsası, məhz Heydər Əliyevin 1993-2003-cü illərdə Azərbaycan Respublikasının Prezidenti olduğu on illik bir dövrdə atmış olduğu təməllər üzərində inşa etdirilmişdir. Bu illər ərzində Azərbaycan-Türkiyə əlaqələri böyük yol qət etmişdir. Əlbəttə bu asanlıqla olmamışdır. Azərbaycan dövlətçiliyinin mənafelərini hər şeydən uca tutaraq, hərtərəfli ölçülüb-biçilmiş addımların atılmasının vacibliyini vurğulayan Heydər Əliyev, müxtəlif dövlətlərin bütövlükdə Qafqaz və bilavasitə respublikamız üzərində qurulmuş iqtisadi maraq və nüfuz dairəsi uğrunda mübarizələrini nəzərə alaraq, strateji manevrlər etdi. Xarici siyasət kursunda mövcud reallıqlar nəzərə alınaraq, ölkənin mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. Müstəqil Azərbaycan dövlətinin beynəlxalq münasibətlər sistemindəki prioritetləri, dünya dövlətləri və nüfuzlu beynəlxalq təşkilatlarla əlaqələri yaxın və gələcək dövrlərə görə müəyyənləşdirildi və tədricən həyata keçirilməyə başlandı. Yenə də Ulu Öndərin müdrik zəkası sayəsində Rusiya, ABŞ, Türkiyə və digər qonşu dövlətlər arasında balanslaşdırılmış siyasət həyata keçirərək, daxili və xarici siyasət baxımından bölgədə sabitliyin qorunmasına nail olundu. Azərbaycanın təbii qaynaqlarının ölkə maraqlarına uyğun olaraq istifadəsi üçün Ulu Öndər Heydər Əliyev “Əsrin Müqaviləsi” ilə Xəzər enerji qaynaqlarını bütün dünyaya tanıdaraq Qərb dövlətlərinin, xarici sərmayənin marağını Azərbaycana çəkməyi bacardı. Bu dövrdə Azərbaycan-Türkiyə əlaqələrində başda siyasət, iqtisadiyyat olmaq üzrə digər sahələrdə də həyata keçirilən böyük inkişaf getdikcə strateji ortaqlığa çevrilmişdir. Bu əlaqələr sadəcə Türkiyə ilə məhdudlaşmamış, eyni zamanda türkdilli dövlətlər arasında da həyata keçirilirdi. Heydər Əliyev siyasəti sayəsində Azərbaycan dövləti xarici ölkələrlə əlaqələr konseptində nüfuz qazanmışdır. Lakin digər dövlətlərdən fərqli olaraq, Azərbaycan-Türkiyə arasındakı əlaqələr istər coğrafi yaxınlıq, istər dil, din, adət-ənənə baxımından olan bənzərlik iki ölkə arasındakı əlaqələrin genişlənməsinə müsbət təsir göstərmişdir. Dil yaxınlığı, ortaq mədəniyyət və tarixi bağlar Azərbaycan-Türkiyə əlaqələrinin inkişafında əsas rol oynamışdır. Azərbaycanın Türkiyə ilə Naxçıvandan 15 km uzunluğunda bir sərhədin varlığı da qarşılıqlı əlaqələrin inkişafında mühüm yer tutur.

Azərbaycan və Türkiyə tarix boyunca ən çətin anlarda bir-birinə dəstək olmuşdur. 1918-ci ildə Nuru Paşa komandanlığındakı “Türk Qafqaz İslam Ordusu” çətin məşəqqətli yollardan keçərək, canları bahasına Bakını mənfur erməni-bolşevik, terrorçu daşnak hücumundan xilas etmək üçün yardıma gəlmişdi. Bu qardaşlıq dastanı Azərbaycan tarixinə

qızıl hərflərlə yazılmışdır. Ulu Öndərin də dediyi kimi: “Türk ordusunun Azərbaycana, Bakıya gəlişi, Azərbaycanın erməni daşnakların hücumundan azad edilməsi hər bir azərbaycanlının qəlbində yaşayır. Azərbaycan xalqı o ağrılı-acılı dövrdə türk millətinin köməyini heç vaxt unutmayacaq.”

1919-1922-ci illərdə ölkənin bütövlüyü uğrunda aparılan Türkiyə İstiqlal Mübarizəsində azərbaycanlılar Qazi Mustafa Kamal Atatürkün rəhbərliyi ilə Anadoluda Milli Qurtuluş savaşına maddi və mənəvi olaraq yardım göstərmişdir. Bu məsələyə də münasibət bildirən Ulu Öndər Heydər Əliyev nitqlərinin birində: “Bu gün doğrudan da demək istərdim ki, xalqımız əsrlər boyu bir-biri ilə yaxın dost olub. Biz eyni mənşəli, eyni dildə danışan xalqlarıq. Milli dəyərlərimiz bir-birinə çox yaxın və oxşardır” deyə vurğulayır.

Müasir Azərbaycan dövlətinin qurucusu, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin siyasi-ideoloji fəaliyyəti təkcə Azərbaycanın sərhədləri ilə məhdudlaşmayıb, bu tədqiqatlar bütün Türk Dünyasını əhatə etmişdir.

Heydər Əliyev türk dünyasının birliyi üçün bir Lider kimi zəngin dövlət təcrübəsinə və potensialına arxalanaraq böyük işlər görmüşdür. Bu mənada onun fəaliyyətinin bəzi siyasi məqamları diqqət çəkir:

1. Azərbaycanın iqtisadi, siyasi və sosial problemlərinin həllində Türk Dünyasının potensial imkanlarından istifadə etmək;
2. Türk Dünyası qüvvələrini birləşdirmək, hər hansı bir türk dövlətinin problemlərinin həllində birgə fəaliyyəti təmin etmək;
3. Türk Dünyasının beynəlxalq imicini daha da gücləndirməyə çalışmaq və bunun üçün hər bir müstəqil türk dövlətinin imkanlarından faydalanmaq;

Heydər Əliyev, Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra Türk Dünyasının problemləri ilə daha yaxından məşğul olmağa başlamışdır. Ulu Öndər “İqtisadi tərəfdaşlıq” ölkələrinin birgə fəaliyyətinin nəinki türk və müsəlman ölkələrinin yaxınlığına, hətta bütün bəşəriyyət üçün faydalı olacağını düşünür.

Heydər Əliyev türk birliyinin inkişafında həmişə qardaş Türkiyənin əhəmiyyətini vurğulamış və Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün tarixi rolunu yüksək qiymətləndirərək, onu “XX əsrin böyük dahilərindən biri” olduğunu ifadə etmişdir.

Azərbaycan Cümhuriyyətinin qurucusu dahi şəxsiyyət Heydər Əliyevin Türkiyə Cümhuriyyətinin qurucusu Atatürk haqqında “Türkiyə Cümhuriyyəti təkcə Atatürkün əməyi ilə deyil, həm də onun qəhrəmanlığı ilə qurulub” deyirdi.

Türkiyə Cümhuriyyətinin qurucusu, Mustafa Kamal Atatürk Azərbaycan və Türk Dünyası ilə bağlı fikirlərini belə ifadə edir: “Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir”. “Mən Türk Birliyinə inanıram. Sabahın tarixi Türk Birliyi ilə yeni səhifələr açacaq. Dünya bu səhifələrdə əmin-amanlıq tapacaq. Türkün varlığı bu köhnə dünyaya yeni üfüqlər açacaq, günəşin nə olduğu o zaman görünəcək”. “Onlar bizim dili bir, özü bir olan qardaşlarımızdır”. “Dil bir körpüdür. İnanc bir körpüdür. Tarix bir körpüdür. Biz öz

kökümüzə enib, tariximizdə birləşməliyik. Onların bizə yaxınlaşmasını gözləyə bilmərik. Biz onlara yaxınlaşmalıyıq”.

Azərbaycanın Ümummilli Lideri Heydər Əliyev cənabları: “Atatürkün yaratdığı Türkiyə, sadəcə Türkiyə üçün deyil, bütün Türk Dünyası və Azərbaycan üçün əhəmiyyətlidir”. “İki ölkə eyni kök, eyni dəyər, eyni din və eyni dilə sahibdir”. “Hamımız bir kökdən gəldik. Hamımızın fikri və zəkası da köklərinə bağlıdır. Biz sahib olduğumuz köklərimizə önəm veririk”. “Biz Türkiyə Cumhuriyyətinin dəyərini sizdən daha çox bilirik” Azərbaycan və Türkiyə, Bakı-Tiflis-Ceyhan, Bakı-Tiflis-Ərzurum, Kars-Tiflis-Ceyhan və digər strateji layihələr bizi birləşdirir. Əsas prinsiplərində dahi Atatürkün “yurdda sülh, cahanda sülh” fikrinə əsaslanan türkçülük idealogiyası Türkiyə və Azərbaycanın dostluq şüarıdır. Necə ki, “Bir millət, iki dövlət” və “Azərbaycanın kədəri Türkiyənin kədəri, sevinci Türkiyənin sevincidir” olduğu kimi.

Azərbaycan ilə Türkiyə arasında qədim tarixi münasibətləri zəruri edən əsas amil ortaq mənşə, dil, dini birlik, oxşar mədəniyyət, adət və ənənələrdir.

Heydər Əliyev dövründə (1993-2003) Azərbaycan ilə Türkiyə arasında mədəniyyət və təhsilin bütün sahələrində geniş və əhatəli əlaqələr yaradılmışdır. İki ölkə arasında təhsil əlaqələri 1992-ci ilin əvvəllərində imzalanmış protokollarla başlayıb. Əslində, 1992-ci il fevralın 29-da imzalanan Anlaşma Memorandumu ilə Azərbaycan ilə Türkiyə arasında təhsil əlaqələrində mühüm addım atıldı. Bu müqavilələrin ardınca başqa müqavilələr də gəldi. Türkiyə Azərbaycan müstəqillik əldə etdikdən sonra təhsil və mədəniyyət sahəsində inkişafı istiqamətində mühüm addımların atılmasında Türkiyə öz üzərinə çox mühüm öhdəlik götürmüşdür. Türkiyə müstəqillik əldə etdikdən sonra Azərbaycanın təhsil və mədəniyyət sahəsində inkişafı istiqamətində mühüm addımların atılmasında çox mühüm rol oynamışdır. 1992-2001-ci illər arasında Türkiyədə 604 azərbaycanlı tələbə orta təhsil, 3490 nəfər isə ali məktəbdə təhsil alıb. (Aslanlı, Həsənov 2005, s. 172) Bunun nəticəsində minlərlə azərbaycanlı tələbə Türkiyə universitetlərindən məzun olaraq, istər Azərbaycanda, istər Türkiyədə və istərsə də digər ölkələrdə müxtəlif sahələrdə iş həyatına atılmışlar.

Təhsil sahəsində qarşılıqlı əməkdaşlıq sadəcə bununla məhdudlaşmayıb. Ümummilli Lider Heydər Əliyev dövründə 24 yanvar 1994-cü ildə Bakı Türk Anadolu Liseyi və 21 iyul 1994-cü ildə Bakı Türkiyə Türkcə Təhsil Mərkəzi (TÖMER) Türkiyə Respublikası Milli Təhsil Nazirliyi tərəfindən istifadəyə verilmişdir. Azərbaycanda türk özəl sahibkarları tərəfindən bir universitet və fakültələrlə yanaşı 14 lisey və bir ibtidai məktəb açılmışdır. 5 mart 1997-ci il tarixinə bu özəl müəssisələrdə 4007 şagird təhsil almış və 508 müəllim isə onlara təlim vermişdir. Digər tərəfdən, Türkiyə Respublikası Milli Təhsil Nazirliyi 1991-1997-ci illər arasında Azərbaycan Respublikası Təhsil Nazirliyinə 1 milyon 200 min dollar maliyyə dəstəyi göstərmişdir.

1992-ci ildə Azərbaycan və Türkiyə Respublikalarının Təhsil Nazirlikləri arasında təhsil sahəsində memorandum imzalanmış və bu 1994-cü ilin fevral ayında Azərbaycan və Türkiyə Respublikaları arasında elm, texnika, sosial-iqtisadi və mədəniyyət sahələrində

çoxtərəfli əməkdaşlıq haqqında sazişlə davam etdirilmişdir. 1996-cı il H. Əliyev dövrü Türkiyə-Azərbaycan münasibətləri üçün çox mühüm və müsbət hadisələrlə tarixə düşdü. İndi aydın şəkildə başa düşülür ki, iki dövlətin münasibətlərində müəyyən dil, üsul və üslub var. Bərabər hüquq və öhdəliklərlə iki müstəqil dövlət arasında əlaqələrin qurulması H. Əliyevin xarici siyasətinin ən mühüm məqsədi olmuşdur. Daim vurğulanan qardaşlığın ifadəsi həm Azərbaycan, həm də Türkiyə üçün çox önəmlidir. Bu əlaqələr 1997-ci ilin mart ayında imzalanmış Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Türkiyə Respublikasının Milli Təhsil Nazirliyi arasında elm və təhsil sahəsində əməkdaşlıq haqqında Protokolla daha da möhkəmləndirilmiş və inkişaf etdirilmişdir. Elm və təhsil sahəsində iki ölkə arasında əməkdaşlıq, Heydər Əliyev siyasətinin davamı olaraq bu gün də inkişaf etdirilir.

"Azərbaycanda təhsil verən Türkiyənin özəl məktəbləri ilə yanaşı, dövlət məktəblərində də 2000-ci ildən etibarən Bakıdakı 6, 14, 41, 56 və 261 saylı məktəblərdə türk dili dərsləri tədris olunmağa başlanmışdır" (Mərdanov, 2009) Heydər Əliyev dövründə ortaq mədəni dəyərlərimizə verilən önəmin göstəricilərindən biri də 2001-ci il martın 9-da Azərbaycanda Atatürk Mərkəzinin yaradılması haqqında Fərmanın imzalanması olmuşdur. Mərkəzin yaradılmasında məqsəd Azərbaycan və Türkiyə arasındakı tarixi əlaqələrin araşdırılması olmuşdur. Heydər Əliyevin göstərişi ilə təsis edilən Atatürk Mərkəzi iki dövlət arasındakı mədəni və tarixi əlaqələrin gücləndirilməsi məqsədi güdmüşdür.

Türkiyə ilə təhsil sahəsində də əməkdaşlıq təhsil nümayəndələri səviyyəsində qurulub. İki ölkənin Təhsil Nazirlikləri arasında əldə olunan razılığa əsasən, Türkiyə Respublikası Hökumətinin müvafiq qərarı ilə Böyük Tələbə Layihəsi çərçivəsində bu ölkənin universitetlərində təhsil nümayəndəsi vəzifəsi təsis edilib. Azərbaycandan və digər ölkələrdən gələn tələbələrin təhsil, sosial və digər məsələləri ilə məşğul olmaq üçün. 2008-ci ildən etibarən Azərbaycanın Türkiyədəki səfirliyində təhsil nümayəndəsi vəzifəsi ləğv edilərək təhsil attaşesi vəzifəsi yaradılmışdır. Daha sonra bu vəzifə "Eğitim Müşavirliği" olaraq dəyişdirilmişdir. (Araslı, 2005)

Azərbaycan-Türkiyə mədəni əlaqələr və təsir dairəsi 20-ci əsrin sonlarında gedərək artmış və güclənmişdir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev, ən kritik zamanlarda aldığı qərarlarla Türkiyə ilə Azərbaycanı bu gün dünya siyasətində çox strateji bir mərhələyə gətirmişdir.

Azərbaycanda Ümummilli Lider Heydər Əliyev hakimiyyəti dövründə Türkiyə Cümhuriyyəti ilə ikitərəfli münasibətlərdə mühüm irəliləyiş əldə olunub. Bu dövrdə ikitərəfli əlaqələr çərçivəsində Türkiyə ilə xüsusilə enerji siyasətləri ilə bağlı uzunmüddətli əməkdaşlıq qurulmuş, əlaqələrin daimi və iqtisadi maraqlara söykənməsinin əsasları qoyulmuşdur. Bu fondlar İlham Əliyevin hakimiyyəti dövründə də Türkiyəyə qarşı siyasəti əhəmiyyətli dərəcədə inkişaf etdirilmişdir.

2009-cu ildə imzalanan Naxçıvan Bəyannaməsi Heydər Əliyev ideyalarının uğurlu davamıdır. Azərbaycanın mənfur düşmənə qarşı apardığı haqlı mübarizə; Aprel döyüşləri,

Tovuz döyüşləri, 44 günlük Vətən müharibəsi zamanı Türkiyənin dəstəyi "bir millət, iki dövlət" arasındakı qardaşlığın nümunəsidir.

Müdrik dövlət xadimi, Ulu Öndərimiz H. Əliyev ideyalarının, uzaqgörən siyasətinin layiqli davamçısı olan möhtərəm Prezidentimiz İlham Əliyev cənabları bu gün bu müdrik siyasəti uğurla və qətiyyətlə davam etdirir.

Müstəqillik dövründə Azərbaycan bütün dünya dövlətləri arasında iqtisadi, siyasi, mədəni əlaqələrin artması, son nəticədə Heydər Əliyevin uzaqgörən siyasəti ilə xarakterizə olunur. O, Azərbaycan dövlətinin mənafeyini uca tutaraq, daxili və xarici siyasət konsepsiyasının hazırlanmasını və həyata keçirilməsini aktual və taleyüklü vəzifə olaraq görürdü. Məhz Ulu Öndərin yaratdığı şərait, Azərbaycanda yetmiş il ərzində qadağan edilmiş ümumtürk əlaqələrinin milli-tarixi zəmində tədqiqi elmi-mədəni əlaqələrimizin genişlənməsi üçün yeni səhifələrin açılmasına səbəb oldu.

**Nəticə**

Belə nəticəyə gəlirik ki, bu cür əvəzsiz işlərin memarı, təşkilatçısı və lideri olan H. Əliyev cənablarının imkansızı mümkünə çevirməsi, ən çətin vəziyyətlərdən böyük müvəffəqiyyətlə çıxması elmi cəhətdən kifayət qədər araşdırılmamışdır. Azərbaycanı çiçəklənən bir dövlətə çevirən H. Əliyev siyasətinin çoxşaxəli və dərin diplomatik məqamların dərindən tədqiqi ölkəmizin davamlı müstəqilliyi üçün mühüm məsələdir. H. Əliyev cənablarının memarı olduğu "Əsrin müqaviləsi" və "Bakı-Tbilisi-Ceyhan neft kəməri" haqqında da bu fikirlər söylənə bilər. H. Əliyevin misilsiz fəaliyyətləri Azərbaycan və Türkiyə siyasətçiləri, tarixçiləri tərəfindən dərindən araşdırılaraq dünya ictimaiyyətinin nəzərinə çatdırılmalıdır. Ümummilli Lider möhtərəm H. Əliyev cənablarının  həyata keçirdiyi nəhəng layihələr bir daha təhlil edilməli və çətin şəraitdə, ağır vəziyyətdə olan Azərbaycanın çiçəklənməsinə xidmət edərkən qarşısına çıxan ciddi əngəlləri dərindən öyrənmədən Heydər Əliyev dühasını anlamaq və dərk etmək  olmaz.

Ümummilli Lider H. Əliyev cənablarının yeritdiyi elm və təhsil siyasəti onun nə qədər uzaqgörən və vətənsevər olduğunu bir daha göstərir. Azərbaycanda fəaliyyət göstərən türk liseyləri və eyni xeyir-dua ilə müxtəlif elm sahələrində işləyən Azərbaycan alimlərinin Türkiyə universitetlərində uğurlu fəaliyyəti. Bu gün  davam edən Azərbaycan-Türkiyə arasında elmi, mədəni əlaqələr, eləcə də tələbə mübadiləsi ölkənin gələcəyi üçün hazırlanan bacarıqlı kadr siyasətinin  memarı möhtərəm Heydər Əliyev cənablarının uzaqgörən siyasətinin məhsuludur. Bu sadəcə elm və təhsilin inkişafı deyil, kökləri daha dərin və qlobal bir məsələdir. H. Əliyev uzaqgörən siyasəti ilə Azərbaycan və Türkiyə xalqının dostluq, qardaşlığının bütünləşməsinə daha yüksək səviyyəyə çatdırılmasına xidmət etmişdir.

Azərbaycan xalqının Ümummilli Lideri mərhum Heydər Əliyev ən kritik zamanlarda qəbul etdiyi qərarlar Türkiyə ilə Azərbaycanı bu gün dünya siyasətində çox strateji bir mərhələyə gətirmişdir.

Hazırda Türkiyə-Azərbaycan münasibətləri öz tarixi qardaşlıq ənənələrinin ən yüksək zirvəsini yaşamaqdadır. Artıq Azərbaycan və Türkiyə münasibətlərinin yaratdığı yeni

geostrateji reallığın təkcə iki ölkəyə deyil, bütövlükdə regiona yeni inteqrasiya perspektivləri və əməkdaşlıq imkanları gətirdiyi hamıya məlumdur. Bu isə bölgəmizə sülhün və rifahın gəlməsi deməkdir.

Heydər Əliyev irsinin uğurlu davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Türkiyəyə, türklüyə sevgisi sadəcə bir türk bağlılığı deyil, həm də keçmişdən bizə miras qalan və göz bəbəyi kimi qorunaraq gələcək nəsillərə əmanət edilən Azərbaycançılıq və türkçülük məfkurəsidir.

Ulu Öndərin bir zamanlar uzaq görənliklə söylədiyi "elə bir zaman gələcək ki, Türk Dünyası birləşəcək, Türk dünyası tək yumruq olacaq. Əminəm ki, o gün çox yaxındadır" sözləri bu gün həqiqətə çevrilir. Heydər Əliyevin vəfatından illər sonra bu dostluq, qardaşlıq daha da inkişaf etdi. Bu gün Azərbaycan və Türkiyə bütün dünyada iki ayrılmaz dost və qardaş kimi tanınır. Sevindirici haldır ki, Heydər Əliyev irsinin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti Ali Baş Komandan İlham Əliyev cənabları respublikaya rəhbərlik etdiyi ilk aylardan etibarən türk dünyası ilə qarşılıqlı əlaqələr strategiyasını müvəffəqiyyətlə həyata keçirir. Son illərdə aparılan əməkdaşlıq və birlik siyasəti bunun bariz nümunəsidir.

**Development Strategy of Azerbaijan-Turkey Relations in Heydar Aliyev's Politics**
**Summary**

**Keywords**: Great Leader, Heydar Aliyev, Turkey, politics

After the collapse of the Soviet Union, it was the Great Leader Heydar Aliyev who saved Azerbaijan from the political and economic difficulties and chaos it fell into, and made it possible for Azerbaijan to be recognized in the international arena. This policy is aimed at regularly strengthening and developing Azerbaijan's statehood and protecting national interests. The foreign policy of the Republic of Azerbaijan has had a positive effect on relations with Turkey and regional states.

In this article, the exceptional role of Heydar Aliyev in the development of Azerbaijan's relations with Turkey in all fields and Turkey's priority in Azerbaijan's foreign policy is briefly reflected. At the same time, we tried to make a small contribution to the centenary anniversary of the Great Leader by briefly covering the unparalleled services of Heydar Aliyev in the direction of strengthening the sovereignty of the Republic of Azerbaijan.

**Ədəbiyyat siyahısı**


1. Aslanlı A., Hesenov İ., Haydar Aliyev Dönemi Azerbaycan`ın Dış Politikası (1993-2001), Platin Yayınları, Ankara 2005.

2. Azərbaycan Türkiyə əlaqələri son 20 ildə: uğurlar və imkanlar (məqalələr toplusu), Dövlət Nəşriyyatı, Bakı 2011.

3. Budaq Budaqov. Heydər Əliyev fenomeni. Bakı 2002.

4. Əliyev Heydər. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Bakı 2001.

5. Əliyev Heydər. Müstəqillik yolu (seçilmiş fikirlər). Bakı 1997.

6. Heydər Əliyev və müasir Azərbaycan (Ümumrespublika Əliyevşünaslıq konfransının materialları). Bakı 2003.

7. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir (I cild), Bakı 1997.

8. Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır. Bakı 1994

9. Mərdanov M., "Azərbaycan təhsili: yaxın keçmişə, bu günə və gələcəyə bir baxış", 525-ci Qəzet, 5 dekabr 2009 – http://www.525.az.view.php?lang=az&menu=7&id=5076

10. M. Ş. Şirəliyev, M. İslamov, Azərbaycan Dilinin Dialektoloji Atlası, Elm, 1990.

11. Qasımlı, M. Heydər Əliyev – istiqlala gedən yol (1969-1987-ci illər), Bakı 2006

**Günay Verdiyeva**
AMEA akad. Z. M. Bünyadov adına Şərqşünaslıq İnstitutu,
İran filologiyası şöbəsinin müdiri, f.ü.f.d., dosent

# ULU ÖNDƏR VƏ CAVAD HEYƏT

**Açar sözlər**: Heydər Əliyev, Cavad Heyət, Cənubi Azərbaycan, Vətən, ədib

"Gərək nəbzin Vətənin nəbzi ilə vursun" – deyirdi Ümummilli lider.

Canı və qanı ilə bu millətə,xalqa bağlı olan Ulu Öndər Heydər Əliyev bütün həyatı boyu xalqın ağır günlərində də vətəndaşlarının yanında, arxasında olub. Bu həm də Cənubi Azərbaycandan olan soydaşlarımıza aiddir. Hər zaman İran İslam Respublikasında səfərdə olarkən Heydər Əliyev Təbriz, Ərdəbildə və digər şəhərlərdə yaşayan azərbaycanlıların vəziyyəti ilə maraqlanırdı.

Onlardan biri mərhum, dünya şöhrətli alim, alim, həkim-cərrah, naşir Cavad Heyət idi. Heydər Əliyev Cavad Heyətə xüsusi rəğbət bəsləyirdi. Heydər Əliyev İranda Azərbaycan dilində nəşr olunan qəzet və jurnallara xüsusi diqqət verirdi. Məlumdur ki, 1979-cu ildə inqilabdan sonra İranın müxtəlif şəhərlərində Azərbaycan dilində bəzi qəzet və jurnallar nəşr olunmağa başlamışdı. Bunlardan biri 1979-cu ilin iyun ayından etibarən Tehranda nəşr edilən Azərbaycan dilində "Varlıq" jurnalı idi. Materialların bir qismi fars dilində dərc olunurdu. Jurnalda Azərbaycan dili və ədəbiyyatı, tarixi, incəsənəti və mədəniyyəti məsələləri işıqlandırılır, şair və yazıçıların əsərləri ixtisarla çap olunurdu. Jurnalın naşiri Cavad Heyət 1946-cı ildə İstanbul Universitetinin Tibb fakültəsini bitirmişdi, ürək cərrahiyyəsi üzrə məşhur mütəxəssis idi. O, bir çox beynəlxalq konqresdə iştirak etmişdi. Fransa və İngiltərədə nüfuzlu jurnallarda məqalələri çap olunmuşdu. Fransa Elmlər Akademiyasının müxbir üzvü idi. Tehrandakı "Tibb jurnalı"nın 13 il baş redaktoru işləmişdi. "Cərrahiyyə dərsləri" elmi əsərinin müəllifi idi.

Cavad Heyət Azərbaycana səfər etmək istəyirdi. Bu barədə məlumat alan Heydər Əliyev onu Bakıya dəvət etdi. Cavad Heyətin Şimali Azərbaycanla əlaqələrinin genişlənməsi cənubluları öz hüquqları uğrunda daha ardıcıl mübarizə aparmağa ruhlandırırdı. 1979-cu ildən Təbrizdə Azərbaycan dilində nəşr olunan "Odlar yurdu" və Urmiyada çap edilən "Tarla" jurnallarında, Təbrizdə nəşr edilən həftəlik "Araz" qəzetində Azərbaycan xalqının adət-ənənələri, mədəniyyəti, dili ilə bağlı məqalələr verilirdi. 1980-ci ilin avqust ayından etibarən Azərbaycan dilində nəşr olunan "Koroğlu" və "Dədə Qorqud" jurnallarında Şimali Azərbaycana dair məqalələr dərc edilirdi. Materialların bir qismi Bakıdan göndərilirdi. Bütün bunlar cənubda milli ruhu gücləndirir, Şimali Azərbaycana olan rəğbəti artırır, Bütöv Azərbaycan düşüncələrini genişləndirirdi.(5)

Heydər Əliyev cənubdakı azərbaycanlıların hüquqlarının qorunması və onlara mənəvi dəstək verilməsi məsələsini sovet rəhbərliyi qarşısında qətiyyətlə qaldırdı. Bu xidmətlər cənublular tərəfindən yüksək qiymətləndirilirdi. Cənubi Azərbaycanın mütərəqqi ziyalıları

Heydər Əlirza oğlu Əliyevlə fəxr edir, onun respublika əhalisinin həyat səviyyəsini yaxşılaşdırması, tərəqqiyə aparması ilə öyünürlər. Heydər Əliyev cənublular tərəfindən Vahid Lider, Böyük Dövlət Adamı kimi qəbul edilirdi.

Cavad Heyət çətin şəraitə baxmayaraq İranda ana dilində "Varlıq" jurnalını çap etdirirdi. "Varlıq" İranda 1979-cu il İran islam inqilabından sonra, vətəndaşlara ana dilində jurnal nəşr etdirmək icazəsindən sonra yaradılmışdır. Jurnalın işıq üzü görməsində xüsusilə Cavad Heyətin böyük rolu olmuşdur. Cavad Heyət bütün ömrü boyu jurnalı şəxsi vəsaiti hesabına nəşr etdirib.

Yazıların əksəriyyəti Azərbaycan dilində, digərləri isə fars dilində idi. Bütün İran cəmiyyətinə hesablanan məqalələr fars dilində verilir. Jurnalda Azərbaycanın ayrılmaz hissi olan Qarabağ problemi ilə bağlı məqalələrdə yer alır. "Varlıq" jurnalı İranda tanınan və ciddi oxunan nəşrlərdəndir. Jurnalın redaksiya heyətində Cənubi Azərbaycan poeziyası və ədəbiyyatının görkəmli nümayəndələrindən sayılan Professor Həmid Nitqi, Məmmədəli Fərzanə, Kərim Sönməz, Həsən Məcidzadə Savalan, Səməd Sərdariniya, və Qulamhüseyn Beqdeli kimi tanınmış qələm sahibləri təmsil olunurdular. 2014-cü ildə Cavad Heyət dünyasını dəyişəndən sonra vəsiyyətinə əsasən jurnala onun mənəvi varisi, Ankara Universitetinin müəllimi, türkoloq Rza Heyət başçılıq edir.(7)

Cavad Heyət hər zaman Ulu Öndərin ana dilinə olan sevgisini hörmətlə vurğulayırdı Cavad Heyət deyirdi: "Xüsusilə qeyd etmək istəyirəm ki, sovetlər birliyi dövründə Azərbaycan dilinin qarşılaşdığı problemlər məni yeniyetmə yaşlarımdan narahat etməyə başlamışdır.

Ümummilli lider Heydər Əliyev birinci dəfə siyasi hakimiyyətə gəldikdən sonra totalitar sovet rejiminin amansız qadağalarına baxmayaraq, ana dilimiz dövlət dili kimi qəbul olundu. Bu, yüz illər boyu həllini gözləyən milli məfkurə məsələsi idi. Hələ rus dilinin hökmran olduğu sovet dövründə ümummilli lider Heydər Əliyevin Azərbaycan dilində saatlarla sərbəst və səlis danışması məni valeh edirdi. Mən həmişə düşünmüşəm ki, ana dilini sevmədən onu dərindən mənimsəmək olmaz.

Heydər Əliyev, sözün əsl mənasında, ana dilimizə tükənməz məhəbbəti ilə hamımıza örnək olmuşdur".(1)

Ulu Öndərlə Cavad Heyət bir neçə dəfə görüşüblər. Onlardan biri 1996 –cı ildə Naxçıvanda görkəmli Azərbaycan ədibi - şair, yazıçı və dramaturq Hüseyn Cavidin məqbərəsinin açılışında olmuşdur. Qonaqların arasında Cavad Heyət də var idi. Hələ Ulu Öndərlə ilk görüşdən Cavad Heyət çox təsirləndiyini bildirmişdi. Heydər Əliyev onu tez-tez Azərbaycana gəlməyə dəvət etmiş və burada tibbi və elmi fəaliyyət ilə məşğul olmağa sövq etmişdir. Bu görüşdə Ulu Öndər hətta Cavad Heyətə irad da tutmuşdu. Heydər Əliyev gülümsəyərək qeyd etmişdi: "Cavad bəy, mən bir neçə il idi ki, Naxçıvanda idim, sən niyə mənimlə görüşməyə gəlmədin? Bu iradı gözləmirdim, çox xəcalət çəkdim, açığını deməyi doğru saydım. Dedim ki, möhtərəm Heydər bəy, orada bizlər Sizi əvvəllər əmniyyət generalı və kommunist kimi, sonra da Şurəvinin başında duran yüksək şəxslərdən biri kimi

tanıyırdıq. Əgər Sizin bu qədər milli, azərbaycançı olduğunuzu, eyni zamanda mənim şəxsimi və fəaliyyətimi bildiyinizi zənn etsəydim, Sizinlə görüşmək üçün Tehrandan Naxçıvana dizin-dizin sürünüb gələrdim".(4) Bu görüşün təfərrüatı haqqında Cavad Heyət sonralar şəxsən o zaman Tehranda diplomatik xidmətdə olan tarixçi-alim Eynulla Mədətliyə danışmışdı.

2007-ci ildə Azərbaycanın İrandakı səfirliyində Ümummilli lider Heydər Əliyevin büstünün açılış mərasimində doktor Cavad Heyət də iştirak etmişdir. Cavad Heyət müsahibəsində demişdir:

– Mən həmişə Azərbaycanın İrandakı səfirliyində olmaqdan qürur duymuşam. Budəfəki təəssüratım yerə-göyə sığmır. Çünki Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin büstünün açılışında iştirak edirəm. Heydər Əliyev həmişə məni özünə dost bilmişdir. Mən bu dahi insanın fikirlərindən, sözlərindən, prinsiplərindən həmişə bəhrələnmişəm O, həqiqətən öndər, dahi şəxsiyyət idi. Biz burada "Qurtuluş" filminə tamaşa etdik. Azərbaycanı bəlalardan xilas etmiş Heydər Əliyev ən böyük adlara layiqdir. Çox istərdik ki, Heydər Əliyev başladığı şərəfli missiyanı sonadək davam etdirsin. Xüsusilə Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın maraqları çərçivəsində həll edilməsində Heydər Əliyev böyük işlər görə bilərdi. Təəssüf ki, ölüm dahi şəxsiyyətin ali məqsədinə nail olmasına imkan vermədi. Bu işi indi Prezident İlham Əliyev uğurla davam etdirir. Mən inanıram ki, Azərbaycan Prezidenti Heydər Əliyev yolu ilə sonadək inamla irəliləyəcəkdir. Çünki İlham Əliyevin bu şərəfli missiyada güvəndiyi Azərbaycan xalqı, bəhrələndiyi Heydər Əliyev dühasıdır.(2)

Ulu Öndər Heydər Əliyev doğma dil və ədəbiyyatımızın mahir bilicisi olaraq, Cənubi Azərbaycan ədəbiyyatının digər nümayəndələrinə də xüsusi maraq və qayğı göstərirdi.

Cənubi Azərbaycanda yaşayan, əslən Marağadan olan digər ədib-şair Bulud Qaraçorlu Səhənd 1974-cü ildə Heydər Əliyevə ünvanladığı "Elimin dayağı, yurdumun fəxri" şeirini yazmışdır. Məktub formasında yazılan bu şeirdə şair Heydər Əliyevi həm Şimali, həm də Cənubi Azərbaycanın fəxri adlandırılmış, fəaliyyətini yüksək qiymətləndirmişdi. Heydər Əliyevi millətin dayağı, ümid yeri kimi dəyərləndirən şair, ona olan sevgi və hörmət hissini çox səmimi bir şəkildə sətirlərə düzmüşdü.

Bu gün millətimin dayağı Sənsən,
Elimin çörəyi halalın olsun!
Dünyalar durduqca əsən dur, əsən!
Sənə göz dikmişdir bütün Vətənin! (6,59-60)

Heydər Əliyev Cənubi Azərbaycanın digər ədibi Biriyanın taleyində də böyük rol oynamışdır. Sonralar Ulu Öndər xatırlayırdı: "Cənubi Azərbaycanın böyük bir şairi var idi – Məhəmməd Biriya. Cənubi Azərbaycan hərəkatı zamanı nazir olmuşdu. Sonra Azərbaycana gəlmişdi. Təəssüf ki, 1949-50-ci illərdə Rusiyanın Saransk şəhərində düşərgədə cəza çəkirdi, onu həbs etmişdilər. Mən Respublika Dövlət Təhlükəsizliyi Komitəsində işləyərkən 1958-ci ildə şəxsən Saranska getdim, Biriya ilə görüşdüm, onu Bakıya gətirdim. Onunla maraqlı söhbətlərim oldu. Çox böyük şair idi. Onu demək istəyirəm ki, Cənubi

Azərbaycandan 1946-cı ildə Şimali Azərbaycana gələnlərlə, onların təşkilatları ilə sıx əlaqə saxlayırdım, yardım göstərirdim".

Gördüyümüz kimi, Vətənə, xalqa, bütün Azərbaycan millətinə olan sevgi Ulu Öndər Heydər Əliyevin əsas qayəsi olub. Bu münasibət, şübhəsiz ki, başda Cavad Heyət olmaqla bütün cənublu soydaşlarımıza sirayət etmişdi.

Heydər Əliyevə məxsus Vətən sevgisi, onun zəkası, dühası indi də bütün azərbaycanlılar üçün örnəkdir.

**Great Leader and Javad Heyat**
**Summary**

**Keywords**: Heydar Aliyev, Javad Heyat,South Azerbaijan, Motherland, writer

The article deals with the relationship between Great Leader Heydar Aliyev and world-famous scientist, publisher, doctor Javad Heyat. Throughout his life, as a person devoted to the Motherland with his soul and blood, the national leader was in close contact with scientists and writers from South Azerbaijan, and was closely interested in their fates. Javad Heyat was among these writers. Javad Hayat, in his turn, was very sympathetic to the Great Leader. He always emphasized Heydar Aliyev's love for the Motherland and the Azerbaijani language, and expressed his admiration.

## Ədəbiyyat siyahısı

1. Cavad Heyət: Azərbaycanın, Bakının bugünkü inkişafını görmək mənə həyatın bütün nemətlərindən şirindir http://anl.az/down/meqale/edebiyyat/2010/avqust/130434.htm

2. Cavad Heyət: Mən Heydər Əliyevin fikirlərindən, sözlərindən və prinsiplərindən həmişə bəhrələnmişəm https://azertag.az/xeber

3. Doktor Cavad Heyət. Bıçaq və qələm. Bakı. Təhsil. 2000

4. Eynulla Mədətli. Doktor Cavad Heyətin sonsuz Azərbaycan sevdası və Bakı vurğunluğu https://525.az/news

5. Musa Qasımlı. Heydər Əliyev və Cənubi Azərbaycan. https://science.gov.az/az/news/open/23115

6. Səhənd. Seçilmiş əsərləri. Bakı, 2006

7. https://az.wikipedia.org/wiki/Cavad_Heyət

**Vüqar Məmmədov**
AMEA akad. Z. M. Bünyadov adına Şərqşünaslıq İnstitutu,
İran filologiyası şöbəsinin
aparıcı elmi işçisi, f.ü.f.d.
vm12345@mail.ru

# MÜSTƏQİL AZƏRBAYCANIN ŞƏRQ SİYASƏTİ ŞƏRQŞÜNASLIQ İNSTİTUTUNUN TƏDQİQATLARINDA

**Açar sözlər**: Heydər Əliyev, İlham Əliyev, Müstəqil Azərbaycan, Şərq siyasəti, Şərqşünaslıq İnstitutu

## Giriş

Müstəqil Azərbaycanın kövrək addımlarını atdığı ilk illərdə, Vətənimizə öz maraqları baxımından hər tərəfdən hər cür basqılar edən xarici imperialist güclərin, eləcə də yaranmış mövcud şəraitdən faydalanaraq göz dikdikləri torpaqlarımızı işğal etmək üçün elə həmin imperialistlərin dəstəyi ilə müharibə alovuna bürüyən mənfur qonşularımızın, ölkəmizi parçalayıb yer üzündən silmək istəyən həmin xarici qüvvələrin çirkin oyunlar oynadığı, ölkə daxilində vətəndaş müharibəsinin qapımızı döydüyü bir dönəmdə hakimiyyətə dönən Ulu Öndər Heydər Əliyev zəngin dövlət idarəçiliyi təcrübəsi ilə nəinki ölkəmizin xilaskarına çevrildi, eləcə də uzaqgörən siyasəti ilə parlaq gələcəyimizin əsasını qoydu.

Müdrik rəhbər ölkəni çətin vəziyyətdən çıxarmaqla yanaşı, on illər irəli baxıb gələcəyin qüdrətli Azərbaycanını qururdu. Bu qüdrətli dövlətin quruculuğunda Ulu Öndərin işini onun layiqli davamçısı İlham Əliyev davam etdirir.

Ümummilli Lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət quruculuğunda xarici siyasətin, o cümlədən ölkəmizi əhatə edən Yaxın Şərq və İpək yolu ilə ticarət tərəfdaşlarımızdan olan Uzaq Şərq ölkələri ilə münasibətlərin qurulması və inkişaf etdirilməsinin əhəmiyyəti böyükdür.

AMEA-nın Şərqşünaslıq İnstitutunda aparılan tədqiqatlarda Azərbaycan rəhbərlərinin Şərq siyasəti diqqət mərkəzindədir. Məqalədə müstəqil Azərbaycanın Şərq siyasətinin Şərqşünaslıq İnstitutunda son 20 ildə necə öyrənilməsindən bəhs edəcəyik.

## Müstəqil Azərbaycanın Şərq siyasətində Çin

Ötən 30 ildə Ulu Öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin apardıqları Şərq siyasətinin Şərqşünaslıq İnstitutunda öyrənilməsi sahəsində bu siyasətin Çin qolu ilə bağlı tədqiqatlar keyfiyyəti və məhsuldarlığı ilə xüsusi seçilir. Bu işdə əsas pay təcrübəli çinşünas mütəxəssis, coğrafiya üzrə fəlsəfə doktoru Rafiq Abbasova məxsusdur.

Rafiq Abbasovun 2004-cü ildə Çin dilində “Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimində nitqi” kitabı çap olunub.

2005-ci ildə çinşünas alim “Prezident İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri” kitabını ictimaiyyətə çatdırıb. Kitabda ölkə rəhbərinin Çində keçirdiyi görüşlər barədə ətraflı məlumat verilib. Materiallar həm Azərbaycan, həm də Çin dillərində təqdim edilib.

Rafiq Abbasov 2011-2012-ci illərdə “Çin Xalq Respublikasının Qafqaz siyasəti” mövzusunda tədqiqat aparıb. Tədqiqatda qeyd edilir ki, Azərbaycan Respublikasının müstəqilliyini tanıyan ilk dövlətlərdən olan Çin özünün Qafqaz siyasətində mühüm yer tutan Azərbaycanın neft və qaz layihələrində iştirakını öz enerji problemlərinin həlli yollarından biri kimi görür. Bununla yanaşı, Çin biznesi respublikamızın iqtisadiyyatının digər sahələrinə də daxil olur. Azərbaycan iş adamları da Çinin iqtisadi həyatında fəal iştirak edirlər (1, 51).

Cənubi Qafqazın ən çox inkişaf etmiş ölkəsi olan Azərbaycanın müstəqilliyini bərpa etdikdən sonra təkcə siyasi cəhətdən deyil, eləcə də iqtisadi, mədəni və digər sahələrdə də sürətlə inkişaf etməklə digər dövlətlərdən fərqlənməyə başladığını yazan alim, Çin Xalq Respublikasının da bu cür inkişaf etməkdə olan ölkə ilə əməkdaşlığa maraqlı olmasının təbii olduğunu qeyd edir. Azərbaycan ilə Çin arasında əlaqələr yüksələn xətlə inkişafından bəhs edən tədqiqatçı, münasibətlərimizin daha da genişlənməsində dövlətlərimizin başçılarının xüsusi rolunu qeyd edir. Belə ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2005-ci ildə Çinə səfəri zamanı imzalanmış çoxsaylı sənədlər əlaqələrimizin hərtərəfli inkişafı üçün möhkəm hüquqi baza yaratmışdır. Dünya qlobal maliyyə böhranına baxmayaraq, ticarət dövriyyəmizin 2010-cu ildə 759 milyon ABŞ dolları olması qeyd edilən tədqiqatda növbəti ilin ilk 4 ayında bu rəqəmin 457 milyon dollar təşkil etdiyini yazaraq, bunun hər iki dövlətin sürətlə inkişaf etməsinin və çox sağlam, normal münasibətlərə malik olmasının göstəricisi olduğunu bildirir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin siyasəti ilə bağlı 2013-cü ildə Rafiq Abbasovun Azərbaycan və Çin dillərində tərtib etdiyi “İlham Əliyev – qədim xalqların dostluğunun müasir davamçısı” adlı kitabı çapdan çıxıb. Kitabda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2003-2013-cü illər ərzində Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında ikitərəfli siyasi, iqtisadi və mədəni əlaqələrin inkişafında həyata keçirdiyi fəaliyyəti əks olunub.

Alimin 2017-ci ildə “Azərbaycan-Çin: diplomatik münasibətlərin qurulmasının 25-ci ildönümü” kitabı Çin və Azərbaycan dillərində işıq üzü görüb. Kitabda Azərbaycan Respublikasının prezidentləri Heydər Əliyev və İlham Əliyevin ikitərəfli siyasi, iqtisadi və mədəni əlaqələrin inkişafı sahəsində çıxışları, nitqləri, bəyanatları, müsahibələri, məktubları, məruzələri, müraciətləri əks olunub.

Ulu Öndər Heydər Əliyevin Şərq siyasəti ilə bağlı 2021-ci ildə Rafiq Abbasovun tərtibi və tərcüməsində Çin və Azərbaycan dillərində “Heydər Əliyev və Çin (çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər)” kitabı çapdan çıxıb. Kitabda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1993-2003-cü illər ərzində

Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında ikitərəfli siyasi, iqtisadi və mədəni əlaqələrin inkişafı sahəsində çıxışları, nitqləri, bəyanatları, müsahibələri, məktubları, məruzələri, müraciətləri əks olunub. R. Abbasov kitaba yazdığı geniş ön sözdə qeyd edir ki, Azərbaycan dünyanın iri dövlətlərindən biri olan Çin xalq Respublikası ilə dostluq və əməkdaşlıq münasibətlərinə böyük əhəmiyyət verir. Azərbaycanın istiqlaliyyət qazanması və ölkələrimiz arasında diplomatik münasibətlər yaradılması ikitərəfli əlaqələri genişləndirmək üçün əlverişli imkan açmışdır və bu gün həmin əlaqələr sabit və sağlam təməl üzərində inkişaf edir. Azərbaycanın müstəqilliyini tanımış ilk dövlətlərdən biri olan Çin Xalq Respublikası dünya siyasətində öz dəst-xətti ilə seçilən ölkədir. Prezident Heydər Əliyevin 1994-cü ilin martında Çinə səfəri müstəqillik əldə etmiş Azərbaycanın dövlət başçısının bu ölkəyə ilk səfəri olmaqla yanaşı ikitərəfli əlaqələrin genişləndirilməsinə və inkişaf etdirilməsinə mühüm töhfə vermişdir (Heydər Əliyev və Çin, 17).

Çinşünas alim onu da bildirir ki, Prezident Heydər Əliyevin Çinə səfəri Azərbaycan həqiqətlərinin, xalqımızın haqq səsinin dünyaya çatdırılmasına, respublikamızın əhatə olunduğu informasiya blokadasının yarılmasında əvəzsiz rol oynamışdır. Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar qanlı döyüşlərin davam etdiyi, Azərbaycan sülhpərvər mövqedən çıxış edərək cəbhədə atəşkəsə nail olmağa cəhd göstərdiyi bir dövrdə Prezident Heydər Əliyev Çinə səfəri zamanı keçirdiyi görüşlərdə və danışıqlarda Ermənistanın təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizinin işğal olunduğunu, bir milyon soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü bir daha dünyaya bəyan etmişdir (Heydər Əliyev və Çin, 18).

R. Abbasovun 2023-cü ildə nəşr edilmiş “Heydər Əliyev-100. Çinə tarixi səfər” kitabı Ümummilli Liderin Çin Xalq Respublikasına rəsmi səfəri zamanı bu ölkənin ictimaiyyəti qarşısında, Ümumçin Xalq Nümayəndələri Məclisi Daimi Komitəsinin Sədri Li Penin rəhbərlik etdiyi ÇXR-nin nümayəndə heyəti ilə görüşündəki çıxışları, o cümlədən Çinin milli bayramı münasibətilə keçirilən rəsmi qəbullardakı çıxışlarından ibarətdir. Kitabda, həmçinin Ümummilli Liderin tarixi İpək Yolunun bərpasına həsr olunmuş beynəlxalq konfransdakı nitqləri, Çinin rəsmi nümayəndə heyətləri, ölkəmizdəki ÇXR səfirləri ilə görüşlərindəki söhbətləri, ÇXR rəhbərləri ilə yazışmaları da yer alıb.

2020-2022-ci illərdə R.Abbasov “Azərbaycan-Çin əlaqələrinin inkişafında Ümummilli Lider Heydər Əliyevin rolu” mövzusunda tədqiqat aparıb. Tədqiqat işi Ulu Öndərin Azərbaycan və Çin arasındakı çoxşaxəli əməkdaşlıq və dostluq əlaqələrinin inkişafı istiqamətində fəaliyyətindən bəhs edir. Plan işi üç mərhələdən ibarətdir. Birinci mərhələdə Azərbaycan-Çin siyasi əlaqələri, ikinci mərhələdə Azərbaycan-Çin arasında iqtisadi əlaqələr və üçüncü mərhələdə isə Azərbaycan-Çin arasında diplomatik əlaqələrin inkişafında Heydər Əliyevin rolu araşdırılıb.

2022-ci ildə R. Abbasov “Azərbaycan Respublikası və Çin Xalq Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü. Prezident salnaməsi” kitabını elmi ictimaiyyətə təqdim edib. Kitabda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin

2003-2021-ci illər ərzində Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında ikitərəfli siyasi, iqtisadi və mədəni əlaqələrin inkişafı sahəsində çıxışları, nitqləri, müsahibələri, məktubları, məruzələri əks olunub.

Çinlə əlaqələr mövzusu iqtisadiyyat üzrə elmlər doktoru Dünyamalı Vəliyevin 2021-2022-ci illərdə apardığı "Azərbaycan Mərkəzi Asiya ölkələrinin İpək Yoluna qoşulmasında önəmli faktor kimi" mövzusunda tədqiqatda da yer alır. Çinin İpək Yolu layihəsinin bütün Asiya qitəsini Avropa ilə birləşdirmək məqsədini açıqlayan tədqiqatçı bir neçə il ərzində həm Cənub-Şərqi Asiya ölkələri, həm də Cənubi Qafqaz ölkələrinin əsasən Azərbaycan və Gürcüstan olmaqla Çinlə ticarət yollarına aid olan bir sıra müqavilələr imzaladığını, hazırda Azərbaycanın Çinin təşəbbüsü ilə gerçəkləşən "İpək Yolu iqtisadi kəməri" layihəsinin iştirakçısı olduğunu, 2015-ci ilin dekabrında Prezident İlham Əliyevin Çinə dövlət səfəri çərçivəsində "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviq edilməsi barədə Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında qarşılıqlı anlaşma memorandumu imzalandığını diqqətə çəkir. Tədqiqat işinin 1-ci mərhələsində tarixi İpək Yolunun bərpası, Azərbaycan və Mərkəzi Asiya dövlətlərinin ona qoşulmaqlarına ümumi bir baxış verilib, 2-ci mərhələsində isə tədqiq olunan məsələnin gələcək perspektivləri araşdırılıb.

**Müstəqil Azərbaycanın Şərq siyasətində Yaxın və Orta Şərq**

Bütövlükdə dövlətimizin Şərq siyasəti ilə bağlı tarix üzrə fəlsəfə doktoru İsmayıl Əsədov, Yeganə Hacıyeva, Bəhlul Nuri və Mirzə Ənsərli tərəfindən "Prezident İlham Əliyevin Şərq siyasəti" mövzusunda kollektiv tədqiqat aparılıb. Tədqiqatda Prezident İlham Əliyevin respublikaya rəhbərlik etdiyi dövrdə Azərbaycanın Şərq ölkələri ilə iqtisadi, siyasi və mədəni əməkdaşlığı, mövcud əlaqələrin genişlənməsi və çoxsaylı yeni əlaqələrin qurulması təhlil olunub, Prezidentimizin Şərq ölkələrinə ardıcıl səfərləri, aparılan danışıqlar, bağlanan müqavilələr, hüquqi bazanın yaradılması, qarşılıqlı inteqrasiya və sairə məsələlər ətraflı tədqiq olunub. Tədqiqatda Azərbaycanın geosiyasi vəziyyəti, beynəlxalq münasibətlər müstəvisində yeri, Avropa dövlətləri, ABŞ və Rusiya ilə yanaşı, müsəlman dünyası, türkdilli dövlətlər və Cənubi Asiya dövlətləri ilə əlaqələrinin yaxın dövr üçün prioritetləri, əsas istiqamətləri və aparıcı strategiyası geniş təhlil olunub. Müstəqillik və dövlətçilik mənafeyini qorumaq, bu sahədə qarşıya çıxan problemləri beynəlxalq aləmin dəstəyi ilə həll etmək üçün ölkəmizin İKT və Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı kimi beynəlxalq və məhəlli təşkilatlarla sıx inteqrasiya və münasibətlərin dərinləşdirilməsi sahəsindəki fəaliyyətinə diqqət yetirilib.

Bu istiqamətdə iranşünaslıq sahəsində aparılan tədqiqatlar sırasında tarix üzrə fəlsəfə doktoru Sübhan Talıblının "İran İslam Respublikasının Qafqaz siyasətində Dağlıq Qarabağ problemi" kitabını xüsusi qeyd etmək olar. Azərbaycan – İran münasibətlərinə dair mühüm məqamların nəzərdən keçirildiyi monoqrafiyada İİR hakimiyyətinin Qafqaz siyasətində Dağlıq Qarabağ münaqişəsinin həlli yolunda mövqeyi, eyni zamanda onun həlli istiqamətində göstərdiyi təşəbbüslər və atdığı addımlar maraqlı və əyani faktların qarşılıqlı müqayisəsi

fonunda ortaya qoyulub. Əsərdə Ermənistan-Azərbaycan münaqişəsi xronoloji ardıcıllıq, tarixi faktların təhlili yolu ilə və beynəlxalq hüquq normaları çərçivəsində şərh edilib. Nəşrdə, həmçinin İranın Qafqaz siyasətində bu münaqişənin həlli istiqamətində atdığı addımlar İran-Azərbaycan, İran-Ermənistan münasibətləri kontekstində təhlil olunub. Kitabda İran İslam Respublikasının xarici siyasətinin nəzəri əsasları, bu ölkənin Cənubi Qafqaz siyasəti, eləcə də Azərbaycan-İran münasibətləri və digər məsələlər geniş təhlil və tədqiq edilib. Əsərdə Ulu Öndər Heydər Əliyevin Yaxın Şərq siyasətində İran və İrana münasibətlə bağlı məsələlərin təhlili aparılıb.

Mərkəzi Asiya ölkələri ilə əlaqələr mövzular da son illər diqqət mərkəzindədir. İqtisadiyyat üzrə elmlər doktoru Dünyamalı Vəliyevin 2017-2018-ci illərdə apardığı "Mərkəzi Asiya dövlətlərinin formalaşması və inkişafı qanunauyğunluqları: ziddiyyətlər və sosial nəticələri" mövzusunda tədqiqat işi bu baxımdan əhəmiyyətlidir. Tədqiqat işində Azərbaycan, Türkiyə və Mərkəzi Asiya ölkələrinin iqtisadi inkişaf problemləri müqayisəli şəkildə tədqiq olunub. Heydər Əliyev və İlham Əliyevin dövlət siyasəti Mərkəzi Asiya ölkələri üçün nümunə kimi verilib. Türk Dünyasının ortaq problemləri "Türk dünyası qlobal iqtisadi inkişaf yollarında" adlı bölmədə oxucuların nəzərinə çatdırılıb.

Diqqəti çəkən digər bir iş filologiya üzrə fəlsəfə doktoru Təranə Həşimova və Aygün Şimiyevanın "Türkdilli xalqların inteqrasiyası və müstəqil Azərbaycan Respublikasının dövlət siyasəti" mövzusunda araşdırmalarıdır. Mövzu 2003-2010-cu illəri əhatə edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Mərkəzi Asiya Respublikaları ilə yaratdığı hərtərəfli əlaqələr, görüşlər, qarşılıqlı işgüzar səfərlər, nitqlər, bəyannamələr, ictimai-mədəni tədbirlər diqqət mərkəzində saxlanıb. Xronologiya gözlənilərək türk xalqlarının hərtərəfli əlaqələri yönündə Azərbaycan Respublikasının dövlət siyasəti, respublika Prezidentinin fəaliyyətindən sistemli şəkildə bəhs olunur.

Təranə Həşimovanın digər bir işində – 2020-2022-ci ildə icra etdiyi "Müstəqillik dövründə Azərbaycan-Özbək mədəni əlaqələri" mövzusunda plan işində mədəni əlaqələr istiqamətində xüsusilə, ədəbi əlaqələr, milli məsələlər kontekstində ortaq inkişaf xüsusiyyətləri, ədəbi əlaqələrin ən səmərəli qollarından hesab olunan tərcümə problemləri araşdırma obyektinə çevrilib. Xalqlarımız arasında orta əsrlərdən bəri səngimədən davam edən hərtərəfli, o cümlədən mədəni münasibətlərin müxtəlif səbəblərdən formasını dəyişsə də, məzmun etibarilə öz istiliyini qoruyub günümüzə daşıdığını qeyd edən tədqiqatçı Prezident İlham Əliyevin Türk dünyasının inteqrasiyasının gücləndirilməsi istiqamətli xarici siyasətində Azərbaycan-Özbəkistan münasibətlərinin inkişaf etdirilməsinin xüsusi əhəmiyyətini vurğulayır. Araşdırmanın əsas mövzusunu müasir dövrdə Azərbaycan-özbək mədəni-ədəbi əlaqələri, milli mövzular əsasında ortaq inkişaf xüsusiyyətləri, son dövrdə qarşılıqlı bədii tərcümə məsələləri ehtiva edir. Qeyd edək ki, Azərbaycan-özbək ədəbi əlaqələri T. Həşimovanın 2019-cu ildə nəşr olunan "Milli-ideoloji məsələlər kontekstində Azərbaycan-özbək ədəbi əlaqələri" monoqrafiyasında geniş şəkildə araşdırılıb.

İnstitutda Pakistanla əlaqələr də araşdırma mövzusu olub. Dilbər Abdullayeva 2012-2013-cü illərdə “Azərbaycan – Pakistan münasibətləri (1992-2010-cu illər)” mövzusunda tədqiqat aparıb. Pakistan 1991-ci ildə Azərbaycanın müstəqilliyini Türkiyə və Rumıniyadan sonra tanıyan üçüncü ölkə olmuşdur. Keçmiş Dağlıq Qarabağ məsələsində Pakistan həmişə Azərbaycanı dəstəkləyib. BMT qətnaməsinə əsaslanaraq, Azərbaycan Respublikası da Pakistanı Kəşmir probleminin həll edilməsində dəstəkləyir. Pakistanın keçmiş prezidentinin 1995-ci ilin oktyabrında Azərbaycana səfəri və Azərbaycan Prezidenti Heydər Əliyevin 1996-cı ilin aprel ayında Pakistana unudulmaz səfəri zamanı iqtisadi, siyasi, mədəni sahələrdə əməkdaşlığa dair mühüm müqavilələr imzalandıqdan sonra iki ölkə arasındakı əlaqələr daha da möhkəmlənmişdir. Tez-tez baş verən yüksək səviyyəli qarşılıqlı səfərlər regional məsələlər üzrə iki ölkə arasında mövcud olan mövqe oxşarlığına və qarşılıqlı əlaqələrin daha da inkişaf etməsinə səbəb olur (3, 38). Bütün bu sadalanan məsələlər tədqiqatda əhatəli nəzərdən keçirilib.

**Müstəqil Azərbaycanın Şərq siyasəti məqalə və məruzələrdə**

Müstəqil Azərbaycanın Şərq siyasəti mövzusuna Şərqşünaslıq İnstitutunda keçirilən elmi konfrans və sessiyalarda da toxunulub. Bunların bir qismini nəzərdən keçirək.

2011-ci il mayın 6-da keçirilmiş “Heydər Əliyev və Şərq” mövzusunda elmi konfransda tarix üzrə fəlsəfə doktoru İsmayıl Əsədov “Heydər Əliyevin xarici siyasətində ərəb ölkələri və İslam Konfransı Təşkilatı”, filologiya üzrə fəlsəfə doktoru Xalidə Quliyeva-Qafqazlı “Azərbaycan-Türkiyə qarşılıqlı əlaqələrinin inkişafında Heydər Əliyev mərhələsi”, Sübhan Talıblı “İran İslam Respublikası ilə qarşılıqlı dostluq və əməkdaşlıq münasibətlərinin qurulması və inkişafı (1993-2003-cü illər)” mövzusunda məruzə ediblər.

2013-cü il mayın 6-da Ulu Öndər Heydər Əliyevin 90 illiyinə həsr olunmuş “Müstəqil Azərbaycanın Şərq siyasəti” mövzusunda elmi konfransda Şərqşünaslıq İnstitutunun direktoru, filologiya üzrə elmlər doktoru, professor Gövhər Baxşəliyeva “Müstəqil Azərbaycanın xarici Şərq siyasətini müəyyənləşdirən lider” mövzusunda məruzəsində müstəqilliyimizin ilk illərində dövlət quruculuğunun bütün sahələri kimi müstəqil dövlətimizin yeni beynəlxalq münasibətlərinin qurulmasının da Heydər Əliyevin adı ilə bağlı olduğunu deyərək, Ulu Öndərin Şərq dünyası, eyni zamanda onların rəhbərləri ilə əlaqələri hələ 70-ci illərdən qurmağa, formalaşmağa başladığını, Azərbaycan müstəqilliyini qazandıqdan sonra isə bu əlaqələrin indiki vəziyyətə - mehriban qonşuluq və bərabərhüquqlu əməkdaşlıq münasibətləri səviyyəsinə çatdığını vurğulayıb.

Konfransda həmçinin tarix üzrə fəlsəfə doktoru İsmayıl Əsədov “Heydər Əliyevin siyasi fəaliyyətində Yaxın Şərq mövzusu”, iqtisadiyyat üzrə elmlər doktoru Dünyamalı Vəliyev “Heydər Əliyev və İpək yolu”, filologiya üzrə elmlər doktoru Sənan İbrahimov “Azərbaycan-İran siyasi, iqtisadi və mədəni əlaqələri (1993-2003-cü illər)”, iqtisadiyyat üzrə fəlsəfə doktoru Əkrəm Bije “Heydər Əliyev və Cənubi Azərbaycan”, coğrafiya üzrə fəlsəfə doktoru Rafiq Abbasov “Heydər Əliyevin Azərbaycan-Çin münasibətlərinin inkişafında rolu”, tarix üzrə fəlsəfə doktoru Sübhan Talıblı “Müstəqillik illərində Azərbaycan-Pakistan

münasibətləri", Saleh Dostəliyev "Azərbaycan-İran münasibətlərində Heydər Əliyev siyasətinin davamı" mövzusunda məruzələr ediblər.

2014-cü il mayın 7-də keçirilən "Heydər Əliyev və türkdilli xalqların inteqrasiyası" mövzusunda elmi konfransda Gövhər Baxşəliyeva Türkdilli xalqların əməkdaşlığının uğurlarından danışaraq, Ulu Öndər Heydər Əliyevin türk dünyasının problemlərinə daim diqqət ayırdığını xüsusi vurğulayıb, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TRASEKA, İpək Yolu, TANAP, TAP və s. layihələrin bu gün həyata keçirilməsinin Heydər Əliyev tərəfindən vaxtında aparılan böyük, uzaqgörən siyasətin məntiqi nəticəsi olduğunu bildirib.

Konfransda iqtisadiyyat üzrə elmlər doktoru Dünyamalı Vəliyevin "Heydər Əliyev və türk dünyasının qlobal iqtisadiyyata inteqrasiyası", filologiya üzrə fəlsəfə doktoru Təranə Həşimovanın "Türk xalqlarının müasir mədən-ədəbi əlaqələri və Heydər Əliyev" mövzusunda və s. məruzələr dinlənilib.

2018-ci il mayın 16-da Ulu Öndər Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş elmi sessiyada "Heydər Əliyev və türk dünyası" mövzusunda məruzə edən iqtisadiyyat üzrə elmlər doktoru Dünyamalı Vəliyev Heydər Əliyevin ölkəmizin türk respublikaları ilə əlaqələrinin ən səmimi müstəvidə qurulmasında misilsiz xidmətlərindən danışıb, Ulu Öndərin Azərbaycan və Türkiyə üçün söylədiyi "Bir millət – iki dövlət" ifadəsinin iki qardaş ölkə arasında münasibətlərin şüarına çevrildiyini qeyd edib. Elmi sessiyada həmçinin tarix üzrə fəlsəfə doktoru Vidadi Mustafayev "Heydər Əliyevin Şərq siyasətində İran", tarix üzrə fəlsəfə doktoru Səməd Bayramzadə "Heydər Əliyevin azərbaycançılıq ideyasında Cənubi Azərbaycan", ilahiyyat üzrə fəlsəfə doktoru Məmmədəli Babaşlı "Heydər Əliyev və müsəlman Şərqi" mövzularında məruzələr ediblər.

2022-ci il martın 2-də AMEA-nın Şərqşünaslıq İnstitutu və Azərbaycan Dillər Universitetinin nəzdində Konfutsi İnstitutunun birgə təşkilatçılığı ilə keçirilən və Azərbaycanla Çin arasında diplomatik əlaqələrin 30 illiyinə həsr olunmuş "Çin beynəlxalq münasibətlər sistemində" mövzusunda elmi sessiyada Şərqşünaslıq İnstitutunun baş direktoru, akademik Gövhər Baxşəliyeva Çin və Azərbaycan respublikaları arasında möhkəm diplomatik, mədəni və dostluq əlaqələrinin mövcud olduğunu, ölkələr arasında bütün istiqamətlərdə sıx əlaqələrin saxlandığını deyib. Çinin Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələr sırasında yer aldığını deyən akademik G. Baxşəliyeva iki ölkə arasında diplomatik əlaqələrin 1992-ci ilin aprelindən qurulduğunu qeyd edib. Azərbaycan Respublikasının prezidentləri Heydər Əliyev və İlham Əliyevin Çinə, Çin rəhbərlərinin isə Azərbaycana səfərlərindən söz açan institut rəhbəri iki ölkə arasında bağlanmış sazişlərdən də bəhs edib. O, Çin Xalq Respublikası və Azərbaycan Respublikası arasında münasibətlərin daim inkişaf etdiyini, hər iki dövlətin qarşılıqlı şəkildə bir-birinin suverenliyini və torpaqların toxunulmazlığını tanıdığını, BMT Təhlükəsizlik Şurasının daimi üzvlərindən olan ÇXR-nin hər zaman Azərbaycanı dəstəklədiyini vurğulayıb. Akademik G. Baxşəliyeva Şərqşünaslıq İnstitutunun son dövrdə Çinin elm və təhsil müəssisələri ilə əlaqələrinin genişlənməsindən söz açaraq, institutda

2011-ci ildən fəaliyyətə başlamış Mərkəzi Asiya və Uzaq Şərq ölkələri şöbəsində və bu şöbənin əsasında 2016-cı ildə yaradılmış Asiya-Sakit okean regionu ölkələri şöbəsində Çinlə bağlı tədqiqatların mühüm yer tutduğunu bildirib və burada çalışan mütəxəssislərin Çinə həsr olunmuş 10-dan çox kitabının çap olunduğunu qeyd edib.

Filologiya üzrə fəlsəfə doktoru Zenfira Şıxəlibəyli "Azərbaycan Respublikası və ÇXR-in siyasi və diplomatik münasibətləri" mövzusunda məruzəsində müstəqilliyimizin ilk illərindən iki ölkə arasında münasibətlərin qurulmasından, əlaqələrin qurulmasında və inkişafında Ulu Öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rolundan danışıb. Z. Şıxəlibəyli ölkələrimiz arasında münasibətlərin daha da istiləşməsində 1998-ci il sentyabrın 8-də Bakıda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin təşəbbüsü ilə tarixi Böyük ipək yolunun bərpası üzrə TRASEKA proqramı çərçivəsində Avropa və Asiya dövlət başçılarının zirvə görüşünə həsr olunmuş beynəlxalq konfrans keçirilməsinin də rolunu qeyd edib.

Şərqşünas alimlər müstəqil Azərbaycanın, onun rəhbərləri Heydər Əliyev və İlham Əliyevin Şərq siyasəti barədə ayrı-ayrı konfranslarda da məruzə edib, bununla əlaqədar bir sıra məqalələr yazıblar.

Şərqşünaslıq İnstitutunun baş direktoru, akademik Gövhər Baxşəliyeva təqdim edilən mövzuda bir sıra məqalələrin və məruzələrin müəllifidir. Akademikin bu məqalələri və məruzələrinin mətni onun 4 cildlik "Məqalələr, məruzələr, müsahibələr" kitabında toplanıb.

"Heydər Əliyevin Şərq siyasəti" adlı məqalədə Ulu Öndərin xarici siyasətində, Şərqə münasibətdə, qonşu ölkələrlə, xüsusilə Türkiyə, İran və s. ölkələrlə münasibətlərdə həmişə mahir davranışın, incəliyin duyulduğu qeyd edilir: "Ölkəmizlə çoxsaylı dini, mədəni, etnik tellərlə bağlı olan Yaxın və Orta Şərq ölkələrinə münasibətdə dünya siyasətinin istiqamətlərini və qanunauyğunluqlarını çox gözəl anlayan Prezident bu ölkələrlə düzgün münasibətlərin qurulmasına nail olmuşdur. Regionda yerləşən bütün dövlətlərlə yaxın əlaqələr saxlamaq, bu əlaqələri inkişaf etdirib daha da möhkəmləndirmək Azərbaycan üçün çox vacib idi. Burada əsasən dünyada geostrateji əhəmiyyətə malik olan, eyni zamanda region problemləri ilə hər hansı bir əlaqəsi olan və bizə coğrafi və siyasi cəhətdən yaxın olan ölkələrlə münasibətlərə daha çox diqqət yetirilirdi. Belə ölkələrə birinci növbədə Türkiyə, İran, Səudiyyə Ərəbistanı, Misir, Pakistan və s. aiddir. Bu və İslam Konfransı Təşkilatına (İKT) daxil olan digər ölkələrin Azərbaycana dəstəyi, mənəvi yardımı gənc dövlətimiz üçün çox vacib idi. Bütün bu amilləri nəzərə alan Heydər Əliyevin apardığı siyasət nəticəsində bu sahədə böyük uğurlar qazanılmış və qazanılmaqdadır" (Baxşəliyeva 2011, 40).

Məqalədə sadalanan Şərq ölkələrinin hər biri, eləcə də İKT ilə bağlı Heydər Əliyevin yürütdüyü siyasət barədə ətraflı təhlil aparılıb.

Qeyd edilməlidir ki, son qeyd edilən təşkilatla bağlı G. Baxşəliyeva 2013-cü ilin mayında Ümummilli Liderin 90 illik yubileyinə həsr olunmuş "Azərbaycanşünaslığın aktual problemləri" adlı IV beynəlxalq konfransda "Heydər Əliyev və İslam Əməldaşlıq Təşkilatı" mövzusunda məruzə edib.

2013-cü ildə keçirilmiş və Türkiyə Cümhuriyyətinin 90 illiyinə həsr olunmuş beynəlxalq elmi konfransda “Bir millət, iki dövlət” prizmasından Azərbaycan-Türkiyə münasibətləri” adlı məruzə ilə çıxış edən Gövhər Baxşəliyeva Ulu Öndər Heydər Əliyevin səsləndirdiyi şüara söykənən iki qardaş ölkənin münasibətlərini ətraflı xarakterizə edib: “1993-cü ildə Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması ilə Respublikanın milli maraqlarını əks etdirən bir çox sahələrdə olduğu kimi, Azərbaycan-Türkiyə münasibətlərinin inkişafına yeni təkan verən mərhələnin əsası qoyuldu. Bu, hər iki ölkənin daxili durumlarını, beynəlxalq şəraiti, Azərbaycan və Türkiyənin maraqlarını çevik və realistcəsinə əks etdirən mərhələ idi. Heydər Əliyevin hazırladığı və yön verdiyi xarici siyasət kursu, sözün həqiqi mənasında, həssaslığı və çevikliyi ilə fərqlənirdi. Məhz bu səbəbdən, H. Əliyev tərəfindən ifadə edilən “Bir millət, iki dövlət” şüarı iki qardaş ölkə arasında hərtərəfli inkişafın rəmzinə çevrildi”. (Baxşəliyeva 2020, 154).

Dördcildlikdə yer alan “Müstəqil Azərbaycan Şərq-Qərb yolayrıcında”, “İslam ölkələrini Azərbaycanın strateji tərəfdaşına çevirən lider”, “Şərqşünaslıq elmi müstəqil Azərbaycanın milli və dövlət maraqlarına xidmət edir”, “Azərbaycan Respublikasının Şərq ölkələri ilə münasibətləri müasir mərhələdə”, “Azərbaycan Respublikasının Şərq siyasəti”, “Azərbaycan – Şərqin parlayan ulduzu” və s. məqalələrdə də müstəqil Azərbaycanın Şərq siyasətinə dərindən nəzər salınır.

Tarix üzrə fəlsəfə doktoru Səməd Bayramzadə 2021-ci il dekabrın 22-də AMEA-nın Şərqşünaslıq İnstitutunun təşkilatçılığı ilə keçirilən “Prezident İlham Əliyev: qlobal düşüncəyə əsaslanan müstəqil siyasət” mövzusunda elmi konfransda “Müstəqil Azərbaycanın diplomatiyası və Şərq ölkələri ilə münasibətlər” mövzusunda məruzəsində Azərbaycanın müstəqillik dövründə xarici siyasətini 3 mərhələdə təhlil edərək, tarixi qələbəyə aparan yolu nəzərdən keçirib. Qeyd edilən mərhələlərdən birincisi müstəqilliyin ilk illərində Azərbaycanın dünya dövlətləri və əsas beynəlxalq təşkilatlarla əlaqələrinin qurulması dövrü, ikincisi 1993-2003-cü illərdə müstəqil xarici siyasətin baza prinsiplərinin formalaşdırılması və beynəlxalq əlaqələrin daha da genişlənməsi dövrü, üçüncüsü olan hazırkı mərhələ isə Azərbaycanı Cənubi Qafqazda lider dövlətə və beynəlxalq münasibətlərdə etibarlı tərəfdaşa çevirən xarici siyasət kursunun yüksəlişi dövrüdür. S. Bayramzadə Azərbaycanın xarici siyasətində Şərq istiqamətinin ölkəmizin diplomatik nailiyyətlərinin artmasında mühüm rola və yerə malik olduğunu bildirib.

Tarix üzrə fəlsəfə doktoru Sübhan Talıblı Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Turizm və Menecment Universiteti, Türkiyənin Kastamonu Universitetinin birgə təşkilatçılığı ilə 12-14 oktyabr 2017-ci il tarixdə keçirilən və Azərbaycan-Türkiyə münasibətlərinə həsr olunmuş II Beynəlxalq Elmi konfransda “Heydər Əliyevin hakimiyyəti dövründə Türkiyə və İranın xarici siyasətində Azərbaycan Respublikası (1993-2002-ci illər)”, 10-11 may 2021-ci il tarixdə Ümummilli lider H. Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş “Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi və inkişafında Heydər Əliyevin rolu” mövzusunda Respublika elmi konfransında “Heydər

Əliyevin prezidentliyi dövründə (1993-2003) Azərbaycan Respublikasının xarici siyasətinin əsas vəzifə və istiqamətləri” adlı və s. elmi məruzələrlə çıxış edib.

Sübhan Talıblı bu mövzuda çoxsaylı elmi məqalələrin də müəllifidir. Tarixçi alimin 2003-cü ildə AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun “Tədqiqlər” məqalələr toplusunun 1-ci sayında çap olunan “Azərbaycan-İran münasibətlərində parlamentlərarası əlaqələrin rolu”, 2004-cü ildə həmin toplunun 4-cü sayında “İslam Konfransı Təşkilatının Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı qətnamələri”, 2006-cı ildə AMEA akad. Z.M. Bünyadov adına Şərqşünaslıq İnstitutu və İİR-in Azərbaycandakı Səfirliyinin Mədəniyyət Mərkəzinin birgə nəşri olan “Hikmət” elmi araşdırmalar toplusunun 8-ci sayında “Azərbaycan – İran münasibətlərinin əsas istiqamətləri” və s. məqalələrində müstəqil Azərbaycanın Şərq siyasətindən bəhs edilib.

Afaq Nərimanova 4-5 may 2022-ci il tarixlərində Bakı Slavyan Universitetində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş “Azərbaycanşünaslığın aktual problemləri” mövzusunda ənənəvi XIII Beynəlxalq elmi-praktik konfransda “Azərbaycan-Yaponiya əməkdaşlığının əsas istiqamətləri” adlı məruzəsində təqdim etdiyimiz mövzuya toxunub.

**Nəticə**

Şərqşünaslıq İnstitutunun əməkdaşlarının ölkəmizin Şərq siyasəti ilə bağlı kitablarını, tədqiqat işlərini, məqalələrini, məruzələrini nəzərdən keçirəndə mövzu ilə bağlı əhatəli araşdırmaların aparıldığını, istər Yaxın, istərsə də Uzaq Şərqin müxtəlif ölkələri ilə bağlı yürüdülən siyasətin müxtəlif aspektlərinin diqqətə alındığını, aparılan müdrik siyasətin dəqiq, düzgün dəyərləndirildiyini müşahidə edirik. Hazırda institutda bu istiqamətdə işlər davam etdirilir və yaxın illərdə bu sahədə yeni-yeni qiymətli əsərlərin elmi ictimaiyyətə çatdırılacağını əminliklə söyləmək olar.

## The Eastern Policy of Independent Azerbaijan in the Studies of the Institute of Oriental Studies

**Summary**

**Keywords**: Heydar Aliyev, Ilham Aliyev, independent Azerbaijan, Eastern policy, Institute of Oriental Studies

The Eastern policy of the National Leader Heydar Aliyev and the President of the Republic of Azerbaijan, Ilham Aliyev, has always been at the center of attention in the studies conducted at the Institute of Oriental Studies, named after Academician Z.M. Bunyadov of ANAS.

This article deals with the books, research works, articles, and reports written on this subject in the last 20 years at the Institute of Oriental Studies.

In this regard, the author considers different books, including "Speech of the President of the Republic of Azerbaijan Ilham Aliyev at the Inauguration Ceremony" (in Chinese),

"President Ilham Aliyev's State Visit to the People's Republic of China", "Ilham Aliyev - The Modern Successor of the Friendship of Ancient Peoples", "Azerbaijan-China: The 25th Anniversary of the Establishment of Diplomatic Relations ", "Heydar Aliyev and China", "Heydar Aliyev-100. Historic visit to China", "The 30th Anniversary of the Establishment of Diplomatic Relations between the Republic of Azerbaijan and the People's Republic of China. Presidential Chronicle", "The Nagorno-Karabakh problem in the Caucasus policy of the Islamic Republic of Iran".

In addition, article pays attention to some research works, articles, and conference papers as "Caucasus policy of the People's Republic of China", "The role of National Leader Heydar Aliyev in the development of Azerbaijani-Chinese relations", "Eastern policy of the President Ilham Aliyev", "Regularities of the formation and development of Central Asian states: contradictions and social consequences", "Azerbaijan as an important factor in joining Central Asian countries in the Silk Road", "Azerbaijani-Uzbek cultural relations in the period of independence", "Integration of Turkic-speaking peoples and the state policy of the independent Republic of Azerbaijan", and "Azerbaijani-Pakistani relations (1992-2010 years)".

**Ədəbiyyat siyahısı**


1. AMEA akad. Z. M. Bünyadov adına Şərqşünaslıq İnstitutunun 2012-ci ildə elmi fəaliyyəti haqqında hesabat. (2013). “Azərbaycan şərqşünaslığı”, B
2. Baxşəliyeva Gövhər. (2011). “Məqalələr, məruzələr, müsahibələr...”. Bakı, “Bakı Çap Evi”, I cild. (436 s.).
3. Baxşəliyeva Gövhər. (2020). “Məqalələr, məruzələr, müsahibələr...”. Bakı, “Elm”, III cild. (588 s.).

**Əfşan Şəfiyeva**
AMEA akad. Z. M. Bünyadov adına Şərqşünaslıq İnstitutu,
İran tarixi və iqtisadiyyatı şöbəsinin
aparıcı elm işçisi, t.ü.f.d., dosent
afshanshafiyeva@yahoo.com

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN İRSİNDƏ AZƏRBAYCAN VƏ MİLLİ DƏYƏRLƏR

**Açar sözlər**: milli məfkurə, milli dəyərlər, müstəqillik tarixi, Azərbaycan tarixi konsepsiyası

Dünya tarixində böyük rol oynamış şəxsiyyətlərin, ələlxüsus siyasi və dövlət xadimlərinin həyatını, fəaliyyətini, milləti və ölkəsi üçün xidmətlərini öyrənmək Vətən tarixinin araşdırılması baxımından çox önəmlidir. Azərbaycanın XX əsr tarixinə öz adını böyük hərflərlə yazmış, təkcə Azərbaycanın deyil, dünyanın görkəmli dövlət xadimi olmuş Heydər Əliyev geniş və çoxşaxəli fəaliyyəti ilə dövlətimizin quruculuq tarixində, milli məfkurənin formalaşmasında, ictimai-siyasi həyatında əsaslı dönüş yaratmışdır. Heydər Əliyev irsinin tədqiqi, onun elmi-nəzəri baxımdan öyrənilməsiAzərbaycan tarixşünaslığının mühüm məsələlərindən biri olmaqla, təkcə elmi deyil, eyni zamanda ictimai və siyasi əhəmiyyət daşıyır.

1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonrakı dövrdə cəmiyyətimizin qarşısında duran əsas vəzifələrdən biri – ictimai-siyasi və mədəni inkişafda ümumbəşəri prinsiplərəəsaslanaraq milli-mənəvi dəyərləri inkişaf etdirmək idi. Tarixə nəzər salsaq görərik ki, xalqların əsrlər boyu formalaşdırdığı yüksək mənəvi-əxlaqi dəyərləri qoruyaraq bütövlükdə cəmiyyətin inkişafına təsir göstərmək, onun genetik yaddaşını, tarixi kimliyini, milli irs və keyfiyyətlərini gələcək nəsillərə ötürmək kimi məsuliyyətli vəzifə tarixin yetişdirdiyi milli liderlərin üzərinə düşür. Azərbaycan tarixinin də belə bir zaman kəsiyində taleyüklü məsələlərin həllini həyata keçirəcək güclü liderə ehtiyacı vardı.

1993-cü ildə Azərbaycanda hakimiyyətə qayıdan Heydər Əliyev, şübhəsiz ki, millətin uzun zamandır gözlədiyi böyük Lider idi. XX əsrin 70-80-ci illərində respublikaya başçılıq etmiş, SSRİ Mərkəzi siyasi elitasına daxil olmuş, ölkədə gedən proseslərdən heç vaxt kənarda qalmamış, adını Azərbaycan dövlətçiliyi tarixinə yazmış Heydər Əliyev ikinci dəfə rəhbərliyə gəlişiilə bu ağır və məsuliyyətli missiyanı öz çiyinlərinə götürmüş, milli-mənəvi dəyərlərimizin böyük himayədarı və daşıyıcısı olaraq çıxış etmişdir.

Ümummilli lider Heydər Əliyev hakimiyyətdə olduğu hər iki dövrdə milli dəyərlərə həssaslıqla yanaşmış, onların qorunmasına, öyrənilməsinə, təbliğinə önəm vermiş və bu sahəni dövlət siyasətinin mühümistiqamətlərindən biri hesab etmişdir. Ulu öndər çıxışlarında hər zaman belə bir önəmli məsələni xüsusi vurğulamışdır ki, müasir dünyada qloballaşma proseslərinin nəticəsi kimi ortaya çıxan sivilizasiyalararası toqquşma və ziddiyyətlər xalqların milli-mənəvi dəyərlərinin qorunması məsələsini dövrümüzün ən aktual məsələlərindən

birinə çevirmişdir. Problemi aktuallaşdıran başlıca amil ondan ibarətdir ki, total əxlaqın və çoxtərəfli inteqrasiyasının diqtələri bir çox hallarda əsrlərin mirasına – milli-mənəvi dəyərlərə qarşı yönəlir. Heydər Əliyev siyasi uzaqgörənliyi və vətənsevərliyi ilə məhz bu təhlükəni vaxtında zərərsizləşdirmiş, daim nəzarətdə saxlamış və qabaqlayıcı tədbirlər görmüşdür. Böyük şəxsiyyətin öz Vətəninə, milli irs və ənənələrinə olan sevgisi xalqımızın genetik yaddaşının qorunmasına xidmət etmişdir. Heydər Əliyev Azərbaycanın minilliklərin sınağından çıxmış mədəniyyətinə, tarixinə, ənənəsinə həddən artıq bağlı olmuş, onların olduğu kimi xalqa qaytarılması üçün əlindən gələni əsirgəməmişdir. Bəşər tarixinə, o cümlədən Azərbaycan tarixinə, onun keçmişinə, Azərbaycan dövlətçiliyinin və Azərbaycançılığın formalaşmasının hansı dəyərlərə əsaslandığına mükəmməl bələd olan Ümummilli lider Heydər Əliyev həmişə bu vacib məsələni diqqət mərkəzində saxlamışdır.

Ümummilli lider Heydər Əliyevin dövlətçilik siyasətində milli dəyərlərə xüsusi münasibəti, milli dəyərlərə münasibətdə balansın gözlənilməsinə əhəmiyyət verməsi, o cümlədən bu sahədə əməli addımları – milli dəyərlərimizlə bağlı verdiyi sərəncamlar, bu dəyərlərin qorunması, təbliği ilə bağlı görülən işlərin təhlili onu deməyə əsas verir ki, həmin dövrün dövlət siyasətində milli dəyərlərimizin heç bir sahəsi diqqətdən kənar qalmamış, onların inkişaf etdirilməsi, qorunması, gələcək nəsillərə çatdırılması üçün zəruri tədbirlər həyata keçirilmişdir. Mənəvi dəyərlərimiz diqqət mərkəzində olduğu kimi, artıq milli dəyərə çevrilmiş maddi dəyərlərimiz, tarixi abidələrimiz, maddi mədəniyyət nümunələrimiz bərpa olunmuş, bu sahədə görülən işlərin geniş miqyas alması üçün kompleks tədbirlər görülmüşdür.[6]

Ümummilli liderin çoxşaxəli, uğurlu fəaliyyəti onun təkcə dərin fəlsəfi düşüncəyə və möhkəm tarixi yaddaşa malik olması ilə deyil, həm də bir neçə ixtisasa yiyələnməsi ilə də xarakterizə olunur. Dahi şəxsiyyətin vaxtilə dövlət təhlükəsizlik orqanlarında işləməsinə baxmayaraq, tarix elminə olan marağı onu Bakı Dövlət Universitetinin tarix fakültəsində ikinci təhsil almağa və hətta bu fakültəni fərqlənmə diplomu ilə bitirməyə təşviq etmişdir. Heydər Əliyevin tarix elminəböyük sevgi bəsləməsi, onun həyatda baş verən hadisələri obyektivlik və həqiqət prinsipləri əsasında öyrənməsinə olan böyük marağından qaynaqlanırdı. Heydər Əliyev irsinin dərindən araşdırılması göstərir ki, görkəmli dövlət xadimi professional tarixçi olduğundan, onun dünya vəAzərbaycan tarixi haqqında hər bir çıxışı, bəyanatı, əməli addımları elmi əsaslara söykənmişdir. Bu səbəbdən, Ulu öndərin çıxışları, nitqləri, müsahibələri, məruzələri tədqiqat obyekti olmaqla yanaşı, Azərbaycan tarixinin öyrənilməsi üçün mühüm mənbə və elmi əsər səciyyəsi daşıyır. Başqa sözlə desək, Heydər Əliyev irsinə elmi yanaşma Azərbaycan tarixinin digər məsələləri ilə bağlı elmi nəticələrin əldə olunmasına da zəmin yaradır.

Keçən əsrin istər sovetlər dönəmində, istərsə də müstəqillik illərində Azərbaycanda bir çox elm sahələri –ictimai, humanitar və ya dəqiq elmlər inkişaf etmişdir. Lakin tarixin bütün dövrlərində ictimai proseslərin dəyişkənliyi məhz ictimai-siyasi elm hesab olunan tarix elmini aktual etmiş, onun obyektivlik və həqiqət prinsipləri üzərində inkişafını

zəruriləşdirmişdir. Ümummilli lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıdışından sonra ölkənin bir çox sahələrində aparılan islahatlar prioritet sayılan elm, təhsil və mədəniyyət sahələrinə də şamil edilmişdir.O, dövlət rəhbəri olduğu bütün dövrlərdə Azərbaycan tarixinin, mədəniyyətinin öyrənilməsini, tədqiqini həmişə diqqətdə saxlamış, bu sahədə də müvafiq tədbirləri həyata keçirməklə, alim və tədqiqatçılar üçün lazımi şəraitin yaradılmasını təmin etmişdir. Ümummilli liderin geniş siyasi fəaliyyətində diqqət ayırdığı məsələlərdən biri də Azərbaycan tarixinin yenidən tədqiq edilməsi idi.Azərbaycan tarixinin yenidən araşdırılması məsələsini hələ Naxçıvan MR Ali Məclisinin sədri olduğu dövrdə, eləcə də Azərbaycan Prezidenti işlədiyi illərdə qaldıran Heydər Əliyev XX əsrin sonunda Azərbaycan ərazisinin Ermənistan tərəfindən işğal edilməsi, hər iki dövlət arasındakı münasibətlərin yeni aspektdən təhlili, münaqişənin səbəb və köklərinin dərindən araşdırılması və Azərbaycan tarixinin bir çox problemlərinin yenidən tədqiq edilməsi, təbliğ olunmasıvə görkəmli şəxsiyyətlərə obyektiv qiymət verilməsi istiqamətində bir sıra tədbirlərin həyata keçirilməsi ilə əlaqədar göstəriş vermişdi[14]

Azərbaycan xalqının taleyində mühüm rol oynamış görkəmli şəxsiyyətlərə obyektiv qiymət verilməsi istiqamətində görülən tədbirlərdən biri görkəmli yazıçı, dövlət xadimi Nəriman Nərimanovun anadan olmasının 100 illiyini geniş qeyd edilməsi barədə Heydər Əliyev tərəfindən sərəncamın imzalanması oldu. Sovet dövründə hakim bolşevik elitası onu millətçi, türkçü, burjua millətçisi, müsavatçı adlandıraraq təqib etmişdi. Əvvəlcə onun siyasi təcridi başlamış, sonra da fiziki həyatı müəmmalı tərzdə sona yetirilmişdi. Ermənilərin iddia etdikləri ərazilərin əzəli Azərbaycan torpaqları olduğunu davamlı şəkildə Mərkəz qarşısında müdafiə edən Nərimanova qarşı irəli sürülən haqsız ittihamlar H. Əliyevin "Pravda" qəzetində əhatəli şəkildə dərc olunan məqaləsində öz əksini tapmışdı[20]. Adı belə yasaq edilən N. Nərimanovun siyasi bəraətdən sonra 100 illiyinin qeyd edilməsinə, abidəsinin ucaldılmasına etiraz edən erməni millətçi-kommunistləri haray qaldırıb qarşısını almağa səfərbər olundular. Lakin Heydər Əliyevin səyi nəticəsində milli mətbuatın, milli ədəbiyyatın, milli teatrın, təhsilin tərəqqisinə önəmli töhfələr verən, Azərbaycanın maarifçilik tarixində əvəzsiz xidmət göstərən N. Nərimanovun 1970-ci ildə ev muzeyinin açılması və ona əzəmətli abidələrin ucaldılması, əsərlərinin çap edilməsi və onun barəsində çoxsaylı monoqrafiyaların nəşri sahəsində görülən işlər, təkcə Nərimanova deyil, Ulu öndərin həm də Azərbaycanın bir çox tarixi şəxsiyyətlərinə verdiyi dəyər idi [19, s.103].

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkədə yeni ideologiyanın formalaşması prosesində ictimaiyyət arasında dövlətçilik tarixinə, milli tarixə maraq artmışdı. Azərbaycançılıq, demokratik və milli-mənəvi dəyərlər, müstəqillik prinsipləri milli ideologiyanın əsasına çevrilirdi. İctimai-siyasi elmlərə, eləcə də tarix elminə yeni yanaşma məsələsi aktuallaşırdı. Belə bir dövrdə Heydər Əliyev Elmlər Akademiyasında ziyalılarla (21 sentyabr 1993), Elmlər Akademiyası rəhbərliyi, həqiqi və müxbir üzvləri, institut direktorları və aparıcı alimləri ilə (31 yanvar 1997) görüşlər keçirərək tarixçi alimlərimiz qarşısında fundamental, Azərbaycan tarixinin yazılması, Vətən tarixinin çox mühüm bir

dövrünü təşkil edən XIX-XX yüzilliklərin tarixinin əhatəli tədqiqi kimi məsul vəzifə qoydu [4]. Davamlı olaraq Azərbaycan tarixçi alimləri ilə görüşlər keçirən Heydər Əliyev bir sıra fundamental əsərlərin və Azərbaycanın görkəmli şəxsiyyətlərinin həyat və fəaliyyətini işıqlandıran monoqrafiyaların nəşr edilməsi barədəverdiyi tövsiyələri elmi ictimaiyyətin uğurlu proyektlərinə çevrilmişdir.

Azərbaycan mədəniyyəti, tarixi və onun dünyada tanınması baxımından mühüm əhəmiyyət kəsb edən1997-ci il aprelin 20-də "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinin beynəlxalq miqyasda qeyd olunması haqqında imzalanan fərmantəkcə Azərbaycan tarixinə deyil, bütün türk xalqlarının mədəniyyət tarixinə verilən böyük töhfə idi [8;7].

Azərbaycan tarixinin XX əsrdəki faciəli səhifələrinin öyrənilməsi istiqamətində də Heydər Əliyevin birbaşa göstərişlərinin böyük əhəmiyyəti olmuşdur. Məlum olduğu kimi, 1948-1953-cü illərdə SSRİ Nazirlər Sovetinin qərarı əsasında yüz əlli mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki ata-baba yurdlarından kütləvi şəkildə və amansızlıqla qovulmuşdur. Bu sürgün zamanı avtoritar-totalitar rejim köç edəninsanlara zorakılıq, ağır fiziki sarsıntı və mənəvi genosid yaşatdıqları üçün minlərlə insan həlak olmuşdur. Bu sürgündə erməni şovinistdairələrinin və SSRİ rəhbərliyinin cinayətkar siyasəti ilə yanaşı, o dövrki Azərbaycan rəhbərliyinin də xalqına olan biganə münasibətinin rolu olmuşdur. 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən deportasiya olunması məsələsi 50 il ərzində araşdırılmamış və öz hüquqi-siyasi statusunu almamışdır. Məhz Heydər Əliyevin 18 dekabr 1997-ci il tarixli "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" imzaladığı fərmanı soydaşlarımıza qarşı törədilən və yarıməsr gizli saxlanılan amansız cinayəti aşkarlayaraq dünya ictimaiyyətinə çatdırdı [9]. Bunun ardınca Azərbaycan xalqına qarşı ermənilərin dəfələrlə törətdikləri və uzun illər təhqiqatına qadağa qoyulmuş soyqırımı araşdırılması və öz siyasi-hüquqi qiymətini alması üçün Heydər Əliyev 26 mart 1998-ci ildə "Azərbaycanlıların soyqırımı haqqında" fərmanı imzaladı [5]. Bu fərman uzun illər Azərbaycan tarixçilərinin üzünə bağlı olan arxivlərin açarı oldu.

Ümummilli lider Heydər Əliyevin XX əsr Azərbaycan tarixinə və onun öyrənilməsinə verdiyi böyük dəyərin bariz nümunələrindən biri də Azərbaycan Xalq Cümhuriyyətinin tədqiqinə ayrılan diqqət və fəaliyyətdir. Hələ Naxçıvan MR Ali Məclisinin deputatı olduğu zaman, Heydər Əliyev Məclisin 14 yanvar1991-ci il tarixli sessiyasında qaldırdığı mühüm bir məsələdə Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə necə böyük önəm verdiyini nümayiş etdirmişdir. Ulu öndər xüsusi olaraq vurğulamışdır ki, "Əgər 1918-ci ildə yaranmış Azərbaycan Demokratik Respublikası Azərbaycan xalqının həyatında əlamətdar və tarixi bir hadisədirsə, biz bunu açıq deməliyik və bu Azərbaycan dövləti tərəfindən müəyyən qədər qanuniləşdirilməlidir. Əgər biz bunu qəbul ediriksə, 1920-ci ildə Azərbaycan Demokratik Respublikasının devrilməsi pislənməlidir, qeyri-qanuni hal kimi qəbul olunmalıdır" [11].

Ulu Öndərin Azərbaycan Xalq Cümhuriyyətinin tarixi ilə bağlı bütün fikirləri və çıxışları həmişə birmənalı və obyektiv olmuşdur.Bunun məntiqi nəticəsi Heydər Əliyevin

1998-ci il yanvarın 30-da Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 80 illik yubileyinin qeyd olunması haqqında sərəncamında öz əksini tapmışdır [10]. O, dəfələrlə öz çıxışlarında ən yeni tariximizin bu şərəfli mərhələsiniçox yüksək qiymətləndirmişdir. Heydər Əliyev 2003-cü ilin mayın 27-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 85 illiyi ilə əlaqədar Azərbaycan xalqına müraciətində demişdir: "Müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti ölkəmizin çoxəsrlik sosial-iqtisadi, ictimai-siyasi və mədəni inkişafının, xalqımızın milli oyanışı və dirçəlişi proseslərinin məntiqi nəticəsi kimi meydana çıxmışdır. Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın siyasi şüur səviyyəsinin, intellektual və mədəni potensialının, yüksək istedad və qabiliyyətinin göstəricisi idi" [11]

Heydər Əliyev cəmi 23 ay fəaliyyət göstərən ilk respublikanın həyata keçirdiyi tədbirlərin müstəqil dövlətçiliyimizin bünövrəsivə gələcəyi üçün nə qədər əhəmiyyətli olduğunu, demokratik hüquq və azadlıqların bərqərar olması, etnik və dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlara bərabər hüquqlar verilməsi, Azərbaycan dilinin dövlət dili elan edilməsi, təhsil və mədəniyyətin inkişafına xüsusi diqqət göstərilməsi, nizami milli ordunun, təhlükəsizlik strukturlarının qurulması və bu kimi işləriçox yüksək qiymətləndirirdi. O hesab edirdi ki, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, İstiqlal Bəyannaməsinin elan olunması böyük zəkanın, uzaqgörənliyin, cəsarət, iradə, qəhrəmanlığınməhsuludur. Ulu öndər Azərbaycanın istiqlaliyyətini elan edənləri, Xalq Cümhuriyyətini qurub-yaradanları və ona sona qədər sadiq olan insanları Azərbaycanın ən mötəbər, ən görkəmli insanları hesab edirdi. Öz nitqində qeyd edirdi ki, Xalq Cümhuriyyətinin rəhbərləri Məhəmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli, onların silahdaşları və o illərdə müstəqillik uğrunda mübarizə aparan və hakimiyyət orqanlarında fəaliyyət göstərən insanlar Azərbaycan xalqı tərəfindən heç vaxt unudulmayacaqlar. Onlar Azərbaycan xalqının tarixinə böyük və dəyərli şəxsiyyətlər kimi daxil olmuşlar. Və sonda Xalq Cümhuriyyətinin fəaliyyətinin əsas qayəsinin bütün Şərq, müsəlman aləmində ilk dəfə Azərbaycanda demokratik üsul-idarə prinsiplərinə əsaslanan dövlət, hökumət yaratdıqlarını, beləliklə də, Azərbaycanda həm müstəqilliyin, həm də demokratiyanın, demokratik dövlət üsul-idarəsinin əsasını qoyduqlarının olduğunun vurğulamışdı. [2]

Azərbaycan tarixi konsepsiyasının formalaşdırılması yolunda Heydər Əliyevin ən böyük xidmətlərindən biri – "Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında"mövzusunda xalqa müraciəti oldu [14]. Azərbaycan tarix elmi üçün böyük istiqamətlər açan bu müraciətdə Azərbaycanın qədim mədəniyyət məskəni və beş əsrlik dövlətçilik tarixinə mənsub olduğu, keçmişlə müasir tarix arasında olan əlaqə və bu əlaqələrin müasir həyata yansıdığı peşəkar bir tarixçi nöqteyi-nəzərindən baxılmışdır. Azərbaycanın XX əsr tarixini həm də bir tarixçi alim nəzəri ilə qiymətləndirən Heydər Əliyev onu dörd mərhələyə bölürdü. AXC-ninyaranma ərəfəsi və tarixi zəminin yetişməsindən 1918-ci il Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasına qədər olan dövrü birinci, Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyət dövrünü (1918-1920) ikinci, 1920-ci il 28 aprel Sovetişğalından 1991-ci il

oktyabrın 18-də “Azərbaycan Respublikasının Müstəqilliyi Haqqında Konstitusiya Aktı”nın qəbul olunmasına qədər dövrü üçüncü və nəhayət 1991-ci ilin oktyabrında müstəqilliyimizin bərpası ilə başlanan dövrü dördüncü mərhələ hesab edirdi. [10, s.389], [17, s.132]. XX əsrin ən mühüm hadisəsi olan Azərbaycan dövlətinin yaradılmasını yüksək qiymətləndirən Heydər Əliyev Müraciətdə qısa müddət ərzində ən müasir demokratik, hüquqi, dünyəvi dövlətin möhkəm təməllərinin qurulmasına, Konstitusiyamıza, ölkənin bütün sahələrində həyata keçən əsaslı islahatlara və digər bu kimi mühüm məsələlərə toxunmuşdur. Öz millətini həmişə yüksəkdə görmək istəyən Heydər Əliyev qeyd etmişdir ki, xalqımız dünyada öz yerini tutmaq üçün bir çox sahələrdə sıçrayışa nail olmalı, qabaqcıl texnologiyalara yiyələnməli, ən müasir proqramlar həyata keçirməlidir[22 s. 119].

Ümummilli lider Heydər Əliyevin siyasi irsində milli dəyərlərə və Azərbaycan tarixinə ayrılan böyük diqqətin başqa bir istiqaməti də Azərbaycan diasporunun formalaşdırılması ideyası olmuşdur. O, dövlət başçısı kimi xarici ölkələrə rəsmi səfərlərində hər zaman soydaşlarımızla görüşlər keçirir, daima onları təşkilatlanmağa, lobbiçilik yaratmağa, milli ideologiya ətrafında birliyə dəvət edir və bu sahədə ciddi işlər görürdü. Bu istiqamətdə Ümummilli liderin həyata keçirdiyi tədbirlərdən biri də 2001-ci il noyabrın 9-10-da Bakıda təntənəli surətdə Dünya azərbaycanlılarının qurultayı olmuşdur [15]. Heydər Əliyev bu qurultaydakı nitqindəbir lider və böyük azərbaycanlı kimi dünya azərbaycanlılarınaharada yaşamasından asılı olmayaraq, azərbaycanlı soykökünü, milli mənsubiyyətini unutmamağı tövsiyə etdi və bu istiqamətdə qarşıda duran vəzifələrdən danışdı[16].Bu səpkidə həyata keçirilən fəaliyyətlərdən biri də Ulu öndərin 2002-ci il 5 iyul tarixli Fərmanı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması və 2002-ci il dekabr ayının 27-də isə “Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edilməsi olmuşdur [26]. Heydər Əliyevin azərbaycançılıq milli ideyası dövlət müstəqilliyinin qorunub saxlanılması, inkişafı və dünyaya inteqrasiyanı təmin edəcək iki əsas istiqaməti özündə birləşdirirdi: dövlətçilik və milli-mənəvi dəyərlərə sadiqlik. Ulu öndər hər bir Azərbaycan vətəndaşını siyasi mövqeyindən, sosial statusundan, tutduğu vəzifədən asılı olmayaraq, vətənpərvər olmağa, milli maraqları şəxsi mənafedən üstün tutmağa, dövlətin möhkəmlənməsinə və qanunçuluğun təntənəsinə xidmət etməyə çağırırdı. Heydər Əliyevin təbliğ etdiyi azərbaycançılıq ideyası hər bir vətəndaşı bu dövlətin idarə olunmasında və inkişafında məsuliyyətə dəvət edir, hər bir azərbaycanlıda ictimai-siyasi özünüdərk duyğusunu, vətəndaşlıq hissinin yüksək olmasını tələb edirdi. Bu gün azərbaycançılıq ideyası ictimai həyatın bütün sahələrində, dövlət siyasətində, vətəndaşların davranışlarında, ölkəyə, xalqa, vətənə münasibətdə təzahür edir.

Azərbaycan tarixinin müstəqillik dövrü Heydər Əliyevin siyasi kursunun əsas strategiyası olan müstəqilliyimizin qorunması, demokratiyanın inkişafı və Dağlıq Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində apardığı geniş miqyaslı işlər bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.2020-ci ildə 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun qazandığı şanlı qələbə hərb tariximizə və

xalqımızın yaddaşına qızıl hərflərlə yazılmışdır. Bu müharibədə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, iradəsi, əzmi, Ordumuzun gücü, qüdrəti sayəsində Azərbaycanın güclü dövlət olduğu və haqlı mübarizə apardığı bütün dünyaya bir daha nümayiş etdirildi.Bu Zəfər, eyni zamanda təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan, onun siyasi irsinin varisi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən, milli-mənəvi dəyərlərimizə dayanan Azərbaycançılıq məfkurəsinin millətimiz və Azərbaycan dövlətçiliyi üçün önəmini, aparılan dövlət siyasətinin uğurunu bir daha sübut etmiş oldu.

## The Place of Historical and National Values in the Heritage of National Leader Heydar Aliyev


### Summary

**Keywords:** national ideology, national values, history of independence, concept of the history of Azerbaijan

The merits of Heydar Aliyev, an outstanding statesman and national leader of Azerbaijan, to the people and the state are indispensable. The idea of Azerbaijanism was the main line of the state policy of Heydar Aliyev, who played an important role in the political, economic, social and cultural development of the Republic of Azerbaijan, both during the years of Soviet power and during the years of its independence. This idea is based on the preservation of national values, the study and dissemination of the history and culture of Azerbaijan.

The article defines the place of national values and history of Azerbaijan in the political and state heritage of the national leader Heydar Aliyev, shows the main activities of the outstanding statesman in this direction. Particular attention is paid to the personal initiative and ideas of Heydar Aliyev related to conceptual issues in the field of identifying and studying important issues in the history of Azerbaijan in the 20th century. The article also defines the place of the idea of Azerbaijanism in the history of Azerbaijani statehood.


## Ədəbiyyat siyahısı

### Mənbələr


1. Azərbaycan Respublikası Ali Sovetinə sədr seçilən zaman Heydər Əliyevin çıxışı // Ali Sovet, 15 iyun 1993-cü il//Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 1-ci kitab. Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar/ Bakı, Azərnəşr, 1997, səh.9

2. Azərbaycan Respublikası Elmlər Akademiyasında ziyalılarla görüşdə Heydər Əliyevin çıxışı//Bakı şəhəri, 21 sentyabr 1993-cü il// Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 1-ci kitab. Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar/ Bakı, Azərnəşr, 1997, səh. 148

3. Respublika gününə həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin nitqi// Respublika sarayı 27 may 1994-cü il//Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 2-ci kitab. Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar/ Bakı, Azərnəşr, 1997

4. Azərbaycan Respublikası Elmlər Akademiyası rəhbərliyi, həqiqi və müxbir üzvlər, institut direktorları, aparıcı alimlərlə görüşdə Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin nitqi// Respublika sarayı 31 yanvar 1997-ci il //Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 8-ci kitab. Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar/ Bakı, Azərnəşr, 1998, səh.359

5. Azərbaycanlıların soyqırımı haqqında Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin fərmanı//Bakı şəhəri, 26 mart, 1998-ci il №690 Azərbaycan Respublikasının Qanunvericilik toplusu 1998.

6. "Tarix və Mədəniyyət Abidələrinin Qorunması Haqqında" Azərbaycan Respublikası Qanunun tətbiq edilməsi barədə Azərbaycan Respublikasının prezidenti fərmanı//Bakı şəhəri, 13 iyun, 1998-ci il Azərbaycan Respublikasının Qanunvericilik Toplusu 1998.

7. "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinin qeyd olunması haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı. Bakı şəhəri, 20 aprel 1997-ci il / "Kitabi-Dədə Qorqud" ensiklopediyası, I cild, Bakı: Öndər, 2004

8. "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinin qeyd olunması haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı//Bakı şəhəri, 20 aprel 1997-ci il//Azərbaycan Respublikasının Qanunvericilik Toplusu 1997.

9. Erməni millətçilərinin apardığı etnik təmizləmə nəticəsində Ermənistan ərazisindəki öz tarixi torpaqlarından didərgin salınmış azərbaycanlıların məskunlaşması problemlərinin həlli haqqında Azərbaycan Respublikasının prezidenti fərmanı//Bakı şəhəri, 22 avqust, 2001-ci il №562 Azərbaycan Respublikasının Qanunvericilik Toplusu 2001.

10. Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin nitqi// Respublika sarayı 28 may 1998-ci il//Əliyev Heydər.Müstəqilliyimiz əbədidir. 15-ci kitab. Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar/ Bakı, Azərnəşr, 2005, səh.417

11. Azərbaycan Xalq Cümhuriyyətinin 85 illiyi münasibətilə Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin müraciəti//Bakı şəhəri //27 may, 2003-cü il// prezident kitabxanası//www.preslib.az

12. 31 mart azərbaycanlıların soyqırımı günü münasibətilə Müstəqilliyimiz əbədidir. 19-cu kitab. Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar/ Bakı, Azərnəşr, 2005,səh 38

13. "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin nitqi// Respublika sarayı 9 aprel2000-ci il//Əliyev Heydər.Müstəqilliyimiz əbədidir. 26-cı kitab. Çıxışlar,

nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar/ Bakı, Azərnəşr, 2009, səh.177

14. Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti Bakı şəhəri //29dekabr2000-ci il// Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 31-ci kitab. Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar/ Bakı, Azərnəşr, 2010,səh 283

15. Dünya Azərbaycanlılarının I Qurultayında Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin nitqi//Bakı şəhəri, 9-10 noyabr, 2001-ci il //prezident kitabxanası//www.preslib.az

## Ədəbiyyat

16. "Azərbaycan" qəzeti, 10  noyabr 2001

17. Bayramov Q. Heydər Əliyev və Azərbaycan tarixi /elmi red. İ.Hüseynova; A. Məmmədov, İ. Zeynalov Bakı: "Təhsil", 2004, 264 səh.

18. Heydər Əliyev və azərbaycançılıq məfkurəsi. Bakı, "Azərbaycan Universiteti" nəşriyyatı, 2002, 232 səh.

19. HüseynovaLeyla.  Heydər Əliyev irsində Azərbaycan tarixi məsələləri (Müstəqillik dövrü)) Bakı, "Təhsil" 2011.216 səh.

20. "Xalq qəzeti" /26 iyun 1998

21. "Xalq qəzeti"21 aprel 2013-cü il

22. Mahmudov Yaqub. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı, "Təhsil", 2002, 328 səh.

23. Naxçıvan Muxtar Respublikası: 1969-1999. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi, Naxçıvan, 1999, səh.216

24. Mehdiyev Ramiz. Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə I cild (məqalələr, çıxışlar, müsahibələr) Bakı, "XXI – Yeni Nəşrlər Evi", 2006, 624 s.

25. Mehdiyev Ramiz.  XXI əsrdə milli dövlətçilik. Bakı, "XXI – Yeni Nəşrlər Evi", 2003,  248s.

İKT resursları

Diasporla İş üzrə Dövlət Komitəsinin portalı – www.diaspora.gov.az

**Yeganə Hacıyeva**
AMEA akad. Z. M. Bünyadov adına Şərqşünaslıq İnstitutu,
Cənubi Azərbaycan şöbəsinin aparıcı elmi işçisi,
t.ü.f.d., dosent
yeganahaji@gmail.com

# HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANÇILIQ SİYASƏTİ VƏ BÜTÖV AZƏRBAYCAN

**Açar sözlər**: Heydər Əliyev, İran, cənubi azərbaycanlılar, azərbaycançılıq, bütövlük

## Giriş

Müasir dövrdə İran İslam Respublikasında cərəyan edən hadisələrlə bağlı bu ölkədə insan hüquqları və əsas azadlıqları, eyni zamanda milli və etnik azlıqların haqlarının təmin edilməsi ətrafında müzakirələrin intensivləşməsi Cənubi Azərbaycanda yaşayan soydaşlarımızın statusu problemini də yenidən aktuallaşdırıb. Cənubi Azərbaycanda yaşayan soydaşlarımızın İran ərazisində siyasi-sosial, mədəni vəziyyəti, hüquqi statusu heç vaxt gündəmdən düşməyib. Azərbaycanın tarixi torpaqlarının 1813-cü ildə imzalanmış Gülüstan və 1828-ci ildə bağlanmış Türkmənçay müqavilələri əsasında parçalanmasından sonra Azərbaycan xalqı daim birləşmə, bütövləşmə arzusu ilə yaşayıb. Bu təbii həm qan yaddaşı ilə, həm də folklorla, daha sonra yazılı mətnlərlə nəsildən-nəslə ötürülüb, xalqın qəlbində yaşayıb. Sovetlərin hakim olduğu Sovet Azərbaycanında da, eyni zamanda müstəqil Azərbaycan Respublikasında da bölünmüş xalqın birliyi təkcə ədəbi-mədəni çevrələrin deyil, ictimai, siyasi xadimlərin, dövlət adamlarının da diqqət mərkəzində olub. Zamanın mövcud ictimai-siyasi atmosferindən və proseslərdən asılı olaraq qeyd edilən məsələ bəzən digər problemlərin fonunda arxa plana keçib, bəzən də aktual bir mövzu kimi qabarıb, bəzən mənəvi-mədəni birlik, tarixin müəyyən mərhələlərində siyasi bütövləşmə ideyası kimi müzakirə mövzusu olub. Azərbaycan xalqının mədəni-mənəvi birliyi məsələsi həm SSRİ, həm də müstəqillik dövründə Heydər Əliyevin diqqət mərkəzində olub. Ümummilli liderin bir azərbaycanlı olaraq dünya miqyaslı siyasi xadim kimi şəxsiyyəti ilə yanaşı, sözügedən məsələyə yönəlik dərin strateji əhəmiyyətə malik olan bu fəaliyyəti də cənubi azərbaycanlıların milli hisslərinin qabarmasına birbaşa təsir göstərmişdir.

## Cənubi Azərbaycan məsələsinin yaranması

İran-rus müharibəsi (1804-1813, 1826-1828) nəticəsində iki yerə parçalanmış Azərbaycanın cənub torpaqları - Cənubi Azərbaycan Qacar sülaləsinin hakimiyyəti altında olan dövlətin tərkibində qalmış və ictimai, siyasi, iqtisadi və mədəni həyatı feodal qaydaları və ənənələrinə uyğun formada davam etmişdir. Ümumilikdə, Cənubi Azərbaycan türkləri IX əsrdən başlayaraq müəyyən fasilələrlə 1924-cü ilədək indiki İran ərazisində siyasi hakimiyyətə malik olmuş, ölkənin siyasi, iqtisadi, mədəni və mənəvi həyatında mütərəqqi

ideyaların yayılmasında aparıcı rol oynamışlar. Lakin yeni tarixi dövrə keçid mərhələsində azərbaycanlılar milli həyatın etnik komponentlərinin hərtərəfli inkişafı üçün lazımi siyasi və mədəni mühitin yaradılmasına nail ola bilməmişlər. 1925-ci ildə Rza xan Pəhləvi hakimiyyətə gəldikdən sonra İranda geniş miqyasda həyata keçirilən mərkəzləşdirmə siyasəti və onun əsasında yeni keyfiyyət kəsb edən milli münasibətlər nəticəsində azərbaycanlılar milli hüquqlardan məhrum edilmişlər. Həmin vaxtdan etibarən Cənubi Azərbaycan sosial-iqtisadi cəhətdən getdikcə geriləmək məcburiyyətində qalan bir əyalətə və xalqa çevrilmişdir. Nəticədə bölünmüş Azərbaycanın cənub hissəsində milli hüquqlar və azadlıq uğrunda mübarizə başlanmış, torpaqların, millətin birləşdirilməsinə cəhdlər göstərilmişdir.

Şimali Azərbaycanda da milli ruhlu şəxsləri, qabaqcıl ziyalıları Cənubi Azərbaycandakı soydaşlarımızın hüquqlarının qorunması, vətənin birləşdirilməsi, bütövləşdirilməsi daim düşündürüb.

Müxtəlif dövrlərdə Səttarxan Sərdar-e Milli, Bağırxan Salar-e Milli, Şeyx Məhəmməd Xiyabani və Seyid Cəfər Pişəvərinin rəhbərliyi altında baş verən hərəkatlar eyni zamanda bütöv Azərbaycan xalqının zəngin tarixinin mühüm hadisələridir [Qasımlı Musa; 2022]. İkinci Dünya müharibəsində İranın bölünməsi, bütöv Azərbaycan məsələsi uzun illərdən sonra diqqət mərkəzinə gəlmişdi. Həmin dövrdə Sovet İttifaqının ərazilərini genişləndirmək siyasəti ilə azərbaycanlıların birləşmək arzusu üst-üstə düşürdü. 1941-1946-cı illərdə sovetlərin Cənubi Azərbaycana göndərdiyi nümayəndə heyəti artıq "milli" müstəvidə bütöv "Azərbaycan" məsələsini müxtəlif çalarlarda gündəmə gətirmişdilər. İki hissəyə parçalanmış bir xalqın uzun onilliklərdən sonra ilk dəfə ən yaxın təması, birgə fəaliyyəti istər öz zamanında, istər sonrakı dövrlər üçün Azərbaycanın şimalında da - Sovet Azərbaycanında müxtəlif orqanlarda çalışanların şüurunda və fəaliyyətində cənub mövzusunun müəyyən yer tutmasına təsir edib. Kommunist və qeyri-kommunist olmasından asılı olmayaraq, bütün azərbaycanlıların qəlbində bütövləşmə istəyi həmişə olub.

Bununla yanaşı, müharibə dövründə xüsusi xidmət orqanlarının əməkdaşları kimi cənubda işləyən, məhdud dairədən kənarda tanınmayan bəzi gənclər də sonralar Azərbaycanda vəzifələr tutaraq müharibə illərində gördükləri işi yeni şəraitə uyğun olaraq həyata keçirməyə çalışıblar.

İkinci Dünya müharibəsi illərində gənc yaşlarından xüsusi xidmət orqanlarında işə başlayan Heydər Əliyev Cənubi Azərbaycanda da fəaliyyət göstərərək azərbaycanlıların hüquqlarının qorunmasında, siyasi və ictimai təşkilatların yaradılmasında, müstəqillik, birlik ideyalarının formalaşmasında, şimala birləşmək istəklərinin gücləndirilməsində mühüm rol oynamışdı. O, Təbrizdə işləyərkən cənublu gənclərin Seyid Cəfər Pişəvəri hərəkatında iştirak etmələri, Azərbaycan Demokrat Partiyasına üzv olmaları yolunda fəal təbliğat aparmış və bu partiyada çalışmışdı [Qasımlı Musa; 2022].

Sovet İttifaqı İkinci Dünya müharibəsindən sonra da cənubi azərbaycanlılarda milli kimliyi təşviq etmək, Cənubi Azərbaycanı İrandan ayırmaq üçün uzun müddətli bir siyasi plan hazırlamışdı [Nissman D. B., 1986]. Qeyd olunan dövrdə Şimali Azərbaycanla İran

Azərbaycanı arasında əlaqələrin qurulması və inkişafına (xüsusilə də kitab mübadiləsi, folklor əlaqələri) sovetlər tərəfindən şərait yaradılması bu planın həyata keçirilməsi üçün fəaliyyətin bir hissəsi idi. Heydər Əliyevin bu yöndə fəaliyyəti xalqla yaradıcı adamların arasında səmərəli, səmimi əlaqələrin qurulması yolları barədə aydın milli proqramının olması ilə səciyyələnirdi.

H. Əliyev xüsusi xidmət orqanlarında çalışarkən də bu məsələni diqqətdə saxlayır, Şah zülmündən qaçaraq Azərbaycan SSR-yə gəlmiş siyasi xadimlərin qayğısına qalırdı. O, DTK-da çalışdığı illəri xatırlayarkən, deyirdi: “Cənubi Azərbaycanın böyük bir şairi var idi – Məhəmməd Biriya. Cənubi Azərbaycan hərəkatı zamanı nazir olmuşdu. Sonra Azərbaycana gəlmişdi. Təəssüf ki, 1949-50-ci illərdə Rusiyanın Saransk şəhərində düşərgədə cəza çəkirdi, onu həbs etmişdilər. Mən Respublika Dövlət Təhlükəsizliyi Komitəsində işləyərkən 1958-ci ildə şəxsən Saranska getdim, Biriya ilə görüşdüm, onu Bakıya gətirdim. Onunla maraqlı söhbətlərim oldu. Sonralar o, psixi xəstəliyə tutuldu, İrana getdi... Çox böyük şair idi. Onu demək istəyirəm ki, Cənubi Azərbaycandan 1946-cı ildə Şimali Azərbaycana gələnlərlə, onların təşkilatları ilə sıx əlaqə saxlayırdım. Respublikanın siyasi rəhbəri işlədiyim dövrdə Cənubi Azərbaycandan gəlib Bakıda yaşayanların təşkilatlarına lazımi yardım göstərirdim, onların rəhbəri Qulam Yəhya və başqaları ilə tez-tez görüşürdüm” [Elmira Əmrahqızı, 1990].

Heydər Əliyev hələ Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsinin sədri olduğu vaxtlarda bütövlük ideyasını xüsusi diqqətdə saxlayır, bu mövzu ilə məşğul olan şəxsləri himayə edirdi. 1958-ci ildə Bəxtiyar Vahabzadə Azərbaycan xalqının bölünməsinə həsr edilmiş “Gülüstan” poemasına görə siyasi təqiblərə məruz qalmış, hətta həbs təhlükəsi ilə üzləşmişdi. Həmin vaxt şair Azərbaycan SSR DTK-nın sədri Heydər Əliyevin müdaxiləsi nəticəsində həbsən və siyasi təqiblərdən xilas ola bilmişdi [İki sahil, 10.12.2021].

## Heydər Əliyevin Azərbaycan SSR-in I katibi vəzifəsində işlədiyi dövrdə Cənubi Azərbaycan məsələsi

Heydər Əliyevin 14 iyul 1969-cu ildə hakimiyyətə gəlməsindən sonra ilk növbədə İrana Azərbaycan ədəbiyyatının göndərilməsi işi genişləndirilmişdi. 1970-ci illərin əvvəllərindən etibarən İranda Azərbaycanda nəşr edilmiş kitablara olan ehtiyac xeyli artmışdı. Ona görə də “Azərkitab” İrana 5 min nüsxə kitab göndərmək barədə İran naşirləri ilə müqavilə imzalamışdı. Təbriz, Urmiya, Zəncan və başqa şəhərlərdəki ali məktəb kitabxanalarına çoxlu Azərbaycan kitabı göndərilmişdi. Bunların arasında Azərbaycan ədəbiyyatı, tarixi və mədəniyyətinə, digər elm sahələrinə dair kitablar üstünlük təşkil edirdi. Kitab göndərilməsi işində Azərbaycan kitabxanaları da fəal iştirak edirdilər. 1971-1973-cü illərdə Azərbaycan Elmlər Akademiyası kitabxanası və M. F. Axundov adına Kitabxana İrana 900-dən çox kitab və jurnal göndərmişdi [Qasımlı Musa, 2022].

Ədəbiyyatı və ədəbi yaradıcılıqda gedən prosesləri dərindən bilən Heydər Əliyev Azərbaycan yazıçılarının 1971-ci ilin iyun ayında keçirilən V qurultayında bütün yazıçıları, o cümlədən cənubluları xalqla daha yaxın olmağa və xalqın həyatından yazmağa çağırırdı.

O, Şimali Azərbaycanda "Cənub" mövzusunun unutdurulmaması üçün elmi araşdırmaların aparılmasını təşviq edir, alim, yazıçı və şairləri cənub mövzusundan yazmağa çağırır, böyük ustalıqla həmin ideyanın yayılmasına kömək edirdi. Cənubi Azərbaycandan olan şair və yazıçıların məişət şəraitinin yaxşılaşdırılmasından ötrü qərarlar qəbul edir, onları mənzillə təmin edir, İrana və Cənubi Azərbaycan şəhərlərindəki kitabxanalara Bakıdan nəşrlər göndərilməsini artırır, cənublu gənclərin Azərbaycan ali məktəblərində təhsil almalarına dair qərarlar qəbul edirdi. Onun göstərişinə əsasən, 1979-cu ildə Azərbaycan Yazıçılar İttifaqında Cənub ədəbiyyatı üzrə katib vəzifəsi təsis edilmişdi. Göstərilən qayğı və respublikada qazanılan uğurlar cənublular tərəfindən rəğbətlə qarşılanırdı. Onlar Heydər Əliyevi şimal və cənubun lideri olaraq görürdü. Azərbaycan Demokrat Partiyası MK-nın sədri Qulam Yəhya oğlu Danişiyan 1974-cü il oktyabrın 3-də, Azərbaycan Demokrat Partiyasının birinci katibi Əmirəli Lahrudi 1981-ci il oktyabrın 28-də Heydər Əliyevə ünvanladıqları məktublarda mühacirlərə göstərdiyi qayğıya görə təşəkkür etmişdilər [Qasımlı Musa, 2022].

Heydər Əliyevin davamlı fəaliyyətinin nəticəsi olaraq "Cənubi Azərbaycan" adı 1976-cı ildən elmi-siyasi məfhum kimi rəsmiləşdirilmişdi. Azərbaycan Yazıçılar İttifaqında, Azərbaycan Radio və Televiziya Verilişləri Komitəsində, AMEA-nın Ədəbiyyat və Şərqşünaslıq institutlarında müvafiq şöbələr təsis edilərək fəaliyyətə başlamış, Azərbaycan Yazıçılar İttifaqının orqanı olan "Azərbaycan" jurnalında Mirzə İbrahimovun, Abbas Zamanovun, Sirus Təbrizli və bu kimi başqa ədiblərimizin tərtibatında "Cənubdan gələn səslər" adı altında silsilə yazılar dərc edilmişdi və bununla da azərbaycançılıq ideyasının rəsmi ideologiyaya çevrilməsinin ilkin mərhələsi başlanmışdı [Bayramzadə Səməd, 2021].

1981-ci ildə Bakıda Respublika Yazıçılarının VII qurultayında Azərbaycan SSR-nın rəhbəri H. Əliyev yazıçıların Cənubi Azərbaycandakı yazarlarla işbirliyinin əhəmiyyətini vurğulayaraq onların əsərlərinin Respublikada və kənarda təbliğ olunmasının vacibliyini bildirmişdi. Balaş Azəroğlunun yaradıcılığında əks olunmuş Cənubi Azərbaycanla bağlı məsələlərə işarə edərək bunların milyonlarla azərbaycanlının arzusu olduğunu qeyd etmişdi ["Бакинский рабочий", 12.12. 1981]. Azərbaycan rəhbəri soyuq müharibə şəraitində aparılan nüfuz savaşında Cənub və Şimalı vəhdətdə görərək vətənin hər iki hissəsini ümumi məsələlərdə bir olmağa çağırır, Cənubi Azərbaycan üzərində Azərbaycan SSR-in təsirinin güclənməsinə çalışırdı. Azərbaycan Yazıçılarının elə həmin qurultayında Heydər Əliyev şair Balaş Azəroğluya üzünü tutaraq deyirdi: "... bütün Cənubi Azərbaycanda yaşayan şairlərə təsir göstərib başa salınız ki, "türk dili" deməsinlər, "Azərbaycan dili" desinlər və buna nail olmaq lazımdır. Bu, birincisi sizin borcunuzdur. Çünki onlar özlərini azərbaycanlı sanır, dilləri də Azərbaycan dilidir. Biz Azərbaycan dilini qəbul etmişik... Necə ki burada vardır, eləcə də Cənubi Azərbaycanda" [Qasımlı Musa, 2022]. Bu fikirlər, əslində, Cənubi Azərbaycan məsələsində Bütöv Azərbaycan, birlik ideyasının geniş təbliği demək idi.

"Cənub" mövzusu ictimai həyata Azərbaycan rəhbərliyi tərəfindən ötürülür və unutdurulmasına imkan verilmirdi. Azərbaycan rəhbərinin tövsiyəsi ilə Şimali Azərbaycan şairlərindən Bəxtiyar Vahabzadə, Süleyman Rüstəm və Nəbi Xəzrinin Cənubi Azərbaycan-

da yaşayan Məhəmmədhüseyn Şəhriyar, Səhənd və digər görkəmli şairlərlə qurulan telefon əlaqələri, yazışmaları haqqında mətbuatda və digər kütləvi informasiya vasitələrində məlumat verilməsi "Cənub" mövzusunda yazan yaradıcı adamları daha da ruhlandırırdı. Bundan sonra Azərbaycan mətbuatında "Cənubi Azərbaycan" mövzusunda dərc edilən yazıların sayı artmışdı. "Cənub" mövzusu teatrların səhnələrinə, filmlərə, radio və televiziya verilişlərinə də gətirilmişdi.

1979-cu il İran İslam inqilabından sonra İranın rəsmi dairələri tərəfindən antisovet təbliğatı güclənmişdi. Digər tərəfdən ABŞ da İranla bağlı radio verilişlərinin həcmini artırmışdı. Bu təbliğat əsasən sovet dövlətinin daxili və xarici siyasətinə qarşı yönəlmişdi. Belə şəraitdə antisovet təbliğatının dayandırılması, heç olmasa zəiflədilməsi, İranın bloklara qoşulmamaq hərəkatı çərçivəsində antiimperialist mövqe tutması, suverenliyi və milli bütövlüyünün qorunmasında İran xalqına sovet dövləti tərəfindən yardım edilməsinin təbliği vacib idi. Ona görə də Sov. İKP MK katibliyi 1980-ci il 8 iyul tarixdə İrana yönəlik informasiya-təbliğat işinin gücləndirilməsi haqqında qərar qəbul etdi. Qərarda geniş tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur, İranın suverenliyinə və milli müstəqilliyinə hörmət edilməsinin vacibliyi xüsusi vurğulanır, bu istiqamətdə konkret tədbirlərin həyata keçirilməsi müəyyənləşdirilirdi [Qasımlı Musa, 2022].

İranda isə inqilabdan sonra Əsas Qanunla elan olunan, qismən təmin edilən məhdud azadlıqlar milli qüvvələrə mübarizəni çox məhdud dairədə, mədəni sferada aparmağa az da olsa bəzi imkanlar açırdı. İran-İraq müharibəsi dövründə zəif də olsa davam edən və əsasən milli-mədəni çərçivədə aparılan mübarizə isə daha çox xalq kütlələrinin maariflənməsini təmin etməklə milli hərəkatın sosial bazasının genişlənməsində, milli ideologiyanın formalaşmasında müəyyən rol oynadı. Qeyd olunan süstlük dövründə tarixin müxtəlif mərhələlərində İrana siyasi ideyaların daxil olmasında tranzit məntəqə rolunu oynayan Cənubi Azərbaycanda milli məsələnin dərinləşməsini şərtləndirən amillərdən biri də Sovet Azərbaycanının ictimai-siyasi həyatında baş verən dəyişikliklərdən gələn impuls idi. Yaranmış beynəlxalq şəraitdən məharətlə istifadə edən Heydər Əliyev Azərbaycan xalqının mənafeləri naminə onu uzun illər boyu düşündürən problemin yenidən gündəliyə gətirilməsi və həlli uğrunda fəaliyyətini genişləndirdi. Həmin dövrdə o taylı-bu taylı Azərbaycan arasında əlaqələrdə mədəni meyllərin daha güclü olmasının şahidi oluruq. Əslində inqilabından sonra sovetlərin siyasətində "Vahid Azərbaycan məsələsi" yenidən qabarmağa başlamışdı [زاره پرویز شاهمرسی. 1385‹, s. 116]. Azərbaycançılıq ideyasının dünya azərbaycanlılarının ümummilli ideologiyasına çevrilməsi işində xüsusi və önəmli olan ikinci mərhələ H. Əliyevin 1982-ci ildə Azərbaycan SSR-in I katibi vəzifəsindən azad edilərək Moskvaya aparılması, daha yüksək məqama - SSRİ MK Siyasi Bürosu üzvlüyünə, eyni zamanda SSRİ baş nazirinin birinci müavini vəzifəsinə təyin edilməsi ilə başlandı. O zamanadək bədii ədəbiyyatda əks olunan "Cənubi Azərbaycan" mövzusu bilavasitə Heydər Əliyevin səyləri ilə ictimai-siyasi həyatda yer tutmağa başladı. Çünki bu zaman Cənubi Azərbaycanda yaşayan xalqın hüquqlarının müntəzəm olaraq kobud şəkildə pozulması və

bundan yaranan narazılıq artmışdı. Beləliklə, “Bütöv Azərbaycan” şüarı təkcə ədəbi, ictimai mühitdə deyil, eyni zamanda siyasi dairələrdə geniş müzakirə obyektinə çevrildi. Azərbaycan tarixinə öz möhürünü vuran Heydər Əliyevin tarixi müsahibəsində söylədiyi fikirlər yuxarıda qeyd olunanları əsaslandırmaq üçün ən mühüm mənbədir: ”Yadımdadır, Moskvada olan səfirliklərin böyük bir qrup diplomatı Bakıya gəlmişdi. Mən onları qəbul etdim. Deyəsən, İtaliyanın səfiri idi, mənə belə bir sual verdi: “Siz Cənubi və Şimali Azərbaycanın birləşməsinə necə baxırsınız?” Dedim ki, bu bir xalqdır, müəyyən səbəblərdən ikiyə bölünüb. Bu xalq bir-birindən ayrı qala bilməz. Şübhəsiz ki, vaxt gələcək, birləşəcək...” [Elmira Əmrahqızı, 1990]. Beləliklə, H. Əliyevin yeni vəzifəyə təyinatı ilə Azərbaycan və azərbaycançılıq məsələsi ətrafında beynəlxalq dairələrdə hay-küyə səbəb olan təbliğat kampaniyalarına rəvac verildi. İran əsilli Mehrdad Azəri adlı müəllif fars dilində çap etdirdiyi “Azərbaycan və istismarçıların yeni nəğmələri” adlı kitabında bu həssas məsələlərə işarə edərək yazırdı: “1982-ci ilin 23 noyabr səhəri BBC radiosunun şərhçiləri SSRİ-nin İran Azərbaycanına da göz tikmələri barədə danışır və Əliyevin iki Azərbaycanın bütövlüyü barədə fikirlərini ortaya qoyurdular. Qeyd edək ki, H. Əliyev Sovet Azərbaycanı Kommunist partiyasının rəhbəri olarkən də xarici diplomatlara görüşündə İran Azərbaycanının yoxsulluğunu və geriliyini təəssüf hissi ilə söyləmiş, iki Azərbaycanın birlik arzusundan və İran Azərbaycanı xalqının öz rifahı və səadəti üçün mübarizəsindən danışmışdı [مقصودی مجتبی. 1380, s. 340].

Heydər Əliyevin Azərbaycan Respublikasının prezidentliyi dövründə Cənubi Azərbaycan məsələsi

Şimali Azərbaycan müstəqillik əldə etdikdən sonra burada ilk illər (1991-1993) həm rəsmi, həm də qeyri-hökumət təşkilatları səviyyəsində ortaya qoyulan Cənubi Azərbaycanın müstəqilliyi və iki Azərbaycanın birləşməsi yönündəki fikirlər [Elçibəy Ə., 2004, s. 18] İrandakı Azərbaycan türkləri arasında birləşmək ideyasının və digər strateji məqsədlərin ortaya çıxması ilə yanaşı, Azərbaycana güclü meyil göstərən cərəyanların yaranmasına səbəb oldu. Müxtəlif ölkələrdə yaşayan Azərbaycan türkləri ilə əlaqə saxlayan “Vətən” cəmiyyəti cənublu fəalların Şimali Azərbaycana gəlməsinin təşkilində yaxından iştirak edirdi [“Azərbaycan” qəzeti (Təbriz), 31.12.1993]. Eyni zamanda dövlət tərəfindən də Azərbaycan Respublikasına gəlmiş milli fəalların açıq fəaliyyətinə dəstək verilirdi [Cornell S. 2012, s. 314]. H. Əliyevin prezidentliyi dövründə də cənubi azərbaycanlı fəalların Azərbaycanda fəaliyyəti məhdudlaşdırılmadı, əksinə, geniş şərait yaradıldı. Bakıda İrandan gəlmiş cənubi azərbaycanlıların yaratdığı çeşidli cəmiyyətlər içərisində ən nüfuzlularından biri əvvəlcə muxtar respublika, sonrakı mərhələdə isə müstəqil respublika iddiaları ilə çıxış edən Cənubi Azərbaycan Milli Azadlıq Hərəkatı (CAMAH), “İranlı siyasi pənahəndələr Cəmiyyəti”, Sərir Azərin “Cənubi Azərbaycan Milli İstiqlal Cəbhəsi” idi. 90-cı illərin ikinci yarısından Azərbaycan Respublikasında fəaliyyət göstərən Türk Dirçəliş Təşkilatı, sabiq prezident Əbülfəz Elçibəy tərəfindən cənublu azərbaycanlıların yaxından iştirakı ilə yaradılmış Bütöv Azərbaycan Birliyi (BAB), Böyük Rəsuloğlunun rəhbərliyi ilə Dünya Azərbaycanlılarının Hüquqlarının Müdafiə Komitəsi də bu qəbildən olan təsisatlar idi [مجتبی

مقصودی. 1380, s. 340]. Azərbaycan Dövlət Televiziyasında ”Şəhriyar” seriyalının verilməsi, İran Azərbaycanı və Azərbaycan Respublikası arasında əlaqələrin qurulmasına xidmət məqsədilə 1994-1999-cu illərdə Bakıda İrandakı tamaşaçı kütləsinə yönəlik verilişlər yayımlayan “Sara” televiziya kanalı, müxtəlif nəşrlər, ən əsası sabiq prezident Heydər Əliyevin diplomatik səfərləri zamanı xaricdə yaşayan iranlı azərbaycanlılarla mənəvi əlaqələr yaratmaq məqsədilə təşkil olunan görüşlər İran tərəfindən rəsmi Bakının Vahid Azərbaycan məfhumunun geniş spektrda təbliği düşüncəsini dəstəkləməsi kimi dəyərləndirilirdi [مجتبی مقصودی. 1380, s. 342]. Bu istiqamətdə qeyd etdiyimiz nəzərəçarpacaq nüanslar İran tərəfindən Azərbaycan Respublikasının təbii ki, rəsmi fəaliyyəti kimi yozulurdu. İranlı müəlliflərdən olan Moctəbi Məggsudi İranda Cənubi Azərbaycan Milli Hərəkatının güclənməsini Azərbaycan Respublikasının yaranması və onun dəstəyi ilə baş verdiyini yazır: “Sovet İttifaqının mövcudluğu dövründə H. Əliyev və Azərbaycan Kommunist Partiyasının rəhbər nümayəndələri Cənubi Azərbaycanla birlik məsələsini və bu istiqamətdə fəaliyyətlərini büruzə verməməyə çalışsalar da, Azərbaycan Respublikasının müstəqilliyindən sonra bu məsələlər açıq formada gündəmə gəldi [مجتبی مقصودی. 1380, s. 340]. Belə ki, Heydər Əliyev 22-25 fevral 1994-cü ildə Böyük Britaniyada rəsmi səfərdə olarkən, Londondakı cənubi azərbaycanlıların “İkiyə bölünmüş ölkəmizin, millətimizin gələcək taleyi barədə suala cavabında prezident “Zaman gələcək, bölünmüş Vahid yenidən bütövləşəcəkdir!” demişdi [Bayramzadə S. 2012, s. 90]. 90-cı illərin əvvəllərində Şimali Azərbaycanın rəsmi dairələrində Cənubi Azərbaycanla bağlı siyasi çalarlı meyllərin müşahidə olunması, eyni zamanda radikal millətçilərin iki Azərbaycanı birləşdirmək haqqında şüarları Cənubi Azərbaycanda milliyyətçilik hisslərinin daha da qabarmasına, milli şüurun inkişafına təsirsiz ötüşmürdü. Azərbaycançılıq - türkçülük şüurunun güclənməsinə İran hökumətinin reaksiyası əsasən repressiyalar, ideoloji və ideoloji-publisistik təzyiqlərlə müşayiət olunurdu. 90-cı illərin ortalarında İran hakimiyyəti ideoloji sahəyə xüsusi diqqət ayırmağa başladı. Pəhləvi dövründəki fars millətçiləri tərəfindən irəli sürülən “Azəri nəzəriyyəsi” ilə bağlı tezislər yenidən gündəmə gəldi və bu mövzuda yazılmış kitablar çap olundu. Türk etnik mənsubiyyətinin rəsmi qurumlar tərəfindən belə aşağılanmasına başlanıldı. 90-cı illərin əvvəllərindən cənubi azərbaycanlıların arasında “vahid vətən”, “vahid millət” ideyasının gündəmə gəlməsi milli qüvvələrin vahid təşkilat halında birləşməsinə və fəaliyyətinə müsbət təsir göstərdi.

Azərbaycan dövləti Heydər Əliyevin prezidentliyi dövründə bütün sərvətlərinə tam sahib olmaq səviyyəsinə qədər qüdrətlənib. Bu sərvətlər arasında azərbaycanlıların xüsusi yeri var. Diasporumuzla bağlı dövlət siyasəti məsələsi hələ 1991-ci ildən gündəmdə olsa da, Heydər Əliyev tərəfindən həll edildi.

Avropadakı cənublu mühacirlərin milli-demokratik və milli-maarifçilik fəaliyyətinin güclənməsinə təkan verən amillərdən biri 1987-ci ilin dekabrında Bakıda yaranan “Vətən” cəmiyyətindən gələn müsbət impuls idi. Şimali Azərbaycanda 1970-ci illərdən başlayaraq azərbaycançılıq ideologiyasının təbliği, cənubla əlaqələrin güclənməsi və 1987-ci ilin dekabrında Bakıda (Şimali Azərbaycan) məhz mühacir azərbaycanlılarla əlaqələr yaratmaq

məqsədilə qurulan "Vətən" cəmiyyətinin də rolunu qeyd etməliyik. Təkcə belə bir təşkilatın yaranması faktının özü mühacir cənublularda böyük ruh yüksəkliyi yaratmışdı. Onlar özlərini artıq daha inamlı hiss edirdi ki, bu da özünü sonrakı mərhələdə daha aydın göstərdi. Bu təşkilat milli mədəniyyət, dil, ana dilində ədəbiyyat böhranı keçirən cənublu azərbaycanlılara böyük mədəni-mənəvi yardım göstərirdi. Bakıdan göndərilən əyani vəsaitlər, qəzet-jurnallar, Azərbaycan tarixi, mədəniyyəti, milli kimliyi, dili barədə kitablar həmin böhranı qismən də olsa aradan qaldırmaqda əvəzsiz rol oynayırdı. Xüsusilə 1989-cu ildən etibarən "Vətən" cəmiyyətinin xətti ilə Şimali Azərbaycandan olan mədəniyyət və incəsənət xadimlərinin, ədiblərin, alimlərin Avropa ölkələrinə səfərləri və oradakı cənublu mühacirlərlə keçirilən görüş və müzakirələr də sonuncuların ana dili, milli kimlik, milli mədəniyyət anlayışlarına münasibətini daha da cilalayıb duruldurdu.

1980-ci illərin sonundan müzakirə mövzusu olan vətən-diaspor əlaqələri, diasporun intellektual və iqtisadi potensialının milli maraqlar istiqamətində hərəkətə gətirilməsi məsələsi nəhayət Heydər Əliyev tərəfindən 8-9 noyabr 2001-ci ildə Bakıda Dünya azərbaycanlılarının I qurultayında dövlət əhəmiyyətli məsələ kimi qoyuldu və azərbaycançılıq əsas milli-ideoloji doktrina elan edildi. Konkret olaraq qurultaya Cənubi Azərbaycandan qonaq dəvət olunmamasına, mühacir cənubi azərbaycanlıların İranda ana dilindən istifadə hüquqlarının təmin edilməsi uğrunda mübarizəsinə dövlət dəstəyi müşahidə edilməməsinə baxmayaraq, cənublu mühacirlərin bu qurultaya qatılmasını İran hökuməti etirazla qarşılamış, Tehrandan yayımlanan radio və televiziyalarda qeyd olunan tədbir çox kəskin tənqid olunaraq "İranın daxili işinə müdaxilə" kimi qiymətləndirilmişdi.

Heydər Əliyev cənublu soydaşlarımızın ana dilindən istifadəsi ilə bağlı problemi dolayısı İİR dini lideri Xameneyi ilə görüşdə iradını sərt şəkildə bildirmişdi.

Heydər Əliyev Azərbaycan dövlətçiliyini möhkəmləndirməklə yanaşı, xalqımızın vahid ideologiya ətrafında birləşməsini təmin etdi. O, Azərbaycançılıq ideologiyasına dayanan Bütöv Azərbaycan uğrunda mübarizənin mühüm sütunlarından biri kimi tarixə düşüb və bütövləşmə amallarına söykənən misilsiz xidmətləri ilə milli birliyin rəmzinə çevrilib.

## Heydar Aliyev's Azerbaijanism Policy and Azerbaijan as A Whole

## Summary

**Keywords**: Heydar Aliyev, Iran, southern Azerbaijanis, Azerbaijaniism, integrity

The article talks about Heydar Aliyev's activities in the direction of cultural and moral awareness of the Azerbaijani people both during the USSR and independence. Heydar Aliyev played an important role in the consciousness and activities of the Azerbaijanis living in both regions by bringing up the issue of protecting the rights of our compatriots in South Azerbaijan, reunification and integration of the homeland in various ways. As a result of Heydar Aliyev's continuous activity, the name "Southern Azerbaijan" was formalized as a

scientific and political concept. The slogan "Whole Azerbaijan" has become an object of wide discussion not only in the literary and social environment, but also in political circles.

### Ədəbiyyat siyahısı


1. “Azərbaycan” qəzeti (Təbriz), 31.12.1993

2. Bayramzadə S. Türkmənçay \\ Kimlik dərgisi, say:8, dekabr 2012, s. 90-98

3. Bayramzadə Səməd. Heydər Əliyevin azərbaycançılıq ideyasında Cənubi Azərbaycan // Metafizika jurnalı, 2021, №4, pdf.

4. Qasımlı Musa. Heydər Əliyev və Cənubi Azərbaycan. 2022, https://www.azerbaijan-news.az/az/posts/detail/heyder-eliyev-ve-cenubi-azerbaycan-1670446015

5. Elmira Əmrahqızı "Bir arzum vardı: Cənubi və Şimali Azərbaycan birləşsin!", 1990-cı ildə "Ulduz" jurnalının 6-cı sayı).https://azpolitika.info/?p=417312

6. Elçibəy Ə. Bütöv Azərbaycan Yolunda. − Bakı: Nurlar-NPM, 2004. − 374 s.

7. Heydər Əliyev – Azərbaycan ədəbiyyatının hamisi və təəssübkeşi, http://ikisahil.az/post/270119-heyder-eliyev-azerbaycan-edebiyyatinin-hamisi-ve-teessubkeshi

8. Cornell S. Small Nations and Great Powers. A Stady of Ethnopolitical conflict in the Caucasus // is.muni.cz/el/1423/podzim2012/MVZ208/um/35586974/Small_Nations_and_Great_Powers__A_Study_of_Ethnopolitical_Conflict_in_the_Caucasus__.pdf.

9. Nissman D. B. The Soviet Union and Iranian Azerbaijan. The Use of Nationalism for Political Penetration.  Boulder: Westview, 1986. – 123 p

10. “Бакинский рабочий”, dekabr 12, 1981, dekabr 12, 1981

**مقصودی مجتبی. تحولات قومی در ایران: اعلل و زمینه ها. تهران، موصصه مطالعات ملی،** 1380، ص.512

**شاهمرسی پرویز زاره. تاریخ زبان ترکی در آذربایجان، نشر اختر و انتشارات هاشمی سودمند،** 1385، 120 **ص**

**Sübhan Talıblı**
AMEA akad. Z. M. Bünyadov adına Şərqşünaslıq İnstitutu,
Cənubi Azərbaycan şöbəsinin aparıcı elmi işçisi,
t.ü.f.d., dos.
subhantalibli@gmail.com

# HEYDƏR ƏLİYEVİN HAKİMİYYƏTİ DÖVRÜNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ YAXIN VƏ ORTA ŞƏRQ DİPLOMATİYASI (1993-2003-cü illər)

**Açar sözlər:** Azərbaycan Respublikası, Heydər Əliyev, Yaxın və Orta Şərq, xarici siyasət, diplomatiya.

## Giriş

Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycan Respublikasının xarici siyasətində Yaxın və Orta Şərq ölkələri arasında siyasi-diplomatik münasibətlərin yaranması, səfirliklərin açılması və fəaliyyəti, dövlət və hökumət başçılarının, dövlət qurumlarının qarşılıqlı səfərləri, parlamentlərarası əlaqələr, eləcə də parlamentlərarası dostluq qrupunun fəaliyyəti, iqtisadi-ticari və enerji sahəsində əlaqələr, beynəlxalq və regional təşkilatlar çərçivəsində əməkdaşlıq, mədəniyyət, elm, təhsil və humanitar sahədə əlaqələr, Müştərək Komissiyanın fəaliyyəti və s. məsələlər mühüm yer tutur.

Azərbaycan Respublikasının Ümummilli Lideri Heydər Əliyev Azərbaycan Respublikasının xarici siyasət strategiyası haqqında deyirdi: "Xarici siyasət ilk növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Əsas vəzifəmiz dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı surətdə əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmləndirmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir".

Ümummilli lider Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindən biri olan Yaxın və Orta Şərq strategiyasıbeynəlxalq və regional təşkilatlar çərçivəsində – BMT, İslam Əməkdaşlıq Təşkilatı, ECO, KÖƏŞ, ƏDL, ICESCO, OPEC, İslam İnkişaf Bankı, G20, Qoşulmama Hərəkatı (NAM), və s. əməkdaşlığı şərtləndirən amillərdəndir.

Azərbaycan Respublikasının Yaxın və Orta Şərq ölkələrinin parlament rəhbərləri arasındakı münasibətlər, parlamentlərin rəhbərlərinin, müxtəlif səviyyəli nümayəndə heyətlərinin qarşılıqlı səfərləri, keçirdikləri görüşlər, apardıqları danışıqlar və müzakirələr Yaxın və Orta Şərq regionu ölkələri arasındakı münasibətlərin müxtəlif sahələr üzrə daha da genişlənməsinə, qarşılıqlı anlaşma və etimada, mənafelərin yaxınlaşmasına mühüm xidmət göstərmişdir. Həmin səfərlər zamanı parlamentlərarası münasibətləri inkişaf etdirmək üçün mü-

hüm qurumların yaradılması, müxtəlif sahələrdə sazişlərin bağlanması, bağlanmış sazişlərin ratifikasiyası və icrasının zəruriliyi barədə fikir mübadilələri aparılmışdır. Qanunvericilik qurumları arasında münasibətlərin yüksək səviyyəsi iki ölkə arasında digər sahələrdə əlaqələrin inkişafına mühüm təsir göstərmişdir.

Azərbaycanın beynəlxalq iqtisadi əlaqələrinin genişləndirilməsi baxımından Yaxın və Orta Şərq regionu ölkələri, o cümlədən də ərəb kapitalının cəlb edilməsi, xüsusən Səudiyyə Ərəbistanı və digər Körfəz ölkələrinin rolu olmuşdur.

Azərbaycan xalqını tarixi keçmişi və mədəni-dini dəyərləri baxımından Yaxın və Orta Şərq ölkələri ilə möhkəm tellər bağlayır. Uzun illər boyu Azərbaycan Ərəb xilafətinin tərkibində olması, bir çox görkəmli Azərbaycan şair, yazıçı və alimləri ərəb dilində yazıb-yaratmışlar.

**Siyasi-diplomatik münasibətlərin yaranması və inkişafı**

Heydər Əliyevin Şərq ölkələri, eyni zamanda onların rəhbərləri ilə əlaqələri 70-ci illərdən qurulmağa, formalaşmağa başlamış, Azərbaycan Respublikası yenidən dövlət müstəqilliyini qazandıqdan sonra isə indiki vəziyyətə – mehriban qonşuluq və bərabərhüquqlu əməkdaşlıq münasibətləri səviyyəsinə çatmışdır. Heydər Əliyevin 1982-1987-ci illərdə Misirə, Pakistana, İordaniya, Suriyaya, İraqa, Yəmənə və başqa ölkələrə səfərləri ilə islam dünyasının kral Hüseyn, Hafiz Əsəd, Yasir Ərafat və başqa liderləri ilə görüşləri onu dünyada aparıcı siyasətçilərdən biri kimi tanıtdı. O, köhnə əlaqələrini bərpa edərək respublikamızın dünyada öz mövqeyini möhkəmlətməsi üçün yeni münasibətlər yaratdı.

Heydər Əliyevindən 1993-cü ildə hakimiyyətə ikinci dəfə qayıdışından sonra Azərbaycanın xarici siyasətinin əsas prinsip və istiqamətləri, xarici siyasət strategiyası, diplomatiyası əsaslı şəkildə formalaşdırılmışdır. Heydər Əliyev xarici siyasətinəsas hədəfi kimi strategiyası müstəqil Azərbaycanın dövlətçiliyinin möhkəmləndirilməsi, milli təhlükəsizliyinin təminatı, Azərbaycanınbeynəlxalq vəregional təşkilatlarda təmsil olunması, Ermənistanın hərbi təcavüzünün qarşısının alınması, ərazi bütövlüyünün bərpası və gələcək inkişaf strategiyasının müəyyənləşdirilməsi olmuşdur. Azərbaycan Respublikasının milli mənafe və maraqlarına xidmət edən xarici siyasət kursunun işlənib hazırlanması və gerçəkləşdirilməsi bütövlükdə ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

Dövlət müstəqilliyi bərpa edildikdən sonra Azərbaycan Respublikasının xarici siyasətinin istiqamətlərindən biri Yaxın Şərqi, Fars körfəzini və Şimali Afrikanı əhatə edən ərəb ölkələri, xüsusən Ərəb Şərqi ölkələri ilə hərtərəfli əlaqələri qurmaq və genişləndirmək oldu. Ərəb dövlətlərinin böyük maliyyə imkanlarına malik olması, dünya iqtisadiyyatında və enerji təchizatında mühüm rol oynamaları, Fars körfəzi rayonunda dünya neft ehtiyatlarının 2/3-i, qaz ehtiyatlarının 1/3-2 yerləşməsi, Ərəb nefti və qazı Qərb ölkələri iqtisadiyyatında mühüm sabitləşdirici amil kimi təsir etməsi, enerji daşıyıcılarının ixracı bu ölkələrin iqtisadi qüdrətini təmin etməsi və siyasi nüfuzunun artmasına təsiri, Ərəb ölkələrinin nadir coğrafi, geoiqtisadi və geosiyasi mövqeyi, Ərəb dünyasının Asiya, Afrika və Avropanın qovşağında yerləşməsi, Atlantik və Hind okeanlarına, Fars körfəzinə, Aralıq

dənizinə və Qırmızı dənizə çıxış ərəb ölkələrini mühüm nəqliyyat-kommunikasiya dəhlizinə çevirməsi, Avropanı Asiya və Sakit okean hövzəsi ilə bağlayan mühüm dəniz və hava yolları buradan keçirməsi(Cəbəllütariq və Hörmüz boğazlan, Süveyş kanalı Avropa, Cənubi Asiya və Uzaq Şərqin enerji resursları ilə təmin edilməsində mühüm rol oynayırdılar), 22 ölkədən ibarət olan ərəb dünyasının böyük insan ehtiyatının olması, ərəb dili BMT-nin beş rəsmi dilindən biri olması, ərəb ölkələri ölkələrin bir çoxunun ABŞ, Avropa İttifaqı, Rusiya, Çin, Hindistan və Yaponiyanın iqtisadi və strateji tərəfdaşları olması və s. məsələlər Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycan Respublikasının Yaxın və Orta Şərq diplomatiyasında milli maraqların, ikitərəfli və çoxtərəfli diplomatiyası, Azərbaycan həqiqətlərinin çatdırılmasında, siyasi-iqtisadi əməkdaşlığın, xalq diplomatiyasının inkişafında əsas amillər olmuşdur.

### Türkiyə Respublikası ilə münasibətlər

Türkiyə Respublikası 9 noyabr 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyini ilk dövlət olaraq tanımış, iki ölkə arasında diplomatik münasibətlər 14 yanvar 1992-ci ildə qurulmuşdur.Azərbaycanın Türkiyədə səfirliyi 1992-ci ilin avqust ayında açılmışdır. 1993-cü ilin yanvar ayında İstanbul şəhərində, 12 aprel 2004-cü il tarixində isə Qars şəhərində Azərbaycanın Baş konsulluqları təsis edilmişdir. Türkiyənin Bakıda Səfirliyi və Naxçıvan və Gəncə şəhərlərində Baş Konsulluqları fəaliyyət göstərməkdədir.

Türkiyə Respublikasının Prezidenti Turqut Özalın Azərbaycana 1992-ci il 1-3 may tarixli səfəri və səfər zamanı imzalanmış Birgə Bəyanat strateji əməkdaşlığın təməl daşını qoydu. İki ölkə rəhbərləri arasında keçirilən görüşlər və Birgə Bəyanat qarşılıqlı əlaqələrin əsas prinsiplərini və inkişaf perspektivlərini müəyyən etdi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyəyə 1994-cü il fevralın 8-dən 11-dək davam edən ilk rəsmi səfəri ikitərəfli əlaqələrin inkişafına yeni təkan verdi. Ankarada aparılan danışıqlardan sonra fevralın 9-da Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında protokol, elmi, texniki, mədəni və iqtisadi sahələrdə əməkdaşlıq haqqında saziş, dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə müqavilə, siyasi məsləhətləşmələr barədə saziş, investisiyaların qarşılıqlı təşviqi və qorunması haqqında saziş və digər mühüm sənədlər imzalandı.

Qarşılıqlı etibar və həmrəylik əsasında formalaşan Azərbaycan-Türkiyə əlaqələri beynəlxalq platformalarda da davam edir. İkitərəfli əlaqələrlə yanaşı regional və beynəlxalq təşkilatlar çərçivəsində də Türkiyə ilə səmərəli işbirliyinin möhkəm təməli yaradılmışdır. Hər iki dövlət Birləşmiş Millətlər Təşkilatı, Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, Qaradəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Türk Şurası, İqtisadi Əməkdaşlıq Təşkilatı və İslam Əməkdaşlıq Təşkilatında birgə əməkdaşlıq nümayiş etdirir.

Dağlıq Qarabağ münaqişəsinin ilk günlərindən Türkiyə Azərbaycanın beynəlxalq hüquq normalarına uyğun haqlı tələblərini ardıcıl müdafiə etmiş, respublikamızın ərazi bütövlüyünün və suveren hüquqlarının təmin olunması üçün böyük səylər göstərmişdir. Münaqişənin həlli yolunu yalnız Azərbaycanın razılaşacağı şərtlər çərçivəsində qəbul

edəcəyini bildirən Türkiyə münaqişə nizama salınana qədər Ermənistan ilə diplomatik münasibətlər qurmayacağı və iqtisadi əlaqələr yaratmayacağı barədə öz qətiyyətli mövqeyindən dönməyəcəyini dəfələrlə bəyan edib.

Türkiyə Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü və suverenliyi içərisində, sülh yolu ilə həllinə səy edir. Dağlıq Qarabağ probleminin Azərbaycanın ərazi bütövlüyü içində sülh yollarıyla həll edilməsi Türkiyənin Azərbaycana dəstəyi ilə davam edir.

Azərbaycanla Türkiyə arasında 25 illik iqtisadi əməkdaşlıqda enerji sahəsi xüsusi yer tutur. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"ni imzalamış xarici neft şirkətlərinin konsersiumunda "Türk petrolları" şirkətinin təmsil olunması Türkiyə ilə Azərbaycan arasında strateji əməkdaşlığın real təzahürü idi. Türkiyə ilə Azərbaycan arasındakı iqtisadi əlaqələrin hüquqi çərçivəsini təşkil edən "Türkiyə ilə Azərbaycan arasında ticarət və iqtisadi əməkdaşlıq haqqında" Saziş 1992-ci ildə, "Türkiyə ilə Azərbaycan arasında investisiyaların qarşılıqlı təşviqi və qorunması haqqında" Saziş ilə "Türkiyə ilə Azərbaycan arasında ikiqat vergitutmanın qarşısının alınması haqqında" Saziş isə müvafiq olaraq 1994 və 1997-ci illərdə imzalanıb və bununla da hüquqi bazanın qurulması önəmli ölçüdə tamamlanıb.

Beləliklə, tarazlaşdırılmış və çoxşaxəli xarici siyasət kursu yürüdən müstəqil Azərbaycan Respublikası Avropa strukturları ilə hərtərəfli inteqrasiya xəttini həyata keçirsə də, etnik və dini yaxınlığı ilə seçilən Şərq ölkələri, xüsusilə də Türkiyə ilə qarşılıqlı münasibətlərin inkişafına ciddi diqqət yetirərək, bu əlaqələri bu gün strateji tərəfdaşlıq səviyyəsində davam etdirir. Bu isə həm regional təhlükəsizliyin və stabilliyin qorunmasında, həm də Azərbaycanın Avropa dövlətləri ilə sıx inteqrasiya olunmasında Türkiyənin potensialından səmərəli şəkildə istifadə olunmasında və dövlətimizin milli maraqlarının təmin olunmasında xüsusi əhəmiyyət kəsb edir.

**İran İslam Respublikası ilə münasibətlər**

SSRİ dağıldıqdan sonra Cənubi Qafqazda yaranmış boşluğu doldurmaq üçün İran regionda cərəyan edən hadisələri diqqətlə izləməyə başladı. Təsadüfi deyil ki, Tehran Cənubi Qafqazda mövcud problemlərin həllində vasitəçilik missiyası göstərmək təşəbbüsü ilə dəfələrlə çıxış etmişdi. Lakin böyük dövlətlərin müqaviməti ilə üzləşən İranın bu cəhdləri uğursuzluqla bitdi. Bununla belə, İran həm Azərbaycanda, həm də Ermənistan, həm də Gürcüstanda da cərəyan edən hadisələri diqqətlə izləyir və Cənubi Qafqaza özünün milli maraqlarına daxil olan zona kimi baxır. Tehran Qərblə Şərqi birləşdirən nəqliyyat dəhlizinə çox maraq və həssaslıqla yanaşır.

İİR və Azərbaycan Respublikası arasında əlaqələrin inkişafını zəruri edən amillər bunlardır: Qafqaz xalqları içərisində sayına görə azərbaycanlıların üstünlük təşkil etməsi, qarşılıqlı münasibətlərdə bu əhalinin başlıca amil kimi mühüm rol oynaması; Azərbaycan Respublikasının əlverişli geosiyasi mövqeyə malik olması, Transqafqaz yolunun Azərbaycandan keçməsi, onun iqtisadi və siyasi təsir gücünün artması; Azərbaycanın zəngin resurslara

malik olması, iqtisadi resursların xalqları və ölkələri bir-birinə yaxınlaşdıran mühüm amil olması.

Sovet sisteminin dağılması ərəfəsində SSRİ-yə daxil olan respublikaların bir qismi xarici ölkələrlə ikitərəfli əlaqələri inkişaf etdirməyə və genişləndirməyə can atdılar. Qeyd edilməlidir ki, İranın hələ sovet dövründə Bakıda konsulluğu var idi və SSRİ daxilində olan Azərbaycanın bu ölkə ilə bəzi əlaqələri mövcud idi. SSRİ-nin süqutu Azərbaycan-İran münasibətlərinin yaxşı axara düşməsinə kömək etdi. 1991-ci ilin 18 oktyabrında Azərbaycan "Dövlət müstəqilliyi haqqında Konstitusiya aktı"nı qəbul etdi və həmin qanunda özünün müstəqil dövlət olduğunu bütün dünyaya bildirdi. 1991-ci ilin dekabrın 25-də İran İslam Respublikası Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanıdı, 1992-ci il martın 12-də iki dövlət arasında diplomatik münasibətlər quruldu.

8 dekabr 1992-ci il tarixində müstəqil Azərbaycan Respublikasının İran İslam Respublikasına təyin edilmiş səfiri Nəsib Nəsibzadənin başçılığı ilə ilk diplomatik heyət (prof., dr.Həsən Əlibəyli müşavir və dr.Səməd Bayramzadə II katib vəzifəsində) Tehrana gəldi. 12 dekabr 1992-ci il tarixində səfir Nəsib Nəsibzadə öz etimadnaməsinin surətini İranın xarici işlər naziri Əli Əkbər Vilayətiyə təqdim etdi. Artıq iki qonşu ölkə arasında diplomatik-siyasi əlaqələr genişlənərək səfirlik səviyyəsinə çatdı. Növbəti gün, 1992-ci il dekabr ayının 13-də Azərbaycan Respublikasının ilk səfiri etimadnaməsini İran prezidenti Haşimi Rəfsəncaniyə təqdim etdi. Görüş zamanı İran prezidenti bildirmişdir ki, İran ilə Azərbaycan arasında diplomatik münasibətlərin yaradılması (12 mart 1992) iki ölkə əməkdaşlığının genişlənməsinə səbəb olmuşdur.

Qeyd edək ki, hər iki ölkənin səfirlikləri (1969-cu ildə İranın Bakı şəhərində açılmış konsulluğu 1992-ci ilin mart ayından İran İslam Respublikasının Azərbaycan Respublikasındakı səfirliyi kimi fəaliyyətini davam etdirir, 1992-ci ilin dekabr ayından isə Azərbaycan Respublikasının İran İslam Respublikasında səfirliyi fəaliyyətə başlamışdır), İranın Bakıdakı Mədəniyyət Mərkəzi (1993-cü ildən) və Naxçıvan MR-də Baş Konsulluğu (1992-ci ilin dekabr ayından), Azərbaycan Respublikasının Təbriz şəhərində Baş Konsulluğu (20 oktyabr 2004-cü ildən) fəaliyyət göstərir.

Azərbaycan Respublikası Milli Məclisi hər iki ölkənin parlamentləri arasında münasibətlərin səmərəliliyini artırmaq məqsədilə yeni işçi qrupunun yaradılması haqqında 22 noyabr 1996-cı il tarixində ayrıca qərar qəbul etmişdir. İşçi qrupunun sayı 6 nəfərdən 10 nəfərə qədər artırılmışdır.Parlamentlərarası inkişafında Azərbaycan Milli Məclisinin sədrləri M.Ələsgərov 27-28 dekabr 1998, M. Ələsgərov 15-17 iyun 1999, Oqtay Əsədov 20-22 fevral 2010, 4-5 avqust 2013, 14-19 fevral 2014, İran İslam Şurası Məclisinin sədrləri Q. H. Adel 23-25 noyabr, 30 iyun-2 iyul 2011-ci ildə Ə. Laricani olan səfərlərin əhəmiyyəti olmuşdur.

İki ölkə arasında münasibətlər İqtisadi ƏməkdaşlıqTəşkilatı (ECO) çərçivəsində də davam etdirilmişdir. 1992-ci il fevralın 16-da Tehranda keçirilən ECO-nun növbəti müşavirəsində AR Təşkilata üzv qəbulolunmuşdur. 1994-cü il yanvarın sonlarında Tehranda

ECO-nun Xarici İşlər Nazirləri Şurasının IX sessiyası keçirilmiş, bu sessiyada Azərbaycan Respublikası xarici işlər naziri Həsən Həsənov ECO-ya üzv olan dövlətləri Azərbaycanın haqq işini müdafiə etməyə və təcavüzkar Ermənistana qarşı siyasi və iqtisadi sanksiyalar qəbul etməyə çağırmışdır.

1997-ci ilin dekabr ayında Tehranda keçirilən İKT-nin Zirvə toplantısında Azərbaycanın haqq işini dəstəkləyən və Ermənistanın Azərbaycana qarşı təcavüzünü pisləyən bəyanatın qəbul edilməsinin Azərbaycan Respublikası üçün mühüm siyasi-diplomatik əhəmiyyəti olmuşdur.

Ulu öndər Heydər Əliyev İranın Ermənistanla olan münasibətlərindən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün istifadə etməyin vacibliyi haqda İran İslam inqilabının qələbəsinin ildönümü münasibətilə 11 fevral 2000-ci il tarixində Bakıda keçirilən mərasimdəki çıxışında demişdir ki, "Dağlıq Qarabağ münaqişəsinin həlli sahəsində ümidvaram ki, İran dövləti sülhə nail olmaq üçün daha təsirli fəaliyyətlər göstərəcəkdir. Bu sahədə İran dövləti böyük imkanlara malikdir. Bildiyiniz kimi, İranın Ermənistanla sıx ticarət, iqtisadi və digər əlaqələri var və onlar üzərində təsir imkanına sahibdir".

1993-1997-ci illər ərzində İran Azərbaycan Respublikasının ticarət tərəfdaşları arasında ticarət dövriyyəsinə görə davamlı olaraq 1-ci və 2-ci yerləri tutmuşdur. 1998-ci ilin göstəricilərinə əsasən, İran Azərbaycanla ticarət dövriyyəsinə görə 5-ci yeri, 1999-cu ildə isə 7-ci yeri tutmuşdur. AR ilə İİR arasında 1997-ci ildə ticarət dövriyyəsi 238,5 mln. ABŞ dolları (bunun 48,8 mln. dolları idxalın, 189,7 mln dolları isə ixracın payına düşmüşdür), 1998-ci ildə 86,9 mln. ABŞ dolları (42,5 mln dolları idxal, 44,4 mln dolları ixrac), 1999-cu ildə isə 70,0 mln. ABŞ dolları (47,4 milyon dollar idxal, 22,6 milyon dollar ixrac) həcmində olmuşdur. 1993-1999-cu illər arasında idxalın ən yüksək göstəricisi 1994-cü ilə aid olaraq, 242,1mln. dollar təşkil etmişdir. 1996-cı ildə isə bu rəqəm 65,9 mln. dollar təşkil etmişdir. Müxtəlif sahələr üzrə nəzərə çarpan bu geriləmələr Azərbaycandan İrana elektrik enerjisinin qarşılığında neft məhsullarının daşınması ilə əlaqədar olmuşdur.

2000-ci ildə Azərbaycanın bütün Asiya ölkələrindən idxal etdiyi məhsulun 19,6%-i, ixrac etdiyi məhsulun isə 0,2%-i İranın payına düşür. Həmin ilə müvafiq olaraq Azərbaycanın İrandan idxal etdiyi ümumi məhsulun dəyəri 56830,2 min ABŞ dolları dəyərində olduğu halda, həmin ölkəyə ixrac etdiyi məhsulun dəyəri 2683,4 min ABŞ dolları təşkil etmişdir. İdxal olunan məhsullar ixracdan 54146,8 min ABŞ dolları artıq olmuşdur. Bununla belə, Azərbaycan Respublikası qarşılıqlı şəkildə İrana istənilən sənaye mallarını idxal etmək gücünə və kanallarına malikdir. 2000-ci ildə Azərbaycanın İrandan idxal etdiyi ümumi məhsulun 22,9%-ni tikinti materialları, 21,9%-ni yanacaq, 17,3%-ni yeyinti sənayesi məhsulları, 13,9%-ni kənd təsərrüfatı məhsulları təşkil etmişdir. Yerdə qalan 24% isə kimya, maşınqayırma, metallurgiya, meşə, ağac emalı, elektrotexnika, tibb avadanlıqları və s.-nin payına düşmüşdür. Eyni zamanda AR-dan İrana göndərilən ümumi məhsulun 71,6%-i metallurgiya, 11,5%-i maşınqayırma avadanlıqları, 6,4%-i yüngül sənaye məhsullarının payına düşürdü. Qalan faizi isə digər sənaye və kənd təsərrüfatı məhsulları təşkil etmişdir.

AR İran üçün iqtisadi-ticarət baxımından mühüm tərəfdaş olmasına baxmayaraq, göstərilən dövrdə iki ölkə arasında iqtisadi-ticarət əlaqələrini həyata keçirmək imkanları məhdud olduğundan, ticarət dövriyyəsi azalan xətt üzrə icra edilmişdir.

**Azərbaycan-Əfqanıstan münasibətləri**

Əfqanıstan İslam Respublikası Azərbaycan Respublikasının dövlət müstəqilliyini 1991-ci il dekabrın 21-də tanımış, 1994-cü il noyabrın 16-da iki ölkə arasında diplomatik münasibətlər qurulmuşdur. Azərbaycan Respublikasının Pakistan İslam Respublikasındakı səfirliyi, eyni zamanda Əfqanıstan İslam Respublikasında akreditə olunmuşdur. Əfqanıstan İslam Respublikasının səfirliyi əvvəlcə Rusiyada, hazırda isə Bakıda fəaliyyət göstərir.

İki ölkə rəsmiləri arasında beynəlxalq və regional təşkilatlar çərçivəsində çoxsaylı görüşlər olmuşdur. İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, BMT və digər beynəlxalq hökumətlərarası təşkilatların iclaslarında ölkə başçılarının, digər rəsmilərin görüşləri keçirilmişdir. Belə görüşlərdən biri 2001-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Əfqanıstan Prezidenti N.Kərzay arasında (İstanbul, ECO-nun toplantısı zamanı) xüsusi olaraq təşkil edilmiş, iki ölkə arasındakı münasibətlərin geniş müzakirəsi aparılmışdır. Bundan başqa 2005-ci ilin mart ayının 9-da Əfqanıstan İslam Respublikasının Prezidenti N.Kərzay yolüstü Bakıda səfərdə olmuşdur.

**Misir Ərəb Respublikası ilə münasibətlər**

Misir Ərəb Respublikası (جمهورية مصر العربية) ilə Azərbaycan arasında əlaqələrin tarixi çox qədim dövrlərə gedib çıxır. Bu əlaqələr Sovet İttifaqının mövcud olduğu dövrdə davam etmişdir. Azərbaycanın neft və təbii qaz ehtiyatları ilə zəngin olması onun keçmiş Sovet İttifaqı respublikaları arasında əhəmiyyətli yer tutmasına səbəb olmuşdur. Məlumdur ki, Misir hərbi, iqtisadi və siyasi sahələrdə Sovet İttifaqı ilə uzun müddət əməkdaşlıq etmişdir. Misir Ərəb Respublikası Azərbaycan Respublikasının müstəqilliyini 1991-ci il dekabrın 26-da tanımış, 1992-ci il aprelin 4-də Misirlə Azərbaycan arasında diplomatik münasibətlərin yaradılması haqqında Protokol imzalanmış, 1993-cü ilin aprel ayından Misirin Bakıda, 1994-cü ilin yanvar ayından isə Azərbaycanın Qahirədə səfirliyi fəaliyyətə başlamışdır.

Misirlə əməkdaşlığı genişləndirmək məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1993-cü il dekabrın 3-də Misir Prezidentinə məktub göndərdi. Məktubda iki ölkə arasında münasibətlərin inkişafından məmnunluq ifadə olunur, bu münasibətlərin ümumi tarix, din, mədəniyyət, xalqlar arasında ənənələrə əsaslandığı göstərilir, müstəqilliyin bərpasından ötən illər ərzində atılan addımlar barədə məlumat verilir, Ermənistanın təcavüzünün nəticələri qeyd edilir, Misirin dünya və region siyasətində oynadığı rol vurğulanır, Misir ərəb və İslam dünyasının mərkəzi kimi qiymətləndirilir, Ermənistanın təcavüzünün dayandırılmasında bu ölkənin köməyinə ümid edilir, Ermənistanın təcavüzünü pislədiyi üçün təşəkkür edilirdi. Məktubda daha sonra Qahirədə Azərbaycan səfirliyinin açılması və Azərbaycan Prezidentinin qarşıdakı səfəri zamanı imzalanacaq sənədlər paketinin iki ölkə arasında münasibətlərdə yeni bir mərhələ açacağına ümid ifadə edilirdi. Cavab məktubunda Misir tərəfi də Azərbaycan ilə əməkdaşlığa hazır olduğunu bildirdi.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 1994-cü ildə BMT-nin Əhali və İnkişaf üzrə Beynəlxalq Konfransında iştirak etmək üçün Qahirəyə işgüzar səfəri Misirlə Azərbaycan arasında diplomatik əlaqələrin və yüksək səviyyəli səfərlərin faktiki başlanğıcı hesab olunur. Səfər çərçivəsində Azərbaycan Prezidenti Heydər Əliyev Misirin sabiq Prezidenti Hüsnü Mübarəklə görüş zamanı aparılan intensiv danışıqlar iki ölkə arasında müxtəlif sahələrdə əlaqələrin inkişaf etdirilməsi və əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində mühüm rol oynamışdır. Ümumiyyətlə, Misirlə Azərbaycan arasındakı siyasi əlaqələr 1994-2002-ci illər arasında sürətlə inkişaf etmişdir. Bu dövr ərzində iki ölkənin hökumət rəsmiləri səviyyəsində bir sıra qarşılıqlı səfərlər həyata keçirilmişdir. Bu səfərlər çərçivəsində ikitərəfli əlaqələrin bütün sahələrdə inkişafına təkan verən xeyli sayda mühüm sazişlər imzalanmışdır.

3 oktyabr 2002-ci il tarixində Azərbaycan Respublikası ilə Misir Ərəb Respublikası arasında Hökumətlərarası iqtisadi, texniki və elmi əməkdaşlıq üzrə Müştərək Komissiya yaradılmışdır.Azərbaycan-Misir müştərək komissiyanın birinci iclasının keçirilməsi ilə əlaqədar olaraq 2002-ci il oktyabrın 23-25-də komissiyanın Misir tərəfindən olan həmsədri, xarici işlər üzrə dövlət naziri Faizə Əbu Əl Nəqə Bakıya səfər etdi. Səfər zamanı Faizə Əbu Əl Nəqə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən qəbul edildi. Bu zaman artıq iki ölkə arasında yaxşı siyasi münasibətlər yaranmışdı. Tərəflər ticarət-iqtisadi münasibətlərin də eyni səviyyədə olmasına tərəfdar idilər.

2002-ci il oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1994-cü il aprelin 7-də Qahirədə imzalanmış "Azərbaycan Respublikası hökuməti ilə Misir Ərəb Respublikası hökuməti arasında iqtisadi və elmi-texniki əməkdaşlıq haqqında saziş" in icrasını təmin etmək üçün Azərbaycan Respublikası hökuməti və Misir Ərəb Respublikası hökuməti arasında hökumətlərarası iqtisadi, texniki və elmi əməkdaşlıq üzrə müştərək komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında sərəncam imzaladı. Komissiyanın yaradılması əməkdaşlığın maddi təməlinin möhkəmləndirilməsinə təsir edən mühüm amillərdən biri oldu.

Azərbaycan Respublikasının xarici siyasətində Səudiyyə Ərəbistanı, iki ölkə arasında siyasi-diplomatik münasibətlərin yaranması, hər iki ölkədə səfirliklərin açılması və fəaliyyəti, dövlət başçılarının qarşılıqlı, hökumət qurumlarının səfərləri, iqtisadi-ticari və enerji sahədə əlaqələr, beynəlxalq və regional təşkilatlar çərçivəsində əməkdaşlıq, mədəni, elm, təhsil və humanitar sahədə əlaqələr, iki ölkə arasında Müştərək Komissiyanın fəaliyyəti və s. məsələlər mühüm yer tutur.

**Azərbaycan-İraq münasibətləri**

İraq Respublikası (جمهورية العراق) Azərbaycanın Respublikasının dövlət müstəqilliyini 1992-ci il yanvarın 2-də tanımış, ii ölkə arasında diplomatik əlaqələr 1992-ci il martın 30-da qurulmuşdur. Bakıda İraqın 1973-cü ildən Bakıda fəaliyyət göstərən Baş konsulluğuna 1992-ci ildən səfirlik statusu verilmişdir. Bundan başqa hələ 1979-cu ildə Bakı və Bəsrənin qardaşlaşmasına dair sənəd imzalanmışdı.

Azərbaycan – İraq münasibətlərinin inkişafını şərtləndirən bir sıra amillər var idi. İraq Respublikası ölkəmizə tarixi, mədəni və ən başlıcası coğrafi baxımdan ən yaxın ərəb ölkəsidir. Bu yaxınlıq, habelə burada yaşayan İraq vətəndaşı olan türkmanların özlərini tarixi vətənləri Azərbaycan ilə daim əlaqələndirmələri Azərbaycan– İraq münasibətlərinin inkişafına təsirini göstərirdi. Bir çox görkəmli Azərbaycan mütəfəkkirlərinin, o cümlədən Məhəmməd Füzulinin qəbri İraqdadır.

Azərbaycan – İraq əlaqələrinin genişləndirilməsinin böyük potensialı var idi. İraq ilə münasibətlər Azərbaycanın xarici siyasət xəttində mühüm istiqamətlərindən biri ola bilərdi. Yuxarıda göstərilən amil nəinki iqtisadi potensiala, həmçinin ortaq dəyərlərə əsaslanırdı. İraqın beynəlxalq təşkilatlar, xüsusilə də İKT çərçivəsində Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı hərbi təcavüzünün aradan qaldırılması, işğal olunmuş ərazilərin azad edilməsi və qaçqınların doğma torpaqlarına qayıtmasını tələb edən qətnamələrin qəbulu zamanı Azərbaycanın mövqeyini dəstəkləməsi əhəmiyyət kəsb edən amillərdən idi. Bu, İslam aləmində, o cümlədən ərəb dövlətlərində ictimai rəyin formalaşmasına təsir edirdi. Qarşılıqlı münasibətlərə təsir edən amillərdən biri Ermənistanın ərəb dövlətləri ilə əməkdaşlığa can atması idi. Ermənistan Respublikası ərəb dövlətləri ilə münasibətlərini nizamlamaq, İraq və Fars körfəzinin ərəb ölkələri ilə diplomatik əlaqələr qurmaq sahəsində müntəzəm və fəal cəhdlər göstərirdi. Ərəb ölkələrindəki erməni icmaları, xüsusilə də Livan, Suriya, Misir və İraqdakı erməni diasporaları ərəb ölkələrinin kütləvi informasiya vasitələri və işgüzar dairələri ilə uzun müddət ərzində formalaşmış əlaqələrindən məharətlə istifadə edərək bu dövlətlərin Azərbaycana münasibətdə tutduğu mövqeyinə təsir göstərməyə çalışırdılar. Bəzi ərəb media vasitələrində yayımlanan erməni materiallarında “ermənilərin tarixi”, onun ərəb dünyası ilə bağlılığı, İslam mədəniyyətinin inkişafında müstəsna rolu barədə fikirlər təbliğ olunurdu. Erməni təbliğatı Azərbaycan ilə münaqişə probleminə geniş yer ayırırdı. Ermənistan diplomatiyası Azərbaycanın mənafelərinə İKT vasitəsi ilə də təsir göstərməyə və bu təşkilat çərçivəsində fəaliyyəti zəiflətməyə cəhdlər edir, bəzi hallarda buna nail olmağa yaxınlaşırdı. İKT çərçivəsində Ermənistanın təcavüzünə dair qətnamələrin qəbul edilməsində bəzi dövlətlər fərqli mövqe tuturdular. Ermənistan tərəfi dəfələrlə üzv dövlətlərə və İKT baş katibliyinə müraciət edərək Ermənistan – Azərbaycan münaqişəsinə dair “birtərəfli” mövqe tutmamağa və qəbul edilən qətnamələrdə “antierməni” təsirini azaltmağa çağırmışdı. İraqın Azərbaycandakı səfirliyi dəfələrlə Ermənistanın İraqda fəal təbliğat fəaliyyəti aparması və rəsmi Bağdad ilə sıx münasibətlər qurmağa cəhdlər göstərməsi barədə məlumatları Azərbaycan tərəfinin diqqətinə çatdırmışdı. Ermənistan İraq ilə diplomatik əlaqələr qurmağa cəhdlər etsə də, bu istiqamətdə fəaliyyəti Bağdadın İrəvan ilə diplomatik əlaqələr qurmasını mümkün hesab etməməsi səbəbindən müsbət nəticə verməmişdi. Lakin sonralar, 2000-ci ildə İraq ilə Ermənistan arasında diplomatik əlaqələr quruldu.

Azərbaycan Respublikası Milli Məclisində Azərbaycan-İraq parlamentlərarası əlaqələr üzrə işçi qrupu fəaliyyət göstərir. Bu işçi qrupu 31 oktyabr 2008-ci il  tarixində yaradılmış

və ilk rəhbəri İlham Məmmədov olmuşdur. 4 mart 2016-cı il tarixindən də İlham Məmmədov işçi qrupunun rəhbəridir.

**Səudiyyə Ərəbistanı Krallığı ilə münasibətlər**

Azərbaycan Respublikasının xarici siyasətində Səudiyyə Ərəbistanı, iki ölkə arasında siyasi-diplomatik münasibətlərin yaranması, hər iki ölkədə səfirliklərin açılması və fəaliyyəti, dövlət başçılarının qarşılıqlı, hökumət qurumlarının səfərləri, iqtisadi-ticari və enerji sahədə əlaqələr, beynəlxalq və regional təşkilatlar çərçivəsində əməkdaşlıq, mədəni, elm, təhsil və humanitar sahədə əlaqələr, iki ölkə arasında Müştərək Komissiyanın fəaliyyəti və s. məsələlər mühüm yer tutur.

Səudiyyə Ərəbistanı Krallığı (المملكة العربية السعودية) Azərbaycan Respublikasının müstəqilliyini 1991-ci il dekabr 30-da tarixində tanımış, 1992-ci il fevral ayının 24-də iki ölkə arasında diplomatik əlaqələr qurulmuşdur. 1993-cü il yanvarın 27-də Ər-Riyadda Azərbaycanın, Səudiyyə Ərəbistanının isə 1994-cü il noyabrın 21-də Türkiyədə və eyni zamanda Azərbaycanda səfirinin akkreditə olunması, 1999-cu ilin may ayından səfirliyin müvəqqəti işlər vəkili, iyun ayından isə səfirlik fəaliyyət göstərmişdir.

Ümummilli lider Heydər Əliyevin Ərəb dövlətləri içərisində Səudiyyə Ərəbistana 1994-cü il 9-13 iyulda səfəri hər iki ölkə arasındakı münasibətlərdə xüsusi əhəmiyyətə malik olmuşdur. Belə ki, Səudiyyə Ərəbistanı Krallığının İslam və ərəb dünyasında nüfuzu, neft-qaz ehtiyatlarına malik olması, İƏT, KÖƏŞ, ƏDL, OPEC, İslam İnkişaf Bankı, G20 beynəlxalq forumundakı və s. beynəlxalq və regional təşkilatlardakı rolu və iştirakı Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı ilə münasibətlərini °ərtləndirən amillərdəndir.

Səudiyyə Ərəbistanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycan haqlı mövqeyini BMT, İƏT, eləcə də digər beynəlxalq və regional təşkilatlar çərçivəsində dəstəkləmiş və Ermənistanla diplomatik əlaqələr qurmamışdır. 1994-1999-cu illərdə azərbaycanlı qaçqın və köçkünlərə kral Fəhdin yardım proqramı çərçivəsində dəfələrlə ərzaq, dərman və s. humanitar yardımlar edilmişdir.

1997-ci il 7 martda yaradılmış Parlamentlərarası əlaqələr çərçivəsində üzrə işçi qrupu iki ölkə arasında münasibətlərdə mühüm rol oynamışdır.

İqisadi-ticari və enerji sahəsində əlaqələrin inkişafında 1994-cü il sentyabr 20-də Bakıda "Əsrin müqaviləsi"ndə təmsil olunan Səudiyyə Ərəbistanı Krallığının 2,72% paya sahib olan "Delta-Hess" şirkəti əhəmiyyət kəsb etmişdir.

**İordaniya Haşimilər Krallığı ilə münasibətlər**

İordaniya Haşimiyyə Krallığı (المملكة الأردنية الهاشمية) 1991-ci il dekabrın 28-də Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdəndir. 1993-cü ilin fevral ayında İordaniya Haşimiyyə Krallığının Baş Seremonimeysteri Əmir Raad ibn Zayedin başçılıq etdiyi yüksək nümayəndə heyəti Azərbaycanda rəsmi səfərdə olmuşdur. Səfər zamanı 1993-cü il fevralın 13-də Azərbaycan Respublikası ilə İordaniya Haşimiyyə Krallığı arasında diplomatik əlaqələrin yaradılması haqqında Protokol, Birgə Bəyanat və Azərbaycan Respublikası

hökuməti ilə İordaniya Haşimiyyə Krallığı hökuməti arasında texniki, iqtisadi və mədəni əməkdaşlıq haqqında qarşılıqlı Anlaşma Memorandumu imzalanmışdır.

Azərbaycanın və İordaniyanın ali rəhbərləri iki dəfə – 1994-cü ilin dekabrında İƏT-nin Kasablanka zirvə toplantısında və 2000-ci ilin yanvarında Davos Ümumdünya İqtisadi Forumunda təkbətək görüşmüşlər. Görüşlər zamanı Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ilə İordaniya Kralı II Abdullah ikitərəfli münasibətlərin inkişafı məsələlərini geniş müzakirə etmişlər.

2000-ci ilin iyun ayında İordaniya Krallığının sabiq vəliəhdi, mərhum Kral Hüseynin qardaşı, şahzadə Həsən ibn Talal Azərbaycana səfər etmiş və ölkə rəsmiləri ilə görüşərək, dövlətlərimiz arasında iqtisadiyyat, mədəniyyət və elm sahələrində əlaqələrin inkişafı perspektivlərini müzakirə etmişdir. Azərbaycan ilə İordaniya arasında dövlət və hökumət başçıları, xarici işlər nazirləri səviyyəsində mütəmadi məktub mübadilələri aparılır.

2001-ci ilin avqust ayında Azərbaycan Respublikası xarici işlər nazirinin müavini X.Xələfov başda olmaqla nümayəndə heyəti İordaniyada səfərdə olmuşdur. Nümayəndə heyəti Kral II Abdallah tərəfindən qəbul edilmiş, ölkənin xarici işlər naziri Əbdül İləh Əl-Xatıb, xarici işlər nazirinin baş katibi, Ali Təhsil Şurasının baş katibi, səyahət naziri və Ticarət Palatasının sədri ilə görüşlər keçirmişdir. Səfər zamanı ali təhsil və turizm sahələrinə aid müqavilə layihələri baxılması üçün İordaniya tərəfinə təqdim olunmuşdur.

Dövlət və hökumət başçılarının qarşılıqlı səfərləri zamanı imzalanan ticarət və iqtisadi sahələrə dair mühüm sazişlər əməkdaşlıq əlaqələrimizin daha da möhkəmlənməsinə öz töhfəsini vermişdir. Azərbaycan və İordaniya siyasi dialoqun inkişaf etdirilməsində və iki dövlətin qanunvericilik və icra hakimiyyəti orqanları arasında əməkdaşlığın genişləndirilməsində maraqlı olmuşlar.

**Yəmən Respublikası ilə münasibətlər**

Yəmən Respublikası (الجمهورية اليمنية) 30 dekabr 1991-ci ci ildə Azərbaycan Respublikasının dövlət müstəqilliyin tanımış, 25 fevral 1992-ci ildə diplomatik münasibətlər yaranmışdır.

Yəmən Respublikasının Türkiyə Respublikasında və eyni zamanda, Azərbaycan Respublikasındakı səfiri Əhməd Hüseyn Əl-Başanın 2002-ci il martın 23-də etimadnaməsini Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə təqdim etmişdir.

**Birləşmiş Ərəb Əmirlikləri ilə münasibətlər**

Birləşmiş Ərəb Əmirliklərinin(الإمارات العربية المتحدة) xarici siyasətində Rusiya, Azərbaycan və Mərkəzi Asiya dövlətləri ilə çoxşaxəli münasibətlərə önəm vermiş və onlarında başında iqtisadi əməkdaşlıq dayanmışdır. BƏƏ həmin ölkələrdə bir sıra iqtisadi layihələrin maliyyələşdirilməsində iştirak etmişdir. Birləşmiş Ərəb Əmirlikləri 1991-ci ilin 26 dekabrında Azərbaycan Respublikasının müstəqilliyini tanımış, 1992-ci ilin 1 sentyabrında iki ölkə arasında diplomatik əlaqələr qurulmuşdur. 1994-cü ilin iyun ayında Birləşmiş Ərəb Əmirliklərinin Ankaradakı Səfirini Azərbaycana təyin etmişdir. 2001-ci ilin 16 iyun tarixindən etibarən Azərbaycan Respublikasının Səfirliyi BƏƏ-nin paytaxtı Əbu

Dabi şəhərində fəaliyyət göstərir. 1994-cü ilin iyun ayında BƏƏ Ankaradakı Səfirini Azərbaycana təyin etmişdir. 2015-ci ilin oktyabr ayından BƏƏ-nin Azərbaycanda səfiri Məhəmməd Əhməd Hamel Əl Qubaisi, 2016-cı ilin yanvar ayından Azərbaycanın BƏƏ-də səfiri Daşqın Şikarov olmuşdur.

1994-cü ilin 13 dekabr tarixində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İKT üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Mərakeşin Kasablanka şəhərində keçirilmiş zirvə toplantısı çərçivəsində Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Zayed bin Sultan ali Nəhyanla görüşmüşdür. Azərbaycan Prezidenti ölkəsinə siyasi dəstək verilməsini, qaçqınlara və məcburi köçkünlərə yardım verilməsini xahiş etdi. Qırmızı Aypara Cəmiyyəti, Dar əl-Bər Xeyriyyə Cəmiyyəti (البر دار جمعية), Zayed bin Sultan Əl-Nəhyan xeyriyyə təşkilatı (والإنسانية الخيرية للأعمال نهيان آل سلطان بن زايد مؤسسة) və digər humanitar təşkilatlarla sıx əlaqələr qurulması istiqamətində tədbirlər həyata keçirildi. 1996-cı ildən Bakıda fəaliyyətə başlayan Dar əl-Bər Xeyriyyə Cəmiyyəti Azərbaycanlı qaçqın və məcburi köçkünlərə 300 min tona yaxın ərzaq göndərmişdi. Bundan başqa Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1997-ci ildə İƏT-in VIII Zirvə görüşündə BƏƏ xarici işlər naziri Rəşid Abdulla əl-Nəimi ilə görüşü zamanı ikitərəfli və regional məsələləri müzakirə etməsi, iqtisadi-ticari əlaqələrin genişləndiriməsinin vacibliyini bildirmişdir.

1994-cü ilin oktyabr ayında Azərbaycan Respublikası Milli Məclisi sədrinin başçılıq etdiyi nümayəndə heyəti BƏƏ-yə rəsmi səfər etdi. O, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin məktubunu BƏƏ Prezidenti Şeyx Zayed Bin Sultan Əl Nəhyana təqdim etdi. Məktubda iki ölkə arasında əməkdaşlığın genişləndirilməsinə dair Azərbaycan tərəfinin istəyi ifadə olunmuşdu. Səfər zamanı ikitərəfli münasibətləri genişləndirmək məsələləri müzakirə edildi. Əməkdaşlığa dair Abu-Dabi İnkişaf Fondunun baş direktoru Səid Xalfan Əl Rumeysi ilə sənəd imzalandı. Sənəddə sərmayə qoyuluşu və Azərbaycanda infrastrukturun inkişafına yardımlar edilməsi və s. məsələlər nəzərdə tutulmuşdu.

BƏƏ ilə Azərbaycan arasında1997-ci ildə mal dövriyyəsi 42,9 mln ABŞ dollar, 1998-ci ilə 48, 6 mln ABŞ dollar olmuşdur. Bunun 41,9 mln. dolları idxal, 1,0 mln. dolları isə ixrac idi. 1998-ci ildə ticarət dövriyyəsinin həcmi 48, 6 mln. dollar təşkil etdi. Bunun 45,6 mln. dolları idxal, 3,0 mln. dolları ixrac idi. 1999-cu ildə isə iki ölkə arasında ticarət dövriyyəsinin həcmi azalaraq 21,3 mln dollar oldu. Bunun 12,3 mln. dolları idxal, 9,0 mln. dolları isə ixrac idi. 1993-1999-cu illərdə BƏƏ-dən idxal olunan malların siyahısına əsasən qida məhsulları, tikinti materialları, avtomobillər, kompüterlər və s. daxil idi. Bu dövr ərzində Azərbaycandan BƏƏ-yə məişət texnikası, mis tullantıları, alüminium, maşın avadanlıqları və onların ehtiyat hissələri, maqnit lentləri və s. ixrac edilmişdi.

**Küveyt Dövləti ilə münasibətlər**

Küveyt Dövləti (الكويت دولة) 30 oktyabr 1992-ci ildə Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanımış, 7 oktyabr 1994-cü ildə iki ölkə arasında diplomatik münasibətlərin qurulması haqqında Protokol imzalanmışdır. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 01 sentyabr 2004-cü il tarixli 317 saylı Sərəncamı ilə Şahin Abdullayev Küveytdə,

14 dekabr 2006-cı ildə Fəhd Saad əl-Meynin isə Azərbaycan Respublikasında səfir təyin edilmişdir. Heydər Əliyev Küveyt dövlətinin əmiri Şeyx Cabir əl-Əhməd əl-Cabir əs-Sabaha məktub göndərərək ikitərəfli münasibətləri inkişaf etdirmək arzusunu bildirdi, Ermənistanın Azərbaycana təcavüzünün ağır nəticələri BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələri, ATƏT, İƏT səyləri barədə yazmış, Azərbaycanın haqq işini dəstəklədiyi üçün bu ölkəyə təşəkkürünü bildirmiş və Küveyt əmirini Azərbaycana rəsmi səfərə dəvət etmişdi. Heydər Əliyevin Nyu-Yorkda Küveyt əmiri ilə görüşdəki danışıqların nəticəsinə uyğun olaraq Küveyt azərbaycanlı qaçqın və məcburi köçkünlərə yardım etməyə başladı. 1995-ci ildə Azərbaycanda nümayəndəliyini açan Küveytin Asiya Müsəlmanları Komitəsi qaçqın və məcburi köçkünlərə, yetim uşaqlara yardım edir, maarif, elm və mədəniyyət sahəsində də xeyriyyəçilik tədbirləri həyata keçirmişdir. Bundan başqa Küveytin təhsil üzrə Babteyn fondu (الثقافية البابطين سعود العزيز عبد مؤسسة) Misirin əl-Əhzar Universitetində təhsil alan bir neçə azərbaycanlının təhsil xərclərini öz üzərinə götürmüşdü. 2001-ci ilin 24-28-də Azərbaycanda səfərdə olan Küveyt-Azərbaycan sədri parlamentlərarası dostluq qrupunun sədri Camal Hüseyn Fahat əl-Öməri və nümayəndə heyətini Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev qəbul etmişdir.

28 may 1995-ci ildə Küveyt Milli Məclisi (الكويتي الأمة مجلس) 4 nəfərdən ibarət Küveyt-Azərbaycan parlamentlərarası dostluq qrupunun təşkili haqqında qərar qəbul etmişdir. Küveyt tərəfdən qrupunun rəhbərləri Camal Hüseyn Fahat əl-Ömər, Vəlid Əl-Təbtabayi, Saud Naşmi Əl-Harici, Saud Əl-Hureyci, Valid Musaed Tabatabai olmuşlar. Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərinin seçilməsi haqqında "Azərbaycan Respublikası Milli Məclisinin 4 mart 2016-cı il, "Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının yaradılması haqqında" Azərbaycan Respublikası Milli Məclisinin 7 mart 1997-ci il tarixli qərarlar qəbul edilmişdir. Azərbaycan Respublikası Milli Məclisinin 7 mart 1997-ci il yaradılmış işçi qrupunun Ş.Əliyev, 4 mart 2016-cı il H.Mirələmov,24 aprel 2020-ci il tarixli qərarları ilə Azərbaycan-Küveyt parlamentlərarası əlaqələr üzrə qrupunun rəhbərləri V.Əhmədov olmuşdur.

1996-cı ilin mayında AR MM-in sədrinin başçılıq etdiyi nümayəndə heyətinin Küveytə səfəri zamanı Küveyt dövlətinin əmiri Şeyx Cabir əl-Əhməd əl-Cabir əs-Sabah, Küveyt Milli Məclisinin sədri Abullah əs-Səlim Əs-Sabah, Küveytin baş nazirinin birinci və xarici işlər naziri Şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabah ilə görüşmüş, danışıqlar zamanı iki ölkə əməkdaşlığın bütün sahələrdə genişləndirilməsinin vacibliyi vurğulanmışdır.

1997-ci il 7 martda yaradılmış Parlamentlərarası əlaqələr çərçivəsində üzrə işçi qrupu iki ölkə arasında münasibətlərdə mühüm rol oynamışdır.Azərbaycan Respublikasının Milli Məclisində Azərbaycan-İordaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupu 5 dekabr 2000-ci il tarixində yaradılmış və ilk rəhbəri Vəsadət Əzizov olmuşdur.

10 fevral 2009-cu il tarixində Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında Əməkdaşlıq üçün Birgə Komissiyanın yaradılması (əl-Küveytdə)

ikitərəfli əlaqələrin inkişafında önəmli rolu vardır. Komissiyanın 10 yanvar 2011-ci ildə Əl-Küveyt şəhərində I iclası, 14 fevral 2013-cü ildə Bakı şəhərində II iclası keçirilmişdir.

Ümumiyyətlə, 1993-2003-cü illərdə Azərbaycanın Küveytlə əlaqələrdə iki ölkə arasında siyasi-diplomatik münasibətlərin inkişafı, qarşılıqlı dövlət və hökumət rəhbərlərinin səfərləri, azərbaycanlı qaçqın və məcburi köçkünlərə humanitar yardımların edilməsi, parlamentlərarası əlaqələrin inkişaf etdirilməsi, Küveytin Azərbaycanda həyata keçirilən layihələrə kreditlərin ayrılması, Küveytin Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsi, Ermənistanın Azərbaycana təcavüzünü pisləməsi, ticari-iqtisadi əlaqələrin inkişafı və s. məsələlər mühüm yer tutmuşdur.

**Qətər Dövləti ilə münasibətlər**

Qətər dövləti (قطر دولة) ilə Azərbaycan Respublikası arasında diplomatik münasibətlər 14 sentyabr 1994-cü ildə qurulmuşdur.Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 28 sentyabr 2002-ci il tarixli fərmanına əsasən Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanındakı Səfiri E.Araslı, eyni zamanda Qətər dövlətində Fövqəladə və Səlahiyyətli Səfir təyin edilmişdir. 2007-ci ildə Azərbaycan Respublikasının Dohada, Qətər Dövlətinin isə Bakıda səfirliyi fəaliyyətə başlamışdır. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 28 dekabr 2002-ci il tarixli Sərəncamı ilə Mahir Əliyev Qətər Dövlətində Fövqəladə və Səlahiyyətli Səfir təyin edilmişdir.

2000-ci il noyabrın 12-14-də Qətərin paytaxtı Dohada keçirilmiş İslam Konfransı Təşkilatının dövlət və hökumət başçılarının IX Zirvə Toplantısında Azərbaycan Respublikasının Xarici işlər naziri V. Quliyev iştirak etmişdir.

2002-ci ilin oktyabr ayında Azərbaycanın milli təhlükəsizlik naziri Namiq Abbasov, 2005-ci ildə S.Əbiyev Qətər Dövlətində rəsmi səfərdə olmuşdur. Ümumiyyətlə, iki dövlət rəhbərləri arasında mütəmadi olaraq məktublaşma mübadiləsi aparılmış, hökumətlərarası bir sıra hüquqi-normativ sənədlər imzalanmışdır.

Azərbaycan Respublikasının Milli Məclisində Azərbaycan-Qətərparlamentlərarası əlaqələr üzrə işçi qrupu fəaliyyət göstərir.

**Oman Sultanlığı ilə münasibətlər**

Oman Sultanlığı (عمان سلطنة) 30 dekabr 1992-ci ildə Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanımış, 13 iyul 1993-cü ildə iki ölkə arasında diplomatik münasibətlər qurulmuşdur. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 28 sentyabr 2002-ci il tarixli fərmanına əsasən Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanındakı Səfiri E.Araslı həm də Oman Sultanlığında Fövqəladə və Səlahiyyətli Səfir təyin edilmişdir.

Oman Sultanlığı BMT Baş Assambleyasının 59-cu sessiyası zamanı Ermənistanın təcavüzü nəticəsində işğal olunmuş Azərbaycan ərazilərində vəziyyətlə əlaqədar Azərbaycan tərəfindən irəli sürülmüş təklifi dəstəkləmişdir. Omanın kütləvi informasiya vasitələrində Azərbaycan haqqında məlumatlar Ermənistan-Azərbaycan münaqişəsinə dair materialları dərc edilmişdir.

## Bəhreyn Krallığı ilə münasibətlər

Azərbaycan Respublikası ilə Bəhreyn Krallığı (مملكة البحرين) arasında diplomatik münasibətlər 6 noyabr 1996-cı ildə olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 28 sentyabr 2002-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığındakı Fövqəladə və Səlahiyyətli Səfiri Elman iqamətgahı ər-Riyad şəhərində olmaqla, eyni zamanda Azərbaycan Respublikasının Bəhreyn Dövlətində Fövqəladə və Səlahiyyətli Səfiri təyin edilmişdir.

Azərbaycan Respublikasının Milli Məclisində Azərbaycan-Bəhreyn parlamentlərarası əlaqələr üzrə işçi qrupu fəaliyyət göstərir.

## Beynəlxalq və regional təşkilatlar çərçivəsində əməkdaşlıq

Azərbaycan Respublikası xarici siyasətində çoxtərəfli diplomatiyasında Yaxın və Orta Şərq ölkələri il BMT və onun ixtisaslaşmış qurumları, Azərbaycan Respublikasının Yaxın və Orta Şərq ölkələri ilə BMT, İslam Əməkdaşlıq Təşkilatı (منظمة التعاون الإسلامي), İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO – Economic Cooperation Organization), İCESCO (Islamic World Educational, Scientific and Cultural Organization-منظمة العالم الإسلامي للتربية والعلوم والثقافة), Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, ADL, OPEC (Organisation of the Petroleum Exporting Countries- منظمة الدول المصدرة للنفط), Qoşulmama Hərəkatı və. s. beynəlxalq və regional təşkilatlar çərçivəsində əməkdaşlıq edir.

## Azərbaycan və İƏT münasibətləri

Azərbaycan Respublikasının İslam Əməkdaşlıq Təşkilatı (ECO-İƏT) ilə münasibətlərinin inkişafı ölkəmizin xarici siyasət kursunda prioritet istiqamətlərdəndir və strateji əhəmiyyət kəsb edir. Dövlətimiz öz müstəqilliyini bərpa etdikdən sonra keçmiş sovet respublikalarından ilk olaraq İƏT-ə (o zaman İslam Konfransı Təşkilatına) üzv olmaq barədə müraciət etmiş və 1991-ci ilin dekabrında üzv seçilmişdir.

Həmin dövrdə, erməni təcavüzünə məruz qalmış, informasiya-təbliğat imkanları zəif və məhdud olan ölkəmiz üçün öz haqlı mövqeyinin İslam dövlətləri tərəfindən dəstəklənməsi və onun vasitəsilə təcavüzün ağır nəticələrinin dünya ictimaiyyətinə çatdırılması çox vacib məsələlərdən idi. Artıq 1991-ci ildə İslam Konfransı Təşkilatının (İKT) nümayəndə heyəti problemi öyrənmək və münaqişəni sülh yolu ilə tənzimləmək imkanlarını araşdırmaq məqsədi ilə Azərbaycanda səfərdə olmuşdur. O zaman İKT BMT, Ermənistan, Türkiyə və Rusiyanın nümayəndələri ilə problemlə bağlı müzakirələr aparmışdır. Rəsmi Yerevanın tutduğu qeyri-konstruktiv mövqe İKT-nin Ermənistan ilə bu məsələyə dair hər-hansı məsləhətləşmələrinə son qoymuş və təşkilat çərçivəsində Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı İKT-nin yekdil və birmənalı mövqeyi formalaşmışdır.

1992-ci ilin sentyabr ayında BMT Baş Assambleyasının növbəti sessiyası zamanı İKT-yə üzv dövlətlərin xarici işlər nazirlərinin ənənəvi koordinasiya görüşünün yekun sənədində "Ermənistan-Azərbaycan münaqişəsinə dair" müvafiq maddə salınmışdır. İKT üzv ölkələri xarici işlər nazirlərinin 1993-cü ilin aprel ayında Kəraçidə keçirilmiş XXI konfransında "Ermənistan və Azərbaycan arasında münaqişə" adlı qətnamə qəbul edilmişdir.

1994-cü ilin may ayından etibarən Ümummilli Lider Heydər Əliyevin müvafiq sərəncamına əsasən, Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığındakı səfirinə İKT Baş Katibliyi yanında Daimi Nümayəndə səlahiyyətləri verildikdən sonra Ər-Riyaddakı Səfirliyimiz vasitəsilə mənzil-qərargahı Səudiyyə Ərəbistanı Krallığının Ciddə şəhərində yerləşən İKT Baş Katibliyi və onun müxtəlif qurumları, o cümlədən İslam İnkişaf Bankı ilə səmərəli iş aparılmağa başlanmışdır.

Ümummilli Lider Heydər Əliyevin 1994-cü ilin iyul ayında Səudiyyə Ərəbistanı Krallığına səfəri AR-İKT əməkdaşlığının gələcək inkişafı üçün zəmin yaratmaqla yanaşı, səfər əsnasında onun müqəddəs Kəbədə Ümrə ziyarəti, keçirdiyi məhsuldar görüşlər bütün İslam dövlətlərinin ölkəmizə maraq və diqqətini artırdı.

Ümummilli Liderin İKT Baş katibi ilə 1994-cü ilin noyabr ayında Bakıda keçirdiyi görüşlər, həmin ilin dekabrında İKT dövlət və hökumət başçılarının Kasablankada keçirilmiş VII Zirvə konfransında iştirakı və İKT Baş katibi, həmçinin bir sıra üzv dövlətlərin xahişi ilə Asiya ölkələri qrupu adından çıxışı Azərbaycanın mövqeyini təşkilat daxilində daha da möhkəmlətdi və üzv dövlətlər tərəfindən dəstəklənməsi imkanlarını artırdı. Bunun nəticəsində, İKT Zirvə görüşləri tarixində ilk dəfə, Kasablankada "Ermənistan və Azərbaycan arasında münaqişə haqqında" siyasi qətnamə qəbul edilmiş, həmin ildən etibarən İKT-nin BMT ilə əməkdaşlığı üzrə müzakirə edilən problemlər siyahısına "Ermənistan və Azərbaycan arasında münaqişə" mövzusunun mütəmadi salınmasına nail olunmuşdur.

Həm İKT Baş Katibliyi, həm də üzv dövlətlərlə aparılmış məqsədyönlü iş nəticəsində, az müddət ərzində İKT çərçivəsində daha iki qətnamə: "Azərbaycan Respublikasına iqtisadi yardım" (İKT XİN XXII konfransı – 1994-cü il – Kasablanka və İKT VII Zirvə konfransı – 1994-cü il Kasablanka) və "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü nəticəsində işğal olunmuş Azərbaycan torpaqlarında İslam dininə aid tarixi və mədəni irsin və ibadət ocaqlarının dağıdılması və təhqir olunması" (İKT XİN XXVI konfransı – 1999-cu il Uaqaduquda və İKT IX Zirvə konfransı – 2000-ci il Doha) adlı qətnamələr İKT gündəliyinə daxil edilərək növbəti Zirvə və XİN konfranslarında Azərbaycan tərəfinin bir sıra əlavələri ilə bütün üzv dövlətlər tərəfindən yekdilliklə qəbul edilmişdir.

Gərgin əməyin nəticəsi kimi, siyasi qətnamənin adının dəyişdirilərək daha da gücləndirilməsi və "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında" başlığı ilə ilk dəfə 1996-cı ilin dekabrında Cakartada keçirilmiş İKT Xarici İşlər Nazirlərinin XXIV Konfransında və 1997-ci ilin dekabrında Tehranda keçirilmiş İKT dövlət və hökumət başçılarının VIII Zirvə görüşündə qəbul edilməsi bu məsələyə dair Azərbaycanın haqlı mövqeyinin dünya ictimaiyyətinə çatdırılmasında önəmli rol oynamışdır. Sözügedən qətnamə növbəti İKT XİN və Zirvə konfranslarında Azərbaycan tərəfinin bir sıra əlavələri ilə mütəmadi qaydada qəbul edilmişdir.

Siyasi qətnamədə üzv dövlətlərin erməni təcavüzünü qətiyyətlə pisləməsi, işğalçı qüvvələrin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal, qeyd-şərtsiz çıxarılmasının tələb edilməsi, bu problemə dair Baş katibin ənənəvi illik hesabatları, İKT çərçivəsində keçirilən

görüşlərdə qəbul edilən yekun bəyannamələrin müvafiq bəndlərində səsləndirilən müddəalar, habelə qondarma “Dağlıq Qarabağ Respublikasında” keçirilmiş müxtəlif qeyri-qanuni seçkilərin beynəlxalq hüquq normalarına zidd və İKT üzv ölkələri tərəfindən tanınmayan amil kimi qiymətləndirilməsi erməni tərəfinin İKT dövlətlərinə narazılığının bildirilməsi ilə müşayiət olunsa da, əks rezonans doğurmuş və qeyd olunan qərar və qətnamələr əsasında həm İKT qurumları, həm də üzv dövlətlər tərəfindən Azərbaycana o zaman çox vacib olan geniş humanitar yardım fəaliyyəti həyata keçirilmişdir.

Şübhəsiz, təşkilata üzvlüyün ilk illərində müharibə şəraitində olan Azərbaycan xarici siyasətinin başlıca məqsədi erməni təcavüzünün səbəb və məqsədləri, onun ağır nəticələrinin dünya ictimaiyyətinə çatdırılması ilə bağlı olmuşsa da, İKT ilə əməkdaşlıq prosesində təkcə bu problemin həlli ilə məhdudlaşmağa yol verilməmiş, çoxşaxəli, qarşılıqlı maraq əsasında əməkdaşlıq əlaqələrinin inkişafına üstünlük verilmişdir.

Ümumiyyətlə, İordaniya Kralı II Abdullahla 1994-cü ilin dekabrında Kasablankada, 2000-ci ilin yanvarında Davos Ümumdünya iqtisadi Forumunda, 1994-cü ilin 13 dekabr tarixində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev İKT üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Mərakeşin Kasablanka şəhərində keçirilmiş zirvə toplantısı çərçivəsində Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Zayed bin Sultan ali Nəhyanla, 2001-ci ildə İstambulda ECO (İƏT) toplantısındaƏfqanıstan Prezidenti Həmid Kərzayla və görüşlər çərçivəsində əməkdaşlıq Azərbaycanın çoxtərəfli diplomatiyasında xüsusi əhəmiyyət kəsb etmişdir.

İslam İnkişaf Bankı 1994-cü ildən etibarən Qarabağ müharibəsi zamanı qaçqın düşmüş soydaşlarımıza humanitar yardımlar göstərmiş, onlar üçün iş yerlərinin yaradılması məqsədilə dəzgah və avadanlıqların alınmasına 1 milyon ABŞ dolları yardım ayırmışdır. Azərbaycan Respublikasının sosial inkişaf layihələrinin texniki-iqtisadi əsaslandırılmasının hazırlanmasına İslam İnkişaf Bankı təmənnasız olaraq

2001-ci ilin dekabr ayında BMT Baş Assambleyasının "BMT ilə ATƏT arasında Əməkdaşlıq" haqqında Qətnamə layihəsində Azərbaycan Respublikasının təqdim etdiyi düzəlişin lehinə səs vermiş 34 dövlətdən biri olmuşdur.

Oman Sultanlığı BMT Baş Assambleyasının 59-cu sessiyası zamanı Ermənistanın təcavüzü nəticəsində işğal olunmuş Azərbaycan ərazilərində vəziyyətlə əlaqədar Azərbaycan tərəfindən irəli sürülmüş təklifi dəstəkləmişdir. Omanın kütləvi informasiya vasitələrində Azərbaycan haqqında məlumatlar Ermənistan-Azərbaycan münaqişəsinə dair materialları dərc edilmişdir.

**Azərbaycan Respublikasının İqtisadi Əməkdaşlıq Təşkilatı ilə əlaqələri**

Azərbaycan Respublikasınınfəal surətdə iştirak etmək istədiyi regional təşkilatların biri də İqtisadi Əməkdaşlıq Təşkilatıdır (ECO). İƏT 1995-ci ildə İran, Türkiyə və Pakistan tərəfindən regional iqtisadi əməkdaşlığı inkişaf etdirmək məqsədilə 1964-cü ildə təsis olunan Regional İnkişaf Təşkilatının əsasında yaradılmışdır. İƏT yarandığı gündən bugünə kimi üzv ölkələr arasında nəqliyyat və ticarət əlaqələrinin genişləndirilməsinə hədəflənmişenerji,

ticarət, nəqliyyat, kənd təsərrüfatı və narkotik qaçaqmalçılığa qarşı mübarizə sahəsində bir sıra layihələr həyata keçirmişdir. İqtisadi Əməkdaşlıq Təşkilatının Əməkdaşlıq Strategiyası üzv dövlətlər arasında əməkdaşlığın 3 sahəsini müəyyənləşdirmişdir:

1. Ticarət; 2. Nəqliyyat və kommunikasiya; 3. Enerji.

1992-ci il fevralın 16-da Tehranda keçirilən ECO-nun növbəti müşavirəsində AR Təşkilata üzv qəbul olunmuşdur. 1993-cü il iyunun 6-7-də İstanbulda İqtisadi Əməkdaşlıq Təşkilatının yüksək səviyyədə keçirdiyi II görüşündə iştirak edən dövlət başçıları Ermənistanın Azərbaycana qarşı təcavüzkarlığını pisləyən bəyanat qəbul etdilər.

## Azərbaycan Respublikasının Qoşulmama Hərəkatı ilə münasibətləri

Azərbaycanın çoxtərəfli əməkdaşlığında 1961-ci ilin sentyabrında Fidel Kastro və marşal Broz Titonnun rəhbərliyi ilə Yuqoslaviyada keçirilən konfransda yaradılmış Qoşulmama Hərəkatının (The Non-Aligned Movement) da rolu vardır. Azərbaycan 1994-cü il mayın 31-də Misirin paytaxtı Qahirədə Qoşulmama Hərəkatının xarici işlər nazirləri səviyyəsində keçirilən iclasında müşahidəçi qismində qəbul edilmişdir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev BMT Baş Assambleyasının 49-cu iclasındakı çıxışında Qoşulmama Hərəkatına müşahidəçi kimi qoşulmağın Azərbaycan müxtəlif sahələrdə ikitərəfli münasibətlər qurmaq və üzv dövlətlərlə mövqeyini möhkəmləndirmək üçün imkan verəcəyini açıqlamışdır. Azərbaycan Respublikası isə 2011-ci ildə Qoşulmama Hərəkatına üzv olmuşdur.

Azərbaycan Respublikasının Ümummilli Lideri Heydər Əliyev Azərbaycan Respublikasının xarici siyasət strategiyası haqqında deyirdi: "Xarici siyasət ilk növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Əsas vəzifəmiz dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı sürətdə əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmləndirmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir".

1996-cı il sentyabrın 21-də Bakıda keçirilən İslam İnkişaf Bankının Beynəlxalq İnvestisiya konfransında çıxışında Heydər Əliyev demişdir: "İslam İnkişaf Bankının belə böyük bir tərkibdə, yüksək səviyyədə İslam İnkişaf Bankının Beynəlxalq İnvestisiya konfransının Azərbaycanda keçirilməsini yüksək qiymətləndirir və bunu Azərbaycan Respublikası ilə İslam ölkələri, İslam İnkişaf Bankı arasında mövcud olan sıx əlaqələrin təzahürü hesab edir. İslam İnkişaf Bankının Azərbaycanda ilk dəfə keçirdiyi konfransı bundan sonra həm İslam İnkişaf Bankının bütün müsəlman ölkələrindəki fəaliyyətinə təkan verəcək, həm də İslam İnkişaf Bankı və onun ətrafında olan iş adamları ilə Azərbaycan arasındakı əlaqələri daha da genişləndirəcəkdir".

## Nəticə

Heydər Əliyev tərəfindən həyata keçirilən Azərbaycan Respublikasının Yaxın və Orta Şərq diplomatiyasında ölkələrimiz arasında siyasi-diplomatik, iqtisadi-ticari, elmi-mədəni əlaqələrin qurulması və inkişaf etdirilməsi milli maraqlarımız və dövlətçiliyimiz baxımdan

xüsusi əhəmiyyət kəsb etmişdir. Azərbaycan həqiqətlərinin çatdırılması, ərazi bütövlüyümüzə dəstəyin əldə olunması, investisiyaların cəlb olunması, Azərbaycan mədəniyyətinin təbliğ olunması, enerji sahəsində əməkdaşlıq inkişaf etdirilməsi, qarşılıqlı sərmayələrin qoyulması və s. məsələlərdə əhəmiyyət kəsb etmişdir.

Bundan başqa Ümummilli Lider Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycan Respublikasının xarici siyasətində Yaxın və Orta Şərq ölkələri iləbeynəlxalq və regional təşkilatlar çərçivəsində – BMT, İslam Əməkdaşlıq Təşkilatı, ECO, KÖƏŞ, ƏDL, ICESCO, OPEC, İslam İnkişaf Bankı, Qoşulmama Hərəkatı (NAM), və s. əməkdaşlığın əhəmiyyətli rol oynamışdır.

Azərbaycan Respublikasının Yaxın və Orta Şərq ölkələrinin parlament rəhbərləri arasındakı münasibətlər, parlamentlərin rəhbərlərinin, müxtəlif səviyyəli nümayəndə heyətlərinin qarşılıqlı səfərləri, keçirdikləri görüşlər, apardıqları danışıqlar və müzakirələr Yaxın və Orta Şərq regionu ölkələri arasındakı münasibətlərin müxtəlif sahələr üzrə daha da istiləşməsinə, qarşılıqlı anlaşma və etimada, mənafelərin yaxınlaşmasına mühüm xidmət göstərmişdir. Həmin səfərlər zamanı parlamentlərarası münasibətləri inkişaf etdirmək üçün mühüm qurumların yaradılması, müxtəlif sahələrdə sazişlərin bağlanması, bağlanmış sazişlərin ratifikasiyası və icrasının zəruriliyi barədə fikir mübadilələri aparılmışdır. Qanunvericilik qurumları arasında münasibətlərin yüksək səviyyəsi iki ölkə arasında digər sahələrdə əlaqələrin inkişafına mühüm təsir göstərmişdir.

## Near and Middle East diplomacy of the Republic of Azerbaijan during the Reign of Heydar Aliyev (1993-2003)

## Summary

**Keywords**:The Republic of Azerbaijan, Heydar Aliyev, The Middle East, foreign policy, diplomacy

In the article, the establishment of political-diplomatic relations between the countries of the Near and Middle East in the foreign policy of the Republic of Azerbaijan during the reign of HeydarAliyev, the opening and operation of embassies, mutual visits of heads of state and government, state institutions, inter-parliamentary relations, as well as the activity of the inter-parliamentary friendship group, economic-commercial relations and relations in the field of energy, cooperation within the framework of international and regional organizations, relations in the culture, science, education and humanitarian field, the activity of the Joint Commission and etc. issues have been investigated.

In addition, in the article, the strategy of the Near and Middle East, which was one of the main directions of the foreign policy of the Republic of Azerbaijan during the reign of HeydarAliyev, has been studied within the framework of international and regional organizations, such as the UN, Organization of Islamic Cooperation, ECO, GCC, League of Arab States, ICESCO, OPEC, Islamic Development Bank, G20, and Non-Aligned

Movement (NAM).At the same time, in terms of expanding Azerbaijan's international economic relations, the countries of the Near and Middle East region, including the attraction of Arab capital, especially the role of Saudi Arabia and other Gulf countries, the connection of the Azerbaijani people with the countries of the Near and Middle East in terms of historical past and cultural-religious values, the fact that Azerbaijan was part of the Arab caliphate for many years, the writings of many prominent Azerbaijani poets, writers, and scientists in the Arabic language and etc. issues were also reflected in the article.

The establishment and development of political-diplomatic, economic-commercial, and scientific-cultural relations between our countries, as part of the Near and Middle East diplomacy of the Republic of Azerbaijan implemented by HeydarAliyev, were of special importance from the point of view of our national interests and statehood. Conveying the truths of Azerbaijan, obtaining support for our territorial integrity, attracting investments, promoting Azerbaijani culture, developing cooperation in the field of energy, making mutual investments, etc. have become very important.

## Ədəbiyyat siyahısı:


1. Baxşəliyeva G. B. Azərbaycan Respublikasının Şərq siyasəti. Azərbaycan şərqşünaslığı – № 02 (21) 2021, s. 13

2. Heydər Əliyev və Şərq. Türkiyə. I kitab. Bakı: Çaşıoğlu, 2005. s. 69-70

3. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005, s. 566

4. https://www.trt.net.tr/azerbaycan/proqram/2017/07/07/az-rbaycan-turkiy-laq-l-ri-son-25-ild-766489

5. Azərbaycan-Türkiyə əlaqələri son 20 ildə: uğurlar və imkanlar (məqalələr toplusu). Bakı: SAM, 2011, s.62

6. **سبحان طالبلی، جایگاه گرجستان در سیاست قفقاز جنوبی ایران / مجموعه چکیده مقالات سمینار بینالمللی تجارب گرجستان؛ پیشین چشم‌انداز فرارو. بنیاد مطالعات قفقاز. تهران، 1 اسفند** 2011، **ص.** 54-5

7. Бигдели А.-Р. Обзор отношений между Исламской Республикой Иран и Республикой Азербайджан. Аму-Дарья. Иранский журнал по изучению Центральной Азии и Кавказа. Тегеран: лето 1999, №2, стр. 17

8. Talıblı S. Ə. (2016). İran İslam Respublikasının Qafqaz siyasətində Dağlıq Qarabağ problemi (1991-2005-ci illər).Bakı: Elm və təhsil, 2016. – 362 s.

9. Azərbaycan Respublikası Milli Məclisinin arxivi, İrana aid qovluq (1991-1997-ci illər), s.11-13

10. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin İrana aid arayışı (1991-2005-ci illər)

11. Heydər Əliyevin İran İslam Respublikası ilə əlaqədar baxışları. İİR-in Bakıdakı səfirliyi. (Azərbaycan və fars dillərində). Bakı: Çaşıoğlu, 2004

12. Qasımov M. C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995). Bakı: 1996

13. Heydər Əliyev və Şərq. (2002). 6 cilddə II cild.İran İslam Respublikası. Müəllif tərtibçilər: Qalay Allahverdiyev XİN-in müşaviri, f.e.d. Vəhdət Sultanzadə XİN-in müşaviri. Bakı: Ozan, s.397

14. Məmmədov Z. S. (2002).XXI əsr: İqtisadi inkişafın nəqliyyat faktoru. Bakı: Azərnəşr, s.321-322

15. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. S. 396-397.

16. Qasımlı M. C. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). II hissə. Bakı: Mütərcim, 2015. s.315.

17. Əs-siyasət-ul-xariciyyə lil-məmləkətil-Arabiyyəti-əs-Səudiyyə fi miəti am. (100 il ərzində Səudiyyə Ərəbistan Krallığının xarici siyasəti). Vizarat-ul xariciyyə, ər-Riyad. – 1419 h.q., 827 s

18. Talıblı S. Ə. İxtisas ölkəsi beynəlxalq münasibətlər sistemində (Səudiyyə Ərəbistanı Krallığı). Bakı Avrasiya Universiteti, BAUU nəşriyyatı, 2018. – 58 s.

19. Talıblı S. Ə. Azərbaycan Respublikasını xarici siyasətində Səudiyyə Ərəbistanı (1991-2003-cü illər). "Heydər Əliyev: Qafqazda sülh və əməkdaşlıq məsələləri" respublika elmi konfransın materialları. Bakı: 3 may 2023, Karvser Tarde MMC, AMEA Qafqazşünaslıq İnstitutu, s. 68-69

20. http://sesqazeti.az/news/kivdf/338343.html

21. İsmayıl R., Axundova N., Bağırova A. Ərəb ölkələrinin çağdaş tarixi. II hissə – Afrikanın ərəb ölkələri. Bakı: Azpoleqraf, 2018. s 378

22. http://abudhabi.mfa.gov.az/content/51

23. Heydər Əliyev və Şərq. 6 cilddə. Müəllif tərtibçilər: Qalay Allahverdiyev XİN-in müşaviri, f.e.d. Vəhdət Sultanzadə XİN-in müşaviri. Bakı: Ozan, 2002.

24. https://daralber.ae/ar/home

25. https://www.zayedchf.gov.ae/

26. https://www.albabtaincf.org/

27. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Küveyt Parlamentinin nümayəndə heyətini qəbul etmişdir. – Azərbaycan xarici siyasəti: sənədlər məcmuəsi. 2001. I hissə, s. 890-894.

28. Hüseynova T. Q. Azərbaycan Respublikasının Körfəz Ölkələri Əməkdaşlıq Təşkilatı üzvü olan Dövlətlərlə münasibətləri. Bakı: 2015

29. https://doha.mfa.gov.az/az/content/3/ikiterefli-munasibetler

30. https://president.az/az/articles/view/58420

31. https://e-qanun.az/framework/32253

32. Soltanova H. B., Məmmədov C. A. Yaxın və Orta Şərq ölkələrinin iqtisadi və sosial coğrafiyası. Bakı: Bakı Universiteti nəşriyyatı, 2008. 304 s.

33. https://e-qanun.az/framework/903

34. https://e-qanun.az/framework/32253

35. https://www.oic-oci.org/home/?lan=ar

36. https://eco.int/

37. https://www.icesco.org/en/

38. http://anl.az/el/emb/QARABAQ/beynelxalq-senedler/iet.pdf

39. İbayev V. Ə. İslam Konfransı Təşkilatı. Bakı: Elm, 1998. 87 s.

40. Azərbaycan-İqtisadi Əməkdaşlıq Təşkilatı (IƏT) münasibətləri. “Heydər Əliyev irsi” Beynəlxalq Elektron kitabxana. 01 iyul 2010. https://lib.aliyev-heritage.org/az/4271680.html

41. Azərbaycan Respublikası xarici siyasətinin əsas istiqamətlər (1991-2016) /məqalələr toplusu/. Bakı Poliart MMC, 2017. – 904 s.

42. Speach of the President of Azerbaijan Haydar Aliyev at 49th session of the UN General Assambly-New-York, September 19, 1994- https://lib.aliyevheritage.org/en/7119983.html

43. **عبده أحمد، طرابيك قره باغ طريق السلام في القوقاز، القاهرة، ٢٠١٤ ص. ٤٥٥**

44. Əhməd Abduh Tarabek, Qarabağ Qafqazda sülhə aparan yol, Qahirə, 2014, 455 s.

45. **معتز محي عبد الحميد، جوهرة شوشا آذربيجان، بغداد، مدير المركز الجمهوري للدراساتالستراتيجية، ٢٠٢٢، ص. ٦**

46. **معتز محي عبد الحميد، جوهرة شوشا آذربيجان، بغداد، مدير المركز الجمهوري للدراساتالستراتيجية، ٢٠٢٢، ص. ٦٦**

47. Mutaz Muyi Abdulhamid, Azərbaycanın incisi Şuşa, Bağdad, İraq Strateji Araşdırmalar Mərkəzi, 2022,. -66 s.

**Ülkər Əliyeva**
AMEA akad. Z. M. Bünyadov adına Şərqşünaslıq İnstitutu,
Asiya-Sakit okean region ölkələri şöbəsinin
aparıcı elmi işçisi, t.ü.f.d., dos.

# VYETNAM-AZƏRBAYCAN ƏLAQƏLƏRİNİN QURULMASI VƏ İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN XİDMƏTLƏRİ

**Açar sözlər:** Azərbaycanın Cənub-Şərqi Asiya siyasəti, Vyetnam-Azərbaycan əlaqələri, Heydər Əliyev, "Veso-Petrol" şirkəti

Azərbaycan-Vyetnam əməkdaşlığının tarixi və Heydər Əliyev xətti. Xarici siyasətinin əsasında digər dövlətlərlə bərabərhüquqlu və Azərbaycanın mənafeyinə xidmət edən əlaqələr yaratmaq, Azərbaycanı dünyaya tanıtmaq məqsədi duran Heydər Əliyev dünyanın aparıcı dövlətlərinin yerləşdiyi regionlarla yanaşı, digər bölgələr, o cümlədən Cənub-Şərqi Asiya regionu ilə əlaqələrin genişləndirilməsinə əhəmiyyət verirdi. Bu regionun öz geosiyasi mövqeyi və təbii resursları baxımından diqqəti cəlb edən ölkələrindən biri olan Vyetnamla Azərbaycan arasında yaxınlaşma hələ Sovet dövründə başlansa da, Azərbaycan müstəqillik əldə etdikdən sonra iki ölkə münasibətlərində yeni mərhələnin əsası qoyulmuşdur.

Vyetnam prezidenti Çıonq Tan Şanqın sözlərinə görə, "əlaqələrimizin strateji əsası var. Çünki vaxtilə prezident Xo Şi Min Bakıda zəngin neft-qaz yataqlarına səfər etdikdə (1959) onun bir arzusu var idi ki, biz bu sahələrdə birgə işləyək" (1). Qeyd edək ki, Vyetnamın "Veso-Petrol" birgə müəssisəsinin neft-qaz sahəsindəki nailiyyətləri Ho Şi Minin strateji düşüncələrinə əsaslanır. O zaman Ho Şi Min Azərbaycana səfəri zamanı müharibə vəziyyəti ilə əlaqədar olaraq, ölkəsində zəngin neft yataqlarını istismar etməyin mümkün olmadığını, lakin müharibədən sonra Vyetnamın neft-qaz sənayesinin inkişaf etdirilməsinə Azərbaycanın töhfələrini əsirgəməyəcəyinə inandığını bildirmişdi. Azərbaycan Neft-Kimya İnstitutunun məzunu, "Veso-Petrol" birgə müəssisənin idarə heyətinin sədri Tıl Tenya 2014-cü ildə Vyetnamda İlham Əliyevlə görüş zamanı "Veso-Petrol" birgə müəssisəsinin 1981-ci ildə Sovet İttifaqının köməyi ilə yaradıldığını və bu işdə Azərbaycan neftçilərinin də yaxından iştirak etdiklərini bildirmişdi. Onun sözlərinə görə, "təsadüfi deyil ki, "Veso-Petrol" birgə müəssisəsinin ilk baş direktoru Məmmədov Cəlal Heydəroviç olub. Onun rəhbərliyi altında sovet neftçiləri vyetnamlı neftçilərlə birgə çiyin-çiyinə çalışaraq "Veso-Petrol" müəssisəsini yaratmağa başlamışlar. Şirkətin baş ofisi yerləşən Hun Tau şəhərinin ən böyük küçəsi Bakının adını daşıyır" (9).

Heydər Əliyevin Vyetnama 1983-cü il səfəri isə iki ölkə arasında əməkdaşlığın formalaşmasını başa çatdırdı və inkişafına təkan verdi. Ümumiyyətlə, Azərbaycan-Vyetnam əlaqələrinin həm Sovet, həm də müstəqillik dövrü mərhələlərinin yaradıcısı Heydər Əliyevdir.

SSRİ Nazirlər Sovetinin birinci müavini olan Heydər Əliyevin rəhbərliyi ilə SSRİ nümayəndə heyəti Vyetnam Sosialist Respublikasında keçiriləcək təntənəli tədbirlərdə iştirak məqsədilə 1983-cü ilin oktyabrında Hanoya göndərilmişdi. Oktyabrın 31-də Hanoyda SSRİ və Vyetnam Sosialist Respublikası arasında dostluq və əməkdaşlıq haqqında müqavilənin beş illiyi münasibətilə keçirilən mitinqdə çıxış edən Heydər Əliyev bu müqavilənin iki ölkənin münasibətlərini keyfiyyətcə yeni mərhələyə çatdırmasından və Sovet-Vyetnam dostluğunun getdikcə möhkəmlənməsindən bəhs etmişdi (10). Əliyevin çıxışı alqışlarla qarşılanmış və bununla da böyük siyasətçi Heydər Əliyev Cənub-Şərqi Asiyada Vyetnam Sosialist Respublikası xətti ilə sülh, əməkdaşlıq zonasının yaradılması sahəsində böyük tarixi xidmət göstərmişdi (7, 28).

Heydər Əliyevin səfəri həm də Vyetnamdakı təsərrüfat obyektlərinə, o cümlədən neft sahəsində tikinti-quraşdırma işləri həyata keçirən iki yüz nəfər azərbaycanlı mütəxəssisin apardığı işin gedişinə nəzarət məqsədi daşıyırdı (11). Həmin ildə "Pravda" qəzetində bu səfər çərçivəsində keçirilən görüşlər, aparılan danışıqlar, qəbul edilən sənədlərin bu regionda Sovet dövlətinin mövqelərinin daha da möhkəmləndirilməsi baxımından çox əhəmiyyətli olduğu, bu zaman rəsmi standartlarla yanaşı Heydər Əliyevin fərdi keyfiyyətləri, onun insanlarla işləmək, məsələlərə yanaşma xüsusiyyətlərinin aşkar şəkildə özünü büruzə verdiyi və həyata keçirilən fəaliyyətin uğurunu bilavasitə təmin etməsi barədə yazılmışdı. (6, 5). Vyetnamda geniş oxucu kütləsinə malik olan "Dan Tri" qəzetində 2020-ci ildə dərc olunmuş və Heydər Əliyevə həsr olunan məqalədə "Vyetnamın tarixi dostu" adlandırılan Heydər Əliyevin 1983-cü il səfərinin Vyetnam müharibəsindən sonra bu ölkəyə ən yüksək səviyyəli xarici səfər olduğu bildirilir, keçmiş Sovet İttifaqının Vyetnama yardımlar barədə qərarların qəbul edilməsində onun əvəzsiz xidmətləri qeyd olunur (12).

Həmin dövrdə Azərbaycan və Vyetnam arasında əlaqələr sənaye, xüsusilə neft və qaz sektorunu, təhsil və digər sahələri əhatə edirdi. Azərbaycanın neft və qaz sahəsində mütəxəssislərinin Vyetnamın neft sənayesinin inkişafında əvəzsiz xidmətləri xüsusi qeyd edilməlidir.

Vyetnamın Birlik və Dostluq Təşkilatının sədri Vu Xuan Honq prezident İlham Əliyevin 2014-cü ildə Hanoya səfəri zamanı baş tutan görüşdə çıxış edərək, Azərbaycanın Vyetnam üçün minlərlə elmi işçi, xalq təsərrüfatının vacib sahələri, o cümlədən müdafiə və təhlükəsizlik, xüsusilə də neft sənayesi, investisiya və energetika sahəsi üçün yüksək ixtisaslı mütəxəssis hazırladığını, bütün bunların Azərbaycan ilə Vyetnam arasında xüsusilə böyük dostluq körpüsünün və təməlinin qurulmasında əhəmiyyətli rol oynadığını qeyd etmişdi (9).

7 may 2020-ci il tarixində Azərbaycan Respublikasının Vyetnam Sosialist Respublikasındakı Səfirliyində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 97-ci ildönümü münasibətilə keçirilən tədbirdə çıxış edən Vyetnam-Azərbaycan Dostluq Assosiasiyası sədrinin müavini, səfir Truong Manh Tien Heydər Əliyevin adının Vyetnam xalqının zehnində əbədi həkk olunduğunu bildirərək, onun ölkəsinə etdiyi köməkliklərin

Vyetnam xalqının yaddaşından heç bir zaman silinməyəcəyini xüsusi vurğuladı. Truong Manh Tien Azərbaycanın təhsil ocaqlarını bitirən minlərlə vyetnamlının ölkəsinin müharibədən sonra keçdiyi mürəkkəb bərpa dövründə və hazırkı sürətli inkişafında fəal çalışdıqlarını əlavə etdi (15).

Ümumiyyətlə, Sovet dövründə Vyetnamla Azərbaycan arasında daha sıx əlaqələr mövcud olmuş, Vyetnam üçün hazırlanan mütəxəssislərin əksəriyyəti Azərbaycanda təhsil almışlar. Hazırda da ölkənin neft sektorunda çalışanların çoxu Azərbaycanda hazırlanmış mütəxəssislərdir (11).

Azərbaycanın müstəqillik əldə etməsindən sonra Vyetnamla münasibətlər. Azərbaycanın Vyetnamla münasibətlərinin müstəqillik dövrü mərhələsinə gəldikdə isə Vyetnamın Azərbaycanın müstəqilliyini tanıması 1991-ci ilə, ölkələrimiz arasında diplomatik münasibətlərin qurulması isə 1992-ci il, sentyabrın 23-nə təsadüf edir. Heydər Əliyev hələ 1993-cü ildə Milli Məclisdə çıxışı zamanı Vyetnamla əlaqələrimizin tarixindən qısa bəhs edərək qeyd etmişdi ki, "mən Moskvada işlədiyim dövrdə – Afrikanın cənubunda yaxud Cənubi Asiyada – Laosda, Vyetnamda, Şimali Koreyada olarkən orada Bakı kondisionerlərini görəndə sevinirdim ki, Azərbaycan Respublikasının, Azərbaycan xalqının da istehsal etdiyi məhsullar dünya miqyasına çıxıb" (8, 126).

Lakin 90-cı illərin əvvəllərində Vyetnamla müstəqil Azərbaycan arasında münasibətlərdə müəyyən müddət fasilə baş vermiş, əlaqələr yalnız XXI əsrdə aktivləşmişdir. Azərbaycan və Vyetnam arasında yüksək səviyyəli nümayəndə heyəti mübadiləsi 2010-cu ildə Vyetnam Sosialist Respublikası Baş nazirinin müavini Hoanq Çunq Hayın və xarici işlər nazirinin müavini Nquen Kuok Kıonqun Azərbaycana səfəri ilə bərpa edildi (4). Əlavə edək ki, yüksək səviyyəli rəsmi səfərlərin təşkilinə qədər də Vyetnam və Azərbaycan BMT və beynəlxalq forumlarda daim əlaqə saxlamış, Vyetnam nümayəndə heyətləri beynəlxalq təşkilatlarda Azərbaycanın mövqeyini müdafiə etmişlər.

2013-cü ildə isə Azərbaycan Respublikasının Vyetnam Sosialist Respublikasında səfirlinin açılmasından sonra münasibətlərdə böyük irəliləyişlər başlanmışdır. Həmin ilin fevral ayının 27-də İlham Əliyevin sərəncamı ilə Anar Laçın oğlu İmanov Azərbaycan Respublikasının Vyetnam Sosialist Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilmişdir. Səfirliyin açılmasına qədər iki ölkə arasındakı əlaqələr Vyetnamın iqamətgahı Moskvada olan səfirliyi vasitəsilə həyata keçirilirdi (4).

Vyetnam Sosialist Respublikasının baş naziri Nquyen Tan Dunq yeni təyin olunmuş Azərbaycan səfiri ilə görüş zamanı Vyetnamın Azərbaycanla siyasi, iqtisadi, mədəni, humanitar sahələrdə əməkdaşlıq etmək arzusunda olduğunu və Vyetnam Prezidenti Çjonq Tan Sanqın Azərbaycan Prezidenti İlham Əliyevi 2014-cü ildə Vyetnama dəvət etdiyini qeyd etdi (13). İlham Əliyevin bu səfəri iki ölkə arasında münasibətlərin inkişafına təkan verdi. Bundan sonra iki ölkənin səlahiyyətli şəxslərinin qarşılıqlı səfərləri həyata keçirildi.

Azərbaycan Xarici İşlər Naziri Elmar Məmmədyarovla görüşən Vyetnam Xarici İşlər Nazirinin müavini əməkdaşlıq məsələlərini müzakirə edərək Azərbaycan Respublikasının

Dövlət Neft Şirkəti ilə “Petro Vietnam” şirkəti arasında yaradılmış əməkdaşlığın daha da inkişafında maraqlı olduqlarını bildirmişdi (2).

İkitərəfli görüşlərdə müzakirələrin mövzusu da göstərir ki, Vyetnam Sovetlər Birliyi zamanı olduğu kimi müasir dövrdə də neft və qaz sektorunda əlaqələrdə xüsusilə maraqlıdır. Hələ 2011-ci ildə Vyetnam Milli Neft və Qaz Qrupu (Petro Vietnam) yerli həmkarları ilə əməkdaşlıq üçün Azərbaycanda öz ofisini açmışdır (3).

Neft-qaz sahəsindən əlavə digər sferalarda da ölkələrimiz arasında əlaqələr mövcuddur. Bunlara misal olaraq, 2007-ci ildə Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Naziri Ə. Abbasovun Vyetnamda işgüzar səfəri, 2013-cü ilin 11-13 aprel tarixlərində isə Vyetnam Xarici İşlər Nazirinin müavini xanım Nquen Fıonq Nqanın Bakıda keçirilən Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun Məzunlar Forumunda iştirakını və digər ikitərəfli əlaqələri göstərmək olar (3).

İqtisadi sahəyə gəldikdə, Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2022-ci ildə Azərbaycanın Vyetnama məhsul ixracı xarici ticarət dövriyyəsinin 1,0 faizini təşkil etmişdir (16). Məsələn, ilin yanvar-iyun aylarında Vyetnama 117,7 milyon dollarlıq 137,7 min ton xam neft və xam neft məhsulları ixrac edilmişdir. Eyni dövrdə Azərbaycanın Vyetnamdan idxalının həcmi isə cəmi 0,8 təşkil etmişdir.

Azərbaycanın Vyetnamdakı səfiri Anar İmanov “Vietnam Economic Times” nəşrinə müsahibəsində Vyetnamlı düyü, qəhvə və çay istehsalçılarının öz məhsullarını Azərbaycanda sata biləcəklərini qeyd etmişdi. Lakin səfir Azərbaycan və Vyetnam arasında kənd təsərrüfatı sahəsində əməkdaşlığın probleminin iki ölkənin şirkətlərinin bir-birini kifayət qədər yaxşı tanınmamasında olduğunu bildirmişdir: “Onlar bir-birlərinin ölkələrində təşkil olunan yarmarka və sərgilərdə iştirak etmirlər. Ona görə də bir-birlərinin bazarlarını bilmirlər və real maraq göstərmirlər” (5). Qeyd edək ki, hazırda Vyetnam Azərbaycana əsasən mobil telefonlar, kompüter, elektronika (2022-ci ildə idxal etdiyi smartfonların 177.76 min ədədi ($37.61 mln.) (17) və dəniz məhsulları, ədviyyat ixrac edir.

Vyetnamla əlaqələr Heydər Əliyev dövründə olduğu kimi bu gün də Azərbaycanın Asiya siyasətinin mühüm istiqamətlərindən birini təşkil edir. Azərbaycan-Vyetnam münasibətləri əsas etibarilə siyasi əlaqələrdən ibarətdir. İki ölkə mühüm siyasi məsələlərdə beynəlxalq təşkilatlarda bir-birini dəstəkləyir.

Beləliklə, Ulu Öndərin bütün sahələrdə qoyduğu miras qorunduğu kimi, onun xarici siyasət xətti, o cümlədən Azərbaycanın Asiya siyasətində Vyetnam istiqaməti uğurla davam etdirilir.

**The Merits of Heydar Aliyev in the Establishment and Development of Vietnam-Azerbaijan Relations**

**Summary**

**Keywords**: Southeast Asian policy of Azerbaijan, Vietnam-Azerbaijan relations, Heydar Aliyev, Vietnam's Veso Petrol Company

Although the rapprochement between Vietnam and Azerbaijan began during the Soviet era, a new stage in relations between the two countries began after Azerbaijan gained independence. Heydar Aliyev is the creator of both the Soviet and independent stages of the Azerbaijani-Vietnamese relations. It is no coincidence that Heydar Aliyev, who provided invaluable assistance in the development of the oil industry of Vietnam in the Soviet period and the development of its relations with Azerbaijan, is known in this country as a "historical friend of Vietnam".

**Ədəbiyyat siyahısı**

1. "Azərbaycanla neft-qaz sahəsində əməkdaşlığı genişləndirmək əzmindəyik", https://525.az/news/36201-azerbaycanla-neft-qaz-sahesinde-emekdasligi-genislendirmek-ezmindeyik

2. Azərbaycan Vyetnamla əməkdaşlığı genişləndirmək niyyətindədir // Trend, 12 aprel, 2013-http://az.trend.az/news/politics/2138309.html

3. Azərbaycan-Vyetnam münasibətləri http://www.mfa.gov.az/files/file/Azerbaycan_Vyetnam_munasibetleri_25.07.2014.pdf

4. Azərbaycan Respublikasının Vyetnam Sosialist Respublikasında,Kamboca Krallığında, Laos Xalq Demokratik Respublikasındakı Səfirliyinin rəsmi səhifəsi https://hanoi.mfa.gov.az/az/content/48/azerbaycan-vyetnam-munasibetleri#

5. Azərbaycan və Vyetnam hansı məhsullarını ticarət edə bilər?, https://report.az/biznes-xeberleri/azerbaycan-ve-vyetnam-hansi-mehsullarini-ticaret-ede-biler/

6. Əliyev İbrahim. SSRI-nin beynəlxalq münasibətlər sahəsində Heydər əliyevin xidmətləri // Geostrategiya, May – İyun 2017, № 03 (39), s. 3-5

7. Heydər Əliyev. Elektron Sənədlər Toplusu. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası, 53.s., https://files.preslib.az/projects/toplu/v2/f1_2.pdf

8. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir (çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr.

9. İlham Əliyev Hanoyda Azərbaycanda təhsil almış vyetnamlı məzunlarla görüşmüşdür. 19 may 2014, (Azərbaycan Neft-Kimya İnstitutunun məzunu, "Veso-Petrol" birgə müəssisənin idarə heyətinin sədri Tıl Tenyanın çıxışı), https://president.az/az/articles/view/11767

10. Mən fəxr edirəm ki, azərbaycanlıyam: ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyəti (elektron resurs), Bakı: Regionların İnkişafı İctimai Birliyi, 2008, 57s.- http://filis.preslib.az/projects/toplu/v2/fl_2.pdf

11. Vyetnamda neft sektorunu Heydər Əliyev qurub – Müsahibə, 20 May 2014, https://azvision.az/news/32084/vyetnamda-neft-sektorunu-heyder-eliyev-qurub-musahibe.html

12. Vyetnam qəzetində Heydər Əliyev haqqında məqalə dərc olundu / 09.05.20., https://525.az/news/141619-vyetnam-qezetinde-heyder-eliyev-haqqinda-meqale-derc-olundu

13. Vyetnam Azərbaycanda səfirlik açılması imkanlarını araşdırır // Trend, 25 oktyabr, 2013- http://az.trend.az/news/politics/2204785.html

14. Azerbaijani President's visit to boost economic links //Vietnamese Diplomatic Missions, August 06, 2014 http://www.vietnamembassy-brunei.org/vnemb.vn/tin_hddn/ns140519190315,(19-05-2014)

15. https://hanoi.mfa.gov.az/az/news/3303/7-may-2020-ci-il-tarixinde-azerbaycan-respublikasinin-vyetnam-sosialist-respublikasindaki-sefirliyinde-azerbaycan-xalqinin-umummilli-lideri-heyder-eliyevin-anadan-olmasinin-97-ci-ildonumu-munasibetile-tedbir-kecirmisdir

16. https://banco.az/az/news/azerbaycan-esasen-hansi-olkelere-mehsul-ixrac-edir

17. https://fed.az/az/ikt/oten-il-azerbaycan-153-milyonluq-smartfon-idxal-edib-155889

**Namiq Məmmədov**
AMEA akad. Z. M. Bünyadov adına Şərqşünaslıq İnstitutu,
Türkiyə tarixi və iqtisadiyyatı şöbəsinin müdiri,
aparıcı elmi işçi, t.ü.f.d.
mammadov.namig@yahoo.com

# TÜRKİYƏ-AZƏRBAYCAN İQTİSADİ ƏLAQƏLƏRİNİN YARANMASI VƏ İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN NEFT STRATEGİYASININ ƏHƏMİYYƏTİ

**Açar sözlər:** Heydər Əliyev, Türkiyə, Azərbaycan, iqtisadiyyat, neft.

## Giriş

XX əsrin 80-ci illərinin sonunda beynəlxalq aləmdə böyük əhəmiyyət kəsb edən əsas siyasi proseslərdən biri də Sovet İmperiyasının tənəzzülü ilə əlaqədar idi. Bu imperiyanın iqtisadi dayaqlarının iflasa uğraması nəticəsində onun tənəzzülü daha da sürətləndi. Nəhayət, 1991-ci ildə Sovet İmperiyası süquta uğradı, onun işğal altında saxladığı bir çox xalqlar öz müstəqilliyini elan etdilər. Belə müstəqil dövlətlərdən biri də Azərbaycan Respublikası oldu. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul edildi və 1920-ci ildə itirilmiş müstəqillik ikinci dəfə bərpa edildi. Lakin müstəqilliyi qoruyub saxlamaq, möhkəmləndirmək və inkişaf etdirmək yollarında ciddi maneələr var idi. Ümumiyyətlə, 1991-ci ildən sonrakı dövrdə Azərbaycanın iqtisadi inkişafı aşağıdakı əsas mərhələlərdən keçmişdir:

1. Böhran dövrü (1991-1995)
2. Sabitləşmə və islahatlar dövrü (1995-1998)
3. İqtisadi canlanma dövrü (1998-2004)
4. Yüksəliş dövrü (2004-cü ildən bəri)

## Müstəqilliyin ilk illərində iqtisadi inkişafa mane olan əsas amillər hansılar idi?

Müstəqillik əldə olunduğu dövrdə Azərbaycanda mövcud olan vəziyyət SSRİ-nin demək olar ki, başqa heç bir subyektində həmin dərəcədə ağır və mürəkkəb deyildi. Ümumi şəkildə qeyd etsək, həmin dövrdə iqtisadi inkişafa mane olan əsas amilləri aşağıdakı kimi sıralamaq mümkündür:

- SSRİ-nin dağılması və əvvəlki iqtisadi əlaqələrin pozulması
- Azərbaycanda mövcud olan qeyri-sabit siyasi vəziyyət
- Ermənistan-Azərbaycan Dağlıq Qarabağ problemi və müharibənin təsirləri
- Valyuta ehtiyatının olmaması
- Xarici kapitalın cəlb edilməsində olan problemlər
- Xariclə iqtisadi əlaqələrin qurulmasında problemlər

Hələ imperiya dağılmamışdan əvvəl burada milli zəmində başlanan münaqişə, tədricən torpaqlarımızın Ermənistan tərəfindən ələ keçirilməsi üçün başlanan müharibəyə çevrildi. Bundan əlavə, XX əsrin əvvəllərində işğal olunaraq Ermənistana qatılmış Qərbi Azərbaycan torpaqlarının dədə-baba sakinləri olan azərbaycanlı əhali növbəti dəfə deportasiyaya məruz qalmış və öz yurdlarından didərgin düşməyə məcbur edilmişdilər. Bu zaman, səriştəsiz hakimiyyətin müvafiq tədbir görə bilməməsi də vəziyyəti xeyli ağırlaşdırırdı. Nəticədə, 1990-cı ildə Bakıda 20 yanvar faciəsi törədildi. Eyni zamanda Dağlıq Qarabağda da başlanmış separatçılıq həmin bölgənin ermənilər tərəfindən işğal olunmasına gətirib çıxarırdı. Ermənistan və Dağlıq Qarabağdakı erməni silahlı birləşmələri əvvəl sovet, sonra da rus hərbi qüvvələrinin köməyi ilə Dağlıq Qarabağda genişmiqyaslı hərbi əməliyyatlara başlayaraq strateji mövqeləri tutmuş, azərbaycanlıları buradan qovub çıxarmaqla 1991-ci ilin sentyabrında burada oyuncaq "Dağlıq Qarabağ Respublikası" yaratmışdılar. Həmin dövrdə Azərbaycan rəhbərliyi isə ordu quruculuğuna lazımi diqqət göstərmədi. Bir sıra yerli özünümüdafiə dəstələri yaradıldı. Lakin lazımi döyüş qabiliyyəti, təchizatı olmayan və müdafiə taktikasına keçməyə məcbur olan bu qüvvələr yaxşı silahlanmış və təlim görmüş düşmənə qarşı vuruşur və tez-tez məğlubiyyətə uğrayırdı. 1992-ci ilin fevralında törədilən Xocalı faciəsi respublikada siyasi gərginliyi daha da artırdı. Hakimiyyət dəyişikliklərini tez-tez baş verməsi Azərbaycanın bir sıra torpaqlarının Ermənistan tərəfindən işğalını daha da sürətləndirdi. 1992-ci ilin iyununda hakimiyyətə gələn Xalq cəbhəsi hökuməti də hakimiyyəti möhkəmləndirə və ondan xalqın xeyrinə səmərəli istifadə edə bilmədi. Kadr siyasətindəki səhvlər, idarəçilikdə olan ciddi qüsurlar vəziyyəti daha da mürəkkəbləşdirdi. Separatçılıq meylləri daha da artdı. Şimal rayonlarında separatçı "Sadval" (Birlik) təşkilatı fəallaşmış, cənub rayonlarında isə İranından gəlmiş dini missionerlərin separatçılıq təbliğatı güclənmişdi. Sürət Hüseynovun rəhbərliyi ilə Gəncədə başlanan qiyam isə AXC-Müsavat hökumətinin süqutuna səbəb oldu. Bütün bu məsələlər Ermənistanın işğalçılıq fəaliyyətini genişləndirməsinə gətirib çıxarırdı. Artıq 1993-cü ilin sonlarına qədər keçən müddətdə Azərbaycanın bütün Dağlıq Qarabağ bölgəsi və ətraf yeddi rayon düşmən tərəfindən işğal olunmuş, bir milyondan artıq soydaşımız doğma yurdlarından qaçqın düşmüşdü.

Ölkənin vətəndaş müharibəsi ərəfəsində olduğu belə bir vəziyyətdə xalqın təkidli tələbi ilə ümummilli lider Heydər Əliyev Naxçıvandan Bakıya gəldi. Gəncəyə gedərək qiyamçılarla danışıqlar apardı və vətəndaş müharibəsi təhlükəsini diplomatik yolla aradan qaldırdı. Bundan sonra digər separatçılıq fəaliyyətlərinin də qarşısı alındı. Xalqın tələbi ilə Heydər Əliyev Respublikada hakimiyyətə gəldi və 1993-cü ilin oktyabrında keçirilmiş seçkilərdə Prezident seçildi. Onun rəhbərliyi altında milli ordu quruculuğu başlamış və sürətlənmiş, cəbhədə bir sıra uğurlar əldə edilərək işğal altında olan bəzi ərazilər azad edilmiş, Ermənistanla atəşkəs haqqında razılaşma əldə edilmişdi. Bundan sonra isə Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün tam bərpa olunması əsasında münaqişənin sülh yolu ilə tənzimlənməsi, ölkədə böyük layihələrin reallaşdırılması, demokratik

islahatlar, dövlət quruculuğu və iqtisadi inkişafın təmin olunması, xarici əlaqələrin genişləndirilməsi istiqamətində tədbirlərin görülməsinə başlanıldı.

**Heydər Əliyev və Azərbaycanın neft strategiyası.**



“Əsrin müqaviləsi”nin imzalanması mərasimi

1991-1993-cü illərdə respublikanın mövcud iqtisadi potensialından, zavod və fabriklərindən, kommunikasiya vasitələrindən, yüksək ixtisaslı mütəxəssislərindən səmərəli istifadə olunmurdu. Sosialist istehsal üsulunun dağılması, yeni iqtisadi münasibətlərin yaradılmasında, əsaslı iqtisadi islahatların tətbiq edilməsində gecikmələr iqtisadi böhranın başlıca səbəblərindən idi. Siyasi sabitliyin olmaması xarici investorların ölkəyə sərmayə qoymasına mane olurdu. Heydər Əliyevin hakimiyyətə qayıtmasından sonra bu sahədə ciddi tədbirlərin görülməsinə başlanıldı. Ölkənin yeni neft strategiyasının əsası qoyuldu. Azərbaycan postsovet məkanında Qərbin transmilli neft şirkətləri ilə böyük miqyasda saziş imzalayan ilk dövlət kimi Xəzərdə beynəlxalq əməkdaşlığın əsasını qoydu. Bununla Azərbaycanı dünya iqtisadiyyatına bağlayan ən önəmli addımlardan biri atıldı. 1994-cü ilin sentyabrında Bakıda Xəzərin neft yataqlarının birgə işlənməsinə dair neft kontraktı - “Əsrin müqaviləsi” imzalandı. Həmin müqavilədə Türkiyənin TPAO şirkəti ilkin olaraq 1.75% payla təmsil olunmuşdu. Bununla belə, “Əsrin müqaviləsi”nin imzalanması Azərbaycan-Türkiyə münasibətlərinin daha yüksək zirvəyə qalxmasında çox əhəmiyyətli rol oynadı. Türkiyə Azərbaycan iqtisadiyyatının neft sektorunda daha yaxından iştirak etmək və sonrakı neft müqavilələrində təmsil olunmaq imkanı əldə etdi. Türkiyə Respublikası tərəfindən bu sənədi imzalayan dövlət naziri N. Cevheri müqavilənin hər iki dövlət üçün kəsb etdiyi mühüm əhəmiyyəti xüsusi olaraq vurğulamışdır. Belə ki, müqavilə və oradakı pay bölgüsünə uyğun olaraq Türkiyə Azərbaycanın neft sənayesinə 150 mln. dollar məbləğində investisiya qoyacaq, əvəzində isə 2 mlrd. dollar gəlir və 9-10 mln. ton neft əldə edəcəkdi.

Müqavilə imzalandıqdan sonra Türkiyə ilə Azərbaycan arasında iqtisadi əlaqələrin daha da möhkəmlənməsi və genişlənməsi yolunda konkret addımlar atılmış oldu. Bunun nəticəsi kimi, Türkiyənin baş naziri T. Çillər və onu müşayiət edən hökumət üzvlərindən ibarət

nümayəndə heyəti 1995-ci il aprelin 12-də Bakıda qısamüddətli işgüzar səfərdə oldu və bu səfər müddətində Türkiyənin neft konsorsiumundakı 1.75 faizlik payının Azərbaycanın neft payı hesabına 6.75 faizə qədər artırılması haqqında müqavilə imzalandı. Bu müqavilənin imzalanması Azərbaycan-Türkiyə münasibətlərinin inkişafında həm iqtisadi, həm də siyasi cəhətdən mühüm əhəmiyyət kəsb etdi. Azərbaycan və Türkiyə respublikaları arasında neft sahəsində əməkdaşlığa dair sazişin yüksək səviyyədə imzalanması mərasimində çıxış edən Azərbaycan prezidenti Heydər Əliyev ARDNŞ ilə TPAO arasında Xəzərin Azərbaycan sektorundakı yataqların istifadə olunması üçün sazişin imzalanmasını böyük tarixi hadisə adlandırmış, Azərbaycan Respublikasının payına düşən 20%-in 5 faizini əlavə olaraq Türkiyə Respublikasına keçməsinə razılığın iki ölkə arasında dostluq və qardaşlıq əlaqələrinin daha da inkişaf etməsinə yardım edəcəyini bildirmiş, Azərbaycana aid bütün məsələlərin həll olunmasında Türkiyənin çox prinsipial mövqe tutduğunu və Ermənistanın təcavüzünü daim pislədiyini qeyd etmişdir. O, xüsusi olaraq vurğulamışdı ki, Türkiyə vəsaitinin Azərbaycan neftinin hasilatına qoyulması və Türkiyənin bu müqavilədə fəal iştirak etməsi iqtisadi cəhətdən həm Azərbaycan, həm də Türkiyə üçün böyük əhəmiyyətə malikdir. Lakin bunun mənəvi əhəmiyyəti, ölkələrimizin bu günü və gələcəyi üçün, dostluq və qardaşlıq əlaqələrimizin möhkəmlənməsi və inkişafı üçün qiyməti əvəzsizdir ki, bu da imzalanan sazişin əsasını təşkil edir.

Ümumilikdə,

- ✓ 1994-2001-ci illərdə - ARDNŞ ilə 14 ölkənin 32 neft şirkəti arasında 21 müqavilə imzalandı,
- ✓ Həmin müqavilələrlə Azərbaycan iqtisadiyyatına 60 mlrd. dollardan artıq investisiya cəlb olundu.
- ✓ Həmin müqavilələrdə Türkiyə şirkətləri də təmsil olunmuşdur.

Nəticədə, Türkiyənin TPAO şirkəti, Azərbaycanın xarici şirkətlərlə indiyədək imzaladığı 20-dən çox müqavilənin 4-də təmsil olunmuşdur. Bu haqda ümumiləşdirilmiş məlumat aşağıda göstərilmiş cədvəldə də öz əksini tapmışdır.

**TPAO şirkətinin Azərbaycanın neft müqavilələrində iştirakı**

| Sıra №-si | Müqavilə | İmzalandığı tarix | Pay faizi | Ratifikasiya tarixi | Qeyd |
|---|---|---|---|---|---|
| 1 | “Əsrin müqaviləsi” | 20.09.1994 | 6,75 | 12.12.1994 | 12.04.1995-ci ilədək pay faizi 1,75 idi |
| 2 | “Şahdəniz” | 04. 06.1996 | 9 | 17.10.1996 | |
| 3 | “Kürdaşı” | 02.06.1998 | 5 | 30.07.1998 | 30.12.2001-ci ildə ləğv edilib |
| 4 | “Araz, Alov, Şərq” | 21.07.1998 | 10 | 23.03.1999 | |



“Əsrin müqaviləsi” çərçivəsində ilk neftin hasil olunması

Neftin dünya bazarlarına çıxarılması üçün 1996-cı ildə Bakı-Novorossiysk, 1999-cu ildə Bakı-Supsa ixrac neft kəmərlərinin istismara verilməsi, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin inşasına dair sazişin imzalanması ilə neftin ixrac marşrutlarının şaxələndirilməsinə nail olundu. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsi Heydər Əliyevin neft strategiyasının ən böyük uğurlarından biridir.



Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməlinin atılması

Məhz onun qətiyyətli və uzaqgörən siyasəti nəticəsində reallaşan neft strategiyası ölkənin iqtisadi inkişafının qarantına çevrilməklə bu sahədə yeni bir mərhələnin əsasını qoydu. Bakı-Tbilisi-Ceyhan neft kəməri ilə yanaşı, Azərbaycan qazının dünya bazarına ixracının təmin olunması üçün Cənubi Qafqaz Boru kəmərinin inşasına başlanıldı ki, bu faktor da respublikanın öz enerji resurslarından səmərəli istifadəsini, ölkənin ümumi inkişafına xidmət edən və sosial-iqtisadi baxımdan mühüm əhəmiyyət kəsb edən layihələrin reallaşdırılmasını təmin etmək baxımından olduqca vacibdir. Beləliklə, Heydər Əliyevin Azərbaycan dövləti-

nin və xalqının uğurlu gələcəyini təmin edən uzaqgörən neft strategiyası, yaradılan neft-qaz sənayesi iqtisadi həyatın bütün digər sahələrinin harmonik inkişafı baxımından vacib faktor oldu.




Heydər Əliyevin ən böyük uğurlarından biri Azərbaycanın enerji resurslarının dünya bazarına hansı marşrutlarla çıxarılması məsələsi idi. Heydər Əliyev ilk dövrdə Azərbaycanın enerji resurslarının 2 istiqamətdə dünya bazarına çıxarılmasına nail oldu.

1. 1996-cı il fevralın 18-də Moskvada Azərbaycan neftinin Rusiya ərazisindən keçməklə Qara dənizin Novorossiysk limanına nəql olunması haqqında müqavilə imzalanmışdır.

2. Azərbaycanın enerji resurslarının şimal marşrutu bilinəndən sonra, 1996-cı ildə martın 8-də Azərbaycan Prezidenti H. Əliyev və Gürcüstan prezidenti E. ªevardnadze Tiflisdə Bakı-Supsa neft kəmərinin çəkilməsi barədə razılığa gəldilər. ABƏŞ, ARDNŞ və Gürcüstan hökuməti arasında bağlanmış 3 tərəfli müqavilələrdə Azərbaycan "Azəri", "Çıraq", "Günəşli" yataqlardan çıxan ilkin Azərbaycan neftinin daşınmasını Bakı-Supsa neft kəməri vasitəsi ilə nəqlini nəzərdə tuturdu.

1997-ci ilin noyabrında Çıraq-1 platformasından ilkin neftin hasilatına başlanmışdır. Bu neft əvvəlcə Şimal (Bakı-Novorossiysk) xəttinə verilmiş və ilk ixrac 1998-ci ilin martında həyata keçirilmişdir. ABƏŞ hissədarları tərəfindən yeniləşdirilən Qərb (Bakı-Supsa) xətti isə, 1999-cu ilin aprelində istifadəyə verilmişdir. İlkin neftdən TPAO-nun payına ümumilikdə 4.1 mln. barrel neft düşmüşdür və bunun böyük hissəsi Qərb boru kəməri vasitəsilə ixrac edilmişdir

Heydər Əliyevin neft sahəsində ən böyük uğuru Bakı-Tbilisi-Ceyhan layihəsi oldu. Lakin Azərbaycan neftinin nəqli üçün marşrutun seçilməsi o qədər də asan olmadı. Bu məsələdə də müxtəlif dövlətlər neft kəmərinin keçməsi üçün öz ərazilərini təklif etdilər və bununla əlaqədar xeyli sayda variant peyda oldu. Bunları aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Qara dəniz-Aralıq dənizi: Bakı-Novorossiysk (Rusiya).

Anadolu və boğazlardan:

a) Novorossiysk-tanker-boğazları;

b) Novorossiysk-tanker-Samsun-Kırıkkale-Ceyhan;

Trakyadan:

c) Novorossiysk-tanker-İğneada-Saros körfəzi;

Balkanlardan:

d) Novorossiysk-tanker-Burqaz (Bolqarıstan)-Aleksandropolis (Yunanıstan);

e) Novorossiysk-tanker-Burqaz (Bolqarıstan)-Makedoniya-Avloniya (Albaniya)

2. Qara dəniz-Aralıq dənizi: Bakı-Supsa (Gürcüstan).

a) Supsa-tanker-boğazlar;

b) Supsa-tanker-Samsun-Kırıkkale-Ceyhan;

c) Supsa-tanker-İğneada-Saros körfəzi;

3. Aralıq dənizi. Bakı-Ceyhan (Türkiyə)

a) Azərbaycan-Gürcüstan-Türkiyə;

b) Azərbaycan-Ermənistan-Naxçıvan-Türkiyə;

c) Azərbaycan-İran-Naxçıvan-Türkiyə;

d) Azərbaycan-İran-Türkiyə.

İşçi qrupu 1993-cü ilin yanvarında Ankara və Ceyhanda danışıqlar apardı. Bunun ardınca, fevralın ortalarında Bakıda təşkil olunmuş toplantıda marşrutlar, boğazlardan neft daşınması, terminalların xüsusiyyətləri, maliyyə, təşkilat və s. məsələlər qiymətləndirilmişdir. Nəticədə, fevralın sonunda Bakıda imzalanmış protokolla Bakı-Ceyhan xəttinin meteoroloji şərtləri, coğrafi mövqeyi baxımından ən risksiz, ən mümkün xətt olduğu bildirilmişdir. 1993-cü il martın 9-da isə Azərbaycan neftinin Türkiyə ərazisindən Aralıq dənizinə çıxaracaq "Bakı-Ceyhan-xam neft ixrac boru xəttinin ilkin razılaşması" imzalandı.



Heydər Əliyev "Əsrin müqavilə"si ilə neft strategiyasının təməlini qoydu və Bakı-Tbilisi-Ceyhan layihəsi ilə bu uğuru davam etdirdi. Azərbaycanın mənafelərinin uzunmüddətli şəkildə qorunması, genişmiqyaslı beynəlxalq iqtisadi əməkdaşlığın inkişafı, regionda neft hasilatının artması ilə əlaqədar neftin dünya bazarlarına nəqlinin təmin edilməsi məqsədi ilə strateji əhəmiyyətli Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsinin gerçəkləşməsi üçün gərgin işlər həyata keçirilmiş, aparılan danışıqlar uğurla nəticələnmişdir.

1998-ci il oktyabrın 29-da Ankarada Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan və Özbəkistan prezidentləri və ABŞ-ın energetika naziri tərəfindən Bakı-Tbilisi-Ceyhan marşrutu ilə Əsas İxrac Kəmərinin çəkilməsini müdafiə edən Ankara bəyannaməsi imzalanması ilə bu layihənin ilkin razılaşması əldə olunmuşdur. Bütün bunların nəticəsi olaraq, 1999-cu il noyabrın 18-də İstanbulda keçirilən ATƏT-in zirvə toplantısının gedişində Azərbaycan xam neftinin Azərbaycan Respublikası, Gürcüstan Respublikası və Türkiyə Cümhuriyyətinin əraziləri ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsi ilə nəql edilməsinə dair saziş imzalandı. Saziş H. Əliyev, E. Şevardnadze və S. Dəmirəl arasında imzalanmışdır. Bakı-Tbilisi-Ceyhan layihəsini dəstəkləmək, Qazaxıstan və Türkmənistan neftini bu layihəyə cəlb etmək üçün ABŞ-ın şahidliyi ilə Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan və Türkmənistan arasında İstanbul bəyannaməsi imzalandı. Bəyannaməni prezidentlər H. Əliyev, S. Dəmirəl, B. Klinton, E. Şevardnadze, N. Nazarbayev və S. Niyazov imzaladılar. Bu prosesin məntiqi davamı kimi 2002-ci il sentyabrın 18-də Səngəçalda Bakı-Tbilisi-Ceyhan kəmərinin inşasına başlanmışdır. Mərasimdə 3 dövlət başçısı – Azərbaycan Prezidenti H. Əliyev, Gürcüstan Prezidenti E. Şevardnadze, Türkiyə Prezidenti Ə. N. Sezər və ABŞ-ın Xəzər məsələləri üzrə nümayəndəsi S. Menn iştirak etmişdilər.

Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsi münasibətilə 2006-cı il mayın 25-də Səngəçal terminalında təntənəli mərasim keçirilmişdir. Hal-hazırda BTC neft-boru kəməri Ulu Öndərimiz Heydər Əliyevin adını daşıyır. Bu layihənin belə uğuru Azərbaycanın xarici ticarətinə, Azərbaycana qoyulan xarici kapitalın artmasına gətirib çıxardı.



## Nəticə

Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan neft strategiyası Türkiyə-Azərbaycan iqtisadi əlaqələrinin təməlinin qoyulması və yüksələn xətlə inkişafı üçün mühüm əhəmiyyət kəsb etmişdir. Həmin dövrdə aparılan gərgin və çoxtərəfli danışıqlar, imzalanmış müqavilələr və Türkiyənin həmin müqavilələrə cəlb edilməsi hər iki dövlət üçün iqtisadi cəhətdən böyük fayda gətirmiş oldu. Bu layihələr sonradan digər transmilli layihələrin reallaşmasında və iqtisadi inkişafda böyük əhəmiyyətə malik oldu. Əsas ixrac boru xətti olan BTC-nin məhz Türkiyə ərazisindən çəkilməsi isə, nəinki həmin dövr, eyni zamanda indiki dövrün və gələcəyin uzaqgörən addımı idi. Bu layihə strateji əhəmiyyət kəsb etməklə Türkiyə-Azərbaycan iqtisadi əlaqələrinin inkişafında, eyni zamanda gələcək enerji layihələrinin reallaşmasında böyük əhəmiyyət kəsb etdi. Bunun ardınca, digər beynəlxalq əhəmiyyətli layihələrin də əsası qoyuldu və bu sahədə əhəmiyyətli addımlar atıldı. Bunların ən mühümləri aşağıdakılardan ibarətdir:

- TANAP (12.06.2018)
- TAP (17.05.2016)
- Bakı-Tbilisi-Qars (30.10.2017)
- Zəngəzur dəhlizi (26.10.2021)

## The Significance of Heydar Aliyev's Oil Strategy in the Establishment and Development of Turkey-Azerbaıjan Economic Relations

### Summary

**Keywords:** Heydar Aliyev, Turkey, Azerbaijan, economy, oil.

In the first period of independence, the situation in Azerbaijan was more difficult and complicated than in all other subjects of the post-Soviet space.

The Armenian-Azerbaijani Nagorno-Karabakh problem, which started at the same time as the collapse of the USSR, and the economic crisis aggravated the social situation of the people. Mistakes in personnel policy, serious defects in management made the situation even more complicated. The separatist tendencies further increased. All these issues led Armenia to expand its occupation activities. By the end of 1993, the entire Nagorno-Karabakh region of Azerbaijan and seven surrounding regions were occupied by the enemy, and more than one million of our compatriots became refugees from their native lands.

In such a situation, when the country is on the brink of civil war, national leader Heydar Aliyev came to Baku from Nakhchivan and in October 1993, at the insistence of the people, he was elected President of the Republic.

The great leader Heydar Aliyev attached great importance to economic reforms, especially the oil strategy, in the process of building an independent state. After Heydar Aliyev's return to power, serious measures were taken in this area. The foundation of the country's new oil strategy was laid.As the first country in the post-Soviet space to sign a large-scale agreement with Western multinational oil companies, Azerbaijan laid the

foundation for international cooperation in the Caspian Sea. With this, one of the most important steps was taken to connect Azerbaijan to the world economy. In September 1994, an oil contract on the joint development of Caspian oil fields - "Contract of the Century" was signed in Baku.In total, 21 contracts were signed between SOCAR and 32 oil companies from 14 countries in 1994-2001. With those agreements, more than 60 billion dollars of investment was attracted to the economy of Azerbaijan. Turkish company TPAO was also represented in these contracts.

Diversification of oil export routes was achieved with the commissioning of Baku-Novorossiysk export oil pipelines in 1996, Baku-Supsa export pipelines in 1999, and the signing of an agreement on the construction of the Baku-Tbilisi-Ceyhan main export pipeline to export oil to world markets. The Baku-Tbilisi-Ceyhan main export pipeline project is one of the biggest successes of Heydar Aliyev's oil strategy, and the main part of this line passed through the territory of Türkiye was carried out on his initiative. The pipeline has been in use since 2006.

As a result of Heydar Aliyev's decisive and visionary policy, the oil strategy became the guarantor of the country's economic development and laid the foundation for a new stage in this field. In addition to the Baku-Tbilisi-Ceyhan oil pipeline, the construction of the South Caucasus Pipeline was started to ensure the export of Azerbaijani gas to the world market, is very important in terms of ensuring the realization of projects.

Thus, the visionary oil strategy of Heydar Aliyev, which ensured the successful future of the state and people of Azerbaijan, the created oil and gas industry became an important factor in the harmonious development of all other areas of economic life, including Türkiye-Azerbaijan economic relations.

## Ədəbiyyat siyahısı

1. Алиев И. Каспийская нефть Азербайджана. М.: “Известия”, 2003.
2. Azərbaycan” qəz., 1995, 13 aprel
3. Azərbaycan tarixi. 7 cilddə. 7-ci cild. Bakı, Elm, 2003
4. Azərbaycanın iqtisadi inkişafı - Ölkə Tərəfdaşlıq Strategiyası: Azərbaycan, 2014-2018
5. Heydər Əliyev və Şərq. 6 cilddə. III kitab. Türkiyə Cümhuriyyəti. Bakı: 2003.
6. Muradov Ş.M. İnsan potensialı: əsas meyllər, reallıqlar, problemlər. Bakı, Elm, 2004
7. Mustafayev Ş. Müasir Azərbaycanın xilaskarı və qurucusu - http://www.azerbaijan-news.az/index.php?mod=3&id=149163
8. Nəsirov E. Azərbaycan nefti və beynəlxalq müqavilələr (1991-1999). Bakı: 1999.
9. Vəliyev D. Türk dünyası qlobal iqtisadi inkişaf yollarında. Məqalələr toplusu. Bakı, 2015
10. TANAP bereketi - http://www.gazetevatan.com/tanap-bereketi-687107-ekonomi/
11. Türkiyə şirkətlərinin Azərbaycanın enerji layihələrində payı artır-
http://www.bbc.co.uk/azeri/region/2014/05/140530_total_shahdeniz
12. http://www.google.com

**Zenfira Şıxəlibəyli**
AMEA akad. Z. M. Bünyadov adına Şərqşünaslıq İnstitutu,
Asiya-Sakit okean regionu ölkələri şöbəsinin müdiri,
f.ü.f.d.,
zenfira.sh@gmail.com

# AZƏRBAYCAN-ÇİN ƏLAQƏLƏRİNİN FORMALAŞMASINDA HEYDƏR ƏLİYEVİN MÜSTƏSNA ROLU

**Açar sözlər**: Heydər Əliyev, Çin, siyasət, əlaqələr, qarşılıqlı maraqlar

## GİRİŞ

Azərbaycan torpağı böyük şəxsiyyətlər yetişdirmişdir. Onlardan biri də xalqımızın böyük oğlu, Ümummilli lider, siyasi və ictimai fəaliyyəti ilə əsrin tarixi hüdudlarına sığmayan görkəmli şəxsiyyət, Azərbaycan Respublikasının qurucusu Heydər Əlirza oğlu Əliyevdir.

Heydər Əliyev xalqımızın ən ağır günlərində mübarizə sükanını cəsarətlə idarə etməyi bacaran, mücadilə hərəkatını ilhamlandıran irimiqyaslı tarixi şəxsiyyətdir. Müasir Azərbaycanın uğurları məhz onun uzaqgörən siyasətinin bəhrəsidir. Heydər Əliyev özündən sonra hələ uzun illər xalqımızın gələcəyinə işıqlı yollar açmağı bacaran çoxqatlı siyasi miras qoya bilmişdir.

Artıq 30 ilə yaxındır ki, Heydər Əliyevin irsi minlərlə tədqiqat işinin obyektinə çevrilmişdir. Onun bütün fəaliyyəti Azərbaycan xalqının tale yüklü məsələsi ilə sıx bağlı olmuşdur. Atdığı hər bir addım düşünülmüş və uzaq hədəfləri nəzərdə tutan məqsədyönlü strategiyanın bir hissəsi olmuşdur.

Bu gün güclü, müasir yenilməz Azərbaycan Heydər Əliyev siyasətinin məhsuludur.

### 1. Heydər Əliyev və azərbaycançılıq ideologiyası

İki yerə parçalanma nəticəsində uzun illər öz dövlətçilik ənənələrindən kənarlaşdırılan xalqımızın Çar Rusiyasının, eyni zamanda Sovet İmperiyasının çoxillik ruslaşdırma qarşısında məhz öz dilinə, tarixinə, adətlərinə arxalanan milli-mənəvi dəyərləri ilə seçilən etməyi bacaran dayanıqlı milli şüurla çıxış edə bilmişdir. Bu şüur XX əsrin sonlarında yenidən müstəqil olan Azərbaycan xalqının müstəqillik və suverenlik arzularını ifadə edən azərbaycançılıq ideologiyasının təməl daşları idi.

Azərbaycançılıq ideologiyası özündə tarixi situasiyadan, mövcud olduğu mədəni mühitdən, siyasi baxışlarından, sosial və siyasi mövqeyindən, dil və din fərqliliyindən asılı olmayaraq çoxmilyonlu dünya azərbaycanlılarının vəhdət fəlsəfəsidir [9].

İdeologiyanın dərin düşüncə qatlarında azərbaycanlıların tarixi, mədəni, ənənəvi, genetik bağlılığı, torpaq və dövlətçilik hissiyyatı, onu nəsillərə ötürmək ehtirası ilə formalaşan ümumi gələcəyin təşkili və yenidənqurulması, fərdi maraqların ümumi maraqlarla vəhdəti

kimi milli coğqu birləşdirir. Məhz bu coşqu həm XX əsrin əvvəllərində, həm də sonlarında xalqımızı düşmənlərə qarşı mübarizəyə səsləmiş, dövlətçilik ənənələrimizin bərpasına sövq etmişdir. Heydər Əliyev bu ideyanı sistemli şəkildə işləmiş, onun ideoloji konstruksiyasını hazırlamış və xalqımızın əsrlərin çağırışlarına cavab verə biləcək dayanıqlı millət olması konsepsiyasını hazırlaya bilmişdi.

Məlumdur ki, 200 il ərzində Azərbaycan xalqının yaşadığı ən dəhşətli faciələr ölkəmizin ərazi bütövlüyünə xaincəsinə yanaşan erməni millətçiləri tərəfindən törədilmişdir. Təkcə XXI əsrin əvvəllərində "parçala hökm sür" kimi imperial maraqlara xidmət edən siyasətin bir hissəsi kimi ermənilər tərəfindən milliyyətindən və dinindən asılı olmayaraq, qoca, qadın, uşaq, körpə nəzərə alınmadan on minlərlə dinc azərbaycanlının vəhşicəsinə qətlə yetirilməsi, yüzlərlə kəndin viran qoyulması xalqın yaddaşında sağalmaz yaraya çevrilmişdir [1, 114]. Bu qırğınların günümüzə çatan ən bariz nümunəsi Qubada aşkar edilmiş kütləvi məzarlığı göstərmək olar. Quba qırğınlarında ermənilər əllərini müsəlmanlarla yanaşı minlərlə yəhudi qanına da boyamışdılar. Bu cür antihumanist və faciəvi hadisələr heç kəsin yaddaşından silinmir. Təsadüfi deyil ki, yaşanan faciələr vətəndaşlarımızı ümumi amallar uğrunda mübarizədə vahid olmağa şövq edə bilmişdir. Bu baxımdan azərbaycançılıq ideologiyasının torpaqlarımızın azadlığı uğrunda mübarizədə müstəsna rolu danılmazdır. Belə ki, məhz bu ideologiya ərazimizə qəsd etmiş təcavüzkarların planlarını 44 gün ərzində puç edə bilmiş, işğal olmuş Qarabağın və digər bölgələrin azad olunmasında xalqın birliyini mübarizənin onurğa sütununa çevirə bilmişdir.

**2. Azərbaycan-Çin əlaqələrin qurulmasında Heydər Əliyevin rolu**

Bu gün Müasir Dünya Nizamının yenidənqurulmasında əksər ölkələr üçün ciddi rəqibə çevrilən, dünyanın aparıcı dövlətləri sırasında yer tuta bilmiş Çinin tənəzzüldən yüksəlişə aparan tarixi təcrübəsi bir çoxu üçün nümunə hesab edilə bilər. XIX-XX əsrlərdə xarici müdaxilənin və ziddiyyətli daxili siyasi proseslərin nəticəsində əzəli qüdrətini itirsə də, çin xalqı dövrün tələblərinə uyğun rasional çıxış yolu axtarmış, ABŞ, Böyük Britaniya, Fransa, Yaponiya və Rusiyanın yüzillikləri əhatə edən güclü təzyiqlərinə rəğmən, öz vahidliyini qoruya bilmişdir. Çox çəkmədi ki, XX əsrin sonlarına yaxın Asiya ölkələri öz inkişaf yolu ilə dünyanın idarəsini öz əllərində cəmləşdirməyi bacaran ABŞ və nüfuzlu Avropa ölkələrini sözün həqiqi mənasında təəccübləndirə bildilər. Elmi Texniki Tərəqqi, Qloballaşma və İnformasiya dalğası Asiyada Yaponiya ilə bərabər Cənubi Koreya, Sinqapur, Malayziya, Çin kimi yeni iqtisadi rəqiblərindən nəhəng maliyyə dəstəyi qazanan bu ölkələr tez bir zamanda dünya iqtisadiyyatının sənaye emalatxanasına çevrilə bildilər.

Sovet İmperiyasının dağılması Uzaq Şərqdə, tezliklə isə bütövlükdə Asiyada Çinə geniş imkanlar yaratdı. Məlumdur ki, Sovetlər ölkəsinin dağılmasını ayrıca bir rəğbətlə qarşılayan Çin Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən biri olmuşdur. Bu baxımdan, ölkələrimiz arasında əməkdaşlıq müstəqilliyimizin ilk illərindən mümkün olmuşdu. Bu gün Çində Azərbaycan etibarlı tərəfdaşa çevrilmiş, təkcə iqtisadi və mədəni sahələrdə deyil, həm də beynəlxalq siyasətdə bir-birinə dəstək ölkə kimi çıxış edir.

Bu cür sıx, eyni zamanda geniş diplomatik və siyasi münasibətlərin formalaşması uzaqgörən siyasətin nəticəsi hesab edilə bilərdi.

Bu mənada, Çin Xalq Respublikası ilə Azərbaycan Respublikası arasında ümumi siyasi cizgilərin formalaşdırması məsələlərinin araşdırılması maraq doğurmaya bilməz.

1991-ci ilin oktyabr ayının 18-də dövlət müstəqilliyinin bərpasını elan edən Azərbaycan Respublikası artıq həmin gün ilin 27 dekabrında Çin Xalq Respublikası tərəfindən müstəqil dövlət kimi tanındı. Ölkəmizdə ilk səfirliklərdən biri də 1992-ci ilin əvvəllərində açılmış Çin Xalq Respublikasının rəsmi diplomatik nümayəndəliyi idi. Çin bu addımı ilə həm də coğrafi baxımdan elə də yaxın olmayan Azərbaycanlıya geniş əməkdaşlıq planlarının olmasını nümayiş etdirmiş oldu. Yeni yaranmış respublikamız üçün isə onun müstəqilliyini tanıyan böyük dövlət kimi BMT təhlükəsizlik Şurasının 5 daimi üzvündən biri olan ÇXR, xarici siyasətdə bir nüfuz rəmzi hesab oluna bilərdi.

Azərbaycan arasında əməli əməkdaşlığın başlanması Heydər Əliyevin prezident seçilməsindən sonra baş tutdu. **Azərbaycanın ümummilli lideri Heydər Əliyev ölkənin Çinlə münasibətlərinin qurulmasını diplomatiyamızın vacib məsələlərindən biri hesab edirdi.** Belə ki, Çin iqtisadiyyatının yeni platforması və Sovet imperiyasının dağılması nəticəsində əlverişli siyasi situasiyanın yaranması bu ölkənin siyasi və iqtisadi imkanlarını Azərbaycan üçün daha əlverişli edirdi. Regionunda liderə çevrilməkdə olan ÇXR-lə mehriban münasibətlərin qurulması kəskin iqtisadi və siyasi böhranla mübarizə aparmaqda olan müstəqilliyini yenicə əldə etmiş ölkəmiz üçün vacib məsələ idi. Digər bir tərəfdən isə Çin BMT Təhlükəsizlik Şurasında daimi üzvlərdən biri kimi beynəlxalq məsələlərə təsir imkanlarına malik olduğundan, ərazimizin 20 faizini işğal etmiş Ermənistan və onların havadarları ilə mübarizədə strateji əməkdaş ola bilərdi. Bu baxımdan, dərin təcrübəyə və siyasi sayıqlığa malik ümummilli liderimiz Heydər Əliyevin xarici siyasi kursunda ÇXR-la münasibətlərin qurulması və inkişaf etdirilməsi prioritet məsələlərdən birinə çevrilmişdi. Heydər Əliyev dəfələrlə qeyd edirdi ki, Azərbaycan dövlətinin müstəqilliyini təmin edən vacib prinsiplərdən biri onun xarici siyasətidir. Azərbaycan Respublikasının elə bir xarici siyasəti olmalıdır ki, onu bütün dövlətlərlə əlaqələrin daha da möhkəmləndirsin.

Uzaqgörən siyasətçi, təcrübəli dövlət rəhbəri Heydər Əliyev anlayırdı ki, siyasi arenada uğur qazanmağın yolu iqtisadi və maliyyə maraqlarından keçməmiş deyil. Bu baxımdan, Azərbaycanı beynəlxalq aləmin gərəkli subyektinə çevirmək üçün ilk növbədə ölkənin iqtisadi potensialını digər dövlətlərin maliyyə maraqlarına yönəltmək və siyasi-iqtisadi dividentlər əldə etmək lazımdır.

Azərbaycan öz geosiyasi mövqeyinə görə Avropa, Qara dəniz, Qafqaz, Xəzər və Mərkəzi Asiya ticarət yollarının kəsiyində yerləşir. Ağıllı siyasət bu cür imkanları regionun iqtisadi inkişafına çevirə bilərdi ki, onu da Azərbaycan bacardı [8; 67].

Heydər Əliyev prezidentliyi dövründə müstəqil Azərbaycan Respublikası Çin Xalq Respublikası ilə sistemli siyasi və iqtisadi əlaqələrin təməlini qoya bildi. Məhz onun dövründə, tarixi nöqteyi-nəzərdən Çinlə Azərbaycan arasında diplomatik münasibətlər

sürətli xətlə inkişaf etdi. Təsadüfi deyil ki, Heydər Əliyevin xarici dövlətlərə etdiyi ilk səfərdən biri məhz ÇXR-na olmuşdu. 1994-cü ildə Çinə olan həmin səfər zamanı iki ölkə arasında əməli münasibətlərin başlanğıcı qoyuldu. Yüksək səviyyədə baş tutan görüşdə Heydər Əliyev ÇXR Sədri Trsyan Tszemin, Baş naziri Li Pen ilə rəsmi görüşlər keçirərək, hər iki ölkə üçün əhəmiyyətli sənədlərin imzalanmasına nail olmuşdur [2].

Çinin Azərbaycanla olan maraqları ölkə rəhbərlərinin daim diqqətində olmuşdu. İlk dövrlərdə qarşılıqlı nümayəndə mübadiləsi bunu bir daha sübut edirdi.

1996-cı ildə ÇXR Baş nazirinin müavini Tsyan Tsçen, 1997-ci ildə Çin Xalq Nümayəndələri Məclisinin Sədr Müavini Van Bintsyanın başçılığı ilə nümayəndə heyəti Azərbaycanda səfərdə olması və ölkə rəhbərliyi tərəfindən mehribancasına qəbul edilməsi, 2000-ci ildə ÇXR lideri Li Penin Azərbaycana səfəri də bu istiqamətdə atılmış mühüm addımlar hesab oluna bilərdi [3; 1].

XX əsrin sonlarına doğru xarici siyasi prioritetlərini yenidən formalaşdıran Çin öz xalqının iqtisadi rifahını beynəlxalq münasibətlərinin əsas hədəfinə çevirə bildi. Bu baxımdan, ÇXR-nın rəhbərləri əməkdaşlıq üçün yararlı olan bütün imkanlardan istifadə etməkdən çəkinmirdi. Belə bir imkanlardan biri də, Asiya ilə Avropanı birləşdirən və çoxlu sayda ölkəni özündə birləşdirməklə geniş əhatə spektrinə malik olan Böyük İpək Yolunun bərpası layihəsi oldu. İdeyanın perspektivləri mərhum Prezident Heydər Əliyev tərəfindən də yüksək dəyərləndirildi. Böyük İpək Yolunun bərpası təkcə nəhəng iqtisadi layihə deyildi. Bu həm də layihəyə qoşulan ölkələr arasında mehriban qonşuluq, əməkdaşlıq və stabil siyasi münasibətlərinin qurulması demək idi. Bu baxımdan, Çinin bu yolu bərpa etmək təşəbbüsü Ümummilli lider Heydər Əliyev tərəfindən düzgün qiymətləndirilmiş və Azərbaycanı bu təşəbbüsün fəal tərəfdaşı edə bilmişdi. Bu baxımdan, 1998-ci ildə Bakıda Böyük İpək Yolunun bərpası üzrə TRASEKA proqramı çərçivəsində Avropa və Asiya dövlət başçılarının zirvə görüşünə həsr olunmuş konfransın keçirilməsi də məhz Heydər Əliyevin səyi nəticəsində baş tutmuşdur. Bu konfrans iki ölkə arasında münasibətlərin daha da istiləşməsinə böyük təsir etmişdi.

Məhz bu konfransdan sonra Çinlə Azərbaycan arasında iqtisadi əməkdaşlığın, mədəni, humanitar və siyasi əməkdaşlıq çərçivəsinə qədər yüksəlməsi prosesi sürətləndi. Bu illər ərzində iki ölkə arasında Ticarət-İqtisadi Əməkdaşlıq haqqında, Xidməti səfərlər, turist səfərləri zamanı vizaların alınması haqqında, investisiyalar, kinematoqrafiya, radio və televiziya sahəsində, turizm sahəsində, səhiyyə, mədəni əməkdaşlıq sahəsinə, elmi texniki sahədə, Dövlət krediti, Texniki əməkdaşlıq, qarşılıqlı vergi tutma, gömrük sahəsində, ədliyyə və hökümətlərarası əməkdaşlıq sahəsində müxtəlif səpkili razılaşmalar imzalanmışdır [4].

XXI əsrin əvvəllərində Çin Xəzər hövzəsinə olan marağı daha güclü idi. Bu yenə Xəzərsahili ölkələrin zəngin neft yataqları ilə bağlı idi. Lakin Azərbaycan neftin təkcə satışı ilə deyil, həm də onun səmərəli yollarla çatdırılması imkanlarının genişləndirilməsi ideyaları ilə daha maraqlı görünürdü. Belə ki, nəhəng nəqliyyat infrastrukturunun yaradılması regionun gələcək perspektivlərini artıra bilərdi. Bu baxımdan, zəngin neft ehtiyatlarına malik

olan Xəzəryanı ölkələr, xüsusilə də strateji nəqliyyat dəhlizinə çevrilməkdə olan Azərbaycan Çin liderlərinin diqqətini çəkə bilmişdi. Çinin maliyyə dəstəyi Azərbaycan üçün əlverişli investisiya mənbəyi idi.

Bakı-Tiflis-Qars dəmir yolu xətti uğurlu layihələrdən biri hesab oluna bilər. Bu yol Çinin Azərbaycanla iqtisadi və siyasi əməkdaşlığını daha da artırmış, davamlı münasibətlərin təməlini qoymuşdur. TRASEKA çərçivəsində reallaşan Şərq-Qərb nəqliyyat dəhlizi Çin üçün daha cəlbedici yatırım məkanına çevrildi. Məhz bu dəhliz bu gün Çin və Orta Asiya məhsullarının ən qısa zamanda Qərbi Avropa ölkələrinə yetişdirmək potensialına malikdir. Bu yol müxtəlif nəqliyyat sahələri arasındakı əlaqələrin koordinasiyasına, yük və sərnişin daşımalarının tariflərinə, çox modallı daşımaların təşkil olunması istiqamətində baş verən dəyişikliklərə təsir etmə qabiliyyətinə malikdir. Beləliklə, Çinin Azərbaycan üzərindən həyata keçirdiyi səmərəli iqtisadi layihələr iki ölkənin siyasi əməkdaşlığına böyük təsir göstərmişdir.

Bakı-Tiflis-Qars dəmir yolu həm də gələcək layihələr üçün geniş imkanlar aça bildi. Bir vaxtlar xəyallarda dolaşan ideyalar reallaşmağa başladı. Bakı-Tiflis-Qars dəmir yolu layihəsi "Orta dəhliz" vasitəsi ilə 12-15 günə Çin yüklərini Avropa ölkələrinə çatmaq iqtidarına malikdir. Çin 17 milyon ton yükdaşıma çəkisinə malik bu layihə üzrə özünün iri həcmli yüklərinin Avropada daşınmasını həyata keçirir [5;6]. Belə ki, bu gün Çindən Avropaya gedən yükün həcmi 280 milyon tondan çox qiymətləndirilir. Bu mənada bu gün Bakı-Tiflis-Qars dəmir yolu şərti olaraq Çin-Avropa nəqliyyat dəhlizinə çevrilməkdədir. Təsadüfi deyil ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Bakı-Tiflis-Qars dəmir yolunun perspektivliyini dəyərləndirərkən bildirmişdir ki, bu yol "Orta dəhliz" layihəsinin ən önəmli məsələsi olmuşdur və Londondan Çinə birbaşa dəmir yolu xətti qurulur [6].

Heydər Əliyevin səyi nəticəsində Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası dost ölkələrə çevrilə bildi: "Həmin vaxtdan bizim əlaqələrimiz çox uğurla inkişaf edir". Bu sözlər Azərbaycan Prezidenti İlham Əliyevin Azərbaycan-Çin münasibətləri haqqında verdiyi müsahibələrdən birində deyilmişdir. Bu illər ərzində hər iki ölkə rəhbərləri öz ölkələri arasında siyasi, iqtisadi, mədəni sahələrdə strateji əhəmiyyətli çoxşaxəli münasibətlər formalaşdıra bilmişlər. Bu baxımdan, Heydər Əliyevin Çin-Azərbaycan münasibətlərinin formalaşmasındakı rolu əvəzolunmazdır.

## Nəticə

Azərbaycan xalqının suverenliyi yolunda uğurlu inkişaf modellərinin axtarılmasında və reallaşmasında müstəsna şəxsiyyət olan Ulu öndər Heydər Əliyevin uğurlu siyasi addımları ilə hələ uzun müddət elm və siyasi auditoriyanın marağında olacaqdır.

Azərbaycan-Çin münasibətlərinin təməl prinsipləri hələ müstəqilliyimizin ilk illərində Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuşdur.

Müasir dövrdə Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında mövcud münasibətlər hər iki tərəfdən eyni mövqedən çıxış etməsi ilə özünü göstərir və münasibətlərin perspektivləri hər iki ölkənin iqtisadi maraqları və siyasi hədəfləri ilə izah olunur.

**Heydar Aliyev’s Exceptional Role in the Formation of Relations Between Azerbaijan and China**

**Summary**

**Keywords:** Heydar Aliyev, Azerbaijan, China, policy, mutual interest

Heydar Aliyev is an outstanding personality who played an important role in the history of Azerbaijan. The legacy of the national leader has become the object of close study of many scientific studies. He considered the establishment of diplomatic relations with the People`s Republic of China one of the priorities of Azerbaijan diplomacy.

**Ədəbiyyat siyahısı**

1. Abışov V. Azərbaycanlıların soyqırımı (1917-18-ci illər, Bakı, “Nurlan”, 2007, 163 s. (114).

2. Azərbaycan-Çin dostluq sərhədləri aşır: Azərbaycan-Çin diplomatik əlaqələr qurulmasının 10 ili. Heydər Əliyevin Çin xalq Respublikasına rəsmi səfəri (6-11 mart 1994-cü il) – Çin xalq Respublikasının Azərbaycandakı səfirliyi, 2000, 180 s.

3. Çin-Azərbaycan münasibətləri inkişaf edir (ÜXN MDK) sədri Li Penlə Arif Rəhimzadənin görüşü//Azərbaycan, 2000, 07 yanvar, s. 1.

4. Ömərov V.//httpş://şeşqazeti.az/news/kivdf/337500, html, 5 mart 2013, 17:39/22 070

5. Cəfərov E. “İlham Əliyev Avropanın enerji siyasətini müəyyənləşdirir”// “Azərbaycan” qəzeti, 14 iyun 2018, s. 6.

6. Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu “Orta Dəhliz” adlana bilər. Azərtac, 16.06.2017.

7. Məmmədov Ş. Azərbaycan-Çin münasibətləri yeni mərhələyə qədəm qoyur. “Xalq” qəzeti, http.//xalqqazeti.com./az/news/21413

8. Şıxəlibəyli Z. Ə. Bakı-Tiflis-Qars Azərbaycandan keçməklə Çindən Avropaya-dək.//Azərbaycan Şərqşünaslığı, № 01 (20), 2021.

9. Şıxəlibəyli Z. Ə. “Heydər Əliyevin azərbaycançılıq ideologiyası və xalqımızın vəhdətlik məsələsi”, – Gənc alimlərin V Beynəlxalq Elmi Konfransı, Bakı Mühəndislik Universiteti, 29-30 aprel, Bakı, s. 432-437.

**Gülər Qafqazlı**
AMEA akad. Z. M. Bünyadov adına Şərqşünaslıq İnstitutu,
Ərəb ölkələrinin tarixi və iqtisadiyyatı şöbəsinin
aparıcı elmi işçisi, t.ü.f.d.

# AZƏRBAYCAN VƏ SƏUDİYYƏ ƏRƏBİSTANI ƏLAQƏLƏRİNİN QURULMASINDA HEYDƏR ƏLİYEVİN ROLU

**Açar sözlər:** Azərbaycan, Heydər Əliyev, Səudiyyə ərəbistanı, diplomatiya, beynəlxalq münasibətlər

Azərbaycan Şərqin ayrılmaz bir parçası olmuş və eyni zamanda uzun illərdən bəri "Şərqin qapısı" hesab edilmişdir. Belə ki, islam dininin meydana gəlməsi ilə orta əsrlər tarixində yeni bir mərhələnin başlanması, yeni proseslərin tüğyan etdiyi, yeni bir sivilizasiyanın meydana gəldiyi bir dövr başlamışdır. Həmin dövrdə bir çox dövlətlər öz müstəqilliklərini itirərək vahid bir dövlətin – Ərəb xilafətinin tərkibinə daxil olmuşlar. Azərbaycan ərazisi də Ərəb xilafətinin tərkibinə daxil olan yeni regionlardan biri olmuşdur. Bu müddət ərzində Azərbaycan və Ərəb xilafətinin mərkəzi şəhərlərindən biri sayılan, dinin əmələ gəldiyi müqəddəs Məkkə və Mədinə şəhərləri ilə əlaqələr qurmuş və getdikcə inkişaf etdirmişdir. Həmin əlaqələrin nəticəsində Azərbaycandan indiki Səudiyyə Ərəbistanının ərazisinə yüzlərlə, minlərlə insan elm öyrənməyə getmiş, bəziləri elm ocaqlarında təhsil aldıqdan sonra həmin şəhərdə yaşamağa davam etmiş, bəziləri kitabxanalara üz tutmuş, ticarət əlaqələri yaratmış, müqəddəs yerlərə ziyarət və s. məqsədlər ilə getmişdir.

Dünyanın üç qitəsini əhatə edən Ərəb xilafətinin dağılmasından sonra öz əhəmiyyətini itirməyən və illərlə bir çoxlarının can atdığı Səudiyyə Ərəbistanı günümüzədək öz nüfuzunu itirməmişdir. Belə ki, Səudiyyə Ərəbistanı aparıcı dünya dinlərinin – yəhudilik, xristianlıq və islamın yarandığı coğrafi məkan, ilk icma birliklərinin əmələ gəldiyi yer, fərqli iqlim xüsusiyyətlərinə və zəngin təbii sərvətlərə malik bir ərazi, bütün dünya birliyi üçün siyasi, geostrateji və iqtisadi əhəmiyyət kəsb edən bir regiondur.

Məlumdur ki, keçmiş Sovet İttifaqı dönəmində Azərbaycan ərazisində insanlara dini mərasimlərin keçirilməsi, dinlə bağlı tədbirlərin təşkil olunması, dini bayramların qeyd olunması, müqəddəs məkanlara ziyarət qadağan edilsə də dövlətimiz müstəqilliyini bir daha qazandığı gündən bəri öz milli və mənəvi maraqlarını yenidən bərpasına müyəssər olmuşdur. Eyni zamanda müstəqil Azərbaycan Respublikasının qarşısında ilk növbədə Yaxın və Orta Şərqlə tarixi bağlılığını, etnik, dini, mədəni və iqtisadi əlaqələrin yenidən bərpası olduqca əhəmiyyətli idi. Gələcək Azərbaycan dövlətçiliyi və onun Şərq siyasəti üçün çox mühüm olan bu missiya Azərbaycan Respublikasının sabiq prezidenti Heydər Əliyevin çiyninə düşmüşdür[1]. Onun rəhbərliyi və birbaşa iştirakı ilə Azərbaycan Respublikası Şərq ölkələri,

[1]İordaniyalı akademik: Heydər Əliyevin 100 illik yubileyi ərəb dünyası üçün də əlamətdar hadisə olacaq

ilk növbədə isə Müsəlman Şərqi ilə sıx münasibətlər qurmağa, İslam Konfransı Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı kimi əsasən islam dövlətlərini birləşdirən beynəlxalq təşkilatların bərabərhüquqlu üzvləri arasında yer almağa və onların fəaliyyətində yaxından iştirak etməyə başlamışdır. Azərbaycan liderinin uzun illərdən bəri formalaşan siyasi təcrübəsi, müdrikliyi və uzaqgörənliyi Şərq ölkələrində xüsusi ilə yaxşı anlaşılır və yüksək qiymətləndirilirdi[2].

Səudiyyə Ərəbistanı Azərbaycan Respublikasının müstəqilliyini 30 dekabr 1991-ci ildə tanısa da Azərbaycan Respublikası ilə diplomatik əlaqələr 24 fevral 1992-ci ildə yaradılmışdır. Ümummilli lider Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Şərq ölkələri arasında Türkiyə və İran İslam Respublikasından sonra ərəb ölkələri ilə əlaqələrin qurulmasına böyük diqqət yetirmişdir. Məhz bu baxımdan ərəb ölkələri arasında sabiq prezidentin ilk səfər etdiyi ölkə Səudiyyə Ərəbistanı olmuşdur.

H. Əliyev Səudiyyə Ərəbistanına yola düşərkən Binə hava limanında uçuşdan öncə müxbirlər qarşısında çıxış etmiş və onların suallarını ətraflı cavablandırmışdır. Həmin çıxışında sabiq prezident gedəcəyi ölkə haqqında bu  fikirləri səsləndirmişdir: "Dünya dövlətləri birliyində Səudiyyə Ərəbistanının özünə layiq yeri var. O ərəb dünyasının inkişaf etmiş zəngin bir ölkəsidir. Eyni zamanda bu dövlət dünya müsəlmanlarının müqəddəs yerlərinin mühafizidir. Ona görə də bu ölkə ilə Azərbaycan arasında əlaqələr yaradılmalıdır. İndiyədək Səudiyyə Ərəbistanı ilə Azərbaycan arasında, demək olar, heç bir əlaqə olmamışdır. Azərbaycan müstəqillik qazandıqdan sonra bu sahədə müəyyən cəhdlər olsa da, bunlar bir nəticə verməmişdir. Ancaq bu ölkə dünya birliyində böyük nüfuza malik olduğuna görə, dini birliyimizi, tarixi ənənəmizin oxşarlığını nəzərə alaraq, mən Səudiyyə Ərəbistanı məlikinin rəsmi dəvətini qəbul etmişəm və indi səfərə gedirəm. Güman edirəm ki, bu səfər yaxşı nəticələr verəcəkdir. Ən böyük nəticə kimi onu gözləyirəm ki, bizim müntəzəm əməkdaşlığımız üçün imkanlar yaranacaqdır...

Mən bu səfərə böyük məmnuniyyətlə gedirəm. Səudiyyə Ərəbistanı məni həm bir ölkə kimi maraqlandırır, həm də müsəlmanların müqəddəs yeri kimi oraya ziyarət edəcəyimi çox böyük həyəcanla gözləyirəm... "[3]. Müsahibəsini bitirdikdən sonra Azərbaycan liderinin səfəri başlamışdır.

Ümummilli lider Səudiyyə Ərəbistanına qədəm qoyduqdan sonra ilk getdiyi yer sözsüz ki, bütün dünya müsəlmanlarının müqəddəs məkanı sayılan Məkkə şəhəri olmuşdur. Bu səfər eyni zamanda həm ölkə daxilində, həm də ölkə xaricində böyük marağa səbəb olmuşdur. Belə ki, islam dininə olan 70 illik münasibətə son qoyulmuş, ümumilikdə isə

---

https://azertag.az/xeber/Iordaniyali_akademik_Heyder_Aliyevin_100_illik_yubileyi_ereb_dunyasi_uchun_de_elametdar_hadise_olacaq-2378359

[2] العالم العربي و الاسلامي في فكر حيدر علييف
https://ednews.net/ar/news/analytical-wing/567071

[3]Azərbaycan və Yaxın, Orta Şərq dövlətləri (Səudiyyə Ərəbistanı Krallığı, Suriya Ərəb Respublikası) https://sesqazeti.az//news/mia/338526.html

səfər MDB dövlətlərinin gələcək istiqamətlərini müəyyənləşdirmişdir[4]. Azərbaycan Respublikasının sabiq prezidenti isə xarici siyasətində qonşu dövlətlərlə əlaqələr qurmaq çərçivəsindən kənara çıxaraq hər cəhətdən bizə yaxın və doğma olan [a]ərqə yönəlmiş, “islama qayıdış” ruhunu yenidən dirçəltmiş, mənəvi dəyərlərimizin bərpası istiqamətində lazımi addımlar atmışdır.

H. Əliyev Məkkə şəhərində ilk ümrə ziyarətini baş vurduqdan sonra İki Müqəddəs Ocağın xadimi Kral Fəhd, İslam Konfransı Təşkilatı (indiki İslam Əməkdaşlıq Təşkilatı), İslam İnkişaf Bankı, islam aləmi liqasının rəhbərləri və s. rəsmi şəxslər ilə görüşmüş və danışıqlar aparmışdır. Həmin görüşlərlə yanaşı sabiq prezidentin müsahibələri də KİV ilə bir çox ölkələrə yayımlanmışdır. Qeyd edək ki, H. Əliyevin 11 iyul 1994-cü il Ciddə şəhərində verdiyi müsahibəsi olduqca səciyyəvi xarakterə malikdir. O, sözügedən müsahibəsini məhz bu cümlələrlə başlamışdır: “Mən Səudiyyə Ərəbistanında iki müqəddəs şəhərin xadimi, əziz dostum və qardaşım, məlik Fəhd ibn Əbdül Əziz əl-Səudun dəvəti ilə rəsmi səfərdəyəm. Bu səfər müstəqil Azərbaycan Respublikası üçün çox mənalı və əhəmiyyətlidir. Ona görə əhəmiyyətlidir ki, müstəqil Azərbaycan Respublikasının prezidenti kimi mən ərəb ölkələrindən ilk dəfə Səudiyyə Ərəbistanına gəlmişəm. Səudiyyə Ərəbistanı ərəb dünyasında, islam aləmində çox görkəmli yer tutur. Ona görə də mənim ilk səfərimin buraya olması təsadüfi deyildir. Səudiyyə Ərəbistanı məlikinin, iki müqəddəs şəhərin xadiminin məni buraya rəsmi səfərə dəvət etməsi mənim üçün çox əziz və qiymətlidir...”[5]. Daha sonra ümummilli lider Kəbədə ilk dəfə namaz qılması, ilk dəfə olaraq Kəbə daşına toxunması ilə yaşadığı hiss və təəssüratlarını bölüşmüşdür.

Yeri gəlmişkən onu da qeyd etmək lazımdır ki, hər iki müqəddəs [o]əhərin xadimi, kral Fəhd ibn Əbdül Əziz əl-Səud da öz növbəsində Azərbaycan Respublikası ilə yaxından maraqlanmış, həmin dövrdə ölkədə baş verən Qarabağ məsələsi barədə məlumatları dinləmiş, hər iki ölkə arasında əlaqələrin perspektivləri haqqında çox saatlıq danışıqlardan sonra ümum fikir əldə etmiş, digər məsələlər barədə müzakirələr aparmış, hər iki ölkə arasında dostluq, qardaşlıq əlaqələrinin yaranması və inkişafı üçün bu görüşün böyük əhəmiyyətli olmasından söz açmışdır. Məlik Fəhd ibn Əbdül Əziz əl-Səud hər iki ölkə arasında əlaqələrin inkişafı məqsədi ilə sabiq prezidentimizin Səudiyyə Ərəbistanının Sənaye-Ticarət Palatasının üzvləri, İslam İnkişaf Bankının, İslam Rabitə Təşkilatının rəhbərləri, ölkənin iş adamları ilə görüşməsinə şərait yaratmışdır[6].

Səudiyyə Ərəbistanında H. Əliyevin silsilə görüşlərinin ardınca eyni zamanda hər iki ölkənin Xarici İşlər Nazirliyi arasında Baş saziş imzalanmışdır. Həmin saziş hər iki dövlət

---

[4]حيدر علييف و العالم الاسلامي
https://www.alriyadh.com/1592500
[5]Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Səudiyyə Ərəbistanının Ciddə şəhərində mətbuat konfransında bəyanatı – 11 iyul 1994-cü il
https://lib.aliyevheritage.org/az/1390138.html
[6]Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Səudiyyə Ərəbistanının Ciddə şəhərində mətbuat konfransında bəyanatı – 11 iyul 1994-cü il
https://lib.aliyevheritage.org/az/1390138.html

arasında iqtisadi, elmi-texniki, mədəni, turizm və digər sahələri əhatə edən sənəd idi. Məhz, bu sənədin nəticəsində hər iki ölkə arasında müxtəlif sahələrdə əlaqələrin qurulmasının ilk addımı atılmış və həmin andan etibarən inkişaf etdirilməyə başlanmışdır[7].

Bununla yanaşı H. Əliyev iki yüz il ərzində Rusiyanın, sonra isə Sovet İttifaqının tərkibində yemiş il kommunist ideologiyası ilə sosialist sistemində yaşamış Azərbaycan xalqının yenicə milli azadlığına qovuşması zamanı bir çox sosial-iqtisadi böhranla qarşılaşmasını bildirmişdir. Bunun əsas səbəblərindən biri kimi altı il ərazində qonşu Ermənistan Respublikasının Azərbaycanın doğma torpağına hərbi təcavüzü, ərazi bütövlüyünü qanunsuz şəkildə pozması və ermənilərin azərbaycanlılara qarşı törətdikləri bir çox əməlləri açıqlamışdır. O, ermənilərin Azərbaycan ərazisinə və xalqına qarşı qanunsuz şəkildə təcavüzünü pisləmiş, bu barədə Səudiyyə Ərəbistanına kifayət qədər məlumatın verilməməsini, bəzi dünya ictimaiyyətinin bu məsələyə obyektiv yanaşmamasını qeyd etmişdir.

Ümummilli lider eyni zamanda ermənilərin təcavüzünün əsas məqsədlərindən biri kimi Azərbaycanın yeraltı və yerüstü sərvətlərlə zəngin olmasını göstərmişdir. Azərbaycanın ən başlıca sərvəti - yüz əlli illik tarixə malik neftdir, lakin bundan əlavə Azərbaycanın Qarabağ ərazisi yeraltı qızıl yataqlarının və digər qiymətli metalların məkanıdır. Məlumdur ki, Azərbaycanın inkişaf etmiş sənayesi, kənd təsərrüfatı məhsulları istehsalı üçün geniş imkanları, böyük elm mərkəzləri, tanınmış alimləri, çoxlu universitetləri də vardır və bu haqda H. Əliyev Səudiyyə Ərəbistanında geniş müsahibə vermişdir.

Həmin müsahibəsində H. Əliyev ermənilərin təcavüzü nəticəsində Azərbaycan əhalisinin bir milyonunun öz ata-baba yurdlarından didərgin düşərək qaçqın və məcburi köçkün vəziyyətində yaşamasını da xüsusilə qeyd etmişdir. Azərbaycanda yaşayan həmin qaçqınlara dünyanın bir çox ölkələrindən, o cümlədən Səudiyyə Ərəbistanı rəhbərinin, iki müqəddəs şəhərin xadiminin göstərişinə əsasən iki böyük təyyarə ilə humanitar yardım göndərilməsini, Beynəlxalq İslam "Nicat" Təşkilatının Bərdə rayonunda on min nəfər, Sumqayıtda sığınacaq tapan üç min qaçqını öz himayəsinə götürməsini açıqlamışdır[8].

H. Əliyevin Səudiyyə Ərəbistanına səfəri zamanı çox maraqlı məqamlardan biri də odur ki, Kəbə evini ziyarət edərkən Səudiyyə Ərəbistanının Həcc naziri sabiq prezidentə Azərbaycan Respublikası haqqında tədqiqat aparması barədə məlumat vermişdir. Həcc naziri Azərbaycanı islam dininin yayıldığı ilk ölkələrdən biri olmasını, adət-ənənələrimizin bir-birinə oxşamasını, Məkkə və Mədinə şəhərlərində əsrlər boyu azərbaycanlıların yaşamasını və bu kökdən olan adamların hal-hazırda da mövcud olmasını vurğulamışdır. Bütün bunlar bir daha sübut edir ki, bizim mədəniyyətimizin, mənəviyyatımızın mənbəyi eynidir.

---

[7] Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Səudiyyə Ərəbistanının Ciddə şəhərində mətbuat konfransında bəyanatı – 11 iyul 1994-cü il
https://lib.aliyevheritage.org/az/1390138.html

[8] Azərbaycan Səudiyyə Ərəbistanı ilə möhkəm təməllərə söykənən uğurlu əməkdaşlıq edir
https://azertag.az/xeber/Azerbaycan_Seudiyye_Arebistani_ile_mohkem_temellere_soykenen_ugurlu_emekdasliq_edir-2132285

Özünə qardaş və dost ölkə hesab edən Səudiyyə Ərəbistanına H. Əliyev müxtəlif təkliflər etmişdir. Belə ki, o, Səudiyyə Ərəbistanının neft sektorunda olan təcrübəsinin iki illik müstəqilliyini bərpa edən Azərbaycan üçün böyük önəm daşıdığını və onların həmin təcrübəsindən neft-qaz hasilatı, neft emalı sahəsində istifadə etməsi səbəbi ilə dəvət etmişdir. Sabiq prezident eyni zamanda sənayenin digər sahələrində, kənd təsərrüfatı sahəsində, ticarət, turizm sektorunda iş adamları üçün də şərait yaradılacağına söz vermişdir. Səudiyyə Ərəbistanının iş adamlarının Azərbaycana kapital qoymaqla böyük mənfəət götürə biləcəklərini və bu təbliğatı öz ölkələrində aparılmasını söyləmişdir[9].

H. Əliyev Səudiyyə Ərəbistanında iki böyük müəssisədə - neftayırma zavodunda və bitki yağları istehsalı zavodunda olmuş, burada onların iş texnikası, onların təcrübəsi ilə yaxından tanış olmuşdur. Daha sonra Azərbaycan lideri digər müqəddəs şəhər Mədinə şəhərinə səfər etmişdir. Mədinədəki Məscid ən-Nəbəvini (Peyğəmbər məscidi) ziyarət edərkən o, məscidin şərəf kitabına aşağıdakı sözləri yazmışdır: "Bismillahir-rəmanir-rəhim!

Müqəddəs Mədinə şəhərini, İslamın müqəddəs abidələrini, Həzrət Məhəmməd peyğəmbərin məqbərəsini, məscidini ziyarət etdiyim üçün bir müsəlman kimi özümü xoşbəxt hesab hiss edirəm.

Allaha şükürlər olsun ki, uzun illər qəlbimdə yaşayan arzuma, niyyətimə nail oldum. Bu tarixi hadisə qəlbimdə böyük həyəcan və rahatlıq hissi yaratdı. Bir daha İslam mənbəyinin nə qədər ümumbəşəri, fəlsəfi, elmi əsaslara malik olduğunu dərk etdim. Böyük Allahın böyüklüyünü dərk etdim.

İslamın dünyada yayılması üçün, İslam abidələrinin bütün ziyarət edənlərdən ötrü paklıq şəraitində olması üçün Həzrəti Məhəmməd peyğəmbərin məqbərəsinin ətrafında yaradılmış məscid kompleksləri məni heyran etdi. Xüsusən son illərdə görülən işlər, yaradılmış möhtəşəm, əzəmətli məscid binaları böyük heyrət və ehtiram hissi doğurur. İki müqəddəs şəhərin xadimi cənab Fəhd ibn Əbdül Əziz əl-Səudun gördüyü işlər əvəzsizdir, böyük minnətdarlıq hissi doğurur. Bu müqəddəs şəhəri yaşadanlara, əsrlərdən-əsrlərə abadlaşdıranlara, xüsusən əziz dostum, qardaşım iki müqəddəs şəhərin xadiminə hörmət və ehtiramımı bildirirəm.

Heydər Əliyev

Azərbaycan Respublikasının Prezidenti 12 iyul 1994"[10]

Bu mühüm səfərdən sonra Azərbaycan Respublikası və Səudiyyə Ərəbistanı arasındakı əlaqələr dinamik şəkildə etməyə başlamışdır. 1994-cü il aprel ayından Azərbaycanın Səudiyyə Ərəbistanında diplomatik nümayəndəliyi açılmışdır[11]. 21 noyabr 1994-cü ildə isə Səudiyyə Ərəbistanın Türkiyədə, eyni zamanda Azərbaycanda akkreditə olunmuş səfiri Naci Sadiq Müfti öz etimadnaməsini sabiq prezidentə təqdim etmişdir[12].

[9]Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Səudiyyə Ərəbistanının Ciddə şəhərində mətbuat konfransında bəyanatı – 11 iyul 1994-cü il
https://lib.aliyevheritage.org/az/1390138.html

[10]Allahverdiyev Q. və Sultanzadə V. Heydər Əliyev və Şərq. Bakı, 2002, səh.276-277

[11]Azərbaycan-Səudiyyə Ərəbistanı münasibətləri.https://lib.aliyevheritage.org/az/7892915.html

[12]Azərbaycan-Səudiyyə Ərəbistanı əlaqələrinin inkişafı məmnunluq yaradır
https://respublika-news.az/news/azerbaycan-seudiyye-erebistani-elaqelerinin-inkisafi-memnunluq-yaradir

Diplomatik əlaqələrlə başlayan dostluq əlaqələri daha sonra çoxsaylı qarşılıqlı səfərlərlə davam etdirilmiş, Səudiyyə Ərəbistanı tərəfindən Xarici İşlər nazirinin müavini, Krallığın İslam İşləri və Vəqflər naziri, Tikinti nazirinin müavini Ticarət Sənaye Palatasının sədri, şirkət və iş adamlarından ibarət nümayəndə heyətləri Azərbaycanda səfərdə olmuşlar[13].

Səudiyyə Ərəbistanı ermənilərin təcavüzünə qarşı beynəlxalq və regional təşkilatlarda Azərbaycanın mövqeyini dəstəkləmiş, bir neçə dəfə müxtəlif illərdə humanitar yardımlar göndərmiş, ehtiyacı olan qaçqınları dərman, ərzaq və s. ilə təmin etmişdir. Qarabağ müharibəsinin beş əlili 1999-cu ildə Səudiyyə Ərəbistanında müalicə almışdır.

Hər il Azərbaycan Respublikasından Məkkə və Mədinə şəhərlərinə ziyarət, həcc mərasimi yerinə yetirmək üçün zəvvarlara geniş imkanlar yaradılmış, hətta 1998-99-cu illərdə həcc mövsümü zamanı iki yüz əlli nəfər azərbaycanlı zəvvar kral Fəhdin qonağı olmuşdur.

Səudiyyə Ərəbistanının Səhiyyə Nazirliyi ilə birgə hazırlanmış proqram çərçivəsində on doqquz azərbaycanlı həkim Səudiyyə Ərəbistanına işləməyə ezam edilmiş, 2000-ci ildə isə azərbaycanlı həkimlərin sayı qırx iki nəfərə çatmışdır[14].

1999-cu ilin iyun ayından etibarən Azərbaycan Respublikasında Səudiyyə Ərəbistanının səfirliyi fəaliyyətə başlamış və hal-hazırda da fəaliyyətini davam etdirməkdədir.

H. Əliyevin 400 saylı 25 aprel 2000-ci il tarixli sərəncamı ilə Azərbaycan Respublikası hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı hökuməti arasında iqtisadiyyat, ticarət, investisiya, texnika, mədəniyyət, idman və gənclik sahələrində əməkdaşlıq üzrə Müştərək Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi təsdiq edilmişdir[15].

Əsası ümummilli lider H. Əliyev tərəfindən qoyulan Azərbaycan Respublikası və Səudiyyə Ərəbistanı arasında müxtəlif sahələr üzrə qurulan əlaqələr bu gün də öz töhfəsini verərək inkişaf etdirilməkdədir.

## The Role of Heydar Aliyev in Establishing Relations Between Azerbaijan and Saudi Arabia

## Summary

**Keywords:** Azerbaijan, Heydar Aliyev, Saudi Arabia, diplomacy, international relations

In front of the independent Republic of Azerbaijan, first of all, it was very important to restore the historical connection with the Near and Middle East, ethnic, religious, cultural and economic relations. This mission, which is very important for the future statehood of

[13]Azərbaycan-Səudiyyə Ərəbistanı münasibətləri.https://lib.aliyevheritage.org/az/7892915.html
[14]Allahverdiyev Q. və Sultanzadə V. Heydər Əliyev və Şərq. Bakı, 2002, səh.278-279
[15]Heydər Əliyev və xarici siyasətin Azərbaycan modeli.http://www.anl.az/down/meqale/xalqqazeti/2010/may/118928.htm

Azerbaijan and its Eastern policy, fell on the shoulders of the former president of the Republic of Azerbaijan, Heydar Aliyev.

Although Saudi Arabia recognized the independence of the Republic of Azerbaijan on December 30, 1991, and diplomatic relations with the Republic of Azerbaijan were established on February 24, 1992. After coming to power, the national leader Heydar Aliyev paid great attention to the establishment of relations between the Eastern countries and Arab countries after the Islamic Republic of Turkey and Iran. In this regard, Saudi Arabia was the first country visited by the former president among the Arab countries.

## Ədəbiyyat siyahısı


1. Allahverdiyev Q. və Sultanzadə V. Heydər Əliyev və Şərq. Bakı, 2002
2. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Səudiyyə Ərəbistanının Ciddə şəhərində mətbuat konfransında bəyanatı – 11 iyul 1994-cü il https://lib.aliyevheritage.org/az/1390138.html
3. Azərbaycan-Səudiyyə Ərəbistanı münasibətləri. https://lib.aliyevheritage.org/az/7892915.html
4. Azərbaycan və Yaxın, Orta Şərq dövlətləri (Səudiyyə Ərəbistanı Krallığı, Suriya Ərəb Respublikası) https://sesqazeti.az//news/mia/338526.html
5. Azərbaycan-Səudiyyə Ərəbistanı əlaqələrinin inkişafı məmnunluq yaradır https://respublika-news.az/news/azerbaycan-seudiyye-erebistani-elaqelerinin-inkisafi-memnunluq-yaradir
6. Azərbaycan Səudiyyə Ərəbistanı ilə möhkəm təməllərə söykənən uğurlu əməkdaşlıq edir https://azertag.az/xeber/Azerbaycan_Seudiyye_Arebistani_ile_mohkem_temellere_soykenen_ugurlu_emekdasliq_edir-2132285
7. İordaniyalı akademik: Heydər Əliyevin 100 illik yubileyi ərəb dünyası üçün də əlamətdar hadisə olacaq https://azertag.az/xeber/Iordaniyali_akademik_Heyder_Aliyevin_100_illik_yubileyi_ereb_dunyasi_uchun_de_elametdar_hadise_olacaq-2378359
8. Heydər Əliyev və xarici siyasətin Azərbaycan modeli.http://www.anl.az/down/meqale/xalqqazeti/2010/may/118928.htm
9. حيدر علييف و العالم الاسلامي https://www.alriyadh.com/1592500
10. العالم العربي و الاسلامي في فكر حيدر علييف https://ednews.net/ar/news/analytical-wing/567071

**Səməd Bayramzadə**
AMEA akad. Z. M. Bünyadov adına Şərqşünaslıq İnstitutu,
Cənubi Azərbaycan şöbəsinin müdiri, t.ü.f.d
samad.bayramzadeh@gmail.com

# AZƏRBAYCANÇILIQ TARİXİNDƏN: İDEYADAN İDEOLOGİYAYA

**Açar sözlər:** Azərbaycan, etnogenez, azərbaycançılıq, dövlətçilik, müstəqillik

## Giriş

Hər bir dövlətin iqtisadi özülü üzərində siyasi, inzibati, mədəni və s. təsisatların yaranması, bununla yanaşı cəmiyyətin də sağlam və doğru təməllər üzərində qurulması və inkişafı üçün stimullaşdırıcı, eyni zamanda birləşdirici (!) bir ideologiyaya daima ehtiyac vardır.

Azərbaycan müstəqillik əldə etdikdən sonra (**18 oktyabr 1991**) belə bir birləşdirici ideologiyaya daha çox ehtiyac duyuldu və həmin əsaslar üzərində də azərbaycançılıq formalaşıb inkişaf etdi, sözün həqiqi mənasında kütlələrin aparıcı ideologiyasına çevrildi.

Bununla belə, SSRİ-nin dağılması ilə bütün sabiq sovet respublikalarında olduğu kimi, Azərbaycanda da yaranmış ideoloji boşluğu doldurmaq üçün ortaya bir sıra ideyalar atıldı. İslam, türkçülük və azərbaycançılıq bu ideyaların əsas tərkib hissələrini təşkil edirdi. Mövcud tarixi şərait və tarixi təcrübələrin nəticələri sonuncunun – azərbaycançılığın daha real olduğunu şərtləndirdi. Böyük idarəçilik təcrübəsinə malik H. Əliyev hakimiyyəti də bu ideyanı dəstəklədi və ideologiya səviyyəsində formalaşdırdı, uğurla həyata keçirdi. Tarixi təcrübə və həqiqətlər bu gün həmin ideologiyanın yanlış olmadığını göstərir.

Belə bir tezisin təsdiqi üçün tarixi keçmişə nəzər salmaq, azərbaycançılığın kökünə, özəyinə, mahiyyətinə diqqət yetirmək daha məqsədəuyğun olardı.

**Azərbaycançılıq məfhumu,** ilk növbədə coğrafi ərazi bildirən "Azərbaycan" və milli mənsubiyyəti özündə əks etdirən "azərbaycanlı" sözləri ilə birbaşa bağlıdır. Əslində "azərbaycanlı" sözü etnik və milli mənsubiyyətdən çox məkan mənsubiyyəti, haralı olmaq anlayışı ilə eyniyyət təşkil edir, bu sözün etnik və milli mənsubiyyət anlamında işlədilməsi isə müasir tariximizə aiddir. Coğrafi məkan bildirən "Azərbaycan" və bu gün etnik-milli mənsubiyyət anlamında işlənən "azərbaycanlı" sözlərinin etimologiyası, mahiyyəti və mənası Azərbaycan xalqının etnogenezi ilə bağlı olan məsələlərdir. Çox təəssüflər olsun ki, bu günün özündə də Azərbaycan xalqının etnogenezini təsdiq və əks etdirən sabit konsepsiya işlənib hazırlanmamışdır və hazırda əlimizdə belə bir konseptual sənəd yoxdur.

18 mart 2013-cü il tarixində Azərbaycan Respublikası Prezidenti yanındakı Strateji Araşdırmalar Mərkəzində "Müasir İnkişaf" İctimai Birliyinin, Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Gənclər Forumunun təşkilatçılığı ilə "Milli Kimlik" Konsepsiyasının hazırlanması layihəsi çərçivəsində nəzərdə tutulmuş tədbirlər silsiləsindən qədim tarixin

araşdırılması ilə məşğul olan alimlər (antropoloqlar, arxeoloqlar, etnoloqlar), dilçi alimlər, filosoflar, müxtəlif sahələr üzrə araşdırmalar aparan tədqiqatçılar, hüquqşünaslar, ictimai xadimlər, ali məktəb müəllimləri, tələbələr və sairənin iştirak etdiyi "Etnogenez, Azərbaycan xalqının və dövlətçiliyinin inkişaf tarixi" mövzusunda ilk dəyirmi masa keçirilmişdir [5]. Tədbirdə çıxış edən mütəxəssis alimlər tərəfindən qeyd edilmişdir ki, etnogenez xalqın həyatında mühüm əhəmiyyətə malik olan bir məsələ olmasına baxmayaraq, Azərbaycan xalqının etnogenez məsələsində bu günə kimi vahid konseptual baxışı yoxdur [5]. Azərbaycan tarixşünaslığında Ziya Bünyadov, İqrar Əliyev, Əlisöhbət Sumbatzadə, Fəridə Məmmədova, Qiyasəddin Qeybullayev, Xəlyəddin Xəlilli və başqalarının əsərlərində xalqımızın etnogenezi ilə bağlı müxtəlif fikirlər var və hər biri məsələ ilə bağlı ortaya fərqli mövqelər qoymuşlar.

Sözügedən tədbirdəki çıxışlar zamanı o da **qeyd edilmişdir ki, "**əgər hansısa bir xalqın etnogeneziylə bağlı mübahisəli məqamlar, ortada açıq qalmış suallar varsa, həmin xalqın dövlətçilik tarixi və mədəniyyət tarixi, ən mühümü isə tarixən məskunlaşdığı areal haqqında qəti fikir söyləmək mümkün deyil" [5].

Elə bu səbəbdən də oxucuların diqqətinə təqdim olunan bu yazıda xalqın dövlətçilik və mədəniyyət tarixini, xalqımızın tarixən məskunlaşdığı ərazi barədə fikirləri özündə ehtiva edən azərbaycançılıq məfhumunun kökündə dayanan "Azərbaycan" sözü barədə mövqeyimizi bölüşmək istərdik.

**Azərbaycançılıq Azərbaycan adlı arealda formalaşmış, sonra isə dünyanın müxtəlif nöqtələrində məskunlaşmış azərbaycanlılar arasında yayılmış məfhum, ideya və ideologiyadır.**

Bu gün üçün Azərbaycan xalqının etnogenez məsələsində vahid konseptual sənəd olmasa belə, Azərbaycan adlı vətənimizin tarixini və milli kimliyimizi orta və ali məktəblərdə təhsil alan on minlərlə gəncə təlqin edən, onu gələcək nəslə ötürən tarix dərsliklərimiz yazılmış və onlardakı fikirlər fərqli mövqelərdən, qərəzli və qarışıq bir şəkildə deyil, təsdiq edilmiş konseptual bir baxış formasında təqdim edilir. Ona görə də bu yazıda coğrafi məkan olan Azərbaycan adlı vətənimizin tarixi və milli kimliyimiz haqqında sabit baxışları indiki gəncliyimizə və gələcək nəslə təqdim edən həmin dərsliklərə istinad ediləcəkdir.

**"Azərbaycan" adı.** Tarixən qəbul olunmuş belə bir mövqe vardır ki, coğrafi məkanların adları orada məskunlaşan tayfa və ya tayfa birlikləri içərisində aparıcı olanın adı ilə müəyyənləşir. E. ə. II minillikdə indiki Cənubi Azərbaycan ərazisindəki Urmiya gölü hövzəsinin bir hissəsi turukki tayfasının adına əsasən, Turukkum adlandırılmışdır. Təsadüfi deyildir ki, Turukkum adı Azərbaycanın "dağ", "dağlıq ölkə" (keçmiş Aratta) hissəsinə şamil edilirdi [4, s.17]. E.ə. I minilliyin əvvəllərində İkiçayarasında siyasi üstünlüyə malik Assur hökmdarlarının salnamələrində Urmiya gölünün cənubuna və cənub-şərqinə Alatey adı da şamil edilmişdir [4, s.18].

Antik qaynaqlar Azərbaycanın cənub hissəsini Atropatena, şimal hissəsini isə Albaniya adlandırmışlar. E.ə I – e. I əsrində yaşamış Strabon ilk dəfə bu ölkənin adını Kiçik

Midiya satrapı Atropatın adı ilə bağlamışdır. O, şübhəsiz ki, irandilli qaynaqların məlumatlarından istifadə etmişdir. Yəqin ki, ölkənin həqiqi adı Atropat adına oxşar səslənmişdir [Bax:3, I cild, s. 217; 4, s. 217; 9, s. 15-22; 13, s.10-11; 18, s. 106-107; 28, s. 3; 30, s. 3]. Atropatena adı erkən orta əsr qaynaqlarında Aturpatakan kimi işlədilirdi. Suriya və Bizans qaynaqlarında isə Adorbiqan/Adarbaqan, orta fars yazılarında Aturpatakan və Adarbadaqan, Azərbaycan, ərəb qaynaqlarında Adirbican, Azərbican və Azərbaycan, sonrakı qaynaqlarda Adirbican, Aderbijan və s. formalarda əks olunmuşdur [4, s.18].

Cənubi Azərbaycan qədimdən dağlıq ölkə kimi tanınmışdır. Yuxarıda qeyd edildiyi kimi, bu ərazinin bir qismi Aratta ("dağ, "dağlıq ölkə") və ya Ala tey ("dağ", "dağlıq ölkə") adlandırılırdı. **Toponimlər də əsasən ərazinin coğrafi mənzərəsinə uyğun olaraq yaranırdı.** E. ə. VIII-VII əsr mixi qaynaqlarında təxminən Mannanın Midiya ilə sərhəd hissəsində, Qızıl üzən çayının cənub-qərb başlanğıc axarında Andirpatianu/Andarpatian yer adı çəkilmişdir [4, s. 18-19]. Bəzi alimlər bu adı Midiya canişini Atropatın adına uyğunlaşdıraraq onu Atropatena adı ilə eyniləşdirmişlər. Əslində isə Andirpatianu/Andarpatian adı Azərbaycan adının sonrakı Adərbadqan/Adirbadqan və nəhayət, Adirbican/Azirbican və Azərbaycan formalarının başlanğıcını təşkil etmişdir. Beləliklə, Andirpatianu/Andarpatian (yaxud Adirpatyan/Adərpatyan) məskən adını "Azərbaycan" adının ən qədim və ilkin forması kimi qəbul etmək olar [4, s. 19].

Gənc və gələcək nəslin yetişdirilməsində azərbaycanlıların etnogenez məsələsinə aid hələlik yeganə konseptual sənəd statusunda çıxış edən dərsliklərimizdə (konkret olaraq 6-cı sinif üçün Azərbaycan tarixi dərsliyində) Azərbaycan adının mənşəyi barədə yazılır: "Azərbaycan adının ilkin forması Azərbayqan kimi işlənmişdir. Bu torpağın Atropatena adlanması Midiya satrapı (canişini) Atropatın adı ilə bağlı olmuşdur" [27, s.86]. Dərsliyin həmin bölümündə qeyd edilir ki, Atropatena (Adərbayqan) dövləti, əsasən indiki Cənubi Azərbaycanı və Azərbaycan Respublikasının bəzi cənub rayonlarını əhatə etmişdir. VII əsrin ərəb mənbələrində bu ərazi Azərbaycan adlanmışdır. Bu ad onun həm şimalına, həm də cənubuna aid edilmişdir.

Hələ erkən orta əsrlərdə "Azərbaycan" məfhumunun həm coğrafi, həm də siyasi tətbiqi genişlənmişdir. Belə ki, Azərbaycan (Aturpatakan) canişini Dərbənddə oturduğundan Araz çayından Dərbəndə qədərki ərazi də ərəb qaynaqlarında "Azərbaycan" anlamına daxil edilmiş və buranı bəzən "Yuxarı Azərbaycan" da adlandırmışlar. Beləliklə, Azərbaycan şimalda Dərbəndə, cənubda Qəzvin və Zəncana kimi, qərbdə İrəvan, Göyçə mahalı və Tiflisə qədərki ərazi daxil olmaqla geniş bir sahəni tuturdu.

**Azərbaycanlılar və azərbaycançılıq.** Azərbaycanda müxtəlif dillərdə danışan əhali – irandilli talışlar, tatarlar, kürdlər və qafqazdilli udinlər, avarlar, ləzgilər, saxurlar, xınalıqlılar, buduqlular, qırızlar və b. yaşayırlar. Bu geniş ərazidə ta qədim zamanlardan yaşayan və müxtəlif vaxtlarda məskunlaşan müxtəlif tayfaların türk etnosları ilə qovuşub qarışmasından Azərbaycan türkləri formalaşmışdır. Elə qədim zamanlardan da Azərbaycanın yerli, köklü və əsas əhalisi türkdillidir. Bu gün isə **millətimizin adı azərbaycanlı, dilimiz isə**

**Azərbaycan dilidir.** Hazırda dünyada azərbaycanlıların sayı 50 milyondan artıqdır [15, 16.03.2005].

Bu diyarda məskunlaşan və kökü "ağgöz" (oğuz)[16] türklərindən olan bugünkü Azərbaycan türkləri haqlı olaraq vətənlərinin adını dəyişməz olaraq saxlamışlar. Qədim Azərbaycan dövlətçiliyi və azərbaycançılıq tarixi də elə buradan, bu zamandan başlayır.

"Azərbaycan" sözünün mənşəyində Albaniya adının dayandığı barədə məşhur türkoloq alim akademik Oljas Süleymanovun son tədqiqatları və fikirləri də sonsuz maraq doğurur. Bununla belə, o bu barədə yekdil bir qənaətə gəlmək üçün məsuliyyəti tarixçilərin üzərinə qoyur və bunu özünün son araşdırmaları ilə bağlı bir versiya kimi irəli sürür. Oljas Süleymanov 2013-cü ilin payızında UNESCO-nun Parisdə Böyük İpək Yoluna həsr edilmiş konfransında iştirakı zamanı rus dilində qələmə aldığı "İpək yolu və türklər" adlı məqaləsində yazır: "Böyük İpək yolu marşrutları, düşünürəm, o qədər əsaslı mənimsənilmişdi ki, onun üzərində ötürücü bazalar rolunda çıxış edən ərazilərin yaranmasını inkar etmək mümkün deyil və deməli, həmin ərazilərə Çin mənşəli adların verilməsi ehtimalı da tamamilə təbiidir. Bu Yolda (İpək yolu nəzərdə tutulur – S.B.) türk terminləri də işlənirdi. Məsələn, gömrük xidmətlərinin aparıldığı sərhəd məntəqələrində "vergi" mənasını bildirən "alban" termini işlədilirdi. Misal olaraq göstərmək olar ki, indi də Çin ilə sərhəddə alban adlı qazax tayfası yaşayır və ola bilsin ki, bu tayfa nə vaxtsa belə bir işlə (vergi işi ilə –S.B.) məşğul olmuşdur. Xəzərin qərb sahilində yerləşən ölkə (bugünkü Azərbaycan) e.ə. III əsrdə Alban adlanırdı. Düşünürəm ki, oradan (İpək) Yolu marşrutlarından biri keçmişdir: "Gotu"lardan (almanlardan deyil) birinin ola biləcəyi Manqışlaq sahili. Oradan barjlarda yüklər Albana göndərilirdi. Sonra isə dəvələr və atlar vasitəsilə Zaqafqaziyadan İrana və Vizantiyaya daşınırdı. Çox mühüm bir məqamdır. O zaman yerli əhali özünü alban adlandıra bilərdi. Ola bilərmi ki, Çin lüğətində "alban" (albaniyalı) mənasını verən "azebayjen" Azərbaycan sözü ilə eyni səslənsin? Ola bilsin ki, türklər (Çindən Qafqaza, İrana və Vizantiyaya gedən marşrut boyu ipəyi türklər müşayiət edirdilər və onları Çin sözü ilə "serik" deyə çağırırdılar. Bu söz də "ipək" mənasını, "müşayiət edilən mal" mənasını daşımışdır – S.B.) Çin tələffüzünü mənimsəmişlər. Onlar (türklər – S.B.) çinlilərin əslən tələffüz etmədikləri "r" səsini artırmaqla "adam", "insan" mənasını verən "jen" təyinedici sözünü (bu təyin istənilən adam adının sonluğuna artırılır ki, onu əşya və ya heyvanla qarışıq salmasınlar) can – "adam" (Azərbaycan və türk dillərində) mənasında qəbul etmişlər. Elə buna görədir ki,

[16] Bu gün Rusiyanın Moskvadakı "Rəngli bulvar"ından Sibir və oradan Uzaq Şərqdə Berinq bogazına, eyni zamanda Orta Asiyadan Çinin şimalına (Qaşğar, Uyğur əyalətləri), İran, İraq (kərküklər), Qafqaz, Ukraynanın Krım, Moldaviya (qaqauzlar), Türkiyə Respublikası, Avropanın bir sıra ölkələri, Afrikada Misir, bir sözlə, Sakit okean sahillərindən Atlantik okeanı sahillərinə kimi böyük bir ərazidə məskunlaşmış türkləri qədimdə, xüsusilə Sibir, Mərkəzi və Orta Asiya nahiyəsində, yaşadıqları yerin iqlim şəraitinə görə formalaşmış zahiri görünüşlərinə, yəni saçlarının, gözlərinin, dərilərinin rənginə uygun olaraq iki qismə ayırırlar: şimal hissədə yaşayanları "ağgözlülər" (bugünkü "kazak", kaz-göz və ak-ağ söz birləşmələrindən ibarət olub "gözüağ", yəni ağgözlülər deməkdir), cənub hissədə yaşayanları isə "qaragözlülər" ("qırğız", qara və ğöz sözlərinin birləşməsindən ibarət olub "qaragöz", yəni qaragözlülər deməkdir). Sonrakı tarixi inkişaf mərhələlərində "ağgöz" və ya "qaragöz" sözləri, xüsusilə də "ağgöz" sözü, türk dili fonetikasındakı eliziya (səsdüşmə) qaydasına uyğun olaraq "ağöz – oğuz – ğuz" kimi səslənmiş və formalaşmışdır. Bildiyimiz kimi, biz Azərbaycan türkləri də həmin Oğuz soyundan və boyundanıq.

Çində Məhəmməd, Əli və Həlim kimi müsəlman (uyğur, dunqan) adlarının sonuna mütləq adam mənası verən “jen” təyinedici sözünü əlavə edirlər. Həmin sözlər bizim tələffüzümüzdə Məhəmmədcan, Əlican, Həlimcan və s. kimi qəbul edilmişdir. Amma “albaniyalı” sözünün Çin dilində tələffüzü mənim üçün yalnız Azərbaycan sözünün mənşəyini təyin etmir, eyni zamanda o sözün birbaşa bu torpağın – Albaniyanın qədim adı ilə bağlılığını sübut edir. Bir çox tarixçilər hesab edirlər ki, burada heç bir əlaqə yoxdur: Qafqaz Albaniyası başqa bir ölkədir, türk Azərbaycanı da çox sonralar yaranmış tamamilə başqa bir ölkədir. İndi onlar (tarixçilər – S.B.) yaranmış vəziyyəti aydınlaşdırmalıdırlar. Türklər, çox ehtimalla, verginin alınması zəruri olan ticarət yolu marşrutlarından birinin keçdiyi Balkan ölkəsini də Albaniya adlandırırdılar. Bu işləri (vergi alınması işlərini) görən insanlar da alban adlandırılmışlar” [31].

Yuxarıda göstərilən mövqelərin hər biri nəzərə alınmaqla qeyd edilməlidir ki, **e. ə. IV yüzillikdə yaranmış Atropatena və Albaniya dövlətləri** VII əsrin ərəb mənbələrində Azərbaycan adlanmış və bu ad onun həm şimalına, həm də cənubuna aid edilmişdir. Bundan sonra bütün Azərbaycanda vahid xalq yaranmağa başlamışdır. Azərbaycanda azərbaycançılıq ideyası da bu ərazidə baş vermiş müxtəlif tarixi hadisələrin gedişinə uyğun olaraq formalaşmış, inkişaf etmiş, toplumun ümumi məfkurəsinə çevrilmişdir.

**Azərbaycan Ərəb xilafətinin tərkibində və azərbaycançılıq**. Azərbaycançılıq məfkurəsi ərəblərin Azərbaycana hücumu zamana onlara qarşı yönəlmiş milli-azadlıq mübarizəsində əsaslı şəkildə inkişaf edib möhkəmləndi və azərbaycanlı ifadəsi artıq həm cənubdakı Atropatena və həm şimaldakı Albaniya xalqlarına müncər edilməyə başladı. Bu dövrlərə aid tarixləri tədqiq edən müəlliflərin əsərlərində “azərbaycanlı” ifadəsinə tez-tez rast gəlinir.

Erkən orta əsrlərdə həm Şimali, həm də Cənubi Azərbaycan yadelli işğallara qarşı mübarizə meydanına çevrildi. Atropatenanı işğal edən sasanilər Təbriz şəhərini Sasani canişinlərinin iqamətgahı təyin etdilər və Atropatenada hakim din olan zərdüştçülük isə IV əsrin sonundan Sasani dövlətinin hakim dini elan olundu.

VI əsrin ortalarında Albaniya çarları öz hakimiyyətlərini əldən verdilər. Əzilən xalqlar üzərində feodalların iqtisadi-ictimai hakimiyyətini gücləndirmək məqsədilə Sasani hakimləri hərbi-inzibati islahatlar keçirdilər. Ölkə ərazisi 4 canişinliyə bölündü: Atropatena, Albaniya, Ermənistan və İberiya Şimal əyaləti adlanan əraziyə daxil idi. Bu əyalətin Kazaka adlanan mərkəzi şəhəri Atropatenada yerləşirdi. Bununla belə, Albaniyada feodalizmin yeni ictimai münasibətlərinin təsdiqi zərdüştçülüyün ləğvinə və aradan getməsinə gətirib çıxardı. VI əsrdən başlayaraq Albaniyada dövlət dini xristianlıq oldu.

VI əsrin sonu - VII əsrin əvvəllərində Albaniya ərazisində Mehranilər sülaləsinin idarə etdiyi Girdman feodal mülkiyyəti yaranmağa və güclənməyə başladı. Tezliklə Bərdə şəhəri bu vilayətin mərkəzinə çevrildi. Mehranilər sülaləsi içərisində daha çox məşhur olanı Cavanşirin (637-680-ci illər) hakimiyyəti illərində Albaniya möhkəmləndi, ölkədə elm və mədəniyyət inkişaf etdi, möhtəşəm saraylar və məbədlər ucaldıldı.

VII əsrin ortalarında Azərbaycan ərəblərin hücumuna məruz qaldığı bir zamanda din məsələsi arxa plana keçdi, vətənin bütövlüyünü qoruyub təmin etmək, müstəqilliyi itirməmək daha böyük önəm kəsb etdi. Xristian dini mənsubiyyətli Girdman hakimi Cavanşirin rəhbərlik etdiyi Albaniya hərbi dəstələri zərdüşt diyarı olan Sasani hərbi dəstələri ilə birgə bir neçə illər ardıcıl olaraq ərəblərə qarşı vuruşdular. Onlar bu döyüşlərdə şücaət və qəhrəmanlıq nümayiş etdirdilər.

Ərəb qaynaqları və bir sıra başqa mənbələr təsdiq edirlər ki, azərbaycanlılar öz müstəqilliklərini qoruyub saxlamaq naminə ərəblərə qarşı qəhrəmancasına, böyük şücaət və igidlik nümayiş etdirərək vuruşurdular.

705-ci ildə ərəb işğalçıları Albaniyada Mehranilər sülaləsinin hakimiyyətini tamamilə ləğv etdilər. VII-IX əsrlərdə Qafqaz Albaniyasında bir sıra antifeodal üsyanları baş verdi. Beyləqanda və ona qonşu ərazilərdə yerli əhali ayağa qalxdı və üsyan etdi. Bu üsyanlar geniş vüsət alaraq, xüsusilə də 816-837-ci illərdə, Babəkin rəhbərliyi altında geniş xalq hərəkatına çevrildi. Xürrəmilər təlimi həm Azərbaycanda, həm də Yaxın və Orta Şərqin başqa ölkələrində yerli əhali, xüsusilə kəndli çıxışlarının ideoloji bayrağına çevrildi. **Xürrəmi təliminin əsasında zərdüştçülük dayansa da, yerli xalqın əsas məqsədi** yadelliləri öz torpaqlarından qovub çıxarmaq idi. Bu məqsəd də azərbaycançılıq məfkurəsinin güclənməsinə böyük təkan oldu. İran tarixçisi Səid Nəfisi xürrəmilər hərəkatına başçılıq edən Babək barəsində yazır ki, o, “Azərbaycandan baş qaldırdı” [19, s.10] və eyni zamanda İmam Fəxri Razinin “Etiqadatu firəq-əl-müslimin və-l-müşrikin” əsərinə istinadən də qeyd edir ki, “Babəkin özü... azərbaycanlı idi” [19, s.16].

IX əsrin 20-30-cu illərində Babək hərəkatı geniş vüsət aldı və onun rəhbərliyi altında yalnız Azərbaycanın cənub hissəsində və ona bitişik dağlıq Deyləm rayonunda 300 min nəfərdən çox azərbaycanlı yadelli işğalçılara qarşı vuruşurdu. S. Nəfisi yazırdı ki, “Xürəmiddin Babəkin hökmranlıq etdiyi və öz məzhəbini yaydığı yer bugünkü İranın şimal-qərbində yerləşən geniş bir ölkədir. Bu ərazinin bir hissəsi hazırda İran Azərbaycanı ərazisi, digər hissəsi isə Azərbaycan Sovet Sosialist Respublikasıdır” [19, s.24]. Beləliklə, azərbaycançılıq ideyası Azərbaycanın həm cənubunda, həm də şimalında yadellilərə qarşı mübarizənin əsas aparıcı ideya-siyasi istiqamətinə çevrildi.

Qeyd edilməlidir ki, VII-VIII əsrlərdə yayılmağa başlayan Dədə Qorqud dastanı da azərbaycançılıq ideyasını özündə əks etdirirdi.[17] “Kitabi-Dədə Qorqud” azərbaycanlıların və bütövlükdə, bütün oğuzların ictimai-siyasi görüşlərinin klassik və parlaq aynasıdır. Eposda türkdilli xalqların azadlıq, istiqlaliyyət qazanmaq, qurub-yaratmaq meyilləri, dövlətin müstəqilliyi və suverenliyi, əmin-amanlıq uğrunda mübarizə aparmaq, habelə, işğalçı qüvvələri dəf etmək istəyi öz dolğun ifadəsini tapmışdır [25].

**Azərbaycan Səlcuq imperiyası tərkibində və azərbaycançılıq**. I Sultan Toğrulun və qardaşlarının komandanlığı ilə 1038-ci ildə Orta Asiyadan Xorasana hücum edən səlcuq

[17] “Kitabi-Dədə Qorqud” dastanının dili təmiz türk dilidir. Bu dastan 4530 sözdən ibarətdir ki, bunların da 4044-ü (90%-ə yaxını) türk sözüdür.

türkləri 1055-ci ildə ərəb xilafətinin paytaxtı Bağdadı aldılar. Toğrul bəy xilafətdə siyasi hakimiyyətin başçısı elan edildi. Böyük Səlcuq dövləti meydana çıxdı. Səlcuqların ən böyük uğurlarından biri 1071-ci ildə Malazgirt yaxınlığında Vizantiya qoşunları üzərində qələbələri idi. Nəticədə, Səlcuqlar çox geniş bir əraziyə malik imperiya yaratdılar və bu imperiyanın sərhədləri şərqdə Qaşqardan başlayaraq qərbdə Aralıq dənizi və şimalda Qafqaz dağlarından cənubda Yəmənə kimi uzanırdı.

Səlcuqlar imperiyasının yaranması və Azərbaycan ərazisinin bu imperatorluğa qatılması nəticəsində azərbaycançılıq türkçülüklə üzvi bir şəkildə çulğalaşdı, zənginləşdi. Səlcuqların xilafət üzərində hökmranlığı və təsiri azərbaycançılığa türkçülüklə yanaşı daha yeni çalarlar gətirdi, onu yeni etno-milli və dini xüsusiyyətlərlə zənginləşdirdi, daha da möhkəmləndirdi. Belə ki, Səlcuq imperiyasının tərkibində olan Azərbaycanın və başqa ölkələrin xristian əhalisinin müsəlmanlaşdırılması gücləndirildi.[18]

**Azərbaycan Atabəyləri dövlətinin yaranması ilə azərbaycançılıq yeni, daha yüksək bir mərhələyə qədəm qoydu.** 1136-cı ildə yaranmış və 1225-ci ilə qədər mövcud olmuş Azərbaycan Atabəyləri Eldəgizlər dövlətinin tərkibinə Azərbaycanın cənub hissəsi, Aran, Naxçıvan, həmçinin İranın qərb vilayətlərindəki İsfahan və Rey daxil idi. Təbriz şəhəri Eldəgizlərin daimi paytaxtı oldu (bəzi vaxtlarda Naxçıvan da paytaxt olmuşdur). Bu dövrün elm və mədəniyyətinin inkişafında azərbaycanlılarla yanaşı iranlılar, taciklər, özbəklər və başqa xalqlar da iştirak edirdilər. Bu xalqların mədəniyyətləri sıx qarşılıqlı münasibətdə tərəqqi etmiş və onlardan hər biri dünya mədəniyyətinə qiymətli əsərlər verərək onun inkişafına kömək etmişlər. Azərbaycanlı Xaqani, Nizami Gəncəvi dünya poeziyasının fəxridirlər. XI-XII əsrlərdə Azərbaycan mədəniyyətinin yüksəlişi xalqın zəngin keçmişinə, azərbaycançılığa əsaslanırdı.

**Səfəvilərin hakimiyyəti dövrü, Osmanlı-Səfəvi müharibələri və azərbaycançılıq**. Səfəvi dövlətinin yaranması Azərbaycan və azərbaycançılıq tarixində mühüm hadisə idi. Belə ki, Səfəvilər dövləti sosial-iqtisadi cəhətdən daha çox inkişaf etmiş Azərbaycan ərazisində yarandı. Bu dövlətdə əhalinin etnik və mədəni birliyə malik çoxluğunu Azərbaycan türkləri təşkil edirdilər. Azərbaycan türkü dövlətin siyasi həyatında rəhbər rol oynayırdı. Hərbi komandanlıq, maliyyə işləri, vilayət əmirləri vəzifəsi, demək olar ki, bütün saray vəzifələri Azərbaycan türklərinin əlində cəmləşmişdi. **Dövlətin 74 əmirindən 69-u azərbaycanlı idi.** Ordu da demək olar ki, azərbaycanlılardan təşkil olunurdu. Sarayda qoşun içərisində, diplomatik yazışmada Azərbaycan türkcəsi işlədilirdi [I Şah İsmayıl Səfəvinin azərbaycançılıq siyasəti haqqında daha ətraflı bax: 17].

Amu-Dəryadan tutmuş Fərata qədər ərazilər Azərbaycan Səfəvi dövlətinin hakimiyyəti altına keçdi. Səfəvilərin qüdrətinin artması Osmanlı Türkiyəsini çox narahat edirdi. 1514-cü ilin avqustunda Sultan Səlim 200 minlik qoşunla Azərbaycan sərhədlərinə yaxınlaşdı. 1514-cü il avqustun 23-də Çaldıran düzündə (Maku yaxınlığı) qanlı döyüş oldu. Hər iki

[18]Rəsmi dini islamın sünni məzhəbi olan Səlcuq sultanlarının işğalına kimi Azərbaycanda islamın əsas cərəyanı şiəlik idi.

tərəf din düşmənçiliyi (şiə-sünni) ruhunda tərbiyə edildiyi üçün şəhid olmağa hazır olan silahlı fanatiklər ordusu qarşı-qarşıya dayandı. Ona görə də Çaldıran döyüşü tarixə ən qanlı qardaş qırğını kimi düşmüşdür. **Sultan Səlim üçün böyük zəfər sayılan Çaldıran vuruşu, əslində Türk dünyasının ümumi faciəsi, qərb dünyası diplomatiyasının isə strateji qələbəsi idi. 1514-cü ildə başlanan Səfəvi-Türkiyə müharibələri isə fasilələrlə yüz ildən artıq bir müddətə qədər davam etmişdir**. 1639-cu il may ayının 17-də Qəsri-Şirində Osmanlı imperatorluğu ilə Səfəvi dövləti arasında XVIII əsrin birinci rübünə kimi qüvvədə qalan sülh müqaviləsi imzalanır. Azərbaycanın Səlcuq imperiyası tərkibində olduğu zamanlardan fərqli olaraq Osmanlı-Səfəvi qarşıdurması fonunda azərbaycançılıq ideyası yeni istiqamətlərdə inkişaf edir, yeni etno-milli və dini çalarlar qazanır. Belə ki, 1587-ci ildə qızılbaşlar 16 yaşlı Abbası Qəzvində şah elan etdikdən sonra dövlətin idarə işlərində üstünlük əldə etmək üçün feodal zümrəsinin daxilində olan Azərbaycan (türk) və İran (fars) etnik ünsürləri təmsil edən bu iki əsas qrup bir-biri ilə mübarizə aparırdılar. Osmanlı-Səfəvi müharibələrinin gedişində təhlükəsizlik tədbirləri adı altında 1598-ci ildə ölkənin paytaxtı Qəzvindən İsfahana köçürüldü. Nəticədə, ölkənin idarə olunmasında başqa etnik nümayəndələr, xüsusilə İran ünsürləri artdı. I Şah Abbas tanınmış qədim İran nəsil nümayəndələrini müdafiə etməyə, onları yüksək dövlət vəzifələrinə irəli çəkməyə başladı. I Şah Abbas Osmanlı qoşununa qarşı “yandırılmış torpaq” siyasətini tətbiq edərək Araz çayının sol sahilini viran etdirdi, yerli əhali köçürüldü, daşınması mümkün olmayan hər şey məhv edildi. Bununla da Cənubi Qafqazda yaşayan azərbaycanlıların məcburi köçürülməsi başlandı. Əhalinin zorla İsfahana, Mazandarana və başqa İran vilayətlərinə köçürülməsi, ölkənin talan edilməsi, Naxçıvan, Culfa və digər Azərbaycan bölgələrinin yandırılması azərbaycanlılar üçün böyük fəlakətlər gətirdi. Bu dəhşətli dağıntılar, aclıq, soyğunçuluq və iqtisadi tənəzzül Osmanlı ilə müharibənin ayağına yazılır, xalqa təlqin edilirdi. Nəticədə bütün bunlar xalqın azərbaycançılıq ruhunda, məişət həyatında, mübarizəsində, mədəniyyətində, ədəbi yaradıcılığında öz əksini tapdı. XVI əsrin 90-cı illərində Osmanlılara qarşı mübarizə tariximizə Cəlalilər hərəkatı kimi daxil edilmiş və bu mübarizədə iştirak edən xalqın şücaəti, igidliyi, ona rəhbərlik edən Azərbaycan türkü Koroğlunun qəhrəmanlıqları “Koroğlu” dastanında hərtərəfli əks olunmuşdur. “Koroğlu” dastanında azərbaycançılıq ideyası öz əksini daha parlaq şəkildə tapmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2012-ci il fevralın 22-də xalq qəhrəmanı Koroğlunun abidəsinin açılışındakı nitqində demişdir: “Koroğlu obrazı vətənpərvərlik, igidlik, mərdlik, şücaət obrazıdır. Koroğlu Azərbaycan xalqına xas olan bütün gözəl xüsusiyyətləri özündə əks etdirir. Vətənpərvərlik kimi bu gün də çox vacib olan amil Koroğlu obrazında bariz şəkildə özünü göstərir” [26].

**Nadir şah Əfşar hakimiyyəti və azərbaycançılıq**. Türklərin hücumları İran Səfəvi dövlətinin bütün varlığını təhlükə altına aldığı bir vaxtda Əfşar tayfasından olan Nadir kimi bir şəxsiyyət Osmanlı İmperiyasına qarşı mübarizəyə qalxır. Osmanlıdakı siyasi vəziyyətdən istifadə edən Nadir (dövlət çevrilişi nəticəsində Sultan III Əhmədin hakimiyyəti devrilmişdi) onlara qarşı müharibəyə başlayır. Artıq 1730-cu ildə o, Həmədan, Təbriz,

Marağa və Ərdəbili osmanlılardan təmizləyir. Lakin bu zaman Xorasanda baş verən qiyamla əlaqədar Nadir ora qayıdır. Bu zaman öz nüfuzunu möhkəmləndirmək məqsədilə İrəvan istiqamətində hücuma keçən Şah II Təhmasib məğlub olur və osmanlılar Təbrizi yenidən tuturlar. 1732-ci ildə Kirmanşah şəhərində osmanlılarla səfəvilər arasında bağlanan müqaviləyə görə İrəvan, Gəncə, Tiflis, Şamaxı, Şirvan və Dağıstan Türkiyəyə verilir. Bu hadisədən olduqca narazı qalan Nadir həmin ildə Xorasandan qayıdaraq II Təhmasibi taxtdan salır və onun oğlu 8 aylıq Abbas Mirzəni III Abbas adı ilə taxta çıxarır. Elə bu vaxtdan Nadir faktiki olaraq İran dövlətini idarə etməyə başlayır. Osmanlı əleyhinə İranla yaxınlaşmaq məqsədi güdən Rusiya 1732-ci ildə İranla bağladığı sülh müqaviləsinə uyğun olaraq Kürdən cənuba Xəzər sahili vilayətlərini İrana qaytarır. Bunun ardınca Azərbaycanın şimal torpaqlarına yürüşə başlayan Nadir 1735-ci ildə ruslarla bağladığı müqaviləyə uyğun olaraq Bakı və Dərbəndi də geri qaytarır.

Nadir Səfəvilər dövlətinə məxsus olan böyük ərazilərin demək olar ki, hər metrini öz qılıncının gücünə geri qaytarmışdı. Qafqazın geri qaytarılması, Osmanlı və Rusiya kimi qüdrətli dövlətlərin geri çəkilməyə məcbur edilməsi Nadirin nüfuzunu xeyli gücləndirdi [12, s. 293].

1736-cı ilin əvvəlində Nadir qışlamaq üçün Muğana gedir. Şah III Abbasın qəflətən ölümündən istifadə edən Nadir 1736-cı ilin martında toplanmış qurultayda özünü şah elan edir.

Nadir köhnə bəylərbəylikləri ləğv edərək Azərbaycan adı altında vahid inzibati bölgü yaradır. Bölgünün mərkəzi Təbriz, hakimi isə Nadir şahın qardaşı İbrahim olur. Beləliklə də azərbaycançılıq məfkurəsi yeni vüsət alır. Belə ki, şahlıq taxt-tacı məsələsinin həll edildiyi mühüm bir tədbir Məşhəddə, İsfahanda deyil, məhz Azərbaycan ərazisində keçirilmişdir [12, s. 294]. Çox güman ki, belə bir ciddi tədbiri Azərbaycan ərazisində keçirməklə Nadir şah Cənubi Qafqazın birdəfəlik geri qaytarılmasını və ya özünün Azərbaycan türklərinə məxsusluğunu göstərmək istəyirmiş. Nadirin şahlıq taxtına yiyələnməsi və Əfşarlar dövlətinin əsasını qoyması məhz Muğanda – Azərbaycanda baş verdi [12, s. 294].

**Şimali və Cənubi Azərbaycan xanlıqları və azərbaycançılıq**. XVIII əsrin ortalarına yaxın Azərbaycan feodal xanlıqlar arasında parçalandı. Qarabağ, Şəki, Şamaxı, Gəncə, Bakı, Cavad, Naxçıvan, Dərbənd, Təbriz, Urmiya, Ərdəbil, Maku, Marağa, Xoy, Qaradağ və Sərabda kiçik feodal dövlətlər – xanlıqlar meydana çıxdı. Bunlardan əlavə, Azərbaycanda daha kiçik feodal hökmdarlıqlar – İlisu, Ərəş, Qutqaşen, Qazax və Şəmşəddil sultanlıqları, Dağlıq Qarabağda isə "Xəmsə" (beşlik) adlanan Vərəndə, Çiləbörd, Gülüstan, Dizaq, Xaçın məlikləri var idi. Sultanlıqlar və məlikliklər, adətən xanlıqlardan asılı idilər. Nəticədə, Azərbaycan ərazisi öz müstəqil iqtisadi həyatı ilə yaşayan ayrı-ayrı hökmdarlıqlardan ibarət oldu, artıq vahid siyasi və iqtisadi mərkəz yox idi. İctimai fikirdə azərbaycançılığı bir məfkurə kimi ortaya qoymaq cəhdləri oldusa da, ayrı-ayrı xan, sultan, məlik və bəylər öz müstəqilliyini qorumağa çalışır, öz mənafeləri naminə ölkəni pərakəndə vəziyyətdə saxlamaq istəyirdilər. Bu mövqedən çıxış edən feodallar, eyni zamanda xanlıqları birləşdirərək vahid bir

dövlət yaratmaq siyasəti yürüdənlərə, azərbaycançılığı məfkurələrdə saxlamaq istəyənlərə qarşı çıxırdılar.

**Rusiya istilası və azərbaycançılıq**. XIX əsrin əvvəllərində İran və Rusiya arasında baş vermiş iki müharibə, 1804-1813[19] və 1826-1828-ci illər müharibələri, Azərbaycanın iki yerə parçalanması ilə nəticələndi. Bu parçalanmanı son olaraq rəsmiləşdirən Türkmənçay müqaviləsi nəticəsində "eyni tarixi köklərə malik, tarixən eyni ərazidə yaşayan, vahid bir dildə danışan, eyni mədəniyyətə və həyat tərzinə malik vahid bir xalq iki hissəyə ayrılmış oldu" [8, s.6]. Ruslar şimalda işğal etdikləri xanlıqları Azərbaycan adlı əyalət adı altında birləşdirərək bu işğallarına bəraət qazandırdılar. Bununla belə, Azərbaycanın şimalı sosial-iqtisadi, siyasi və mədəni baxımdan daha qabaqcıl olan Rusiya imperiyasının tərkibində yaşayan digər xalqların inkişafı ilə şərtləndi. Nəticədə, bu "birlik" (əslində işğal) Azərbaycanın şimalında milli birliyin, milli şüurun, millətin yaranması və formalaşmasına təkan verdi, eyni zamanda azərbaycançılığı da sürətləndirdi [21, s. 32].

Qacarlar da Cənubda Azərbaycan adlı əyalətlərə xüsusi diqqət yetirməyə başladılar, azərbaycanlıların iqtisadi və hərbi qüdrətlərinə, birliklərinə söykəndilər, onlara daha çox etibar etdilər. Bununla belə, Qacarların hakimiyyəti altında yaşayan Azərbaycan türkləri isə onlara münasibətdə milli məhdudiyyəti, milli ayrı-seçkiliyi güclü və kobud şəkildə hiss etməsələr də, vəhşi istismara, dilənçi həyat tərzinə düçar oldular [21, s. 32]. "Gülüstan"dan, "Türkmənçay"dan üzü bu yana Azərbaycan xalqı neçə dəfələrlə ayağa qalxdı, milli mənsubiyyətini, dilini, mədəniyyətini əzmək istəyənlərə öz əzmkarlığını nümayiş etdirdi. Cənubi Azərbaycanda Səttar Xanın, Bağır Xanın, Şeyx Məhəmməd Xiyabaninin başçılığı altında milli-azadlıq, milli-demokratik ruhlu inqilablar baş verdi. Bu hərəkatlar İran irticasının və onun xarici himayədarlarının əlilə yatırılsa da, əslində onlar Azərbaycan və azərbaycançılıq uğrunda ideoloji mübarizə idi [Bax: 11].

**Azərbaycan Demokratik Respublikası (ADR) və azərbaycançılıq**. 1918-ci ilin may ayının 28-də yaranmış və 23 ay yaşamış ADR-in mövcudluğu və fəaliyyəti dövründə azərbaycançılıq beynəlxalq məna kəsb etdi. Belə ki, 28 may tarixində Tiflis şəhərində Azərbaycan Milli Şurası tərəfindən Azərbaycan istiqlalı haqqında elan edilmiş bəyannamə (İstiqlal Bəyannaməsi) may ayının 30-da radioteleqramla o zamankı dünyanın əsas siyasi mərkəzləri hesab olunan İstanbul, Berlin, Vyana, Paris, London, Roma, Vaşinqton, Sofiya, Buxarest, Tehran, Madrid, Haaqa, Moskva, Stokholm, Kiyev, Xristianiya, Kopenhagen və Tokio kimi şəhərlərə göndərildi. Beləliklə, Azərbaycanın şimal hissəsində milli dövlətin

[19] Gülüstan müqaviləsi (12 oktyabr, 1813) 1804-1813-cü illər İran-Rusiya müharibəsini sonuclandıran "sülh" müqaviləsi kimi tarixə yazılsa da, əslində Azərbaycanın ikiyə parçalanmasını, İrəvan və Naxçıvan xanlıqlarını istisna etməklə, Azərbaycanın şimal xanlıqlarının Rusiya tərəfindən işğalının 1-ci mərhələsini rəsmiləşdirdi, eyni zamanda başda imperator Bonapart Napoleon olmaqla Fransanın İran siyasətində uğursuzluğunu təsbit və təsdiq etdi. Belə ki, İran qoşununu Avropanın o dövr üçün inkişaf etmiş ordu sistemləri səviyyəsində təşkil edən Fransa hərbi müşavirləri Napoleonun işğalçılıq planlarının davamı kimi 1803-cü ilin iyul ayının 10-da İranı Rusiyaya qarşı müharibəyə təhrik etdi. Nəticədə 1812-ci ilin dekabrında Moskva yaxınlığında Borodino döyüşündə məğlub olan fransızlar İranı da taleyin hökmünə buraxıb aradan çıxdılar və İran da təqribən 1 ay sonra Gülüstan müqaviləsini imzalamalı oldu. Fransa bu müharibədə qalib gəlsəydi, onda yəqin ki, biz və oxucularımız başqa bir tarixi oxuyardıq.

bərpa edildiyi, burada islam və türk dünyasında ilk demokratik idarə üsulunun bərqərar olunduğu və Azərbaycan türklərinin də öz müqəddəratını özlərinin təyin etmək istəkləri dünyaya bildirildi [16, s. 44]. 1920-ci il yanvar ayının 11-də isə Paris Konfransının Ali Şurası Azərbaycan və Gürcüstanın istiqlaliyyətinin de-fakto tanınması haqda yekdilliklə qərar qəbul etdi [16, s. 30]. Bir çox ölkələr – Belçika, İsveçrə, Hollandiya, Çexiya, Slovakiya Bakıda öz konsulluqlarını açmağa başladılar. İtaliya hökuməti isə burada öz nümayəndəliyini yaratdı. 1920-ci ilin aprelin ortalarında Azərbaycan parlamenti İngiltərə, Fransa, İtaliya, ABŞ və başqa ölkələrdə diplomatik nümayəndəliklərinin açılması haqqında qanun qəbul etdi. Bakıda 20-dən çox ölkənin diplomatik missiyası fəaliyyət göstərirdi.

Azərbaycan Cümhuriyyəti öz fəaliyyətində milli mədəniyyətin - təhsil, ədəbiyyat, elm və incəsənətin inkişaf etdirilməsinə xüsusi diqqət yetirirdi. Hökumətin 1918-ci il 28 avqust tarixli qərarı ilə bütün ibtidai tədris müəssisələrində təhsil ana dilində aparılır, eyni zamanda dövlət dili icbari qaydada tədris olunurdu.

23 aylıq ömür sürməsinə, yenidən rus işğalına məruz qalmasına baxmayaraq, cümhuriyyətimiz tarixə və dünya siyasi xəritəsinə əbədi olaraq "Azərbaycan" adını yazdı, "azərbaycançılıq şüarı"nı sonrakı nəsillərə ötürdü. Cümhuriyyətin ideyaları bütün dünyanı dolaşdı, dünya azərbaycanlılarını birləşdirən əvəzsiz dəyərlərə çevrildi [23].

**Rza şah və Məhəmməd Rza şahın anti-Azərbaycan siyasətinin azərbaycançılığın güclənməsinə təsiri**. Pəhləvi şahlıq rejiminin İranda hakimiyyətə gəldiyi vaxtdan (1925) İslam inqilabına kimi (1979) dövlətin hakim ideologiyasının əsasını "vahid İran milləti" nəzəriyyəsi təşkil edirdi. Bu ideologiyanın nüvəsində fars şovinist millətçiliyi – paniranizm dururdu və rejim bu siyasəti xüsusilə ölkənin maarif və mədəniyyət sahələrində daha ciddi şəkildə həyata keçirirdi. Onlar belə güman edirdilər ki, qısa bir müddət ərzində fars dili bazasında həyata keçiriləcək icbari təhsil fars şovinizmi ruhunda yeni nəsil tərbiyə edəcəkdir. Hakim dairələr tərəfindən həyata keçirilən farslaşdırma siyasəti, ilk öncə sayına görə ölkənin ən böyük millətlərindən biri olan azərbaycanlılara doğru yönəlmişdi. Bu siyasət Güney Azərbaycanın bütün təhsil sistemini, ədəbiyyatını, heykəltəraşlıq, rəssamlıq, teatr, kino, radio, televiziya, musiqi, mətbuat sahələrini milli əsasda inkişafdan xeyli geridə qoydu. Şahın və onun xarici himayədarlarının gözləntilərinin əksinə olaraq, bu siyasətə qarşı azərbaycanlılar yenidən ayağa qalxdılar. Güney Azərbaycanda S. C. Pişəvərinin rəhbərliyi altında yaradılmış Milli Hökumətin hakimiyyəti illərində (1945-1946-cı illər) bu diyarda Azərbaycan dili rəsmi dövlət dili elan edildi (06.01.1946) və bu əsasda da təhsilin, xalq təsərrüfatının bütün sahələrinin, mədəniyyət və incəsənətin inkişafı üçün güclü zəmin yaradılmış oldu. Azərbaycan Milli Hökuməti İrandakı azərbaycanlılara milli mənlik, milli kimlik hisslərini aşıladı və onların milli şüurunu formalaşdırdı. Azərbaycanda bərqərar olan bu rejim, ilk olaraq İran kimi çoxmillətli bir ölkədə milli-mədəni, hətta siyasi muxtariyyət əldə etmək, federativ dövlət quruluşuna nail olmaq imkanını təsdiqlədi. Milli Hökumətin həyata keçirdiyi bir illik islahat tədbirləri milli dövlətçiliyə güclü inam yaratdı, onun

mümkünlüyünü, onun qurulması yollarını, formasını göstərdi, **azərbaycançılığı** çoxmillətli İran miqyasında yaşayan digər millət və xalqlar üçün bir nümunə etdi [Bax:20].

**1978-1979-cu illər İran inqilabı, İİR-in yaranması və onun Şimali Azərbaycanda azərbaycançılıq ideyasının inkişafına təsiri.** İranda şah rejiminin süqutuna və devrilməsinə gətirib çıxaran 1978-1979-cu illər inqilabının qələbəsindən sonra burada yaşayan millətlər və xalqlar bəzi nisbi azadlıqlar əldə etdilər. Elə bu səbəbdən də Sovet İttifaqının ən yüksək kürsüsündən – Sov.İKP-nin XXVI qurultayında İrandakı sözügedən inqilaba "son illərin beynəlxalq həyatında baş verən böyük hadisə" kimi qiymət verildi [22, s.16].

Böyük məhdudiyyətlər olsa da, Azərbaycan dilində kitablar, qəzet-jurnallar ("Azərbaycan", "Araz", "Azadlıq", "Azərbaycan-e ayənde", "Vətən uğrunda", "Odlar yurdu", "Oxtay", "Çənlibel", "Azərbaycan kargərləri", "Ulduz" və s. kimi qəzetlər, "Azərbaycan səsi", "Varlıq", "Koroğlu", "Yoldaş", "Molla Nəsrəddin" və s. kimi jurnallar) çap edildi, şəxsi təşəbbüslər əsasında Azərbaycan dilini öyrədən kurslar açıldı, bəzi siyasi təşkilatlar və cəmiyyətlər fəaliyyətə başladı, bir sıra mədəniyyət ocaqları, o cümlədən Tehran və Təbrizdə ayrı-ayrılıqda Azərbaycan yazıçılar və şairlər cəmiyyəti işə başladı [8, s. 13]. Bu fəaliyyətlərin əsas qayəsini azərbaycanlıları vahid Azərbaycan tarixi və onun mənəvi sərvətləri ilə tanış etmək, vahid tarixi-mədəni köklərə malik Şimali və Cənubi Azərbaycan arasında elmi, ədəbi və mədəni əlaqələrin yaranmasına, bu sahədə körpü salınmasına yardım etmək və bu dayaqlar üzərində Cənubi Azərbaycanın inqilabi və demokratik ruhlu ədəbiyyat və incəsənətini inkişaf etdirmək kimi mühüm vətəndaşlıq məsələləri təşkil edirdi. Bu məsələlərin qoyuluşunda Vahid Azərbaycan xalqının mədəni irsinin mühüm hissəsini təşkil edən Şimali Azərbaycanın elm və mədəniyyəti ilə tanışlığa, burada elm, mədəniyyət və incəsənətin müxtəlif sahələrindəki nailiyyətlərdən faydalanmağa, bunların həyata keçirilməsi üçün zəruri olan əlaqələrin yaradılmasına, Şimalla Cənub arasında mənəvi-mədəni əlaqələrin daha da canlandırılmasına və bu əsasda  Cənubi Azərbaycanda maarif və mədəniyyətin, elm və incəsənətin inkişafına xüsusi diqqət yetirilməyə başladı [Bax: 8, s. 13].

Elə bu dövrdən başlayaraq o zaman Azərbaycan SSR KP MK-nın I katibi olan Heydər Əliyev sözügedən əlaqələrin möhkəmləndirilməsi, azərbaycançılığın ideyadan ideologiyaya çevrilməsi istiqamətində ilk ciddi addımlarını atdı. 1978-ci ildə H. Əliyevin həyata keçirdiyi fəaliyyət nəticəsində Azərbaycan dili Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili kimi Azərbaycan Konstitusiyasına düşdü [Maddə 73]. Hesab edirik ki, bu, ulu öndərin Azərbaycan xalqı qarşısındakı misilsiz xidmətlərindən biri idi [10]. Onun israrlı təşəbbüsləri nəticəsində Azərbaycan SSR-də "Cənubi Azərbaycan" adı elmi-siyasi məfhum kimi rəsmiləşdirildi; Azərbaycan Yazıçıları İttifaqında, Azərbaycan Radio və Televiziya Verilişləri Komitəsində, AMEA-nın Ədəbiyyat və  Şərqşünaslıq institutlarında müvafiq şöbələr təsis edilərək fəaliyyətə başladı, Azərbaycan Yazıçılar İttifaqının orqanı olan "Azərbaycan" jurnalında Mirzə İbrahimovun, Abbas Zamanovun, Sirus Təbrizli və bu kimi başqa ədiblərimizin tərtibatında "Cənubdan gələn səslər" adı altında silsilə yazılar  dərc edildi və bununla da azərbaycançılıq ideyasının rəsmi ideologiyaya çevrilməsinin ilkin mərhələsi başlandı.

**H. Əliyevin 1982-ci il təyinatı və azərbaycançılıq ideyasının ideologiyaya çevrilməsinin ikinci mərhələsi**. Azərbaycançılıq ideyasının dünya azərbaycanlılarının ümummilli ideologiyasına çevrilməsi işində H. Əliyevin 1982-ci ildə Azərbaycan Sovet Sosialist Respublikasının I katibi vəzifəsindən azad edilərək Moskvaya aparılması, daha yüksək məqama – SSRİ MK Siyasi Bürosu üzvlüyünə, eyni zamanda SSRİ baş nazirinin birinci müavini vəzifəsinə təyin edilməsi xüsusi və önəmli bir mərhələni təşkil etdi.

H.Əliyevin yeni vəzifəyə təyinatı ilə bağlı Azərbaycan və azərbaycançılıq ətrafında beynəlxalq dairələrdə belə hay-küyə səbəb olan təbliğat kompaniyalarına rəvac verildi. İran əsilli Mehrdad Azəri adlı müəllif özünün “Azərbaycan və nəğmeha-ye taze-ye estemargəran” (Azərbaycan və istismarçıların yeni nəğmələri) adlı kitabında bu həssas məsələlərə işarə edərək yazırdı: “1982-ci ilin 23 noyabr səhəri BBC radiosu SSRİ rəhbərliyində baş vermiş kadr dəyişikliyi barədə xəbəri İran Azərbaycanına xəbər verdi. Bu xəbər və şərhlərin London radiosu tərəfindən yayılması üçün əsas bəhanə Sovet Azərbaycanı Kommunist Partiyasının I katibi Heydər Əliyevin yüksək məqama – Sov.İKP MK Siyasi Bürosuna üzvlüyünə, eyni zamanda SSRİ baş nazirinin birinci müavini vəzifəsinə təyin edilməsi idi. BBC şərhçiləri bu xəbəri bəhanə edərək SSRİ-nin İran Azərbaycanına da göz tikmələri barədə danışır və Əliyevin iki Azərbaycanın bütövlüyü barədə fikirlərini ortaya qoyurdular. Bu şərhlər zamanı o da deyildi ki, guya SSRİ baş nazirinin müavini (H. Əliyev nəzərdə tutulur – S.B.) keçən ilin yayında Sovet Azərbaycanında olan xarici diplomatlarla görüşü zamanı[20] onlara Sovet Azərbaycanının nailiyyətlərindən danışmış, eyni zamanda İran Azərbaycanındakı geriliyi, yoxsulluğu təəssüf hissi ilə qeyd etmişdir. Sonda isə demişdir ki, Sovet Azərbaycanı xalqı iki Azərbaycanın birliyini və İran Azərbaycanı xalqının da rifah və səadət içərisində yaşamasını arzu edir”[13, s. 5].

Müəllif davamında yazır: "BBC radiosunun bu şərhlərində o da təlqin edilirdi ki, cənab Əliyevin bu məqama yüksəldilməsi onun Azərbaycan barədəki fikirləri, eləcə də SSRİ-nin yeni rəhbərliyinin İran İslam inqilabının yayılması və onun SSRİ-nin müsəlman respublikalarına təsiri qorxusu ilə bağlı idi...” [13, s.5].

**Haşiyə:** II Dünya müharibəsi öncəsi də Azərbaycan faşist Almaniyasının işğalçılıq planlarında xüsusi yer tuturdu. Rozenberqin milli planına görə, Almaniya SSRİ üzərində qələbə qazandığı təqdirdə, türk xalqlarının, o cümlədən də azərbaycanlıların yaşadıqları ərazilərdə “Böyük Türküstan” dövləti yaradılması nəzərdə tutulurdu. Bu dövlətin də idarəçiliyi Almaniyanın ənənəvi müttəfiqi olan və həmin xalqların milli adət-ənənələrinə, psixologiyasına yaxşı bələd olan Türkiyəyə həvalə edilməli idi. O üzdən də İ. V. Stalin bu plana rəğbətlə yanaşacaqları ehtimal olunan türk və müsəlman respublikalarının əhalisini yaşayış üçün heç bir şəraiti olmayan uzaq Sibir və Qazaxıstan çöllərinə sürgün etdirməyə başladı. Böyük vətən müharibəsini yanacaqla təmin edən əsas mərkəzlərdən biri hesab

[20] Kremlin Sütunlu sarayında memarlarla görüşü zamanı mədəniyyət və incəsənət məsələlərindən danışan Heydər Əliyev 20 milyonluq Azərbaycan xalqının dünya mədəniyyətinə və incəsənətinə bəxş etdiyi töhfələri diqqətə çatdırarkən saraydakı uğultuya elə həmin andaca öz qəti təpkisini nümayiş etdirərək demişdir: “Bəli, bəli. Təəccüblənməyin, Arazın o tayında bizim 13 milyona yaxın bacı və qardaşlarımız yaşayırlar”.

olunan Azərbaycandan azərbaycanlıların köçürülməsinin dayandırılması müqabilində İ. V. Stalin tərəfindən Azərbaycan rəhbərliyi qarşısında millətin etnogenezinin dəyişdirilməsi və onun qeyri-türk soykökünə bağlanması şərti qoyuldu. Moskvanın nəzarəti altında Azərbaycan alimləri tərəfindən çox qısa bir zaman kəsiyində 1941-ci ildə rus dilində "Azərbaycan tarixinin qısa oçerki (qədim zamanlardan XIX əsrə kimi)"[29] adlı elmi əsər yazılaraq ortaya qoyuldu, orada azərbaycanlıların hind-avropa ailəsinə mənsub midiyalılardan olduqları təsbit edildi. Bununla da azərbaycanlıların köçürülməsi planı dayandırıldı və beləliklə, bu "yalan" böyük bir xalqı qarşıda gözləniləcək fəlakətlərdən xilas etmiş oldu, amma uzun illər boyu bu saxtalaşdırma, bu yalan soykökümüz barədə dünya tarixşünaslığında böyük mübahisələrə səbəb oldu və hələ də davam etməkdədir.

Elə bu səbəbdən Rusiya, Azərbaycan, İran, Amerika və Qərb tarixşünaslığında Azərbaycan məsələsi, azərbaycançılıq yenidən gündəmə gəldi, sözügedən məsələlərlə bağlı çoxlu sayda ideya-siyasi yönümlü yazılar ortaya qoyuldu, elmi-tədqiqat işləri aparıldı və müxtəlif mövqelər sərgiləndi. Azərbaycan və azərbaycançılıq yeni təzyiqlər qarşısında dayanmalı oldu.

**SSRİ-nin dağılması, Qarabağ böhranı, müstəqil Azərbaycan və azərbaycançılıq məfkurəsinin ideyadan rəsmi dövlət ideologiyasına çevrilməsi**. SSRİ-nin dağılması ilə ruslar Azərbaycan birliyindən, bu birlik yaranacağı halda, onun iqtisadi qüdrətindən, regionda əldə edəcəyi nüfuzdan, beynəlxalq miqyasda təsirindən və onu müşayiət edən **azərbaycançılıq ideologiyasından** qorxaraq, regionda mövqeyini, xammal mənbələrini və təchizat bazalarını itirmək təhlükəsi qarşısında dayanaraq ermənilərin əlilə Qarabağ məsələsinə rəvac verdilər. Belə bir şərait İranın da karına gəldi. Yeni islam rejimi də azərbaycançılıq ideyalarının güclənməsindən, onun özü üçün fəsadlarından ehtiyatlanaraq Cənubu Azərbaycan birliyini parçalamağa, Azərbaycan birliyi ideyasının qarşısını almağa və bu işdə rus-erməni amilindən məharətlə istifadə etməyə başladı [Bax: 24].

1988-ci il 25 yanvar tarixində Ermənistan SSR-də yaşayan azərbaycanlı əhalinin kütləvi şəkildə deportasiyası başlandı, 1988-ci il fevral ayının 12-də isə Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətində (DQMV) erməni daşnakların ilk separatçı çıxışlarına rəvac verildi. Ermənilər Topxana meşəsiniqırmağa başladılar. Bununla bağlı Bakının "Azadlıq" meydanında etiraz nümayişləri təşkil edildi. 1988-ci ilin fevral ayının 19-da İrəvanda türklər – azərbaycanlılar əleyhinə ilk mitinqlərin başlanmasına cavab olaraq, həmin gün Bakıda da etiraz mitinqləri başladı. Sonrakı mərhələdə bu mitinqlər böyük xalq hərəkatına çevrildi, milli azadlıq xarakteri aldı.

1988-1990-cı illərdə Azərbaycanda başlanmış milli demokratik hərəkat fəal bir şəkildə ölkənin müstəqilliyinin bərpasına istiqamətlənmişdi. 1989-cu il sentyabrın 23-də sovet respublikaları arasında Azərbaycan ilk olaraq Suverenlik haqqında qərar qəbul etdi. Bu hərəkatı yatırmaq məqsədilə 1990-cı il yanvarın 20-də SSRİ rəhbərliyinin göstərişi ilə Azərbaycana qoşun yeridildi. Törədilən vəhşiliklər nəticəsində yüzlərlə Azərbaycan vətəndaşı həlak oldu və yaralandı.

20 Yanvar faciəsindən sonra Moskvada Heydər Əliyevin Azərbaycanın daimi nümayəndəliyinə gələrək, xalqının ağır günündə onun yanında olduğunu nümayiş etdirməsi bütün dünyaya səs saldı və hər tərəfdən Azərbaycanın haqq işini müdafiə edən səslər ucaldı, azərbaycançılıq məfkurəsi dünyada yaşayan bütün azərbaycanlıları çulğaladı. Bu hərəkəti ilə H. Əliyev Azərbaycan xalqının milli özünüdərkinin bərpası və müstəqillik uğrunda mübarizəsinin uğurla sona çatması üçün böyük xidmətlər göstərmiş oldu. Naxçıvana qayıtdıqdan sonra Naxçıvan MR Ali Sovetində Azərbaycanın 1918-1920-ci illərdə dalğalanmış üçrəngli bayrağını xüsusi qərarla Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin binası üzərində ucaltdı. Bu addımın özü xalqın milli azadlıq hərəkatına yeni keyfiyyət, yeni ruh və optimizm gətirdi [10].

Azərbaycan xalqının vətənpərvər qüvvələrinin müstəqillik uğrunda dönməz mübarizəsi nəticəsində 1991-ci il avqustun 31-də Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən dövlət müstəqilliyinin bərpa edilməsi haqqında Bəyannaməsi, 1988-1991-ci illərin antisovet xalq hərəkatı nəticəsində isə 18 oktyabr 1991-ci ildə “Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında” Konstitusiya Aktı qəbul olundu və beləliklə, Azərbaycan XX əsrdə ikinci dəfə (1991-ci il, 18 oktyabr) müstəqil dövlət olaraq öz varlığını dünyaya elan etdi.

1993-cü ildə Heydər Əliyevin yenidən hakimiyyətə gəlişi Azərbaycan dövlətçiliyini xilas etməklə yanaşı, xalqımızın vahid ideologiya ətrafında birləşdirilməsinin əsasını qoydu. Onun irəli sürdüyü milli ideya Azərbaycanın bütün vətəndaşlarını, dünya azərbaycanlılarını və Azərbaycana bağlı bütün insanları bir məqsəd, bir ideya ətrafında birləşdirə bildi. Bu vahid bir dövlətin formalaşmasında, müasir, güclü Azərbaycan ölkəsinin yaranmasında ən böyük rola malik olan **AZƏRBAYCANÇILIQ** ideyası idi.

Heydər Əliyevin Azərbaycana qayıdışı, Əsas Qanunun müzakirəsi və referendum yolu ilə qəbulu (1995) zamanı millətin dilinin “Azərbaycan”, adının “azərbaycanlı” kimi rəsmiləşdirilməsi ilə əslində **azərbaycançılığın** rəsmi dövlət ideologiyası kimi təsbiti baş vermiş oldu. Millətin adı ilə bağlı məlum əks təpkilər də baş verdi. Amma, nəhayətdə, H. Əliyevin “Bir millət, iki dövlət” şüarı ilə bütün mübahisəli məsələlərə son qoyuldu. Bu o demək idi ki, biz azərbaycanlıyıq və türk soykökündənik. Mətbuat səhifələrində bununla bağlı müzakirələrə də geniş yer verildi. Ölkə prezidenti H. Əliyevin bu mövqeyi böyük çoxluqla müdafiə olundu. Azərbaycanın Qeyri-Hökumət Təşkilatları Formunun prezidenti Rauf Zeyni ölkə rəhbərinin mövqeyindən çıxış etməklə haqlı olaraq qeyd edir ki, "Ölkənin bütün milli maraqları azərbaycançılıq düşüncəsinin içindədir" [7, 13.07.2012]. O, eyni zamanda Qarabağ probleminin həllini də dünya azərbaycanlılarının birgə səyində, onların Azərbaycan dövlətinə dəstəyində, azərbaycançılığın təntənəsində görür.

Azərbaycançılıq ideyasının ən mühüm komponentləri, təməl olaraq “dövlətçilik” və “vətənpərvərlik” ideyalarıdır. Məhz azərbaycançılıq ideyası Azərbaycana qarşı bir çox istiqamətlərdən yönələn təhdidlərin, ölkəmizi etnik bölücülük əsasında parçalamaq cəhdlərinin qarşısında güclü ideoloji və siyasi sipər oldu.

H. Əliyev tərəfindən qoyulan milli birlik siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün Azərbaycanda bütün sahələr üzrə müşahidə olunan inkişaf istiqamətlərinin arxasında milli birlik formulu, sabitlik amili dayanır. Məhz bu milli birlik ölkəmizin dünyaya inteqrasiyasının tam, kompleks halda həyata keçməsinə təminat verir.

**Nəticə.** Bu gün Azərbaycanın şimalında, onun xalqını, sərvətini qorumaq üçün güclü milli ideologiya formalaşır, onu əsaslandıra və möhkəmləndirə biləcək uzunmüddətli iqtisadi siyasət konsepsiyası hazırlanır, sarsılmaz milli əsaslarda dövlət quruculuğu həyata keçirilir.

Artıq Azərbaycan dili, Azərbaycan tarixi və mədəniyyətini azərbaycançılıq məfkurəsi işığında dünyaya tanıtmaq üçün konsepsiyanın əsası vardır. Məhz H. Əliyevin sayəsində azərbaycançılıq təkcə milli ideologiya kimi yox, həm də çox qüvvətli dövlətçilik təlimi kimi nüfuz qazandı. Onun azərbaycançılıq nəzəriyyəsi sayəsində Azərbaycan dövləti çağdaş dünya inteqrasiyasında beynəlxalq diqqət mərkəzinə keçdi, sivil dövlət nümunəsi kimi həm Qərb, həm də Şərq aləmində qəbul olundu. H. Əliyevin neft strategiyası, regionların iqtisadi inkişaf konsepsiyası, Azərbaycanın Avropa Şurasına qəbul olunması, ölkənin ərazi bütövlüyü uğrunda aparılan dönməz mübarizə - bütün bunlar məhz azərbaycançılıq ideologiyasına dayanır, onu daxili və xarici siyasətimizin nəzəri-tarixi arsenalı kimi möhkəmləndirmək işinə xidmət edir [7, 13.07.2012]. Bu gün dünya azərbaycanlılarını birləşdirən vahid ümummilli ideologiya azərbaycançılıqdır.

## From the History of Azerbaijanism: From Idea to Ideology


### Summary

**Keywords:** Azerbaijan, ethnogenesis, Azerbaijaniism, statehood, independence

Today, in the independent Republic of Azerbaijan, a strong national ideology is being formed to protect its people and wealth, a long-term economic policy concept is being prepared that can justify and strengthen it, and state building is being carried out on steady national foundations.

There is already a basis for the concept to introduce the Azerbaijani language, Azerbaijani history and culture to the world in the light of the Azerbaijani ideology. It was thanks to the consistent efforts of the great leader Heydar Aliyev that Azerbaijanism gained not only a reputation as a national ideology, but also as a very powerful doctrine of statehood. Thanks to his theory of Azerbaijanism, the Azerbaijani state became the center of international attention in the modern world integration, and was accepted as an example of a civilized state in both the Western and Eastern worlds. H.Aliyev's oil strategy, the concept of economic development of regions, Azerbaijan's admission to the Council of Europe, the irrevocable struggle for the country's territorial integrity and the victory over Karabakh - all of these are based on the ideology of Azerbaijanism and serves to strengthen it as the theoretical and historical arsenal of our domestic and foreign policy.

Today, the single national ideology that unites the world Azerbaijanis is Azerbaijanism.

## Ədəbiyyat siyahısı


1. Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi. Azərbaycan Universitetinin nəşriyyatı, Bakı-2002
2. Heydər Əliyev və müasir Azərbaycan. Bakı-2013
3. Azərbaycan tarixi 7 cilddə: I cild (ən qədimdən b. e. III əsri), II cild (III-XIII əsrin I rübü), III cild (XIII-XVIII əsrlər), IV cild (XIX əsr), V cild (1900-1920-ci illər), VI cild (aprel 1920-iyun 1941), VII cild (1941-2002-ci illər). "Elm", Bakı-2007
4. Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək). I cild, "Çıraq" nəşriyyatı, Bakı-2007
5. Azərbaycan xalqının etnogenezi müzakirə edildi/http://millikimlik.az/news/a-8.html
6. Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyası (Əsas Qanunu). Azərbaycan Dövlət Nəşriyyatı, Bakı-1978
7. "Bakı xəbər" qəzeti, 13.07.2012
8. Cənubi Azərbaycan tarixinin oçerki (1828-1917). "Elm", Bakı-1985
9. Əli Əkbər Vilayəti. Azərbaycan dər douran-e piş əz eslam (Azərbaycan islamdan öncə), "Əmir kəbir", Tehran-2012
10. Hikmət Babaoğlu. Heydər Əliyev azərbaycançılığı haradan və necə başladı.../ http://modern.az/articles/13620/1
11. İradə Sarıyeva. "Gülüstan" və "Türkmənçay" faciəsi Azərbaycançılıq ideologiyasını sarsıda bilmədi, "Bakı xəbər", 6-8 iyul, 2012
12. Mehman Süleymanov. Nadir şah. "Neqarəndişe", Qum (İran)-2009
13. Mehrdad Azəri. "Azərbaycan və nəğmeha-ye taze-ye estemargəran" (Azərbaycan və istismarçıların yeni nəğmələri), yersiz, 1982
14. Milli azadlıq və demokratik hərəkatlar/ www.azerbaijans.com/content_406_az.html
15. "Milli birlik" qəzeti, 16.03.2005
16. Nəsib Nəsibzadə. Azərbaycan Demokratik Respublikası. "Elm", Bakı-1990
17. Ramiz Mehdiyev. Şah İsmayıl Səfəvi ali məramlı tarixi şəxsiyyət kimi/Bakı, 29 noyabr 2012/Trend/ http://az.trend.az/news/politics/2095414.html
18. Rza Şabani.Gəzide-ye tarix-e İran (İran tarixi intixabatı), Tehran, "Əlhudə, 2002
19. Səid Nəfisi. Azərbaycan qəhrəmanı Babək Xürrəmdin. "Elm", Bakı-1990
20. Səməd Bayramzadə. Qılınc həmin qılıncdır. "Bütöv Azərbaycan" qəzeti, 17-23 dekabr 2015
21. Səməd Bayramzadə. Bir daha "Türkmənçay müqaviləsi" haqqında, - Güney Azərbaycan: tarix və müasirlik, "Zərdabi" nəşriyyatı, Bakı-2014
22. Sov.İKP XXVI qurultayının materialları, Bakı, 1981

23. Şövkət Məmmədov. Rəsulzadə və azərbaycançılıq/http://www.azadliq.info/1601.html

24. Talıblı Sübhan. İran İslam Respublikasının Qafqaz siyasətində Dağlıq Qarabağ problemi: 1991-2005-ci illər: tarix elm. üzrə fəlsəfə dok.... dis. avtoreferatı: 07.00.03 / S. Ə. Talıblı; elmi rəh. Ş. Ə. Tağıyeva; AMEA A.A. Bakıxanov adına Tarix İnstitutu. Bakı-2010. 23 s

25. Vahid Ömərov. Azərbaycançılığın qaynaqları: "Kitabi Dədə Qorqud" dastanı və azərbaycançılıq ideyası, "Səs" qəzeti, 01.03.2012

26. Vahid Ömərov. Azərbaycançılığın qaynaqları: "Koroğlu" dastanı və azərbaycançılıq ideyası, "Səs" qəzeti, 02.03.2012

27. Vəli Əliyev, Yusif Yusifov, İlyas Babayev, Hidayət Cəfərov, Aida Məmmədova. Azərbaycan tarixi (Ümumtəhsil məktəblərinin 6-cı sinfi üçün dərslik). "Aspoliqraf", Bakı-2011

28. ИграрАлиев. Очеркистории Атропатены. "Азернешр", Баку-1989

29. История Азербайджана. Краткий очерк (с древнейших времен до XIX века). Из-во Аз ФАН,Баку-1941

30. Кемал Алиев. Античные источники по истории Азербайджана. "Элм", Баку-1986

31. Олжас Сулейменов. Шелковый путь и тюрки/http://www.1news.az/analytics/20131025092922522.html

**Elnur Mustafayev**
AMEA akad. Z. M. Bünyadov adına Şərqşünaslıq İnstitutu,
Din və ictimai fikir şöbəsinin müdiri,
İnstitutun Gənc Alim və Mütəxəssislər Şurasının sədri, fəls.ü.f.d.,
**elnur.mustafayev88@mail.ru**

# MÜSTƏQİLLİK DÖVRÜNDƏ AZƏRBAYCANIN ƏRƏB ÖLKƏLƏRİ İLƏ DİPLOMATİK MÜNASİBƏTLƏRİ (1993-2003-cü illər arasında)

**Açar sözlər:** Heydər Əliyev, beynəlxalq münasibətlər, Yaxın Şərq, İslam Əməkdaşlıq Təşkilatı, xarici siyasət

## 1. Giriş

Özünün zəngin dövlətçilik təcrübəsinə əsaslanaraq dövlətimizin yeni xarici siyasət kursunun əsas istiqamətlərini müəyyənləşdirən ümummilli lider Heydər Əliyevin yeniləşmiş xarici siyasət xəttində, ilk növbədə, bir sıra ən mühüm və təxirəsalınmaz vəzifələrin yerinə yetirilməsi qarşıya qoyulmuşdu.

Həmin vəzifələrdən biri və ən əsası Azərbaycanı beynəlxalq aləmdəki təcrid vəziyyətindən çıxarmaq, ölkəmiz haqqında yaradılmış mənfi ictimai rəyi dağıtmaq, xalqımızın haqq işini dünya ictimaiyyətinə olduğu kimi çatdıraraq, respublikamız ətrafındakı informasiya blokadasını yarmaqdan ibarət idi. Ona görə də yeni xarici siyasət xətti üçün hər şeydən əvvəl müharibə dayandırılmalı və dinc şərait təmin edilməli idi. Bu məqsədlə 1994-cü ilin mayında Ermənistanla atəşkəsə nail olunması, qanunsuz hərbi birləşmələrin buraxılması və ölkə daxilində sabitlik yaradılması yolunda atılan addımlar sayəsində yeni xarici siyasət xəttinin ardıcıllıqla həyata keçirilməsi üçün lazım olan əlverişli dinc şərait yarandı.

Məhz buna görə də dünya birliyinə bərabərhüquqlu üzv kimi daxil olmağa çalışan və müstəqilliyinin ilk addımlarını atan, eləcə də Ermənistanın hərbi təcavüzü nəticəsində ərazi bütövlüyü pozulmuş Azərbaycan Respublikasının xarici siyasətində dünya birliyinə inteqrasiya, ikitərəfli və çoxtərəfli münasibətlər, o cümlədən beynəlxalq və regional təşkilatlarla əlaqələrin yaradılması və inkişaf etdirilməsi ümummilli lider Heydər Əliyevin fəaliyyətinin başlıca istiqamətlərindən birini təşkil edib.

## 2. Heydər Əliyevin İslam Əməkdaşlıq Təşkilatında fəaliyyəti və erməni təcavüzünün beynəlxalq ictimaiyyətə çatdırılması

Yaxın və Orta Şərq ölkələrinin yerləşdiyi region haqlı olaraq ilk insan məskənləri hesab edilir. Dünya tarixində ilk dövlətlərin məhz bu ərazilərdə yaranmasını müxtəlif tarixi faktlar bir daha sübut edir. Minilliklərlə burada yaranmış qədim dövlətlər bütün insan cəmiyyətinə dünya siyasətinin şərtlərini diktə etmiş, uzun tarixi bir müddətə onun əsas istiqamətlərini müəyyənləşdirmişlər.

Azərbaycan müstəqil müsəlman ölkələri ailəsinə qovuşduqdan sonra onlarla əl-ələ verərək həm öz problemlərinin, həm islam dünyasının problemlərinin, həm də dünya siyasəti problemlərinin həllində yaxından iştirak etmək üçün İslam Əməkdaşlıq Təşkilatına üzv olmaq qərarı verdi və bunun üçün dünya səviyyəsində böyük nüfuzu olan bu təşkilata müraciət etdi. 1991-ci ilin dekabrında ona üzv qəbul edildi və ilk andan da bu təşkilatın ən fəal üzvlərindən birinə çevrildi. Bu fəallıq Heydər Əliyev hakimiyyətə gəldikdən sonra daha da artdı, titanik bir əməyə çevrildi. Bunun nəticəsində müsəlman dövlətləri və ölkələri arasında qarşılıqlı əməkdaşlığı möhkəmləndirmək, müsəlman xalqlarının əmin-amanlığını və təhlükəsizliyini, sülh şəraitində yaşamasını təmin etmək, onların rifahını yüksəltmək, mənəvi dəyərlərimizi, mədəniyyətimizi, dinimizi, ənənələrimizi və mədəni abidələrimizi qoruyub saxlamaq və daha da inkişaf etdirmək devizini özünə rəhbər tutan bu böyük beynəlxalq təşkilatla yaxından əməkdaşlıq etmək, onun vasitəsi ilə müsəlman aləminin və bütün dünya ölkələrinin haqq işimizdə dəstəyinə nail olmaq diplomatiyamızın əsas fəaliyyət prinsiplərindən biri oldu. Beləliklə yenicə müstəqillik qazanmış gənc Azərbaycan dövləti önündə müsəlman dövlətlərinin həmrəyliyi, maddi və mənəvi köməyi üçün ümidverici geniş imkanlar açıldı. İƏT, o cümlədən ərəb dünyasının nəhəngləri olan Səudiyyə Ərəbistanı, Misir Ərəb Respublikası, İraq, müsəlman dünyasının liderləri olan İndoneziya, Pakistan, Malayziya və başqa dövlətlərlə də qardaşlıq və dostluq əlaqələri qurmaq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindən biri kimi Heydər Əliyev tərəfindən müəyyənləşdirildi.

Heydər Əliyevin İƏT Baş Katibi ilə 1994-cü ilin noyabrında Bakıda keçirdiyi görüşlər, həmin ilin dekabrında İƏT dövlət və hökumət başçılarının Kasablankada keçirilmiş 7-ci Zirvə Konfransında iştirakı və İƏT Baş Katibi, həmçinin bir sıra üzv dövlətlərin xahişi ilə Asiya ölkələri qrupu adından çıxışı Azərbaycanın mövqeyini təşkilat daxilində daha da möhkəmlətdi və üzv dövlətlər tərəfindən dəstəklənməsi imkanlarını artırdı [7, s. 327]. Bunun nəticəsində, İƏT Zirvə görüşləri tarixində ilk dəfə, Kasablankada "Ermənistan-Azərbaycan münaqişəsi haqqında" siyasi qətnamə qəbul edilmiş, həmin ildən etibarən İƏT-nin BMT ilə əməkdaşlığı üzrə müzakirə edilən problemlər siyahısına "Ermənistan-Azərbaycan münaqişəsi" mövzusunun mütəmadi salınmasına nail olunmuşdur. Həm İƏT Baş Katibliyi, həm də üzv dövlətlərlə aparılmış məqsədyönlü iş nəticəsində, az müddət ərzində İƏT çərçivəsində daha iki − iqtisadi yardımın göstərilməsi, həmçinin Azərbaycanın İslam, mədəniyyət abidələrinin erməni təcavüzkarları tərəfindən məhv edilməsi barədə müvafiq qətnamələr İƏT gündəliyinə daxil edilərək növbəti Zirvə görüşlərində bütün üzv dövlətlər tərəfindən yekdilliklə təsdiq edildi. Gərgin əməyin nəticəsi kimi, siyasi qətnamənin adının dəyişdirilərək daha da gücləndirilməsi və "Ermənistanın Azərbaycana qarşı təcavüzü haqqında" başlığı ilə ilk dəfə, 1996-cı ilin dekabrında Cakartada keçirilmiş İƏT Xarici İşlər Nazirlərinin 24-cü Konfransı və 1997-ci ilin dekabrında Tehrandakı keçirilmiş İƏT dövlət və hökumət başçılarının 8-ci Zirvə görüşündə qəbul edilməsi bu məsləyə dair Azərbaycanın haqlı mövqeyinin dünya ictimaiyyətinə çatdırılmasında əhəmiyyətli rol oynamışdır. Misal olaraq, 1994-cü ilin 13 dekabrında Heydər Əliyev İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin

Dövlət və Hökumət başçılarının Mərakeşin Kasablanka şəhərində keçirilən zirvə toplantısında diqqətləri erməni təcavüzünə çəkərək belə qeyd edirdi: **“Mənim həmvətənlərimin 20 min nəfərindən çoxu öldürülmüş, təqribən 100 min nəfəri yaralanmış və şikəst olmuş, bir milyondan atıq azərbaycanlı öz doğma yurdundan qovulmuş, onların evləri viran edilmiş və yandırılmışdır. Bu adamlar, o cümlədən uşaqlar, qadınlar və qocalar erməni təcavüzkarlarının törətdikləri soyqırımın bütün dəhşətlərini görmüş, qohum-əqrəbalarını itirmişlər. İndi isə sərt qış şəraitində çadır şəhərciklərində dözülməz vəziyyətdə yaşayırlar, soyuqdan donurlar, yoluxucu xəstəliklərə tutulurlar, ərzaq, dərman, pal-paltar sarıdan korluq çəkirlər”** [9, s. 70].

Buradan göründüyü kimi Kasablanka Zirvə görüşündə Heydər Əliyev Ermənistanın təcavüzü nəticəsində ölkəmizin düşdüyü ağır vəziyyəti görüş iştirakçılarına çatdırmaqla müsəlman ölkələrinin dəstəyini qazanır. Bir məsələni xüsusilə qeyd etmək lazımdır ki, Heydər Əliyev bu görüşdə bir müsəlman ölkəsinin başçısı kimi təkcə Azərbaycanın problemlərini yox, eyni zamanda digər bölgələrdə yaşayan müsəlman və qeyri-müsəlmanların da problemlərini həll etmək üçün İslam Əməkdaşlıq Təşkilatına üzv olan ölkələrin başçılarına müraciət etmişdir: **“Öz çıxışımda mən xalqımın ağrı-acılarından danışdım. Bununla yanaşı, Bosniya və Herseqovinada, Kəşmirdə, Fələstində, dünyanın bütün qaynar nöqtələrində milliyyətindən və dinindən asılı olmayaraq başqa xalqların da dərdi və iztirabları məni narahat edir. Bosniya və Herseqovinada son vaxtlar yaranmış vəziyyət xüsusi təşviş və ürək ağrısı doğurur. Orada qırğın və dağıntılar dəhşətli miqyas almışdır. Ona görə də biz qanlı qırğının dərhal dayandırılması üçün və bu münaqişənin ədalətli aradan qaldırılmasına nail olmaq üçün bütün imkanlarımızdan istifadə etməliyik, var qüvvəmizi sərf etməliyik. Nitqimi bitirərək, mən aramızdakı həmrəyliyə, İslam Konfransı Təşkilatının prinsiplərinə və məqsədlərinə sadiq olduğumu bildirirəm, sülh, sabitlik və tərəqqi naminə hamını öz səylərini birləşdirməyə çağırıram. Mən sizin hamınıza və xalqlarınıza səadət və əmin-amanlıq arzulayıram”** [3, s. 23].

Ümumiyyətlə Heydər Əliyevin Kasablanka görüşündəki təsirli və mənalı çıxışı Ulu öndəri təkcə bir İslam dövlətinin başçısı kimi yox, həm də dünya xalqlarını bəşəri birliyə çağıran bir lider kimi dünyada tanıtmışdır. Yuxarıda dediyimiz kimi Heydər Əliyevin İslam birliyi ideyası, təkcə İslam ölkələrinin birliyi ilə məhdudlaşmır. Araşdırmalar və həyati faktlar göstərir ki, Heydər Əliyevin İslam həmrəyliyi ideyası ümumbəşəri birliyi istiqamətlənmiş qlobal mahiyyət kəsb edirdi.

Digər bir vacib məsələ isə Heydər Əliyevin İƏT-in müxtəlif zirvə toplantılarında söylədiyi nitqlər və keçirdiyi görüşlər nəticəsində Qarabağ münaqişəsi ilə bağlı müsəlman ölkələrinin yekdil dəstəyini qazanması idi. Əldə edilmiş bu nailiyyət daha sonralar Azərbaycanın iqtisadi, hərbi və informasiya blokadasından çıxarılmasında həlledici rol oynamışdı.

### 3. Heydər Əliyev və Ərəb ölkələri ilə münasibətlərin qurulması

Ölkəmizin təkcə İƏT ilə bütövlükdə deyil, həm də bu təşkilatın və regionun aparıcı dövlətləri olan Səudiyyə Ərəbistanı, Misir Ərəb Respublikası, Pakistan və s. dövlətlərlə də qardaşlıq, dostluq, müttəfiqlik əlaqələri yaratması çox zəruri bir məsələ idi. Əlbəttə, bu siyahının önündə Səudiyyə Ərəbistanı dururdu. Türkiyə və İrandan sonra İslam dövlətləri arasında özünün ilk səfərini də Prezidentimiz bu ölkəyə etmiş, ölkə rəhbərliyi ilə görüşlər keçirmiş, danışıqlar aparmış, İslam dünyasının müqəddəs yerləri sayılan Məkkə, Mədinə və Ciddə şəhərlərini ziyarət etmişdir. Xüsusi olaraq qeyd edilməlidir ki, bu ziyarət Prezidentimizin Kasablanka Zirvə toplantısında iştirakından bir neçə ay öncə baş tutmuşdur.

Heydər Əliyev SSRİ-nin Yaxın və Orta Şərq ölkələrinin rəhbərləri ilə apardığı danışıqlarda və siyasi məsləhətləşmələrdə yaxından iştirak etmiş, çox vaxt bu ölkələrə səfər edən nümayəndə heyətlərinin rəhbəri olmuşdu. Əslində Sovet İttifaqının İslam dünyasında apardığı siyasəti Heydər Əliyev formalaşdırdığını desək heç də yanılmarıq. Onun 1982-1987-ci illərdə Misir, Suriya, İordaniya, Liviya, İraq, Yəmən, Pakistan və başqa müsəlman ölkələrinə səfərləri bütün İslam aləmində aparıcı siyasətçilərdən biri kimi tanınmasına səbəb olmuşdur" [4, s. 428]. Akademik Gövhər Baxşəliyeva "Azərbaycan Respublikasının Şərq siyasəti" adlı məqaləsində bu mövzu ilə bağlı qeyd edir: **"Ümumiyyətlə, Heydər Əliyevin Şərq ölkələri, eyni zamanda onların rəhbərləri ilə əlaqələri 70-ci illərdən qurulmağa, formalaşmağa başlamış, Azərbaycan müstəqilliyini qazandıqdan sonra isə indiki vəziyyətə - mehriban qonşuluq və bərabərhüquqlu əməkdaşlıq münasibətləri səviyyəsinə çatmışdır"** [2, s. 13].

9 İyul 1994-cü il də Səudiyyə Ərəbistanına rəsmi səfərə yola düşərkən Binə hava limanında müxbirlərin suallarına cavab verən Azərbaycan Prezidenti ilk səfərlərindən birini etməsini bu ölkəyə bu cür aydınlaşdırmışdı: **"Dünya dövlətləri birliyində Səudiyyə Ərəbistanının özünə layiq yeri var. O, ərəb dünyasının inkişaf etmiş zəngin bir ölkəsidir. Eyni zamanda bu dövlət dünya müsəlmanlarının müqəddəs yerlərinin mühafizidir. Ona görə də bu ölkə ilə Azərbaycan arasında əlaqələr yaradılmalıdır. İndiyədək Səudiyyə Ərəbistanı ilə Azərbaycan arasında, demək olar, heç bir əlaqə olmamışdır. Azərbaycan müstəqillik qazandıqdan sonra bu sahədə müəyyən cəhdlər olsa da, bunlar bir nəticə verməmişdir. Ancaq bu ölkə dünya birliyində böyük nüfuza malik olduğuna görə, dini birliyimizi, tarixi ənənələrimizin oxşarlığını nəzərə alaraq, mən Səudiyyə Ərəbistan məlikinin rəsmi dəvətini qəbul etmişəm və indi səfərə gedirəm. Güman edirəm ki, bu səfər yaxşı nəticələr verəcəkdir. Ən böyük nəticə kimi onu gözləyirəm ki, bizim müntəzəm əməkdaşlığımız üçün imkanlar yaranacaqdır"** [1].

Səfər zamanı Heydər Əliyev İki Müqəddəs Ocağın Xadimi Kral Fəhd, İslam Əməkdaşlıq Təşkilatı, İslam İnkişaf Bankı, İslam Aləmi Liqasının rəhbərləri və b. rəsmi şəxslərlə danışıqlar aparmış və Ümrə ziyarəti etmişdir.

Ölkəmiz bu addımlarla nəhayət öz siyasətində yalnız qonşu dövlətlərlə əlaqələr qurmaq çərçivəsindən kənara çıxaraq ilk növbədə hər cəhətdən bizə yaxın və doğma olan

Şərqə yönəlir, bununla yanaşı "İslama qayıdış" ruhunu yenidən dirçəldir, mənəvi dəyərlərimizin bərpası istiqamətində cəsarətli və lazımlı addımlar atırdı.

Səfər zamanı Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında iqtisadiyyat, ticarət, investisiya, texnika, mədəniyyət, gənclər və idman sahələrində əməkdaşlığa dair Baş Saziş imzalanmışdır. Səfərin yekunlarına dair birgə bəyanat qəbul edilmişdir. Bu mühüm səfərdən sonra ölkələrimiz arasındakı əlaqələr dinamik şəkildə inkişaf etməyə başlamışdır.

Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında əməkdaşlığın inkişaf etdirilməsi, beynəlxalq təşkilatlarda qarşılıqlı əlaqələrin daha da canlandırılması barədə fikir mübadiləsi aparılmış, Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənilməsində Səudiyyə Ərəbistanının yaxından iştirakı və bu ölkənin respublikamızın bir sıra sahələrinə sərmayə qoymasının genişləndirilməsi məsələləri müzakirə olunmuşdur.

Bu illər ərzində müxtəlif sahələrdə çoxsaylı qarşılıqlı səfərlər edilmişdir. Səudiyyə tərəfindən Xarici İşlər Nazirinin müavini, Krallığın İslam İşləri və Vəqflər Naziri, Tikinti nazirinin müavini, Ticarət Sənaye Palatasının sədri səviyyələrində, eyni zamanda iri şirkət rəhbərləri və iş adamlarından ibarət nümayəndə heyətləri Azərbaycanda səfərdə olmuşlar.

Misir Ərəb Respublikası ilə də əlaqələrimiz əslində Heydər Əliyevin 1994-cü ilin sentyabr ayında bu ölkəyə etdiyi səfərlə başlamışdır.

Xatırladırıq ki, Misir dövləti 26 dekabr 1991-ci ildə Azərbaycan Respublikasının müstəqilliyini tanımışdır. 1992-ci ilin noyabr ayında AR Xarici İşlər Nazirinin başçılıq etdiyi nümayəndə heyəti Misirdə səfərdə olmuş, ikitərəfli əlaqələrin inkişafına dair bir sıra sənədlər imzalanmışdır [6].

1994-cü ilin sentyabr ayında Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev BMT-nin Əhali və İnkişaf üzrə Beynəlxalq Konfransında iştirak etmək üçün Qahirədə işgüzar səfərdə olmuş, səfər zamanı dövlətimizin başçısı MƏR Prezidenti H. Mübarəklə görüşür, bu diplomatik münasibətlər Azərbaycan-Misir münasibətlərinin möhkəmləndirilməsində və əməkdaşlığın yeni perspektivlərinin müəyyənləşdirilməsində böyük əhəmiyyət kəsb etmişdir [5].

Ölkəmizin başçısının bu böyük ərəb ölkəsi ilə yaxın əlaqələr yaratmaq istəyi, bu yolda atdığı addımlar öz səmərələrini vermişdir. Bütün beynəlxalq forum və təşkilatlarda, o cümlədən İƏT çərçivəsində keçirilən tədbirlərdə MƏR-in ölkəmizə göstərdiyi dəstək Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında xüsusi yer tuturdu. Belə ki, Ermənistanın Azərbaycan Respublikasına hərbi təcavüzü ilə əlaqədar baş vermiş hadisələrin BMT-də, İslam Əməkdaşlıq Təşkilatında və digər beynəlxalq təşkilatlarda müzakirəsində Misir Ərəb Respublikası daim ədalətli, çox prinsipial mövqe tutmuş, Azərbaycanın ərazi bütövlüyünü, ölkəmizin ədalətli mövqeyini müdafiə etmişdir.

İordaniya 28 dekabr 1991-ci il də Azərbaycanın müstəqilliyini tanımışdır. Bu ölkə İKT-yə üzv olan dövlətlər arasında Türkiyədən sonra Azərbaycanın müstəqilliyini tanıyan ikinci ölkədir. Ölkələrimiz arasında əlaqələr hələ sovet dövründə də mövcud olmuşdur. Bu

dövrdə Heydər Əliyev sovet nümayəndə heyətinin başında İordaniyaya ziyarət etmiş, mərhum kral Hüseyn ibn Təlal ilə görüş keçirmişdir [7, s. 327].

Dövlət başçılarımızın 2-ci görüşü Kasablanka Zirvə toplantısında, 13 dekabr 1994-cü ildə keçirilmişdir. Görüşdə Ermənistan − Azərbaycan münaqişəsinin mahiyyəti, bu təcavüzə hüquqi-siyasi qiymət verilməməsinin nəticələri, ATƏT və İƏT xətti ilə görülən diplomatik tədbirlər, mübahisəli beynəlxalq məsələlərin həllində kifayət qədər təcrübəsi olan İordaniya kralının Qarabağ probleminin həllində ən yaxından iştirakı və hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər müzakirə edilmişdir. 2000-ci ilin 28-30 yanvarında Davos Ümumdünya iqtisadi forumunda Heydər Əliyev ilə İordaniya Kralı II Abdullah arasında ikitərəfli görüş keçirilmişdir [8].

Qeyd etmək lazımdır ki, Heydər Əliyevin müsəlman ölkələri ilə əlaqələrin qurulmasında İraq Respublikası xüsusi yer tuturdu. Belə ki, İraqla Azərbaycan lap qədim zamanlardan çox yaxın olub. Vaxtilə Səfəvilər dövlətinin bir hissəsi olan bu ölkənin şimalında − neftlə zəngin olan Mosul rayonunda etnik cəhətdən bizə çox yaxın olan 2 milyona qədər türkmən yaşayır ki, bu da xarici siyasətimizdə mütləq nəzərə alınmalı faktorlardan biridir. Ölkə əhalisinin 64%-i şiə məzhəbinə məxsusdur ki, bu da bizim dövlətlərin maraqlarının təmasda olduğu nöqtələri artırır. Mədəni-ticari əlaqələrimizin hələ lap qədimdən mövcudluğu da bu qəbildən olan faktorlardandır. Məşhur şairimiz Füzulinin qəbrinin bu ölkədə olması, hələ Sovet İttifaqı dövründə belə bu ölkə ilə əlaqələrə böyük əhəmiyyət verilməsi və bu əlaqələrin inkişafında Azərbaycanın mühüm rol oynaması, ölkəmizdə İraq iqtisadiyyatı üçün mütəxəssislərin və hərbi kadrların hazırlanması, neft istehsalı və emalı sahələrində birgə əməkdaşlıq, hələ 1970-ci ildən Bakıda İraqın Baş Konsulluğunun fəaliyyət göstərməyə başlaması kimi faktorlar ölkələrimizi bir-birlərinə yaxınlaşdıran amillərdəndir.

Ümumiyyətlə, Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi 1993-2003-cü illərdə respublikamız üçün həlledici illər olub. Məhz həmin illərdə dövlətçiliyimizin möhkəm təməli qoyulub. O illərdə Azərbaycanın istər daxili, istərsə də xarici siyasətlə bağlı strateji xətti müəyyən edilib, Azərbaycan dünya birliyinə qovuşub.

## Nəticə

Əsasını Ümummilli Liderin qoyduğu və bu gün Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən xarici siyasət strategiyası dövlətlərarası regional və beynəlxalq əlaqələrə daha yaxından qatılaraq, Şərq və Qərb dəyərlərinin sintezindən yaranmış cəhətləri özündə əxz edərək dünya birliyinə sıx inteqrasiya olunmaq xəttini seçib. Bu seçimi reallaşdırmaq üçün Azərbaycan dövləti bir tərəfdən dünya təcrübəsini öyrənərək özünün iqtisadi və siyasi inkişaf modelini müəyyənləşdirir, digər tərəfdən isə beynəlxalq aləmdə qəbul edilmiş prinsiplərə uyğun olaraq öz milli maraqlarını qoruyaraq dövlətlərarası əlaqələrə girir.

Hazırda regionda və dünyada baş verən əsas iqtisadi siyasi və mədəni proseslərdə Azərbaycan dövləti layiqincə təmsil olunur, öz mövqeyini bildirir və mənafelərini qoruyur.

Ölkə daxilində gedən demokratik proseslər və iqtisadi yüksəlişlə yanaşı, uğurlu xarici siyasət bu gün dünyanın aparıcı dövlətlərinin, nüfuzlu beynəlxalq təşkilatların diqqətini Azərbaycana yönəldib və bu da beynəlxalq hüquq normalarına uyğun qarşılıqlı faydalı əməkdaşlığın yaranmasına və inkişafına əlverişli zəmin yaradıb.

Bu gün dövlət başçısı İlham Əliyevin yürütdüyü siyasət Azərbaycanın regionda və dünyada müttəfiqlərinin sayını xeyli dərəcədə artırıb. Ümummilli lider Heydər Əliyevin xarici siyasət kursunu novatorcasına və dinamik şəkildə davam etdirən Prezident İlham Əliyevin yüksək diplomatik istedadı sayəsində ölkəmizin dünyanın siyasi-iqtisadi mənzərəsini müəyyən edən aparıcı dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətləri keyfiyyətcə yeni müstəvidə daha da inkişaf edib. Nəticədə, Azərbaycan yalnız beynəlxalq regionda gedən proseslərə deyil, eyni zamanda, beynəlxalq aləmdə cərəyan edən proseslərə də təsir göstərmək imkanı qazanıb. Ona görə də bu gün dünyanı narahat edən, həyati əhəmiyyətli bir sıra problemlərdə aparıcı dövlətlərin başçıları Azərbaycan rəhbərinin mövqeyi ilə hesablaşırlar.

Yuxarıda göstərilənlər onu deməyə əsas verir ki, bu gün Azərbaycanın xarici siyasət strategiyasının uğurla həyata keçirilməsi respublikamızın dünya miqyasında nüfuzunu xeyli yüksəldib, ölkəmizin Cənubi Qafqaz regionunda lider dövlətə çevrilməsini şərtləndirib. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş xarici siyasət strategiyasının uğurla davam etdirilməsi müstəqil dövlətimizin dünya birliyində mövqelərinin daha da yüksələcəyinə olan əminliyi artırır.

## Azerbaijan's Diplomatic Relations with the Arab Countries during the Period of Independence (Between 1993 and 2003)

### Summary

**Keywords:** Heydar Aliyev, international relations, Middle East, Organization of Islamic Cooperation, foreign policy

After regaining its independence on October 18, 1991, the Republic of Azerbaijan had a historic opportunity to develop and strengthen its statehood. In such circumstances, the formation and implementation of a new foreign policy course in accordance with the principles of national statehood was the most important issue. Armenian separatism, which started in Nagorno-Karabakh with Armenia's groundless territorial claims against Azerbaijan, as well as the expansion of military aggression, not only faced our country with serious political and economic problems, but also brought to the fore the fulfillment of important tasks in the foreign policy of our state. Preventing Armenia's military aggression against our country, eliminating its severe consequences, ensuring the territorial integrity and security of our state, and the need to be politically and economically integrated into the world required a thoughtful, consistent and active foreign policy.

In the second half of 1993, the national leader Heydar Aliyev's return to power created conditions for establishing the ideas of independent statehood in Azerbaijan. After that, practical changes were made in the course of Azerbaijan's foreign policy, taking into account the current realities and aimed at protecting the national interests of our country. Our foreign policy implemented since this period is related to the name and activities of the National Leader. The article talks about Heydar Aliyev's activities in the establishment of diplomatic relations with Middle Eastern countries, Muslim and Arab countries during the second years of his power.

**Ədəbiyyat siyahısı**


1. Azərbaycan qəzeti, Bakı, 10 iyul 1994-cü il
2. Gövhər Baxşəliyeva, “Azərbaycan respublikasının Şərq siyasəti”, “Azərbaycan Şərqşünaslığı” jurnalı, №02 (21) 2021, s/p 13
3. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Bakı. Azərnəşr. 1997, s. 23
4. Hidayət Orucov. Azərbaycanda din: ən qədim dövrdən bu günədək. Bakı: “İdrak İB”, 2012. s. 428.
5. https://azertag.az/xeber/AZARBAYCAN_PREZIDENTI_HEYDAR_ALIYEVIN_MISIRA_SAFARI_DAVAM_EDIR-797507
6. https://lib.aliyevheritage.org/az/6384687.html
7. İradə Hüseynova. Müstəqil Azərbaycan dövlətinin qurucusu, Bakı, 2004, səh. 327
8. Qaley Allahverdiyev. Heydər Əliyev və Şərq. Bakı, 2005, səh. 201
9. Mənəvi Dəyərlərin Təbliği Fondu (MDTF). Heydər Əliyev siyasəti: Tolerantlıq (çıxışlar, nitqlər, görüşlər, təbriklər). Bakı, “Elm və Təhsil” 2015, s. 70

**Lalə Mikayılzadə**
AMEA akad. Z. M. Bünyadov adına Şərqşünaslıq İnstitutu,
Şərqşünaslıq elminin nəzəriyyəsi şöbəsinin
aparıcı elmi işçisi, ped.ü.f.d.
lala-mak70@mail.ru (070) 9736313

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN TƏHSİLİNİN İNKİŞAFI

Təhsil sahəsi həyatımızın ən gərəkli, ən mühüm sahəsidir. O, milli məqsədlər, mənafelər əsasında qurulmalıdır.

**Heydər Əliyev**

**Açar sözlər:** Təhsil siyasəti, Heydər Əliyev, islahat, beynəlxalq standartlar, prioritet məsələlər.

## GİRİŞ

Təhsil cəmiyyətin tərəqqisini təmin edən ən vacib faktordur. Cəmiyyətin qarşısında durmuş bir çox qlobal problemlərin həll yolu məhz təhsilin inkişafından keçir. Belə ki, istər Azərbaycan mütəfəkkirləri, istərsə də digər xalqların mütəfəkkirləri onları düşündürən mənəvi problemlərin həllini təhsildə, insanların maariflənməsində görmüşlər.

Azərbaycanın təhsil siyasətinin əsasını humanizm, demokratiya, idarəetmənin dövlət-ictimai səciyyəsi, tədrisin şəxsiyyətyönümlülüyü, milli və ümumbəşəri dəyərlərə hörmət, vətəndaşlıq tərbiyəsi, şəxsiyyətin azad inkişafı, insan və vətəndaş hüquq və azadlıqlarına hörmət və s. bu kimi konseptual prinsiplər əsasında ölkədə müasir, dünyəvi milli təhsil sisteminin qurulması təşkil edir. Ulu Öndər Heydər Əliyev təhsil siyasətinə həmişə dövlətçiliyin təməl prinsiplərindən biri kimi yanaşıb. Bu istiqamətdə həyata keçirilən islahatlar təhsilin bütün mərhələlərini, pillələrini və maddi-texniki bazasını əhatə edib. Heydər Əliyevin 70-ci illərdə rəhbərliyi dövründə Azərbaycanda aparılan təhsil islahatları Azərbaycan təhsilinin gələcək inkişafına zəmin yaratdı. Heydər Əliyev hələ 1972-ci ildə "Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında" və 1973-cü ildə "Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında" qəbul edilmiş qərarların icrası nəticəsində respublikada orta məktəb şəbəkəsi genişləndirildi, əsaslı keyfiyyət dəyişikliyinə nail olundu. Eyni zamanda məktəblərin dərsliklərlə təminatı problemi həll edildi və 1978-ci ildən etibarən şagirdlərə dərsliklərin pulsuz verilməsinə başlanıldı".

70-ci illərdə təhsilin inkişafına xüsusi diqqət məktəblərin tikintisində də özünü göstərirdi. Onun rəhbərliyinin birinci dövründə peşə məktəblərinin də sayı artdı. Həmçinin Ulu Öndərin təhsil siyasətində ali təhsil ocaqlarının fəaliyyətinin daha da yaxşılaşdırılması, həmin təhsil ocaqlarının maddi texniki bazasının möhkəmləndirilməsi əsas yer tuturdu.

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə Azərbaycanda beş yeni ali təhsil ocağı açıldı.

Ulu Öndərin təşəbbüsü sayəsində neçə-neçə gənc SSRİ-nin nüfuzlu ali məktəblərinə oxumağa göndərildi. Həmin gənclər Azərbaycan üçün çox vacib olan ixtisaslar üzrə təhsil alırdılar və respublikamıza bacarıqlı mütəxəssislər kimi qayıdırdılar. Bu da o vaxtkı dövrdə respublikanın milli kadr potensialının daha da təkmilləşməsində, gücləndirilməsində mühüm rol oynadı.

Heydər Əliyev təhsilə həmişə prioritet sahə kimi baxırdı.Azərbaycana rəhbərliyinin ikinci dövründə 1993-2003-cü illərdə də bu sahənin fəaliyyətinin yüksəldilməsinə xüsusi diqqət göstərib. Bu illərdə Azərbaycanın təhsil sistemi təkmilləşdirilib və təhsilimizin dünya təhsil sisteminə inteqrasiyası üçün geniş imkanlar yaradılıb. Çox sayda məktəb binaları tikilərək istifadəyə verilib, yeni dərsliklər hazırlanıb  şagird və tələbələrin ixtiyarına verilib. Təhsil üzrə müxtəlif proqram və layihələr hazırlanaraq uğurla həyata keçirilib.

Azərbaycanda təhsilin inkişafı ilə bağlı atılmış ən uğurlu addım 1999-cu ildə ümummilli liderimiz Heydər Əliyev tərəfindən təsdiq edilmiş "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı"dır. Bu islahat Azərbaycan təhsilinin gələcək inkişaf konsepsiyasını və strategiyasını müəyyən etmişdir. "Proqrama əsasən üç mərhələdə aparılan islahatlar birinci mərhələdə (1999-cu il) vətəndaşların təhsil hüququnu təmin edən, bazar iqtisadiyyatının tələblərinə uyğun yeni təhsil sisteminin normativ-hüquqi, iqtisadi və informasiya bazasının yaradılmasını, ikinci mərhələdə (2000-2003-cü illər) genişmiqyaslı islahatın aparılması üçün təşkilati-hüquqi, kadr, maliyyə, maddi-texniki təminatın və yeni idarəetmə modelinin təşkilini, üçüncü mərhələdə (2004-cü ildən sonra) proqramda nəzərdə tutulan bütün tədbirlərin həyata keçirilməsini əhatə etmişdir" [2, s. 154].

Proqram çərçivəsində keçirilən tədbirlərə aşağıdakılar aiddir;

"İlk dəfə olaraq 20 pilot məktəb üçün müasir kurikulum tələblərinə cavab verən tədris planları, dərsliklər və tədris materialları hazırlanmışdır. Qərb ölkələrində tətbiq olunan kurikulumun tələblərinə xeyli dərəcədə cavab verən yeni formatda Azərbaycan dili və ədəbiyyat, riyaziyyat və informatika, tarix, ingilis dili (V-VI siniflər), musiqi, təsviri sənət (I-II, V-VI siniflər), Azərbaycan dili (təlim rus dilində olan məktəblərin I-II, V-VI sinifləri), rus dili və ədəbiyyat (təlim rus dilində olan məktəblərin V-VI sinifləri) fənləri üzrə tədris proqramları hazırlanmış və nəşr edilmişdir;

İlk dəfə olaraq, vahid komplekt şəklində pilot məktəblərinin V və VI sinifləri üçün "Ədəbiyyat", təlim rus dilində olan məktəblər üçün "Rus dili", "Ədəbiyyat" dərslikləri, iş dəftərləri və müəllimlər üçün metodik vəsaitlər çap olunmuş və şagirdlərin istifadəsinə verilmişdir;

2 fənn üzrə (ana dili, riyaziyyat) beynəlxalq tələblərə tam cavab verən yeni kurikulum nümunələri hazırlanmışdır; ilk dəfə olaraq şagird nailiyyətlərinin qiymətləndirilməsi üzrə yeni konsepsiya və model hazırlanmışdır;

İlk dəfə olaraq, “Ana dili” və “Riyaziyyat” fənləri üzrə beynəlxalq standartlara cavab verən milli qiymətləndirmənin modeli hazırlanmış, Bakı, Gəncə, Sumqayıt və Lənkəranın 8 pilot və 12 qeyri-pilot şəhər və kənd məktəbində 1800 nəfər V sinif şagirdi arasında həmin fənlər üzrə milli qiymətləndirmə aparılmışdır, pilot müəssisələrinin maddi-texniki və tədris bazası gücləndirilmiş, müəssisələr lazımi avadanlıqlarla təchiz edilmişdir” [2, s. 170].

Yuxarıda qeyd olunan tədbirlərə əlavə olaraq, ümumi təhsilin müasir problemlərinə həsr olunmuş çox sayda konfrans, seminar və dəyirmi masa keçirilmişdir. Bunlar əsasən aktiv və interaktiv tədris metodlarının tətbiqi, məktəb proqramı, ixtisasartırma tədris proqramı, şagird nailiyyətlərinin qiymətləndirilməsi, milli qiymətləndirmə, monitorinq və təhsilin keyfiyyətini əhatə etmişdir.

Ulu öndər Heydər Əliyev müstəqillik illərində də elm və təhsilin inkişafını diqqətdən kənarda qoymamış, o cümlədən elm-təhsil problemlərinə kompleks şəkildə yanaşmışdır. Ölkə başçısı bu sahədə mövcud olan problemlərin aradan qaldırılması və Azərbaycanda dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun təhsil strategiyasının həyata keçirilməsi məqsədilə ciddi tədbirlər həyata keçirmiş, mühüm tarixi fərman və sərəncamlar imzalamışdır. Məsələn, 2002-ci il oktyabrın 4-də ölkə başçısının imzaladığı “Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında” sərəncamı milli elm və təhsil sisteminin inkişafında vacib amillərdən biri kimi qiymətləndirilir. Bu sərəncam ümumtəhsil məktəbləri şəbəkəsinin genişləndirilməsinə, maddi-texniki bazasının möhkəmləndirilməsinə etibarlı zəmin yaratmışdır. “Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqramın (2003-2007-ci illər) təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 17 fevral 2003-cü il tarixli sərəncamı da ölkədə bu sahədə yaranmış problemlərin aradan qaldırılması yönümündə müstəsna əhəmiyyətə malik dövlət sənədi olmuşdur. Həmçinin Heydər Əliyev tərəfindən Təhsil İslahatı Proqramı, Təhsil Sektorunun İnkişafı Layihəsi və sair bu kimi mühüm fərman və sərəncamlar imzalamışdır ” [3, s. 300].

Təhsil İslahatı Proqramı (2003-2013-cü illər): proqramın 3 mərhələdə həyata keçirilməsi nəzərdə tutulmuşdur: I mərhələ – 2003-2007-ci illər, II mərhələ – 2007-2010-cu illər, III mərhələ – 2010-2013-cü illər.

2003-2007-ci illərdə ümumi orta təhsilin keyfiyyətinin yüksəldilməsi, müasir tələblərə cavab verən yeni təhsil standartlarının və məktəb tədris planlarının hazırlanması, yeni müəllim hazırlığı sisteminin tətbiqi, şagird nailiyyətlərinin qiymətləndirilməsi modeli, məktəblərin maliyyələşdirilməsi, informasiyalaşdırma və idarəetmə üzrə bir sıra mühüm tədbirlər həyata keçirilmişdir.

Təhsil Sektorunun İnkişafı Layihəsinin aşağıdakı əsas komponentlər üzrə həyata keçirilməsi planlaşdırılmışdır:

“Birinci komponent: ümumi təhsilin keyfiyyəti və real tələbatlara uyğunluğu. Bu komponent daxilində kurikulum islahatı, müəllim hazırlığı, dərsliklər və oxu materialları alt-komponentləri üzrə islahatlar aparılır.

İkinci komponent: səmərəlilik və maliyyə islahatları. Bu komponent çərçivəsində maliyyələşdirmə və büdcə islahatları, rasionallaşdırma və məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi alt-komponentləri üzrə tədbirlər həyata keçirilir.

Üçüncü komponent: məktəb qrantı proqramı. Bu komponent çərçivəsində ümumi təhsildə bərabər imkanların yaradılması və məktəblərdə innovasiyaların tətbiqi istiqamətində qrant layihələri həyata keçirilir.

Dördüncü komponent: idarəetmə, planlaşdırma və monitorinq. Bu komponent daxilində şagird nailiyyətlərinin qiymətləndirilməsi, təhsilin idarəolunması üzrə məlumat sistemi, idarəetmə və planlaşdırma imkanları alt-komponentləri üzrə islahatlar aparır.

Beşinci komponent: layihənin əlaqələndirilməsi və monitorinqi. Bu komponent daxilində Layihənin monitorinqi, ictimaiyyətin məlumatlandırılması kampaniyası, bir sıra tədqiqatların aparılması və digər tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur” [4, s. 303].

Ümummilli lider Heydər Əliyev özünün milli dövlət quruculuğu strategiyasında təhsil siyasətinə dövlətçiliyin təməl prinsiplərindən biri kimi yanaşmış, bu sahəyə diqqət və qayğısını həmişə önə çəkmişdir.

Beləliklə, yuxarıda qeyd edilənlərdən aydın olduğu kimi, Heydər Əliyev bütün həyatı boyu öz xeyirxah əməlləri və ədalətli mövqeyi ilə xalqımızın güvənc yerinə çevrilmişdir. İstər müasir tələbata uyğun elmi kadrların hazırlanmasında, istər Azərbaycan Respublikasının beynəlxalq aləmə və qlobal iqtisadi mühitə sürətlə inteqrasiya etməsində, istərsə də ölkənin sosial-iqtisadi istiqamətlərdə ciddi uğurlar qazanmasında ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə reallaşan tədbir və islahatların rolu danılmazdır. Heydər Əliyevin bir dövlət və siyasi xadim kimi ölkə, milli iqtisadiyyat, eləcə də onun ayrı-ayrı sahələri qarşısında duran problemlərə kompleks şəkildə yanaşması bu gün əldə edilən ciddi uğurların əsas təkanvericisidir. Ulu Öndər Heydər Əliyevin Azərbaycanda təhsil siyasətini uğurla davam etdirən cənab İlham Əliyevin bircə sərəncamına diqqət yetirməklə onun strateji mahiyyətinə aydınlıq gətirə bilərik. Ölkə başçısının “Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramının (2005-2007-ci illər) təsdiq edilməsi haqqında” 21 avqust 2004-cü il tarixdə imzaladığı sərəncam bu günümüz üçün zəruri olan informasiya texnologiyalarından müasir tələblərə uyğun istifadə problemlərinin həlli baxımından strateji əhəmiyyət kəsb edir. Artıq bu günün reallıqları sübut edir ki, Heydər Əliyevin siyasi kursuna uyğun aparılan islahatlar müsbət nəticələr verir və Azərbaycan dövlətini bütün dünyada layiqincə təmsil etməyə, eləcə də ölkənin hərtərəfli inkişafında yaxından iştirak etməyə qadir olan gənc nəslin yetişməsinə şərait yaradır.

Azərbaycan elminin inkişafı istiqamətində ümummilli lider Heydər Əliyevin siyasəti bu gün islahatların zəruriliyinə ciddi diqqət yetirən ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Təhsildə bərabər imkanlar yaratmaq, təhsil qanunvericiliyini təkmilləşdirmək, təhsilin keyfiyyətini təmin etmək Azərbaycanda təhsilin inkişafının əsas prioritetləri və perspektivləridir.

## Heydar Aliyev and the Development of Azerbaijani Education
## Summary

**Keywords:** Education policy, Heydar Aliyev, reform, international standards, priority issues.

Education is the most important factor that ensures the progress of society.

The solution to many global problems facing the society is through the development of education. The research work talks about the reforms implemented by Great Leader Heydar Aliyev in the development of education in Azerbaijan.The Great Leader Heydar Aliyev has always treated education policy as one of the basic principles of statehood and has always shown his attention and care to this field.The reforms carried out in this direction are analyzed in the research work, the issues of whether the reforms cover all stages, stages and material and technical base of education are investigated.In the research work, the issue of national leader Heydar Aliyev's approach to education policy as one of the basic principles of statehood in the national state-building strategy is also analyzed.Heydar Aliyev always regarded education as a priority area.The great leader Heydar Aliyev did not neglect the development of science and education even during the years of independence, including a comprehensive approach to the problems of science and education.The head of the country took serious measures and signed important historical decrees and orders in order to eliminate the existing problems in this field and to implement the educational strategy in Azerbaijan in accordance with the experience of the developed countries of the world.The role of the measures and reforms implemented under the leadership of the great leader Heydar Aliyev is undeniable, both in the training of scientific personnel in accordance with modern needs, in the rapid integration of the Republic of Azerbaijan into the international world and the global economic environment, and in the country's significant success in socio-economic directions.

## Ədəbiyyat sıyahısı


1. Abdullayeva F. Fəal təlimlə qurulan dərslər şagird təfəkkürünü inkişaf etdirir // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri. Cild 85. № 6, 2018, s. 114-117

2. Baxşəliyev F. Heydər Əliyev və Azərbaycan təhsil sistemində aparılan islahatların əsas istiqamətləri (problemin öyrənilməsinin müqayisəli-tarixi təcrübəsi) Dissertasiya. Bakı, 2009, 154 səh.

3. Əhmədov H. Azərbaycan təhsilinin inkişaf strategiyası. Bakı: Elm nəşriyyatı, 2010, 800 səh.

4. Əsgərov Ş. Təhsilimiz: Dünən, bu gün, sabah. Bakı, 2003, 309 səh.

5. Həsənli B. Təhsilin inkişafı strategiyası və müasir dərsin təşkili problemləri // Azərbaycan məktəbi. № 6 2014, s. 57-63

6. İsgəndərov İ. Azərbaycanın ümumi təhsil sahəsində islahatlar // Azərbaycan müəllimi. 2010, s. 4.

7. Mehrabov A. Müasir təhsilin konseptual problemləri. Bakı: Mütərcim, 2010, 516 səh.

8. Mərdanov M. Azərbaycan təhsili: yaxın keçmişə, bu günə və gələcəyə bir baxış // 525-ci qəzet, 2010, s. 10-11.

9. Mərdanov M. Azərbaycan təhsili dünən, bu gün, sabah. Bakı: Təhsil, 2006, 300 səh.

10. https://antifenu.wordpress.com/2012/05/15/t%C9%99hsil-qanunu/

11. file:///C:/Users/ENVY%20m6/Downloads/5.pdf (1)

12..https://aztehsil.com/kurikulum/136-fal-tlimin-sullar-tqdimat-

13.https://muhaz.org/movzu-muasir-telim-formalaris-usullar-ve-texnikalar-plan 1.html

14. https://www.muallim.edu.az/www.old/arxiv/2012/13/26.htm

15. https://antifenu.wordpress.com/tag/t%C9%99lim-prinsipi/

16. https://www.bookwidgets.com/blog/2018/06/20-interactive-teaching-activities-for-in-the-interactive-classroom

**Mahir Həmidov**
AMEA akad. Z. M. Bünyadov adına Şərqşünaslıq İnstitutu,
Şərq-Qərb şöbəsinin aparıcı elmi işçisi, f.ü.f.d.
Mail: hemidovmahir2025@gmail.com

# "YUMŞAQ GÜC" MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİNİN SİYASƏTİNDƏ MÜHÜM AMİLLƏRDƏN BİRİ KİMİ

**Açar sözlər**: ənənəvi siyasət, yumşaq güc, dövlətlərarası münasibətlər, multikulturalizm

İstər fərdi, istərsə də dövlətlər səviyyəsində güclü olmaq olduqca böyük əhəmiyyət kəsb edir. Tarixin müxtəlif dövrlərində ayrı-ayrı millətlər və dövlətlər sahib olduqları güc sayəsində dünyaya hakim olmuşdurlar. Bir vaxtlar bu güc bayrağını romalılar, sasanilər, müsəlman ərəblər və türklər öz çiyinlərində daşımışdırlar. XIX-XX əsrlərdən etibarən güc strukturu Qərbin əlinə keçmişdir.

Lüğətdə güc, bir şeyin reallaşması üçün başqalarının hərəkətlərinə təsir etmə bacarığına sahib olmaq mənasına gəlir [1, 11]. Hərbi və iqtisadi yollarla bir dövlətin başqa bir dövlətə təsir edə bilməsi ənənəvi güc, yəni "sərt güc" adlanır. Ancaq başqalarının hərəkətlərinə zor tətbiqindən başqa yolla təsir etmək üsulları da vardır. İstədiyimizi əldə etməyin başqa yoluna "gücün ikinci üzü" deyilir. Bu mənada, sadəcə hərbi güc, yaxud da iqtisadi embarqolar tətbiq etməklə başqalarının mövqelərini dəyişdirməyə məcbur etmək yerinə dünya siyasətində gündəm yaratmaq və istər sadə vətəndaşları, istərsə də siyasətçiləri özünə tərəf çəkmək daha əlverişli və uzunmüddətli bir siyasi yanaşmadır [1, 14].

Artıq "yumşaq güc" anlayışı da siyasət meydanında öz sözünü deməyə başlamışdır. Əslində, "yumşaq güc" anlayışı dünya siyasətində bir terminologiya olaraq özünə yer tapmazdan əvvəl də mövcud olmuş, dövlətlərarası münasibətlərdə bir vasitə kimi istifadə olunmuşdur. Evlilik, təhsil, mədəni əlaqələr vasitəsilə bu güc strukturundan hər zaman istifadə edilmişdir.

"Yumşaq güc" diplomatiyasında dövlətlərin sadəcə başqa ölkə siyasətçilərinə, diplomatlarına deyil, o ölkələrin ictimaiyyətinə də təsir etmək anlayışı vardır. Burada "yumşaq güc"ün önəmli bir hissəsi olan xalq diplomatiyasının da mühüm bir payı vardır. Dövlətlər başqa ölkələrin əhalisi nəzdində müsbət fikir formalaşdırmaq üçün sadəcə siyasətçilərin və diplomatların fəaliyyətlərinin kifayət etmədiyini, dövlətin milli mənafeyini nəzərə almaqla yanaşı vətəndaş cəmiyyətlərinin, qeyri-hökumət təşkilatlarının, ədəbiyyat və incəsənətin, mədəniyyət mərkəzlərinin bu istiqamətdə fəaliyyət göstərmələrinin qaçılmaz olduğuna inanmışdırlar.

## Dünya təcrübəsində "yumşaq güc"dən istifadə imkanları

"Yumşaq güc" siyasətinin təməlini, şübhəsiz ki, digər dövlətlərin, millətlərin mədəniyyətini, tarixini, adət-ənənələrini, etnik və dini dəyərlərini, ən başlıcası dilini bilmək

təşkil edir. Məsələn, Yaxın Şərq ölkələrindəki etnik, dini fərqlilikləri və bu fərqliliklərin region xalqlarının psixologiyasına, düşüncə tərzinə hansı ölçüdə təsir etdiyini bilmədən müəyyən nailiyyətlər əldə etmək çətindir. Çünki bu xalqların təfəkkür forması əsrlər boyu həmin amillərin təsiri altında yoğurulub formalaşmışdır.

Orta əsrlərdə "yumşaq güc" anlayışı bir terminologiya kimi bilinməsə də, o dövrün dövlətləri bu üsuldan məharətlə istifadə etmişlər. İslami fəthlərin əsasını ordudan əvvəl sıravi vətəndaşlar, tacirlər, elm adamları, dərvişlər təşkil etmişdirlər. Uzaq Şərqə müsəlman əsgərləri getməzdən daha əvvəl yuxarıda qeyd etdiyimiz vasitələrlə islam əxlaqı və düşüncə forması regiondakı bəzi xalqlar arasında bərqərar olmuşdur. Müsəlman ordusu bu regiona gəldiyi zaman artıq, region xalqları yeni siyasi təfəkkürü, idarəetmə sistemini qəbul etməkdə o qədər də çətinlik çəkməmişdirlər.

Yenə "yumşaq güc"dən istifadə formalarını XVIII-XIX əsrlərdə qərb ölkələrinin, xüsusən, Asiya və Afrika qitəsi ölkələrində məharətlə tətbiq etdiklərini görürük. Dövlətin dəstəyi ilə Avropa ölkələrinin üçüncü dünya ölkələrində kilsə vasitəsilə açdığı tədris ocaqları və mədəniyyət mərkəzləri bu metoddan məharətlə istifadə etmişdilər. Hətta, 1798-ci ildə Fransada baş verən inqilab nəticəsində bütün dini mərkəzlərin fəaliyyətləri dayandırılsa da, yeni qurulan rejim Fransız kilsələrinin digər ölkələrdə açmış olduğu tədris və mədəniyyət ocaqlarına yüksək səviyyədə dəstək göstərməyə davam etmişdir.

XIX əsrin sonlarında Çar Rusiyasının dəstəyi ilə kilsənin Yaxın Şərq ölkələrində açdığı tədris ocaqları və orada təhsil alanların daha sonra təhsillərini imperiya mərkəzlərində davam etdirmələri bu sahədəki ən uğurlu fəaliyyətlərdən biri kimi qəbul oluna bilər. Belə ki, bu təhsil ocaqlarından məzun olan gənclər arasında gələcəyin siyasətçiləri, mütəfəkkirləri yetişmişdir.

SSRİ-nin dağılmasından sonra dövlətlərin siyasətində "yumşaq güc" anlayışı daha çox qabarmağa başlamış, bir terminologiya kimi dünya siyasi ədəbiyyatına daxil olmuşdur. Joseph Nyenin 1990-cı ildə yayımlanan "Bound to Lead" [2] kitabı ilə siyasi ədəbiyyata qazandırılan "yumşaq güc" terminologiyası, elə həmin müəllifin 2004-cü ildə nəşr olunan "Soft Power" [3] adlı kitabı ilə dünya siyasətində istifadə olunmağa başlanmışdır. Qloballaşan dünyada bir dövlətin özünü dünya xalqlarına tanıtmaq yollarının ənənəvi diplomatik metodların sərhədlərini aşdığı, sadəcə diplomatik fəaliyyətlə məşğul olanların deyil, dövlətin qeyri-diplomatik strukturlarının da bu işdə aktiv fəaliyyət göstərməyə başladığı son onilliklərdə daha ümdə məsələlərdən olduğu görünməkdədir.

Bir dövlətin "yumşaq güc" strukturları onun tarixi və mədəni irsinin zənginliyi ölçüsündə geniş vüsət tapır, daha çox şaxələnir. Qədim tarixə və mədəni irsə sahib olmasa da, super güc olan ABŞ bu güc strukturundan yüksək səviyyədə istifadə edən dövlətlərdəndir. ABŞ-ın dünyanın dörd bir tərəfində açdığı informasiya mərkəzləri onun imicinin formalaşmasında böyük rol oynamışdır. Yenə ABŞ-ın dünyadakı super güc imicinin yayılmasında, demokratiyanın beşiyi, məzlumların qurtarıcısı fonunda təbliğ olunmasında məşhur Hollivud (Hollywood) filmlərin də böyük rolu vardır. Elə amerikan serialları vasitəsi ilə

okeanın o tayındakı ölkələrin sosial həyat quruluşu, ailə tərzi ölkəmizdə də geniş təbliğ olunmuşdu. Müstəqilliyini yeni qazanmış bir çox xalq kimi Azərbaycan xalqı da bu təbliğat maşınından zərərsiz ötüşməmişdir.

"Yumşaq güc" amilindən geniş şəkildə istifadə edən Uzaq Şərq ölkələri arasında Çin və Hindistan ön sıralarda gəlməkdədir. Hər iki ölkənin istehsalı olan filmlər öz ölkələrinin milli, mədəni, tarixi zənginliklərini dünya miqyasında təbliğində ABŞ filmlərindən geri qalmırlar. Çinin tarixi şəxsiyyəti olan Konfutsinin adını daşıyan institutlar dünyanın dörd bir tərəfində bu ölkənin mədəni irsini təbliğ etməyə davam etməkdədir.

Dünya ölkələri arasında mədəniyyət diplomatiyasından son illərdə geniş istifadə etməyə başlayan dövlətlərdən biri də qardaş Türkiyə Respublikasıdır [4, 9-13]. Son onillikdə bu sahəyə diqqət yetirən Türkiyə, xüsusən də, keçmiş Osmanlı torpaqları olan Yaxın Şərq və Balkan ölkələri baºda olmaqla dünyanın bir çox ölkəsində genişmiqyaslı fəaliyyətə başlamış, bu ölkələrlə mədəni körpülər qurmağa çalışmışdır.

**Müstəqillik dövründə Azərbaycanda "yumşaq güc"dən istifadə imkanları**

Azərbaycan xalqı XX əsrin sonlarına doğru bir daha erməni vandalizminin təcavüzünə məruz qalmışdır. Belə bir şəraitdə yenə qurulan dövlətin, demək olar ki, bütün strukturları çökmüş, ölkə xaos içərisinə yuvarlanmışdı. 1993-cü ildə ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıtmasından sonra gərgin səy nəticəsində ölkənin əsas strukturları yenidən qurulmuş, ölkənin strateji maraqlarını əks etdirən yetkin xarici siyasət kursu formalaşdırılaraq yenicə qurulan dövlətin dünyada tanıdılması yönündə ciddi fəaliyyətə başlanmışdı [5, 226-228].

Ulu öndər ilk öncə yeni qurulan ölkəni dünyaya tanıtdırmaq istiqamətində genişmiqyaslı siyasi görüşlər keçirmişdir. Ölkəmizin sahib olduğu zəngin enerji qaynaqlarından səmərəli istifadə edərək, ölkə iqtisadiyyatını qısa zaman içində bərpasına nail olunmuşdur. Dövlətimiz bu zəmin əsasında həm də dünya arenasında yeni dövlətin tanınması istiqamətində məharətli addımlar atmışdır. "Yumşaq güc" nümunələrindən bacarıqla istifadə edən dövlət başçısı yeni dövləti dünya  miqyasında tanıtmış, Azərbaycanı dünyanın öndə gələn ölkələrinə tərəf müqabilinə çevirmişdir. Klassik siyasi təfəkkürün sərhədlərini aşan H. Əliyev "yumşaq güc"ün bütün növlərindən məharətlə istifadə etmiş, özündən sonra bu istiqamətdə böyük bir siyasi cığır açmışdır. Ümummilli liderin bu kursunu məharətlə davam etdirən cənab İlham Əliyev xalqımızın sahib olduğu tarixi, milli, mədəni zənginliklərini bu istiqamətdə daha da zənginləşdirmişdir. Azərbaycan mədəniyyəti, idmanı beynəlxalq arenalarda təmsil olunmaqla yanaşı, ölkəmiz artıq, bu qəbildən beynəlxalq tədbirlərə ev sahibliyi etməyə başlamışıdır.

"Yumşaq güc" strukturlarından olan Azərbaycanın zəngin mədəniyyətinin dünya ictimaiyyətinin diqqətinə çatdırılması istiqamətində böyük işlər görülür. Milli-mədəni irsimizin tanıdılması istiqamətində, Heydər Əliyev Fondunun, xüsusən də Fondun rəhbəri Azərbaycanının birinci xanımı, vitse-prezident Mehriban xanım Əliyevanın xidmətlərini xüsusi qeyd etmək lazımdır. Dəfələrlə beynəlxalq muğam festivallarına ev sahibliyi edən

Azərbaycan, milli sərvətimiz olan muğam sənətini dünyaya tanıtmışdır. Bu istiqamətdə atılan ən böyük addım isə, şübhəsiz ki, 2012-ci ildə "Avroviziya" musiqi yarışmasına ölkəmizin ev sahibliyi etməsidir. "Avroviziya" sadəcə bir musiqi yarışmasından ibarət deyildir. Bu vasitə ilə mədəniyyətimizin, milli-mənəvi dəyərlərimizin birbaşa dünya xalqlarının diqqətinə çatdırılması, bəlkə də heç bir siyasi fəaliyyətlə reallaşması mümkün olmayan yüksək nəticə əldə edilmişdir.

Son on illərdə dünya miqyaslı əhəmiyyət kəsb edən mədəniyyətlərarası dialoq, dinlərarası dialoq məsələsində də ölkəmiz yaxından iştirak etmiş, hətta dünya ictimaiyyətinə bu istiqamətdə model təşkil edə biləcək səviyyəyə çatmışdır. "Bütün dünyanın böyük din xadimləri də özünü artıq tolerantlığın ideoloji mərkəzi kimi təsdiq etmiş olan Azərbaycanda toplaşır, dinlərin dialoqu çərçivəsində səmərəli iş aparır və digər dünya ölkələrinə nümunə göstərirlər" [6, 19-20].

Multikultural mədəniyyətə sahib olan ölkəmiz fərqli etnik və dinə mənsub insanların sülh şəraitində, biri-birinin inanc və dəyərlərinə hörmət göstərməklə bir arada yaşaya biləcəklərinin ən gözəl nümunəsini sərgiləmişdir. Bu kimi nümunələr Azərbaycanın tarixi keçmişində də mövcuddur. İnsana insan olduğu üçün dəyər verən, dinindən, inancından asılı olmayaraq, hər kəsə Allahın bəndəsi olaraq yanaşan, sadəcə ölkəmizdə deyil, orta əsrlərdə dünyanın dörd bir tərəfinə yayılan mütəfəkkir, sufi Seyid Yəhya Şirvani irsi bunun bariz nümunəsidir. UNESCO 2013-cü ili Azərbaycanın bu böyük mütəfəkkirinin vəfatının 550 illiyi münasibətilə Seyid Yəhya Şirvani ili elan etmişdir. Dünyanın dörd bir tərəfindən gələn bu irsin tədqiqatçıları ölkəmizin dünya miqyasında tolerantlığın beşiyi olduğunun carçısı oldular.

Bakı 2015 Avropa oyunlarının Azərbaycanda keçirilməsi də dövlətimizin "yumşaq güc" amillərinə nə qədər əhəmiyyət verdiyinin göstəricisidir. Özü də qısa bir müddət ərzində olimpiya hazırlıqlarını tamamlayan ölkəmiz, bu vasitə ilə dünya miqyasında tanınmaq istiqamətində ən böyük, genişmiqyaslı, müsbət nəticələr doğuracaq fəaliyyətlərə imza atmışdır.

Bütün qeyd etdiklərimiz dövlətimizin dünya siyasi sisteminə yüksək səviyyədə inteqrasiya olunduğunu, siyasətin bir qolu olan "yumşaq güc" strukturundan məharətlə istifadə etdiyini, sahib olduğu mədəni zənginliyi onun bu istiqamətdəki fəaliyyətlərini daha asanlaşdırdığını söyləməyə əsas verir.

## Ölkəmizdə "yumşaq güc" strukturlarından daha səmərəli istifadə yolları

Dövlət sahib olduğu tarixi, mədəni zənginliyi ilə daha da inkişaf edir və tanınır. Güclü dövlət olmaq üçün, təbii ki, hərbi və iqtisadi inkişaf potensialına çatmaq lazımdır. Tarix boyu qonşularının işğalçılıq siyasətinə məruz qalan ölkəmiz üçün bu qaçılmazdır. Elə dövlətimizin bu istiqamətdəki atdığı addımlar, inkişaf potensialımız bunun əyani göstəricisidir. Ancaq "yumşaq güc" strukturlarından olan milli-mədəni zənginliklərimiz vasitəsilə inkişaf gücümüzü daha da artırmaq mümkündür. Dövlətimizin bu istiqamətdə də çoxşaxəli fəaliyyəti, heç şübhəsiz ki, yüksəkdir. Azərbaycan gənclərinin bu sahədə daha fəal

iştirakını təmin etmək üçün aşağıdakı tədbirlərin həyata keçirilməsini məqsədəuyğun hesab etmək olar:

1. 30 ildən sonra 20 faizdən artıq torpaqlarını erməni işğalından azad edən və işğal dövründə bir milyon məcburi köçkünü olan Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinin diqqət mərkəzinə çatdırmaq üçün Qarabağ həqiqətlərini dünya miqyasında tanıda biləcək ingilis dilində yüksək səviyyəli filmin yaradılması vaxtı çoxdan çatmışdır.

2. Qarabağ həqiqətlərini dünya miqyasında tanıdacaq mühüm xarici dillərdə roman və hekayələrin yaradılması da gənc nəslin üzərinə düşən mühüm vəzifələrdəndir.

3. Ermənilərin işğalçı, bizim isə işğala məruz qalan ölkə olduğumuz həqiqətlərini dünya ictimaiyyətinə hələ də çatdıra bilməmişik. Məsələn, ərəb ölkələrində ermənilərin bu istiqamətdəki fəaliyyətləri daha genişdir. Onlar, ərəblərlə özlərinin tarix boyu türklərin onlara soyqırımı etdikləri iddiaları ilə ortaq məxrəcdə birləşirlər. Halbuki xalqları müsəlman olan bu dövlətlərlə bizim aramızda tarixi, mədəni, dini əlaqələr baxımından ortaq nöqtələrimiz daha çoxdur. Bu amildən daha məharətlə və geniş şəkildə istifadə olunmasına ehtiyac vardır.

4. Zəngin tarixi mədəniyyətə sahib olan Azərbaycan dünyada aktual olan, xalqlar arasındakı dini-etnik dözümlülük məsələsində ən gözəl model təşkil edə bilər.

5. Bir çox dövlətlər özlərinin milli-mədəni irsini, tarixini, dilini tanıtmaq məqsədilə institutlar təsis ediblər. Çinin mütəfəkkir və dövlət xadimi Konfutsinin, qardaş Türkiyənin isə Yunis Əmrə adı ilə təsis etdikləri institutları misal göstərmək olar. Ölkəmizdə də Seyid Yəhya Şirvaninin adını daşıyan bu növ institutların təsis olunması milli-mədəni zənginliklərimizin təbliği istiqamətində atılmış böyük addım olacağına inanırıq.

Yuxarıdakı nümunələri çoxaltmaq mümkündür. Əsas olan, bu nümunələrdən vaxt itirmədən istifadə etməkdir. Ölkəmizin son illərdə hərbi, iqtisadi sahələrdə qazandığı uğurlarla yanaşı "yumşaq güc" strukturu sahəsində də atdığı mühüm addımlar olmaqla yanaşı, bu strukturlardan daha da geniş istifadə olunmasına ehtiyac vardır. Xalqımızın sahib olduğu tarixi və mədəni irsin zənginliyi bu istiqamətdə iş görmək imkanlarını daha da asanlaşdıracaqdır.

## "Soft Power" As One of the Sıgnıfıcant Factors in the Polıcy of the Independent Azerbaıjan State

## Summary

**Keywords**: traditional politics, soft power, interstate relations, multiculturalism

For centuries, traditional politics based on military and economy which are dominant in world politics has been recognised as the main structure on the regulation of interstate relations. But from the second half of the XX century, besides traditional politics, new practice methods have been appeared. Among these methods, "soft power" based on national,

cultural, historic, and cultural resources began to take an important place in the formation of the structure of interstate relations. Although as a political terminology in political literature “soft power” has been used in recent decades, but as a tool in international relations it had been used throughout history.

Our country's rich cultural heritage and an important geopolitical position have created many opportunities for “soft power” to be used. In this article, usage possibilities of “soft power” in the world and in Azerbaijan were investigated.

### Ədəbiyyat siyahısı


1. Joseph S. Nye. **Yumşaq güc**, İngilis dilindən Türk dilinə tərcümə edən. Rayhan İnan Aydın, Elips yay., Ankara, 2005.
2. Joseph S. Nye. **Bound to Lead: The Changing Nature of American Power**, Basic Books, New York, 1990.
3. Joseph S. Nye. **Soft Power**, Public Affairs, New York, 2004.
4. Muharrem Ekşi. **Kamu Diplomasisi ve Ak Parti Dönemi Türk Dış Politikası**, Siyasal Kitabevi, Ankara, 2014.
5. Əli Həsənov. **Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti**, Azərbaycan nəşriyyatı, Bakı, 2005.
6. Səlahəddin Xəlilov, **Sivilizasiyalararası dialoq**, Adiloğlu, Bakı, 2009.

**Aybəniz Həsənova**
AMEA akad. Z. M. Bünyadov adına Şərqşünaslıq İnstitutu,
İran filologiyası şöbəsinin
aparıcı elmi işçisi, fil.ü.f.d.
aybeniz.has@gmail.com

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN ƏDƏBİYYATI

**Açar sözlər**: Prezident Heydər Əliyev, Səməd Vurğun, Süleyman Rüstəm, Bəxtiyar Vahabzadə, Məmməd Araz

Məqalədə – Ulu öndərin ədəbiyyat və incəsənət xadimlərinin haqqında fikirlərini, onların əməyinə verdiyi qiyməti və müəyyən məqamları göstərəcəyik. Heydər Əliyev cənabları – Azərbaycan ədəbiyyatının, mədəniyyətinin bütün dövrlərini, hər bir sənətkarın yaradıcılığını yüksək ustalıqla təhlil etmiş, onların ölkəmizə verdiyi töhfələri çıxışlarında göstərmiş, sağlığında onların layiqli qiymətini vermişdir. H. Əliyev klassiklərdən tutmuş, müasir yazarlarda olmaqla elə bir ədib, şair tapılmaz ki onun əsərlərini oxumamış, haqqında fikir söyləməmiş olsun. H. Əliyevin şəxsiyyətinə, yaradıcılığına, xüsusi hörmətlə yanaşdığı şairlərdən biri – Azərbaycanın ilk Xalq şairi və akademiklərindən biri, xalq arasında böyük nüfuza malik, şair, dramaturq, ictimai xadim Səməd Vurğun olmuşdur. Ulu öndər Heydər Əliyev Səməd Vurğunun 90 illik yubileyinə həsr edilmiş gecədə çıxış edərək göstərmişdir ki, Səməd Vurğunun 90 illik yubileyi şeir, mədəniyyət bayramıdır, Azərbaycan xalqının bayramıdır. Azərbaycan bir ildir ki, Səməd Vurğunun 90 illik yubileyini qeyd edir, ölkəmizdə yubiley mərasimləri keçirir. Bu müddətdə hər yerdə, hər evdə, hər şəhərdə, hər kənddə Səməd Vurğun yad olunur, onun şeirləri oxunur, əsərləri yenidən canlanır və bunlar hamısı müasirlərimizə, gənclərimizə ruh verir, onları sevindirir, şadlandırır. Səməd Vurğun öz dövrünün, zəmanəsinin mühitində, çərçivəsində yazıb-yaradıb və Azərbaycan xalqı qarşısında əvəzsiz xidmətlər göstəribdir, Azərbaycan ədəbiyyatını, mədəniyyətini, Heydər dünya ədəbiyyatını zənginləşdiribdir. Fitri, parlaq istedadı, çox nadir xüsusiyyətə malik olan istedadı, eyni zamanda ən gənc yaşlarından yazıb yaratmaq əzmi Səməd Vurğunu qısa bir zamanda xalqımızın sevimli şairinə və o, həm Azərbaycanda, həm də bir çox xarici ölkələrdə tanınmış, sayılan bir insan olmuşdur. Səməd Vurğunun yaradıcılığı dəryadır, indiyədək yazılanlar bunun hamısını əks etdirə bilməyib. Hesab edirəm ki, onun yaradıcılığı və qoyduğu irs bu gün də, gələcəkdə də tədqiq olunacaq və bu barədə yeni-yeni əsərlər yaranacaqdır. Səməd Vurğun Azərbaycan şeirinə çox böyük yeniliklər gətiribdir. Ancaq mən bir məqama toxunmaq istəyirəm. Böyük şairimiz Molla Pənah Vaqif XVIII əsrdə şeir dilini xalq dilinə daha da yaxınlaşdırdı. Onun yazdığı şeirləri xalqın bütün təbəqələri həm anlaya, həm qavraya bildi, həm də sevdi. Beləliklə, o, Azərbaycan şeirində yeni bir yol açdı. Səməd Vurğun şerinin böyüklüyü, eyni zamanda, gözəlliyi ondan ibarət idi ki, onun hər kəlməsi, hər sətri hər bir azərbaycanlının qəlbinə çatırdı, onun beynini fəth edirdi, onu öz

təsiri altına salırdı. Səməd Vurğunun bütün yaradıcılığında ən görkəmli yer tutan onun "Vaqif " tarixi mənzum dramıdır və Azərbaycan milli teatrında onun əsasında yaranmış "Vaqif" tamaşasıdır. Bu gün tam qətiyyətlə demək olar ki, böyük Səməd Vurğunun 60 il bundan əvvəl yaratdığı və teatrımızı daim inkişaf etdirən "Vaqif " pyesi XX əsr mədəniyyət, ədəbiyyat tariximizdə ən görkəmli yer tutubdur. "Vaqif "əsəri Azərbaycan xalqına onun Molla Pənah Vaqif kimi bir şəxsiyyətini tanıdan əsərdir S. Vurğunun digər dram əsərləri də yüksək qiymətə layiqdir. "Fərhad və Şirin", "Xanlar", "İnsan" da Azərbaycan ədəbiyyatına, serinə, teatrına böyük töhfələrdir. Respublika Sarayı, 7 mart 1997-ci il (1. qazaxib.az). Azərbaycan ədəbiyyatının görkəmli simalarından biri Süleyman Rüstəmdir. Süleyman Rüstəmin yaradıcılığı haqqında 1998-ci il martın 26-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev dərin məzmunlu çıxış etmiş, Süleyman Rüstəm yaradıcılığını hər tərəfli təhlil etmiş, onun ədəbiyyat tarixində öz yeri olduğunu, ədəbiyyata yeni nəfəs gətirdiyini qeyd etmişdir. H. Əliyev qeyd edirdi ki, Süleyman Rüstəm Azərbaycan tarixinə, Azərbaycan mədəniyyəti, ədəbiyyat tarixinə daxil olmuş görkəmli simalardan biridir. Süleyman Rüstəm kimi insanlar nadir insanlardır. Belə insanlar Tanrının onlara verdiyi fitri istedadı fədakarlıqla xalqına, millətinə, sədaqətlə birləşdirib belə zirvələrə qalxa biliblər. Süleyman Rüstəmin şeirləri, bədii yaradıcılığı çox rəngarəngdir və bir çox nəsillərin təhsilinə, mənəviyyatına, formalaşmasına böyük təsir etmişdir. Süleyman Rüstəmin şeirləri-ni, başqa əsərlərini oxuyarkən, dinləyərkən insan hər dəfə heyran olur ki, bu insanda nə qə-dər yüksək şeir sənəti, dil zənginliyi vardır. Bunu hər adam edə bilməz və bu, hər adama məxsus deyildir. Süleyman Rüstəmin əsərlərinin ana xətti vətənpərvərlik, vətənə, millətimi-zə, xalqımıza sədaqətidir. Biz bu gün müstəqil Azərbaycan Respublikasında iftixar hissi ilə deyirik ki, bizim dövlət dilimiz, gözəl ana dilimiz, Azərbaycan dilimiz vardır və bu, müstə-qilliyimizin rəmzidir. Dilimizi yaşadan, zənginləşdirən, gözəlləşdirən bizim yazıçılarımız, şairlərimiz, mədəniyyət xadimlərimiz olubdur. Vətənə, Azərbaycana bağlılıq Süleyman Rüstəmin Təbrizlə əlaqədar şeirlərində də, türk dünyasının böyük şairi Şəhriyarla yazışma-larında da özünü göstərir. Yalnız vətənini, millətini hədsiz sevən və ona sadiq olan bir in-san, şair – Süleyman Rüstəmin yazdığı şeirləri yaza bilərdi. Əgər o hisslər olmasaydı, o, belə şeirləri yazmazdı, o hisslər olmasaydı, Şəhriyarla yazışmazdı, ona şeirlər ithaf etməzdi və ondan şeirlər almazdı. Bunlar bizim ədəbiyyat, mədəniyyət tariximizin qızıl səhifələridir. Süleyman Rüstəmin parlaq yaradıcılığı, onun əsərləri, onun böyük siması bizim qəlbimizdə əbədi yaşayacaqdır. ("Azərbaycan "qəzeti, 27 mart 1998-ci il) (ib.aliyev-heritage.org).

Ulu öndər Azərbaycanın xalq şairi BəxtiyarVahabzadənin poeziyasını oxumuş, əsərlərini bir ədəbiyyatşünas kimi təhlil etmiş, H yüksək qiymətləndirmiş, onun haqqında dərin, dolğun məzmunlu fikir söyləmişdir: "Sizin şəxsiyyətiniz və yaradıcılığınız xalqın milli təfəkkürünün formalaşmasına xidmət etmiş, onu milli dirçəlişə səsləmiş, istiqlaliyyət uğrunda mübarizədə əvəzsiz rol oynamışdır. Siz hər zaman azadlıq carçısı olmuş, ən çətin anlarda belə güc və silah qarşısında baş əyməmiş, əqidəsindən dönməyən şair, mübariz millət vəkili, yorulmaz ictimai xadim kimi xalqın müdafiəsinə qalxmışsınız. Mən hələ

Dövlət Təhlükəsizliyi Komitəsində işləyən zaman Bəxtiyar Vahabzadənin həbs olunması məsələsi meydana çıxmışdı. O vaxt mən onu xilas etdim, qoymadım həbs olunsun. Nəinki qoymadım, onunla dəfələrlə söhbətlər apardım, öz məsləhətlərimi verdim. Bunlar hamısı onun xatirələridir. Belə bir insan o vaxtlar  böyük fəlakət qarşısında idi. Nəyə görə? Heç bir cinayət yox idi. Ona görə ki, millətini sevirdi, millətin qayğıları haqqında yazılar, şeirlər yazırdı". Gülüstan "poemasını yazmışdı. Ondan ötrü o zaman həbs etmək məsələsini qoymuşdular. 1995-ci il aprelin 15-də fərman imzalamış, həmin fərmana görə, Azərbaycanın xalq şairlərindən Bəxtiyar Vahabzadə, Məmməd Araz və X. R. Ulutürk "İstiqlal" ordeni ilə təltif edilmişdilər. Müasir Azərbaycan poeziyasının şah sütunlarından biri – Məmməd Arazdır. Onun poeziyasına, Ulu öndər böyük hörmətlə yanaşmış, onun yaradıcılığını, həmişə izləmiş, onun yubileylərinin keçirilməsində dərin məzmunlu çıxışlar etmiş, onun əməyinə yüksək qiymət vermişdir. Heydər Əliyev Məmməd Araz  poeziyasına yüksək qiymət vermiş və haqqında demişdir ki, Müasir Azərbaycan ədəbiyyatının inkişafında Məmməd Arazın özünəməxsus yeri və rolu vardır. Onun dərin fəlsəfi məzmunlu lirikası zəngin ənənələrə malik milli poeziyamızı keyfiyyətcə yeni mərhələyə qaldıraraq daha da zənginləşdirmişdir. Məmməd Arazın gənc yaşlarından başlayaraq yarım əsrdən artıq davam edən ədəbi fəaliyyəti mənsub olduğu xalqa layiqli şair – vətəndaş xidməti nümunəsidir. Doğma vətənə bağlılıq, istiqlalçılıq, vətəndaşlıq hisslərinin tərənnümü, fikir dərinliyi və sadəlik, poetik təfəkkürün genişliyi kimi yüksək keyfiyyətlər Məmməd Araz yaradıcılığına uzun ömürlülük bəxş etmiş, onun qələminə məxsus əsərlər geniş oxucu kütləsinin rəğbətini qazanmışdır ( Şərq qapısı. 28.06.2013)  Onun əməyi Heydər Əliyev tərəfindən yüksək qiymətləndirilir. 1975-ci ildə Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı, 1978-ci ildə "Əməkdar mədəniyyət işçisi" fəxri adı, "Azərbaycan dövlət mükafatı laureatı", "Azərbaycanın xalq şairi", Azərbaycanın "İstiqlal" ordeni, "Hacı Zeynalabdin Tağıyev" adına milli mükafatın laureatı – kimi mükafatları alır. Onun adına "Məmməd Araz" mükafatı təsis olunur (sesqazeti.az) H. Əliyev cənablarının  Azərbaycan ədəbiyyatının inkişafında gördüyü işlər, minlərlə əsərlərə sığmaz. Ədəbiyyatın bütün dövrlərini hərtərəfli inkişaf etdirmiş, ədəbiyyatı zirvəyə yüksəltmiş, onun nümayəndələrinə hər tərəfli qayğı göstərmişdir. Məqalənin sonunda Ulu öndər qeyd  edirdi ki, Milli azadlığa nail olmaq  olmaq üçün xüsusən bizim xalqımızda milli oyanış, milli dirçəliş, milli ruhun canlanması lazımdır. Yaşadığımız o rejim dövründə bu prosesə açıq təkan vermək də çətin idi. Ancaq  Bəxtiyar Vahabzadə, Məmməd Araz, Xəlil Rza kimi şairlər öz yaradıcılıqları ilə bu sahədə çox işlər görmüşlər.

**Heydar Aliyev and Azerbaijani literature**
**Summary**

**Keywords**: President Heydar Aliyev, Samad Vurgun, Suleyman Rustam, Bakhtiyar Vahabzadeh, Mammad Araz

By the Decree of President Ilham Aliyev, 2023 year has been declared "Year of Heydar Aliyev" in our country. Citizens of the Republic of Azerbaijan, azerbaijanians of the world and Turkish-speaking peoples are preparing to celebrate the 100th anniversary of the birth of the prominent statesman Heydar Aliyev with great excitement and joy. The works of the great leader from his youth to the end of his life − he worked with all his strength to strengthen the state of Azerbaijan, to be recognized in the international world, for the happy life of Azerbaijanis, and to promote the country to the world. He worked with all his strength and introduced the country to the world that how many independent Azerbaijan there are, how many azerbaijanians there are, the name of the great leader will be remembered with respect, his name will be dear and unforgettable for us. This nation is happy that it has a leader like Heydar Aliyev, whose ideas will be passed down from the generation to the generation. The architect of independent Azerbaijan, the national leader, the savior of the Azerbaijani people − Heydar Aliyev worked tirelessly for the development of the Azerbaijani state, as in all fields, science, rendered unparalleled services in the development of culture and literature. In the article, we will show the opinions of the great leader about literary and artistic figures, his appreciation of their work and certain points. Mr. Heydar Aliyev analyzed all eras of Azerbaijani literature and culture, the creativity of each artist with high mastery, showed their contributions to our country in his speeches, and gave them their due appreciation during his lifetime.

## Ədəbiyyat siyahısı

1. qazaxib.az
2. “Azərbaycan “qəzeti, 27 mart 1998-ci il.
3. ib.aliyev-heritage.org
4. Şərq qapısı. 28.06.2013
5. səs qəzeti.az

**İsmayıl Əsədov**
AMEA akad. Z. M. Bünyadov adına Şərqşünaslıq İnstitutu,
Ərəb ölkələrinin tarixi və iqtisadiyyatı şöbəsinin
böyük elmi işçisi, t.ü.f.d.,

# Г. А. АЛИЕВ И ВОПРОСЫ БЛИЖНЕВОСТОЧНОЙ ПОЛИТИКИ

**Ключевые слова:**Г. А. Алиев, ближневосточная политика, арабские страны, внешняя политика СССР, Азербайджанская Республика

Azərbaycan əsrlər boyu müxtəlif sivilizasiyaların ortaq birləşmə nöqtəsi olub. Tarixi İpək yolunun, mühüm geostrateji qovşaqların birləşdiyi coğrafi ərazidə yerləşən Vətənimiz xüsusilə Şərqlə Qərb arasında müəyyən körpü rolunu oynayan nadir ölkələrdən biridir. Azərbaycanın Qərblə münasibətlərinin formalaşması tarixi minilliklərə dayansa da (Qədim Roma imperiyası, orta əsr Avropa dövlətləri), son iki yüz ildə bu münasibətlər müxtəlif müstəvilərdə daha aktiv fazada genişlənmişdir. İstər siyasi, istərsə də elmi-mədəni inteqrasiya imkanları daha da genişlənmiş, inkişaf etmiş Avropa ölkələrinə mühacirət edən soydaşlarımızın sayı dəfələrlə artmışdır. Lakin bir fakt danılmaz olaraq qalır ki, Azərbaycan Şərq ruhlu bir ölkədir və xalqımızın tarixi keçmişi, bu günü və gələcəyi Şərq ölkələri ilə sıx bağlıdır. Burada fərqli istiqamətlərdə davam edən əlaqələr içərisində elmi əlaqələr xüsusilə böyük önəm kəsb edir. Şərqə, xüsusilə İslam dünyasına dahi mütəfəkkirlər, dəyərli alimlər bəxş etmiş Azərbaycan bu gün də Şərq elminin tarixinin öyrənilməsi və müasir inkişafında önəmli yerlərdən birini tutmaqdadır.

Ən müasir Azərbaycan tarixində elmi-mədəni əlaqələrin inkişaf parametrləri zamanın tələbinə uyğun şəkildə, milli maraqlar çərçivəsində, həmçinin, elmi ənənələrimizə sadiq qalaraq müəyyən edilir. Müstəqil və hüquqi dövlət quruculuğumuzun tarixi meyarlarını dirçəldərək, müasir inkişafına böyük təkan verən Ümummilli lider Heydər Əliyevin digər sahələrdə olduğu kimi elmi əlaqələrimizin inkişafında da müstəsna rolu vardır. Heydər Əliyevin üstün zəkası və siyasi təcrübəsi sayəsində dünyanın bir çox ölkəsi ilə qarşılıqlı hörmət və ədalət prinsipləri üzərində münasibətlər quran Azərbaycan elmi müstəvidə də əlaqələrini yeni müstəviyə çıxarmışdır. Şərq ölkələri ilə qurulan elmi-mədəni əlaqələr də bu istiqamətdə xüsusi önəm daşıyır.

### Azərbaycanın Yaxın və Orta Şərq ölkələri ilə elmi-mədəni əlaqələri

Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə geri dönüşündən sonra dövlət siyasətinin başlıca prioritet sahələrindən biri digər ölkələrlə bir çox sahələrdə əlaqələrin qurulması və mövcud əlaqələrin genişləndirilməsi idi. Burada elmi əlaqələrin də xüsusi yeri vardır. Ərəb ölkələri ilə ötən əsrin 90-cı illərində qurulan elmi-mədəni əlaqələr əsasən İslam

Konfransı Təşkilatı və BMT-nin müəyyən ölkələr üzrə proqramları çərçivəsində, həmçinin, bir sıra maliyyə fondları, elm və təhsil müəssisələri vasitəsilə reallaşdırılmışdır. Müstəqil Azərbaycanla ilk diplomatik əlaqələr quran ölkələrdən biri olan Küveyt Dövləti ölkəmizdə bir sıra elm və təhsil üzrə layihələrin həyata keçirilməsində rol oynamışdır. Küveytin Asiya Müsəlmanları Komitəsinin təşəbbüsü ilə azərbaycanlı tələbələrin Misir əl-Əzhər Universitetində təhsilinin maliyyələşdirilməsi həyata keçirilmişdir. Ölkəmizin tarixi köklərlə bağlı olduğu və müasir inkişaf perspektivlərinə malik ölkələrdən biri də İraq Respublikasıdır. Azərbaycanla İraq arasında elmi-mədəni əlaqələr Heydər Əliyevin Azərbaycan SSR-ə rəhbərlik etdiyi dövrdən geniş vüsət almışdır. Xüsusilə, gənclər arasında əməkdaşlığa təkan vermək baxımından 1974-cü ilin yanvarında İraq-Azərbaycan ali məktəbləri arasında elmi və mədəni əməkdaşlıq haqqında saziş imzalanmışdı. ADU, Azərbaycan Neft və Kimya İnstitutu ilə İraqın ikinci böyük iqtisadi və mədəniyyət mərkəzi olan Bəsrə şəhəri universiteti arasında yaradıcılıq əməkdaşlığı haqqında saziş (1973-cü il dekabr) imzalanmışdı. 1975-ci ilin iyununda Bakıda keçirilmiş sovet və İraq gənclərinin "IV dostluq həftəsi" də Azərbaycanla bu ölkə arasında mədəni əməkdaşlığın bəhrəsi idi. Tarixi ənənələri olan bu əlaqələrin müasir dövrdə vəziyyətinin öyrənilməsində akademik Həmid Araslı, görkəmli şərqşünas Aida xanım İmanquliyevanın xüsusi xidmətləri vardır. "Azərbaycan sovet ədəbiyyatı ərəb dilində" adlı məqaləsində görkəmli şərqşünaslar A. İmanquliyeva, M. Qəmbərov Azərbaycan-İraq ədəbi əlaqələrinin təhlilinə xüsusi diqqət yetirmişlər [1]. Diplomatik əlaqələrin qurulmasından qısa bir müddət sonra Azərbaycanla İraq arasında rəsmi müstəvidə bir sıra sazişlər imzalanmışdır. 1994-cü il 21 oktyabr tarixində Azərbaycan və İraq Respublikalarının Mədəniyyət və İnformasiya Nazirlikləri arasında saziş imzalanmışdır [2, 351]. Azərbaycanın aktiv elmi-mədəni əlaqələr qurduğu ölkələr içərisində Misir önəmli yerlərdən birini tutur. Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü il aprelin 7-də Qahirədə imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Misir Ərəb Respublikası Hökuməti arasında iqtisadi və elmi-texniki əməkdaşlıq haqqında Saziş" ölkəmizin müstəqil elmi əlaqələrinin qurulmasında mütərəqqi addım olmuşdur. **2002-ci ilin 03 oktyabr tarixində** Ulu Öndər bu sazişin icrasını təmin etmək üçün Azərbaycan Respublikası Hökuməti və Misir Ərəb Respublikası Hökuməti arasında Hökumətlərarası iqtisadi, texniki və elmi əməkdaşlıq üzrə müştərək Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi haqqında Sərəncam imzalamışdır. Bir faktı da qeyd etmək lazımdır ki, Misir Ərəb Respublikasının Azərbaycandakı səfirliyinin nəzdində artıq uzun illərdir ki, Misir Mədəniyyət və Təhsil Əlaqələri Mərkəzi fəaliyyət göstərir. Azərbaycanın müstəqillik illərində əməkdaşlıq etdiyi akademik qurumlar içərisində Misir Elmi Tədqiqat və Texnologiya Akademiyası və Misir Mərkəzi Kitabxanası da yer alır.

Sovet İttifaqı dövründə Heydər Əliyevin bilavasitə təşəbbüsü ilə həyata keçirilən tədbirlər sırasında Yaxın və Orta Şərq ölkələrindən olan tələbələrin Azərbaycanın ali təhsil ocaqlarında təhsil alması da yer alırdı. Xüsusilə neft sənayesi sahəsində ərəb ölkələrindən xeyli sayda tələbənin Azərbaycanda təhsil alması üçün şərait yaradılırdı. Azərbaycan müstəqillik əldə etdikdən sonra bu ənənə davam etdirilmiş, neft mühəndisliyi, səhiyyə və

digər sahələrdə Şərq coğrafiyasından tələbələrin ölkəmizdə təhsil alması üçün hər cür şərait təmin olunmuşdur.

Azərbaycanın elmi-mədəni əlaqələr qurduğu qonşu ölkələrdən biri də İran İslam Respublikasıdır. Tarixi Azərbaycan torpaqları və milyonlarla soydaşımızın yaşadığı bu ölkə ilə Azərbaycan Respublikasının müasir elmi-mədəni əlaqələrinin inkişafı Ümummilli liderimizin daim diqqət mərkəzində olmuşdur. Onun siyasi hakimiyyəti dövründə mədəni əlaqələrin genişləndirilməsi, Azərbaycanın tarixi irsinin qorunması və bərpası istiqamətində mühüm addımlar atılmışdır. Təbriz şəhərində Nizami Gəncəvinin heykəli ucaldılmış, Xaqani Şirvaninin qəbirüstü abidəsi qurulmuşdur. İqtisadi, ticarət və mədəni əlaqələr üzrə İran-Azərbaycan Dövlətlərarası Komissiyası təşkil olunmuş, teatr, kitab nəşri, ortaq mədəniyyətlərin tanıdılması istiqamətində mütərəqqi nailiyyətlər əldə olunmuşdur. Heydər Əliyevin 1994-cü ildə İrana ilk rəsmi səfəri zamanı (29 İyun – 2 İyul) Azərbaycanla İran arasında dostluq münasibətlərinin inkişafı haqqında 13 maddədən ibarət bəyanat imzalanıb [3]. Heydər Əliyevin Azərbaycan SSR-ə rəhbərlik etdiyi dövrdə Ərəb dili, tarixi və mədəniyyətinin araşdırılmasına xüsusi maraq olmuş və bu sahədə Azərbaycanda məşhur alimlər yetişmişdir, lakin Səudiyyə Ərəbistanı ilə əlaqələr yüksək səviyyədə inkişaf etməmişdir. Müstəqillik dövründə bu əlaqələr öz inkişaf dövrünə qədəm qoydu. 13 iyul 1994-cü ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Səudiyyə Ərəbistanına rəsmi səfərdən öncə Prezident Heydər Əliyev Binə Hava limanında müxbirin sualını cavablandırarkən: "...İndiyədək Səudiyyə Ərəbistanı ilə Azərbaycan arasında, demək olar, heç bir əlaqə olmamışdır. Azərbaycan müstəqillik qazandıqdan sonra bu sahədə müəyyən cəhdlər olsa da, bunlar bir nəticə verməmişdir. Ancaq bu ölkə dünya birliyində böyük nüfuza malik olduğuna görə, dini birliyimizi, tarixi ənənələrimizin oxşarlığını nəzərə alaraq, mən Səudiyyə Ərəbistanı məlikinin rəsmi dəvətini qəbul etmişəm və indi səfərə gedirəm..." deyə qeyd etmişdir. Səfər çərçivəsində Heydər Əliyev İki Müqəddəs Ocağın Xadimi Kral Fəhd, İslam Konfransı Təşkilatı, İslam İnkişaf Bankı, İslam Aləmi Liqasının rəhbərləri və s. rəsmi şəxslərlə danışıqlar aparılmışdır. Səfər zamanı Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında iqtisadiyyat, ticarət, investisiya, texnika, mədəniyyət, gənclər və idman sahələrində əməkdaşlığa dair Baş Saziş imzalanmış, səfərin yekunlarına dair Birgə Bəyanat qəbul edilmişdir. Səfər zamanı Prezident Heydər Əliyev müqəddəs Kəbəni ziyarət etmişdir [4].

Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə vahid ittifaq tərkibində olması ölkələr arasında mədəni-elmi əlaqələrin daha dərin müstəvidə möhkəmlənməsinə yardım edib. SSRİ Elmlər Akademiyası və digər elm və təhsil ocaqları ilə qarşılıqlı əlaqə nəticəsində inkişaf edən elmi əlaqələr müstəqillik dövründə də aktiv şəkildə davam etmişdir.

Azərbaycanın Şərq ölkələri içərisində möhkəm bağlar qurduğu, elmi-mədəni əlaqələrin böyük ölçüdə inkişaf etdiyi ölkələr içərisində qardaş Türkiyə Cümhuriyyəti xüsusi yerlərdən birini tutur. Azərbaycan Respublikasının Ümummilli lideri Heydər Əliyevin Türkiyə Cümhuriyyətinə ilk rəsmi səfəri 8-11 fevral 1994-cü ildə həyata keçirilmişdir. Fevralın 9-da səfərin ən mühüm hadisələrindən biri, Türkiyə-Azərbaycan sənədlərinin imzalanması məra-

simi olmuşdur. İki dövlət arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında protokol, elmi, texniki, mədəni və iqtisadi sahələrdə əməkdaşlıq haqqında saziş, dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə müqavilə, siyasi məsləhətləşmələr barədə saziş, investisiyaların qarşılıqlı təşviqi və qorunması haqqında saziş, ümumilikdə 16-dək sənəd imzalanıb. Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında dostluq və əməkdaşlıq müqaviləsi imzalanmışdır. Bu sənəd iki ölkə arasında gələcək əlaqələrin inkişafı üçün çox dəyərli və gərəkli əsasdır. Ümumilikdə isə Türkiyə Cümhuriyyətinin dövlət rəhbərləri ilə, nazirlərlə 16-dək müqavilə və protokol imzalanmışdır. Həmin sənədlərdə ayrı-ayrı sahələrdə münasibətlərin genişləndirilməsi və inkişaf etdirilməsi proqramı öz əksini tapmışdır [5]. Heydər Əliyev türk ölkələri TÜRKSOY-un fəaliyyətinə xüsusi qayğı göstərmişdir. Məlum olduğu kimi, bu təşkilat türk dövlətlərinin mədəniyyət nazirlərinin apardıqları danışıqlar zamanı əldə olunmuş razılığa əsasən 12 iyul 1993-cü ildə Almatı şəhərində yaradılmışdı. Heydər Əliyevin xarici siyasət fəaliyyətində türk dövlətləri arasında çoxtərəfli elmi-mədəni əməkdaşlığın inkişaf etdirilməsi prioritet yer tutmuşdur. O, türk xalqları arasında mədəniyyət sahəsində əməkdaşlığın genişləndirilməsinə xüsusi diqqət yetirmiş və TÜRKSOY-un fəaliyyətini yaxşılaşdırmaq üçün tövsiyələrini vermişdir. Türk dövlətləri arasında mədəniyyət sahəsində əməkdaşlıq çoxtərəfli əsasda inkişaf etmişdir. Bu gün bu proses Türk Dövlətləri Təşkilatının da aktiv iştirakı ilə daha da geniş spektrdə fəaliyyət göstərir [6].

Ümumilikdə, Heydər Əliyevin Azərbaycan elminin və mədəniyyətinin inkişafı elmi-mədəni əlaqələrin inkişafı üzrə həyata keçirdiyi siyasi kurs bu gündə Azərbaycan Respublikasının prezidenti İlham Əliyev və birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən uğurla davam etdirilir. Bu gün Azərbaycanın Şərq ölkələri üzrə əməkdaşlıq etdiyi akademik qurumlar içərisində Türkiyə, Ərəb ölkələri, Çin, İsrail, Monqolustan kimi ölkələrin önəmli elmi qurumları yer alır.

## The Role of Heydar Aliyev in the Development of Scientific and Cultural Relations between Azerbaijan and Eastern Countries

### Summary

**Keywords:** Heydar Aliyev, Eastern countries, scientific and cultural relations, Latest history of Azerbaijan, Organization of the Islamic Conference, Organization of Turkic States

The article mentions the importance of the political genius of the national leader Heydar Aliyev in the re-formation and development of scientific and cultural relations between independent Azerbaijan and Eastern countries. This policy, which is based on the development of strategic scientific potential and the development of strategic scientific potential of these relations based on ancient historical traditions, directly serves to further strengthen the close historical ties with the Islamic world and other Eastern countries. During the period when our national leader was in political power, a number of innovative

steps were taken in the direction of studying the scientific potential of Arab countries, Iran, Turkey, Central Asia, and Far Eastern countries and sharing mutual scientific experience, and modern scientific approaches were formed from various aspects in the economic, cultural, and spiritual spheres.

**Ədəbiyyat siyahısı**


1. V. Ömərov. Azərbaycan-İraq mədəni inteqrasiyası (XX əsrin II yarısından müasir dövrədək). Səs qəzeti. 28 fevral 2014. Elektron resurs. URL: https://sesqazeti.az/news/mia/396389.html
2. Heydər Əliyev və Şərq. Birinci kitab. Bakı, "Tural-Ə" NPM. 2002.
3. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin İran İslam Respublikasına ilk rəsmi səfəri (29 iyun – 2 iyul 1994-cü il) Elektron resurs. URL: https://lib.aliyevheritage.org/az/94051270.html
4. Azərbaycan Səudiyyə Ərəbistanı münasibətləri. Elektron resurs. URL: https://lib.aliyevheritage.org/az/7892915.html
5. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyə Cümhuriyyətinə ilk rəsmi səfəri (8 – 11 fevral 1994-cü il). Elektron resurs. URL: https://lib.aliyev-heritage.org/az/44726128.html
6. TÜRKSOY. Tarihçe. Elektron resurs. URL: https://www.turksoy.org/tarihce

**Samid Bağırov**
AMEA akad Z. M. Bünyadov adına Şərqşünaslıq İnstitutu,
Ərəb ölkələri tarixi və iqtisadiyyatı şöbəsinin elmi işçisi

# AZƏRBAYCAN VƏ İƏT ƏLAQƏLƏRİNİN FORMALAŞMASINDA HEYDƏR ƏLİYEVİN ROLU

**Açar sözlər:** İslam Əməkdaşlıq Təşkilatı, Heydər Əliyev, Azərbaycan Respublikası, Ərəb Dövlətləri Liqası, Yaxın Şərq, Qarabağ problemi, Qoşulmama Hərəkatı, BMT qətnamələri

## Giriş

Azərbaycan müstəqilliyini əldə etdikdən sonra müsəlman ölkələri ilə əlaqələri qurmaq və möhkəmləndirmək istiqamətində mühüm addımlar atdı. Bu istiqamətdə mərhum Heydər Əliyev 1993-cü ildə prezident seçildikdən sonra xarici siyasətdə ərəb və islam ölkələri arasında əlaqələrin qurulmasını prioritet məsələlər sırasına daxil etdi və bu yolda müxtəlif islam qurumları ilə əlaqə kanalları açdı. Bu siyasət bir neçə müstəvidə aparılırdı. Müsəlman ölkələri ilə ayrı ayrılıqda siyasi, iqtisadi, sosial, dini və sair sahələrdə əlaqələr yaradıldı, həmçinin əksər müsəlman dövlətlərini çətiri altına ala bilmiş İslam qurumları ilə də əməkdaşlıqlar gücləndirilirdi.

Bu əməkdaşlıqların bir neçə səbəbi var idi. Təbii ki Azərbaycan müsəlman ölkəsi olduğu kimi, onun hakimiyyəti də tarixi dini köklərinə sadiq qalmaqda səy göstərir, ölkə əhalisinin bu zəmində istəklərini təmin edirdi. İkinci səbəb İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin özlərinin də Azərbaycana maraq göstərməsi, onu müsəlman dünyasının tərkib hissəsi kimi görməsi istəyi ilə bağlı idi. Üçüncü səbəb Azərbaycan dövlətinin Qarabağın və ətraf rayonların Ermənistan silahlı qüvvələri və separatçıları tərəfindən işğal edilməsindən sonra ölkənin haqq mövqeyinin müsəlman dünyasına çatdırması, İslam qurumları vasitəsilə dünya miqyasında daha tez eşitdirilməsi məqsədi daşıyırdı. Təbii ki, bu yolda dünyada çoxlu üzvü və təsiri olan İƏT-nın diqqətini məsələyə cəlb etmək böyük əhəmiyyət daşıyırdı. Qarabağ müharibəsi dövründə qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş bir milyona yaxın insana humanitar yardımların çatdırılmasında da İslam qurumları fəal iştirak ediblər. Başda Səudiyyə Ərəbistanı, Türkiyə və İran olmaqla bir sıra müsəlman dövlətlərin aidiyyəti humanitar yardım qurumlarının fəaliyyəti də diqqət çəkib. Sözügedən məsələ də İslam qurumları ilə əməkdaşlığın səbəblərindən biri ola bilər.

Qətiyyətlə demək olar ki, mərhum Heydər Əliyevin dövründə İslam qurumları ilə xüsusilə də İƏT ilə əlaqələr tam şəkildə formalaşdırılıb davam etdirildi.

## Heydər Əliyev və İƏT-lə əlaqələrinin formalaşması

Müstəqilliyini yeni əldə edən dövlətlərin qarşısında duran əsas problemlərdən biri də xarici siyasətini balanslaşdırılmış formada qurmasıdır. Ərazisinə qarşı işğalçılıq siyasətinin yürüdülməsi, daxili siyasi çəkişmələrin olduğu və bundan savayı bəzi separatçı meyillərin

baş qaldırması müstəqil Azərbaycanın ilk illərini olduqca mürəkkəb və böhranlı vəziyyətə salmışdı. Rusiya, İran və Türkiyə kimi böyük dövlətlərin arasında yerləşmək, digər tərəfdən də Qərbin Azərbaycanla bağlı siyasəti qeyd edilən balanslaşmış siyasətin əlçatan olmasını daha da çətinləşdirirdi. Mərhum Heydər Əliyev Sovet İmperiyasından sonra yeni dünya nizamının qurulduğu dövrdə Azərbaycana rəhbərlik etdiyi vaxtda bir tərəfdən Qərblə Rusiya, digər tərəfdən isə ərəb və İslam ölkələri arasındakı münasibətlərində balans yaratmağa çalışırdı. Qətiyyətlə demək olar ki, o buna nail oldu və Azərbaycanın hazırkı mövqeyinin möhkəmlənməsinin əsasını qoydu. İlk illərdən Ermənistandan fərqli olaraq Azərbaycan bütün region və dünya gücləri ilə münasibətlərini formalaşdırmaq yolunda addımladı. Ermənistan isə ən çox həmsərhəd olduğu Azərbaycan və Türkiyə ilə ədavət yolunu seçib bir növ özünü müxtəlif sahələr üzrə təcrid etdi.

Mərhum Heydər Əliyevin dövründə xarici siyasətin formalaşdırılması qərblə yanaşı şərqlə, xristian dünyası ilə yanaşı müsəlman dünyası ilə aparılırdı. Bu yolda fayda verə biləcək heç bir məqam diqqətdən kənarda qalmadı. Müsəlman ölkələri və İslam qurumları ilə əlaqələrin prioritet olaraq möhkəmləndirilməsi sürətlə davam etdirildi. Daha sonra bu əlaqələrin Qarabağ münaqişəsi və digər cari məsələlərlə bağlı nə qədər faydalı olduğu açıq aşkar göründü.

İslam Əməkdaşlıq Təşkilatında 1993-2020-ci illər ərzində Azərbaycanın lehinə verilmiş qərarlar və çıxarılmış qətnamələrin mətninə nəzər saldıqda anlamaq olur ki, bu qərar və qətnamələr həm də dərin məzmunlu olub və sırf siyasi, pafoslu mövqelər deyil. Məsələn İƏT-nın Pakistanın Kəraçi şəhərində 1993-cü ildə xarici işlər nazirləri müstəvisində keçirilən toplantısı Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın lehinə verilən ilk qərarların şahidi olub. Mərhum Heydər Əliyev də bir uzaqgörən siyasətçi kimi bu qərarların yalnız kağız üzərində bir mürəkkəbdən ibarət olmadığını bilir və bu kimi qərarların artması üçün səyini göstərirdi. Məsələn 1993-cü ilin aprelində Kəraçi şəhərində keçirilən İƏT Xarici İşlər Nazirlərinin XXI konfransında çıxarılan qətnamənin bir hissəsində deyilir: "Qarabağ məsələsi barəsində Ermənistanla Azərbaycan arasında münaqişənin kəskinləşməsi ilə əlaqədar dərindən narahat olaraq, Ermənistanın Azərbaycana qarşı son hücumunu və Azərbaycan ərazisinin işğalını qətiyyətlə pisləyərək, Azərbaycan Respublikasına qarşı Ermənistanın təcavüzü nəticəsində humanitar problemlərin dözülməz vəziyyətindən təsirlənərək, İƏT Xarici İşlər Nazirlərinin 1992-ci ildə İstanbulda keçirilmiş V fövqəladə iclasının prinsipial mövqeyini yada salaraq, həmçinin İƏT Xarici İşlər Nazirlərinin BMT qərargahında keçirilmiş əlaqələndirmə iclasının son rəsmi məlumatının müvafiq bəndlərini yada salaraq, qonşu ölkələrin və regional dövlətlərin, xüsusilə İran və Türkiyənin, Qarabağ məsələsinin sülh yolu ilə həll edilməsi istiqamətində göstərdiyi cəhdləri nəzərə alaraq, Ermənilərin son təcavüzünün beynəlxalq sülh və təhlükəsizlik üçün təhlükə yaratdığını dərk edərək, bu yeni hərbi hücumun aparılan sülh prosesinə dağıdıcı təsir göstərə biləcəyindən xəbərdar olaraq, baş katibin bu məsələ üzrə məruzəsini yüksək qiymətləndirərək, Ermənistanın Azərbaycan Respublikasına qarşı təcavüzünü kəskin şəkildə

pisləyir, Erməni qüvvələrinin işğal edilmiş Azərbaycan ərazilərindən təcili çıxarılmasına və Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə hörmət bəsləməyi Ermənistandan ciddi surətdə tələb edir”[21].

Göründüyü kimi İƏT-in Qarabağla bağlı ilk qərar və qətnaməsi kifayət qədər açıq, dolğun və birbaşa olub. Mərhum Heydər Əliyev bir milyard yarım müsəlman cəmiyyətini özündə ehtiva edən dövlətlərin qurumunun bu qətnaməsinin əhəmiyyətini bilir, bu beynəlxalq qurumun BMT-nin səsvermələrində hansı təsir göstərə biləcəyini rahatlıqla görürdü. O həmçinin bilirdi ki, dünyanın BMT-dən sonra ən böyük qurumu olan Qoşulmama Hərəkatında əsas söz sahibi də məhz İƏT üzvləridir. Buna görə İƏT-lə əlaqələrin formalaşdırılması ölkənin xarici siyasətində bir zərurət hesab edildi. Bundan savayı İƏT-in dəstəyini qazanmaq, dünya ticarətində böyük önəm kəsb edən Ərəb Dövlətləri Liqasının dəstəyini də qazanmaq deməkdir. Mərhum prezident bunu da bilirdi ki, İƏT-in dəstəyini qazanmaq müsəlman ölkələrini də tək-tək məsuliyyət qarşısında qoyur və onları Azərbaycanın Qarabağ və işğal edilmiş ətraf rayonlarının taleyində biganə olmamağa vadar edir.

Ulu öndərin İƏT-lə əlaqələrə önəm verməsi həm də daha bir zərurətdən irəli gəlirdi. Azərbaycan müstəqilliyinin ilk illərində maliyyə problemləri ilə üzləşmiş, müharibə şəraiti bu problemi daha da böyütmüşdü. Demək olar ki, İƏT-in həmin illərdəki toplantılarında Azərbaycana yardımla bağlı qərarlar öz əksini mütəmadi olaraq tapırdı. Məsələn qərarların birində deyilir:

“Yaşayış yerlərini tərk edənlərin öz evlərinə təhlükəsiz, hörmət və qayğı ilə qayıtmalarını asanlaşdırmağa çağırır, üzv olan ölkələr İslam İnkişaf Bankından və digər İslam təsisatlarından Azərbaycan Respublikasına təcili maliyyə yardımı və humanitar yardımı göstərməyi xahiş edirlər”.

On üç dekabr 1994-cü ildə Mərakeş Krallığının Kasablanka şəhərində keçirilən “Qardaşlıq və Dirçəliş Sessiyası” Səkkizinci İslam Zirvə Konfransında Heydər Əliyev ilk dəfə Azərbaycan nümayəndə heyətinə başçılıq etdi. Azərbaycan təşkilata üzv olduqdan sonra, Heydər Əliyev sammitdəki çıxışında ölkəsinin İslam həmrəyliyi və birliyinin güclənməsi məqsədilə İslam Əməkdaşlıq Təşkilatı ilə əlaqələrə böyük önəm verdiyini bildirdi. O həmçinin, Ermənistanın Azərbaycana qarşı təcavüzünün təkcə Azərbaycanı deyil, bütün İslam sivilizasiyasını hədəfə aldığını açıq şəkildə bildirərək, sammit iştirakçılarına müraciət etdi və onları erməni işğalını pisləyən sənəd layihəsini qəbul etməyə çağırdı.

Göründüyü kimi mərhum Heydər Əliyevin İƏT-lə əlaqələrə əhəmiyyət verməsinin səbəblərindən biri də onları Qarabağda İslam abidələrinə qarşı aparılan dağıdıcı addımlara, ümumiyyətlə Azərbaycana qarşı islamafobiya fonunda nifrətin aşılanması və rəsmi Bakıya qarşı ikili standartlı rəftara diqqət çəkmək idi. O, İƏT-ə üzvü olan ölkələrin Kasablanka zirvə toplantısında çıxışında deyib:

[21]İƏT-nın rəsmi saytı, 25-29 aprel 1993, Kəraçi, “əl-Bəyan əl-Xitami”, https://ww1.oic-oci.org/arabic/conf/fm/21/21th-final-a.htm

“Hörmətli cənablar! Sizə məlum olduğu kimi, Azərbaycan xalqı qonşu Ermənistan Respublikasının təcavüzünə məruz qalmış, bunun nəticəsində Azərbaycan ərazisinin 20 faizindən çoxu işğal edilmişdir. Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasında işğal etdikləri Dağlıq Qarabağ regionunda və ona bitişik yeddi digər rayonda ən qədim mədəniyyət abidələri məhv edilmiş, bütün məscidlər dağıdılmış, müsəlman məzarları təhqir olunmuş, Qurani-Kərimin nüsxələri yandırılmışdır. Ən qədim müsəlman sivilizasiyasının bütün izləri yer üzündən silinir… Ona görə öz qətnaməsində Ermənistan Respublikasının müstəqil Azərbaycana qarşı təcavüzünü pisləmiş İslam Konfransı Təşkilatının fəaliyyətini biz yüksək qiymətləndiririk. Qurum bu münaqişənin aradan qaldırılması işində iştirak edən beynəlxalq təşkilatlara müvafiq müraciətlər göndərmişdir. Hesab edirəm ki, belə tədbirləri davam etdirmək lazımdır və biz çox ümidvarıq ki, İslam Konfransı Təşkilatının hər bir üzvü bu tədbirləri dəstəkləyəcəkdir.”[22]

Baxmayaraq ki, həmin dövrdə BMT Təhlükəsizlik Şurasında Ermənistan Silahlı Qüvvələri və separatçılarının işğalı ilə bağlı 822, 853, 874 və 884 saylı qətnamələr çıxarılmış və münaqişənin nizamlanması işi ATƏT-in Minsk qrupuna həvalə edilmişdi, lakin Azərbaycan Respublikası həmin dövrdə bu qərarlardan heç bir vəchlə meydanda faydalana bilməmişdi. Mərhum Heydər Əliyev qrupun əsas üzvləri ABŞ, Rusiya və Fransanın rəsmi nümayəndələri ilə görüşdə, habelə ölkə ictimaiyyəti qarşısında çıxışlarında dəfələrlə rəsmi Bakıya qarşı ikili standartlı rəftar edildiyini dilə gətirmiş, bir neçə də bunun səbəbinin Azərbaycanın müsəlman ölkəsi olması ilə əlaqələndirmişdi.

Bu nöqteyi-nəzərindən də mərhum Heydər Əliyev müsəlman ölkələrinə can atır, bəzən dünya düzənində həqiqətin nədən ibarət olduğunu onlara çatdırmağa çalışırdı. O bir tərəfdən Azərbaycanın müsəlman ölkələrinə qurumlarına can atması istiqamətində çaba göstərir, digər tərəfdən müsəlman ölkələrini də Azərbaycana gəlməyə və hətta sərmayələr qoymağa çağırırdı. O bir tərəfdən Qarabağ probleminin İslam dünyasının problemi olaraq önə çəkir, digər tərəfdən də Azərbaycanın İslam aləmində layiqli yer tutmasına səy göstərirdi.

Heydər Əliyevin İƏT-lə münasibət birtərəfli, yəni yalnız ummaq deyildi, o İslam dünyasının gələcəkdə təsiri və həmrəyliyi barədə də fikirlərini səsləndirirdi. O deyirdi:

“İslam ölkələri dünyanın böyük bir hissəsini təşkil edirlər. Onların bir milyard nəfərdən artıq əhalisi var. İslam Konfransı Təşkilatı bu ölkələrin ümumi potensialından istifadə edərək həm ümumbəşəri proseslərdə iştirak edir, həm də İslam ölkələrinə məxsus spesifik problemlərin həll olunmasına çalışır. Mən şəxsən hesab edirəm ki, hər bir belə regional təşkilat əhəmiyyətlidir və bu kimi təşkilatların hamısı öz səylərini nəhayət, birləşdirə bilsələr, dünyada sülh daimi olar, əmin-amanlıq, təhlükəsizlik təmin edilə bilər”.[23]

İndoneziyada 1996-cı ildə İƏT-in XİN rəhbərlərinin toplantısında rəsmi Bakının lehinə daha bir qətnamə çıxarıldı və burada yer alanlar da mesajların ciddi siyasi mövqelərin olmasından xəbər verirdi.

[22] Heydər Əliyev İrsi Kitabxanası, https://lib.aliyev-heritage.org/az/1512521.html
[23] Azərtac, https://azertag.az/xeber/1482015

İƏT Xarici işlər nazirlərinin İran İslam Respublikasının Tehran şəhərində keçirilmiş (Həmrəylik və Ləyaqət) toplantısında da Azərbaycanın lehinə çıxarılmış qərar və layihələr təşkilatın Qarabağ məsələsində ciddi siyasi mesajlar verdiyini göstərirdi. Bu qərarın bir hissəsində deyilirdi:

"BMT-nin Təhlükəsizlik Şurasının, Laçın və Şuşa rayonları daxil olmaqla Azərbaycanın işğal olunmuş bütün ərazilərindən erməni silahlı qüvvələrinin dərhal, qeyd-şərtsiz və tam çıxarılması, Ermənistan tərəfindən Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə hörmət edilməsini israrla tələbi barədə 822, 853, 874 və 884 saylı qətnamələrini təsdiq edərək, Ermənistan tərəfindən etnik təmizləmə məqsədi ilə Azərbaycanda məscidlərin və islama aid olan digər müqəddəs yerlərin tam və vəhşiliklə dağıdılmasının vandalizm aktı olduğunu bəyan edərək"[24] tələblər irəli sürülmüşdü.

Heydər Əliyevin dövründə atılan addımların nəticəsində İƏT-in Mərakeş (1994), Tehran (1997) sammitlərindəki Ermənistanın Azərbaycana qarşı təcavüzünü ittiham siyasətini növbəti zirvə görüşlərində də davam etdirdi. Azərbaycan Respublikasının Xarici İşlər Naziri ilə təmsil olunduğu 12-13 noyabr 2000-ci il Doha (Qətər) və 16-17 oktyabr 2003-cü il Putracaya (Malayziya) sammitlərində Ermənistan qoşunlarının işğal olunmuş Azərbaycan torpaqlarından çıxarılması, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə hörmət olunması, Ermənistanın qoşunlarının çıxarılması barədə BMT qətnamələrini (822, 853, 874, 884) yerinə yetirməməsinə cavab olaraq təşkilatın nizamnaməsinin VII fəslinin (sülhə təhlükə, sülhün pozulması və təcavüz aktları ilə bağlı tədbirlər) tətbiq olunmasını əks etdirən sənədlər qəbul olundu.[25]

## The Role of Heydar Aliyev in the Establishment of Relationship Between Azerbaijan and the Oragnization of Islamic Cooperation (OIC)

## Summary

**Keywords:** Organization of Islamic Cooperation, Heydar Aliyev, Republic of Azerbaijan, League of Arab States, Middle East, Karabakh problem, Non-Aligned Movement, UN resolutions

After Azerbaijan gained its independence, along with the building of the army and the strengthening of the people's spirit of resistance, diplomatic efforts also gained special importance. These efforts were especially fruitful in the Muslim world to which the people of Azerbaijan is inseparably integrated. The policy of the late Heydar Aliyev, the founder of modern Azerbaijan regarding the Muslim world was considered the main line of his diplomacy. The establishement of relations with the Organization of Islamic Cooperation,

[24] İƏT-in rəsmi saytı, 28-30 may, Tehran, "əl-Bəyan əl-Xitami", https://ww1.oic-oci.org/arabic/conf/fm/30/30%20icfm-fc-ar.htm

[25] https://islamworld.preslib.az/

which is the largest international organization of the Islamic world, was done and further enhanced at the time of of the great leader's presidency. It was the result of these efforts that during the second Karabakh war the people of Azerbaijan received the support of the "Organization of Islamic Cooperation" (OIC), the Youth Forum of OIC, the "League of Arab States", the "Non-Alignment Movement" in which Muslim countries are active, as well as the political support of the vast majority of Muslim countries. The Christian states, members of the Minsk Group of the OSCE, which was created as an international body for searching the settlement of the Karabakh conflict, did not take any steps in the past years, despite four UN resolutions. This reality occupied the attention of the late Heydar Aliyev, who considered the Muslim identity of our country as an indication to a double standard approach in the conflict resolution efforts. That is why relations with the OIC were further strengthened starting from the first years of independence, especially during the time of the late Heydar Aliyev. At that time, decisions on the standing issues of the Armenian-Azerbaijani Nagorno-Karabakh conflict were adopted in favor of our country at the OIC summits held in Casablanca, Tehran and Doha.

**Ədəbiyyat siyahısı**


1- Azərtac İnformasiya Agentliyi, https://azertag.az/xeber/1482015

2- Heydər Əliyev İrsi Beynəlxalq Elektron Kitabxanası, https://lib.aliyev-heritage.org/az/1512521.html

3- İslam Əməkdaşlıq Təşkilatının rəsmi saytı, https://ww1.oic-oci.org/arabic/conf/fm/30/30%20icfm-fc-ar.htm

4- https://islamworld.preslib.az/

**Solmaz Namazova**
AMEA akad. Z. M. Bünyadov adına Şərqşünaslıq İnstitutu,
Şərq ölkələrinin tarixşünaslığı şöbəsinin elmi işçisi
namazovaslmz@gmail.com

# HEYDƏR ƏLİYEVİN DÖVRÜNDƏ ÖLKƏMİZDƏ SƏHİYYƏNİN İNKİŞAF TARİXİ

**"Səhiyyə bizim üçün, hər bir cəmiyyət və dövlət üçün çox lazımlı, həyatın bütün sahələrini əhatə edən sahədir".**
**Heydər Əliyev**

**Açar sözlər:** Heydər Əliyev, səhiyyə, tibb, xəstəlik, xəstəxana, kadr təminatı.

## GİRİŞ

Məlumdur ki, ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycana rəhbərlik etdiyi illərdə əhalinin sağlamlığının qayğısına qalmış və səhiyyə sahəsində ciddi tədbirlər həyata keçirmişdir. Hələ 1969-cu ilin dekabrında Azərbaycan Respublikası Ali Sovetinin VII Sessiyası onun təşəbbüsü ilə gələcək nailiyyətlərin əsasını qoyan "Sağlamlıq Məcəlləsi" adlı sənədi təsdiq etmişdir. Bu Məcəllə səhiyyənin gələcək inkişafı istiqamətlərini müəyyən etməklə, növbəti illər üçün bu sahədə fəaliyyət planına çevrilmiş və səhiyyənin inkişafına mühüm təkan vermişdir. Heydər Əliyev səhiyyə quruculuğu ilə əlaqədar qarşıya qoyduğu qlobal tədbirlər kompleksinə ilk səhiyyə ocaqlarının yenidən qurulması, təzədən tikilməsi və abadlaşdırılması, eləcə də əhalinin kütləvi surətdə dispanser qeydiyyatından keçirilməsi və sahə həkimlərinin fəaliyyətinin canlandırılmasından başlamışdır. Bununla da elmi tədqiqat laboratoriyaları ilə səhiyyə-sağlamlıq idarələri və müalicə profilaktika mərkəzlərinin fəaliyyətində varislik əlaqələri qurulmuşdur. Bütün bunlardan sonra tibb işçilərinin nəzəri-təcrübi uğurlarının səmərəliliyini təmin etmək üçün səhiyyənin ayrı-ayrı sahələri üzrə elmi-təcrübi mərkəzlər açılmış, elmi forumlar - simpoziumlar, konfranslar, konqreslər, qurultaylar keçirilmiş, beynəlxalq elmi əlaqələr möhkəmləndirilmişdir. Səhiyyənin yeni inkişaf planına uyğun olaraq yüksək ixtisaslı həkim və alim kadrlarının hazırlanması bir daha ön plana çəkilmişdir.

Azərbaycan Respublikası 1994-cü ildə müstəqil dövlət kimi ilk dəfə Qahirədə və Daşkənd şəhərlərində keçirilmiş beynəlxalq konfranslarda ana və uşaqların qorunması haqqında deklarasiyaya imza ataraq Beynəlxalq Konvensiyaya və Ümumdünya Deklarasiyasına qoşulmuşdur. 1995-ci ildə respublikamızda ailə sağlamlığı problemlərinin həlli ilə məşğul olan Ailə Sağlamlıq Mərkəzi, bu sahənin inkişafına xidmət edən qanunvericilik bazası yaradılmış və sonrakı illərdə daha da təkmilləşdirilmişdir (Quluzadə M., 2016: 55).

Bundan əlavə, ÜST, “Sərhədsiz həkimlər” təşkilatı, “Relief İnternational”, təşkilatları, UNİCEF, Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası kimi beynəlxalq humanitar təşkilatların yaxından köməyi ilə 1995-1997-ci illərdə respublikada yoluxucu xəstəliklərə qarşı mübarizə kampaniyaları genişləndi, əhalinin, xüsusən uşaqların difteriyaya qarşı kütləvi peyvənd olunması təşkil edildi. 1996-cı ilin aprelində vərəm xəstəliyinə qarşı mübarizə aylığı keçirildi. 1994-1997-ci illərdə ABŞ-m AMOCO şirkəti ilə “AmeriCares” xeyriyyə cəmiyyəti Naxçıvan MR-də yoluxucu xəstəliklərə qarşı “soyuq zəncir” adlı immunlaşdırma proqramı həyata keçirdilər. 1997-ci ildə Yaponiya hökuməti vərəm və tənəffüs yolları xəstəliklərinə qarşı elmi-tədqiqat işləri üçün respublikamıza 1,5 milyon dollarlıq xüsusi avadanlıq bağışladı. Həmin il Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının yaxından köməyi ilə malyariyaya qarşı mübarizə kampaniyası keçirilmişdi. ABŞ-ın Xəstəliklərə Nəzarət Mərkəzi, UNİCEF və başqa beynəlxalq səhiyyə təşkilatları köçkünlərin məskunlaşdıqları çadır şəhərciklərində sanitariya vəziyyətinin yaxşılaşmasında, xəstəliklərə qarşı mübarizənin təşkilində fəal iştirak etdilər. 1995-ci ildə Beynəlxalq Qızıl Xaç Cəmiyyətinin köməyi ilə Bakıda ortopedik mərkəz və emalatxana təşkil olunmuşdu. 1996-cı ildən ABŞ-ın özəl, könüllü AMKOR təşkilatı Abşeronda 8 tibb məntəqəsi açıb minlərlə qaçqın və köçkünə səhiyyə xidməti göstərirdi (XX əsr Azərbaycan tarixi. 2014: 522-523).

Azərbaycan Avropada “poliomielit” uşaq xəstəliyinin ən çox yayıldığı ölkə idi. Vəsait çatışmadığından bu ağır xəstəliyə qarşı mübarizəni səmərəli təşkil etmək mümkün deyildi. 1995-1996-cı illərdə ÜST və UNİCEF-in köməyi ilə respublikada poliomielitə qarşı xüsusi əməliyyat keçirildi, uşaqların, demək olar ki, hamısı peyvənd olundu. Artıq 1997-ci ildə ölkədə difteriya 4 dəfə azalmış, poliomielit isə tamamilə yox olmuşdur. ABŞ-la əməkdaşlıq əlaqələrinin möhkəmlənməsi sahəsində 1997-ci ilin sentyabrında bu ölkənin Dövlət Departamentinin təşəbbüsü ilə Azərbaycana 1,2 milyon dollar dəyərində dərman preparatları gətirildi. Həmin ildə Böyük Britaniyanın “Uşaqlara birbaşa yardım” beynəlxalq humanitar təşkilatı məcburi köçkünlər üçün 7 tibb məntəqəsi təşkil etdi. 1998-ci ilin yanvarında ABŞ-dan dövlət səviyyəsində ilk humanitar yardım göndərildi.

Səhiyyə istiqamətində yeni qanunların qəbul olunması prosesi 1997-ci ildən başlandı. İlk qəbul olunmuş qanun 26 iyun 1997-ci ildə imzalanan “Əhalinin sağlamlığının qorunması haqqında Azərbaycan Respublikasının qanunu” olmuşdur. Bu hüquqi sənəd 25 iyulda 1997-ci ildə qəbul olunan digər bir qanunun tətbiq edilməsi ilə bu istiqamətdə mövcud olan hüquqi baza daha da gücləndirildi (Azərbaycan Respublikasının səhiyyə qanunvericiliyi. s. 5-30). Qanun əhalinin sağlamlığının qorunmasının əsas prinsipləri, səhiyyə sisteminin maliyyələşdirilməsi, dərman vasitələri ilə təminat, tibbi sığortanın nizamlanması, tibbi-sosial istiqamətdə vətəndaşların hüquqları, insanın reproduktiv funksiyalarının tənzimlənməsi, ilkin tibbi yardım və orqan transplantasiya məsələləri, tibbi ekspertiza və digər tənzimləyici məqamları əhatə edirdi. Həmin ilin dekabr ayının 30-da “Əhalinin radiasiya təhlükəsizliyi haqqında Azərbaycan Respublikasının qanunu” qəbul olundu (Azərbaycan Respublikasının səhiyyə qanunvericiliyi. s. 31-42). 1997-ci ilin sonlarında Yaponiya Azərbaycan respublikasına

tənəffüs yolları əleyhinə hazırlanan və dəyəri 1,5 milyon manat olan aparat hədiyyə etdi. Bu aparat elmi-tədqiqat işlərinin həyata keçirilməsi üçün olduqca qiymətli bir vasitə idi (Azərbaycan tarixi. 2008: 405).

Azərbaycan Respublikasının tibbi qanunvericiliyində xüsusi qayğıya ehtiyacı olan təbəqələrə məxsus insanlara səhiyyə xidmətinin göstərilməsi ilə bağlı hüquqi sənədlərin hazırlanıb qəbul olunması xüsusi diqqət mərkəzində olub. Bununla bağlı 29 avqust 1997-ci il "Əlilliyin müəyyən olunmasına dair əsasnamə", 3 aprel 1998-ci ildə "Azərbaycan Respublikasında protez vasitələrinin hazırlanmasına xüsusi razılıq (lisenziya) verilməsi qaydaları", 17 aprel 1998-ci il "Ortopedik vasitələrin hazırlanmasına xüsusi razılıq (lisenziya) verilməsi qaydaları" (Azərbaycan Respublikasının səhiyyə qanunvericiliyi. s. 109-116) adlı bir sıra hüquqi sənədlər qəbul olunmuşdur.

Bütün bunlarla yanaşı 1998-ci il martın 13-də Heydər Əliyev "Səhiyyə sahəsində islahatlar üzrə Dövlət komissiyasının yaradılması haqqında" sərəncam imzalamışdır. Səhiyyə orqanlarının idarəetmə aparatında paralel və bir-birinin işini təkrar edən bölmələrin ləğv edilməsi, əhalinin ehtiyacından artıq çarpayı fondunun azaldılması, özəl, qismən və tam təsərrüfat hesablı tibb müəssisələri yaradılması yolu ilə tibbi xidmətin keyfiyyətinin və səmərəsinin artırılması prinsipləri səhiyyə sahəsində islahatların əsasını təşkil edirdi. Həmin illərdə ölkə rəhbərinin birbaşa göstərişi ilə Azərbaycanda reproduktiv sağlamlıq və ailə planlaşdırılması xidmətlərinin keyfiyyətinin yaxşılaşdırılması üzrə milli proqramın həyata keçirilməsinə başlanılmışdır. Ana və uşaqlar arasında ölüm hallarının sayının azaldılmasına yönəldilmiş bu proqram çərçivəsində Naxçıvanda, Gəncədə, Bakıda, Masallıda, Şəkidə və Qusarda böyük maddi bazaya malik 6 regional mərkəz yaradılmışdır. Həmin proqramın ikinci mərhələsinə 1999-cu ilin dekabrında başlanılmış və 2004-cü ilədək 15 yeni regional mərkəzin yaradılması təmin edilmişdir (Əmiraslanov Ə. 2014).

Ulu öndərin tibb elminə, səhiyyə sisteminə göstərdiyi qayğı sayəsində 1998-ci ildə ATU-nun 11 mərtəbəli tədris korpusu, 500 nəfərlik akt zalı tikilib istifadəyə verildi. 2000-ci ildə Azərbaycan Tibb Universiteti nəzdində Heydər Əliyevin tövsiyəsi ilə hərbi tibb fakültəsi yaradıldı (Məmmədov F., Sadıqov H., 2017). Həmin ildə 200-dən çox tibb müəssisəsi dünya standartlarının tələbləri səviyyəsində yenidən qurulmuşdur. Respublikada ilk dəfə müasir səviyyədə təchiz edilmiş nüvə-maqnit rezonans mərkəzi açılmışdır. Prezident Heydər Əliyevin Yaponiyaya səfərindən sonra bu ölkənin hökuməti respublikamıza 6 milyon dollar məbləğində təmənnasız yardım proqramı tərtib etmişdir. Elmi Tədqiqat Ağ Ciyər Xəstəlikləri İnstitutu, Ə. Qarayev adına 2 saylı Kliniki Uşaq Xəstəxanası və Ş. Ələsgərova adına 5 saylı Doğum evi həmin proqram çərçivəsində ən yeni aparatlarla təchiz edilmişdir. Fransa hökumətinin ayırdığı qrant hesabına 8 tibb müəssisəsində su təmizləyici qurğular qoyulmuşdur. 2000-ci ilin dekabr ayında Azərbaycan Prezidentinin iştirakı ilə müasir dünya standartlarına cavab verən Mərkəzi Klinik Xəstəxanasının açılış mərasimi olmuşdur. MDB məkanında ən yaxşı səhiyyə ocaqlarından biri olan bu xəstəxananın inşası 29,5 milyon dollara başa gəlmişdir. Həmin xəstəxana bir sıra xəstəliklərin ən yüksək səviyyədə diaqnostika-

sını və müalicəsini təmin edir. 2002-ci ildə ATU-nun tarixində ilk dəfə olaraq bu ali tibb ocağının özünə məxsus olan ilk klinikası-stomatoloji klinika təşkil edildi (Şirəliyeva R. K., Pirəliyeva Y. U., Əliyeva R. R., 2018: 64-68).

2000-ci ildən sonra Azərbaycanda artıq 735 xəstəxana, 1614 ambulatoriya, poliklinika, 915 qadın məsləhətxanası və uşaq poliklinikası mövcud idi. Tibbi xidmət göstərən müəssisələrdə 29 min həkim, 60 min tibb işçisi xalqa xidmət göstərirdi (Azərbaycan tarixi. 2008: 404). 5 iyun 2001-ci ildə qəbul olunan "Sağlamlıq imkanları məhdud olan şəxslərin təhsili (xüsusi təhsili) haqqında Azərbaycan Respublikasının qanunu"na əsasən xüsusi təhsilin formaları, təşkili və idarə olunması müəyyənləşdirilmiş və onların cəmiyyətə adaptasiyasının təminatı formaları göstərilmişdir (Azərbaycan Respublikasının səhiyyə qanunvericiliyi, s. 46-56). Bundan başqa "Əhalinin sağlamlığının qorunması haqqında", "Qan və onun komponentlərinin donorluğu haqqında", "İnsanın immun çatışmazlığı virusunun törətdiyi xəstəliyin (AIDS) yayılmasının qarşısının alınması haqqında", "Əczaçılıq fəaliyyəti haqqında", "İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında", "Tibbi sığorta haqqında, "Özəl tibb fəaliyyəti haqqında", "Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında", "Psixiatriya yardımı haqqında", "Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması haqqında", "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında, "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Əhaliyə tibbi yardım göstərilməsi, virusologiya məsələləri üzrə elmi tədqiqatlar aparılmalı və virus preparatlarının istehsalı ilə məşğul olan işçilərin xidməti vəzifələrinin yerinə yetirilməsi zamanı immun çatışmazlığı virusunun törətdiyi xəstəliyə (AİDS) tutulma, bununla əlaqədar baş vermiş şikəstlik və ölüm hadisələrinin dövlət icbari sığortası qaydaları haqqında Əsasnamənin təsdiq edilməsi barədə qanun" və s. qanunlar qəbul edilmiş, Azərbaycan ərazisində AİDS və vərəm xəstəliklərinin yayılmasının qarşısını almaq üçün Milli Proqramlar işlənib hazırlanmışdır (Quluzadə M. 2016: 6). Milli Məclis "Ruhi sağlamlığın qorunması haqqında" və "Vətəndaşlara vərəm əleyhinə kömək və bu köməyin göstərilməsi zamanı təminatlar haqqında" qanun layihələrini qəbul etmişdir.

Göründüyü kimi, Heydər Əliyevin diqqəti və dəstəyi ilə səhiyyə sistemində ardıcıl və məqsədyönlü işlər görülmüş, islahatlar aparılmış, səhiyyənin hüquqi-normativ bazası təkmilləşdirilmiş, ölkədə yüksəkixtisaslı tibb kadrları hazırlanmış, bir sıra qanunlar qəbul edilmişdir. Bu gün də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə Azərbaycan səhiyyəsi müvəffəqiyyətlə inkişaf etməkdədir.

## The History of the Development of Healthcare in Azerbaijan During Heydar Aliyev's Time

### Summary


**Keywords:** Heydar Aliyev, healthcare, medicine, illness, hospital, staffing


The quality of the population's health and health services are the main principles of the favorable formation of a successful state and society. In this regard, the study of the history of the formation and development of healthcare is of great importance. The purpose of this article is to examine the achievements in the field of healthcare during the leadership of the great leader Heydar Aliyev.

### Ədəbiyyat siyahısı

1. Mahmud Quluzadə. İnsan amili və Azərbaycan Respublikası səhiyyəsinin inkişafı. Monoqrafiya. Bakı. “Nurlar” Poliqrafiya Mərkəzi. 2016. 152 s.
2. XX əsr Azərbaycan tarixi. II cild. Ali məktəblər üçün dərslik. Bakı, “Apostroff”, 2014. 560 s.
3. Azərbaycan Respublikasının səhiyyə qanunvericiliyi. s. 5-30
4. Azərbaycan tarixi. Yeddi cilddə. VII cild (1941-2002-ci illər). Bakı, "Elm". 2008. 608 s. + 80 s. illüstrasiya.
5. Əhliman Əmiraslanov. Tibb elmi, tibb təhsili sistemində mütərəqqi islahatların müəllifi. “Azərbaycan” qəzeti. 2014
6. Məmmədov F., Sadıqov H., Müasir standartlara uyğun şəfa ocağı. Respublika qəzeti. 2017
7. Şirəliyeva R.K., Pirəliyeva Y. U., Əliyeva R.R., Azərbaycan tibb elminin tarixi. Milli Nevrologiya jurnalı, №1 (13) 2018. 64-68

**Sevinc Məmmədova**
AMEA akad. Z. M. Bünyadov adına Şərqşünaslıq İnstitutu,
İran tarixi və iqtisadiyyatı şöbəsinin elmi işçisi
sevinc.mammedova81@gmail.com

# XƏZƏR DƏNİZİNİN HÜQUQİ STATUSUNUN MÜƏYYƏN OLUNMASI İSTİQAMƏTİNDƏ HEYDƏR ƏLİYEVİN ROLU

**Açar sözlər:** Xəzər dənizi, "Dəniz konvensiyası", Zirvə görüşü, əməkdaşlıq, status

Həyatımın sonuna qədər xalqıma sədaqətlə xidmət edəcək və bütün fəaliyyətimi Azərbaycan Respublikasının gələcək inkişafına sərf edəcəyəm".
Heydər Əliyev
**Azərbaycan Xalqının Ümummilli Lideri**

## Giriş

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdə sonra xarici siyasətinin problemlərindən biri Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi məsələsi oldu. Xəzər dənizi SSRİ ləğv olunanadək İranın və Sovet İttifaqının nəzarətində idi. 1991-ci ildə SSRİ-nin dağılması nəticəsində regionda yeni geosiyasi vəziyyət yarandı. Xəzər dənizinin ətrafında iki deyil, beş müstəqil dövlət meydana gəldi. İran artıq SSRİ ilə deyil, yeni yaranmış müstəqil dövlətlərlə su sərhədindən qonşu dövlətə çevrildi. Yeni geosiyasi şərait özü ilə yeni bir problem yaratdı. Bu da Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi məsələsi idi.

Xəzər dənizinin geosiyasi səciyyəsinin tarixi XVIII əsrə təsadüf edir. Təbii sərvəti və iqtisadi-siyasi əhəmiyyətə malik Xəzər dənizi Rusiyanın diqqət mərkəzində olmuşdur. Hər iki Rus-İran müharibələri (1804-1813, 1826-1828) başa çatdıqdan sonra Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələri imzalandı. Bu müqavilələr ilə Xəzər dənizinin ilk hüquqi statusu müəyyən olundu. Rusiya Xəzər dənizinə nəzarəti ələ aldı və başqa dövlət ora daxil ola bilməzdi.

1917-ci ildə Rusiyada çar hakimiyyəti devrildi və Xəzəryanı coğrafiyada böyük dəyişikliklər baş verdi. 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti dövründə Xəzər dənizi ilə bağlı hər hansı məsələ gündəmə gəlmədi.

1920-ci il aprelin 28-də AXC Sovet Rusiyası tərəfindən işğal edildikdən sonra yenidən regionda vəziyyət dəyişdi. Azərbaycan SSR-in müstəqilliyi formal xarakter aldığından Xəzər dənizinin taleyi yenə Rusiyanın əlinə keçdi. 1921-ci il fevralın 26-da Rusiya Sosialist Federativ Sovet Respublikası (RSFSR) ilə İran arasında Dostluq və Əməkdaşlıq haqqında müqavilə imzalandıqda hər iki dövlət öz bayraqları altında Xəzərdə sərbəst gəmiçilik hüququndan istifadə etmək hüququ qazandı. Lakin müqavilədə formal da

olsa müstəqil olan Azərbaycan SSR-in üçüncü dövlət kimi maraqları nəzərə alınmamışdı. 1940-cı ildə yenidən SSRİ-İran arasında ticarət və gəmiçiliyə dair müqavilə imzalandı. Müqaviləyə əsasən Xəzər SSRİ və İranın dənizi kimi qəbul edildi, SSRİ-nin Xəzər dənizində payı 86%, İranınkı isə 14 % müəyyənləşdi [5, s. 46]. Bununla yanaşı ölkələr 10 mil enində sahil zolağında balıqçılıqla məşğul ola bilərdilər. SSRİ dağılana qədər İranın və Sovet İttifaqının nəzarətində olan Xəzər dənizinin hüquqi statusu məsələsi ikitərəfli münasibətlərdə müzakirə mövzusu olmadı.

**I. Xəzərin hüquqi statusunun gündəmə gətirilməsi:** 1991-ci il dekabrın 25-də SSRİ dağıldı və Xəzər dənizi ətrafında yeni müstəqil dövlətlərin – Azərbaycan, Türkmənistan, Qazaxıstan və Rusiyanın meydana gəlməsi ilə regionda tamamilə yeni siyasi vəziyyət yarandı. Xəzər dənizinin təbii və enerji ehtiyatları ilə zəngin olması Xəzəryanı dövlətlərdə bu bölgəyə marağı artırdı. 1991-ci il dekabrın 21-də Rusiya Federasiyası Alma-Atada imzalanmış bəyannamədə yeni dövlətlərin SSRİ-nin bütün müqavilə öhdəliklərinin qüvvədə qalmasını qəbul etdiklərini bildirdi. Rusiya bu mövqeyi ilə Xəzər dənizinin keçmiş SSR-yə aid ərazisinə olan iddiasını açıq şəkildə bildirirdi. Rusiya bu iddiası ilə yeni müstəqil dövlətlərin suveren hüququnu pozurdu. Digər tərəfdən SSRİ-İran arasında müqavilə imzalananda bütün Xəzəryanı dövlətlər iştirak etməmişdilər. Buna görə də, Rusiyanın məsələyə belə yanaşmasının heç bir əsası yox idi. Beləliklə, "Xəzərin statusu" məsələsi gərgin diplomatik müzakirələr mövzusu ilə gündəmə gəldi.

Xəzər dənizinin beynəlxalq hüquqi statusu məsələsi beş Xəzəryanı dövlətin 1992-ci ilin sentyabr-oktyabr aylarında Tehranda keçirilən konfransında Azərbaycan Respublikasının nümayəndə heyəti tərəfindən qaldırıldı. Xəzəryanı dövlətlər altı ixtisaslaşdırılmış komitənin yaradılmasını vacib hesab etdilər. Komitələrdən biri Xəzər dənizinin beynəlxalq hüquqi statusu məsələsi ilə məşğul olmalı idi [3, s.374]. Tehran konfransından sonra Xəzəryanı dövlətlərin nümayəndə heyətlərinin bu məsələdə görüşlərinin keçirilməsinə başlanıldı. Görüşlərdə Xəzər dənizinin sahəsinin, dibinin, bioloji və mineral ehtiyatlarının bölüşdürülməsi, eyni zamanda regionda təhlükəsizliyin təminatı ilə bağlı məsələlər müzakirə edilirdi.

**II Xəzərin hüquqi statusunun müəyyən olunması məsələsində keçirilən diplomatik görüşlər:** 1993-cü ilin iyun ayında Heydər Əliyev hakimiyyətə gələndən sonra Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi istiqamətində işlər artırıldı. Həmin ilin avqustun 23-26-da Xəzəryanı dövlətlərin İranın Rəşt şəhərində konfransı keçirildi. Konfransın başlıca məqsədi Xəzər dənizinin bioehtiyatlarının mühafizəsi və istifadəsi idi. İran İslam Respublikasının mövqeyi Rusiyaya yaxın idi.

Azərbaycan üçün böyük əhəmiyyət kəsb edən Xəzər dənizinin hüquqi statusunun müəyyən olunması məsələsi 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ilə H. Əliyev tərəfindən Xəzər dənizinin statusunun razılaşdırılmasına yönəlmiş qətiyyətli addımlar atılmağa başlandı. Azərbaycan tərəfi bu proses üzrə danışıqların başlanmasından etibarən həm xarici işlər nazirlərinin müavinləri səviyyəsində keçirilən Xüsusi İşçi Qrupunun

iclaslarında, həm xarici işlər nazirlərinin görüşlərində, həm də dövlət başçıları səviyyəsindəki Zirvə toplantılarında fəal və konstruktiv şəkildə iştirak edib.

Xəzəryanı dövlətlər Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi məsələsinə aydınlıq gətirmək məqsədilə 1995-ci il yanvarın 30-dan fevralın 2-dək Aşqabadda ilk elmi konfrans keçirtdilər. Konfransın gündəliyində Xəzərin təbii sərvətlərinin qorunması və istifadəsinə dair Rusiya layihəsinin müzakirəsi məsələsi idi. Müzakirə zamanı balıqçılar və diplomatlar arasında mübahisələr yarandı. Diplomatlar müzakirələr bitənə qədər Xəzərin təbii sərvətlərdən istifadəsini mümkünsüz hesab etsə də, balıqçılar isə balıqçılıq sənayesinin inkişafı ilə əlaqədar müzakirələri gözləməyəcəkləri qənaətində idilər. Nəticədə Rusiya layihəsi müzakirə edilərək yalnız status xarakterli bir məsələ istisna olmaqla razılaşdırıldı. Azərbaycandan başqa dörd dövlət sahildən 25 mil enində balıqçılıq zonası təklifi ilə razılaşdı. Azərbaycan tərəfinin belə bir sazişi imzalamaqdan imtina etməsi danışıqlar prosesini daha da fəallaşdırdı. Qazaxıstan tərəfi 1995-ci il mayın 15-16-da Alma-Atada beynəlxalq elmi-praktik konfrans çağırdı. Konfransda diplomatlarla yanaşı alimlər də iştirak edirdi. Xəzərin milli sektorlara bölünməsinin əleyhinə çıxan Rusiya Xəzər dənizini beş sahilyanı dövlətin sərvəti elan etdi. Rusiyanın təklifinə görə bir Xəzəryanı dövlətlərdən birinin razılığı olmadan başqa heç bir dövlət Xəzərin sərvətlərindən istifadə edə bilməzdi.

Alma-Atı görüşündən sonra növbəti görüş 1995-ci il iyunun 28-də Tehranda keçirildi. Danışıqlar nəticəsində müşavirə iştirakçıları belə razılığa gəldilər ki, Xəzər dənizinin hüquqi statusu bütün Xəzəryanı dövlətlərin razılığı əsasında müəyyənləşdirilməli, hüquqi tənzimlənmənin göstərilən hər bir elementi Xəzər dənizinin hüquqi statusuna dair vahid sənəddə əksini tapmalıdır [ 3, s. 383].

Regional əməkdaşlığı vacib hesab edən tərəflər həmin il sentyabrın 26-27-də Alma-Atada növbəti görüş keçirtdilər. Görüşdə Rusiya nümayəndə heyəti iştirak etmirdi. Görüş iştirakçıları yekunda birgə bəyannamə qəbul etdilər. Bəyannamədə İranın irəli sürdüyü Xəzər dənizinin statusu və rejiminin vahid sənəddə formalaşdırılması ideyası əksini tapmışdı. Bu görüşdən sonra Xəzər dənizinin problemləri ilə bağlı hökumətlərarası əməkdaşlıq təşkilatının qurulması ideyası arxa plana keçdi. Əvəzində Xüsusi İşçi Qrupu məsələsi aktuallaşdı.

Xəzərin bölüşdürülməsi ilə bağlı 1996-cı il noyabrın 12-də Aşqabad görüş keçirildi. Qazaxıstan Xəzərin beynəlxalq hüquq normalarına uyğun olaraq balıqçılıq bölgələri sərhədlərinin müəyyən edilməsini və dəniz dibinin milli sektorlara bölünməsini istədi. Rusiya, İran və Türkmənistan sənədi imzalasa da, Qazaxıstan və Azərbaycan imzalamaqdan imtina etdilər. Belə olan halda öz yataqlarının 50%-dən məhrum olan Azərbaycan tərəfi kəskin etirazını bildirdi.

1997-ci ilin yanvarında Fransaya rəsmi səfəri zamanı Heydər Əliyev “Euronews” telekanalına verdiyi müsahibəsində Xəzər probleminə toxunmuş və Azərbaycanın mövqeyini çox gözəl izah etmişdir: “Biz hesab edirik ki, bizim mövqe daha düzgündür; çünki Xəzər dənizinin mineral ehtiyatlarından istifadə üçün onun sektorlara bölünməsi artıq çoxdan yaranmış praktikadır” [1, s. 193].

1998-ci il avqustun 12-13-də İİR-nin xarici işlər naziri Kamal Xərrazi nümayəndə heyəti ilə Azərbaycana rəsmi səfər etdi. Danışıqlar zamanı Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi üzrə yaradılmış Xüsusi İşçi Qrupunun fəaliyyətinin davam etdirilməsi, neft-boru kəməri marşrutlarının optimal variantları və ticarət-iqtisadi əlaqələrin genişləndirilməsi zəruri hesab edilirdi.

Xəzərin statusu istiqamətində 2001-ci ilin əvvəllərindən başlayaraq Xəzəryanı dövlətlər bu istiqamətdə intensiv surətdə danışıqlara başladılar. Həmin ilin mart ayının əvvəllərində Moskvada rəsmi səfərdə olan İİR-nin prezidenti M. Hatəmi Xəzərin statusu ilə bağlı məsələni ön plana çəkmiş və hər iki dövlət arasında bəyannamə imzalanmışdır. Bəyannamədə Rusiya-İranın bu məsələdə ortaq mövqedən çıxış edəcəyi qeyd olunurdu [4, s. 93].

Azərbaycan Respublikası Xəzərin hüquqi statusu ilə bağlı müzakirə edilən bütün məsələlərdə hər zaman öz konstruktiv mövqeyini nümayiş etdirirdi. 2001-ci ildən iki Azərbaycan-İran arasında ticarət-iqtisadi əlaqələrə və Xəzər dənizinin hüquqi statusuna dair müzakirələrin intensivləşməsi ilə səciyyələnir. 2001-ci il avqustun 1-də MDB dövlət başçılarının Soçi görüşü zamanı Azərbaycan Prezidenti Heydər Əliyev bununla bağlı bəyan etdi ki, Xəzər dənizi qapalı su hövzəsi kimi hələ SSRİ zamanında BMT-nin beynəlxalq "Dəniz Konvensiyası" normalarına əsaslanaraq, bu ölkə ilə İran arasında quru sərhədlərinin parametrlərinə uyğun olaraq bölünmüşdür və bu bölgüyə yenidən baxmaq üçün heç bir səbəb yoxdur [7].

Xəzərin statusunun həllinə dair görüşlər nəticəsiz olduğundan məsələnin Zirvə görüşləri səviyyəsində müzakirəsinə zərurət yarandı. Bu səbəbdən 2002-ci il aprel ayının 22-23-də Xəzərsahili dövlət başçılarının Aşqabadda tarixi əhəmiyyətə malik toplantısı keçirildi [2, s. 26]. Ulu Öndər Heydər Əliyev 2002-ci il aprelin 24-də Xəzər dənizinin hüquqi statusunun müzakirəsi zamanı Zirvə görüşündə məsələnin həllinin Xəzəryanı dövlətlər arasında “suveren hüquqlara hörmət, qarşılıqlı surətdə faydalı tərəfdaşlıq ruhunda, dinc vasitələrlə” həyata keçirilməli olduğunu bildirdi. Mərhələlərlə aparılan danışıqlarda Azərbaycan tərəfi olduqca obyektiv mövqe nümayiş etdirmiş və İranın mövqeyi yumşalmışdır.

**III. Xəzərin hüquqi statusunun müəyyən olunmasında İranın mövqeyi:** İran Xəzər probleminə iqtisadi maraqlardan çox geosiyasi mənafedən yanaşır. Rəsmi Tehranı maraqlandıran əsas məqam İranın təhlükəsizliyinin təminatı və Qərbdən gələn potensial təhlükənin aradan qaldırılmasıdır. İranın Fars körfəzində kifayət qədər zəngin neft yataqlarının olması faktoru iqtisadi maraqlarını ikinci dərəcəli olmasına əsas verir. İranın Xəzər dənizi ilə bağlı müqavilələri 1723-cü il İranla Rusiya arasında bağlanmış ittifaq sazişi və 1962-ci il İranın xarici işlər naziri Abbas Aram və SSRİ-nin Tehrandakı səfiri Nikolay Peqov tərəfindən imzalanmış İran-Sovet memorandumudur. Birinci sənəddə İran Xəzərin uzunluğunu Rusiyaya güzəştə getdi. Aram-Peqov memorandumu da İrana Xəzərdən pay vermədi [1, s. 198]. 1992-ci ildən Xəzərin hüquqi statusu məsələsi gündəmə gələndən İran 1921 və 1940-cı illər müqaviləsinə əsaslanaraq Xəzər dənizinin tərəflər arasında 20 faiz üzrə bərabər bölüşdürülməsini tələb etdi. İran ilk gündən iddia edir ki, bu müqavilələr Xəzər

üzərində İran-Sovet şərikliyini təsdiq ediblər. Lakin bu müqavilələr ciddi hüquqi faktlarla təsdiqlənməyib. İran tərəfi Xəzər dənizinin quru sərhədlərindən başlayaraq dövlətlər arasında orta xətt boyunca bölüşdürülməsinin qəti əleyhinə oldu. Digər 4 Xəzəryanı dövlətlər də onun bu mövqeyini dəstəkləmədi. İran da Rusiya kimi xaric ölkələrin hərbi gəmilərinin Xəzər dənizində hərəkət etməsinin qadağan olunmasının tərəfdarı idi. İran ilk gündən Xəzərin ehtiyatlarından birgə istifadəni nəzərdə tutan kondominium prinsipinin ən inadkar müdafiəçisi oldu. Bu prinsipə görə, Xəzərin ehtiyatları beş sahil dövlət arasında bölünməli və hər bir dövlət veto hüququna malik olmalıdır. Əlbəttə, bu prinsip qəbul edildiyi təqdirdə, Xəzərin ehtiyatlarından ayrı-ayrılıqda istifadə (Azərbaycan məhz bu yolla gedir) problemə çevrilirdi. Bununla da Qərb kapitalının fəaliyyəti və ya birgə istismar layihələri ayrı-ayrı ölkələrin əhvali-ruhiyyəsindən asılı vəziyyətə düşürdü. Xəzərin hüquqi statusu ilə bağlı İran iki təklif irəli sürürdü. Birinci təklif Xəzər dənizinin beş bərabər hissəyə bölünməsi idi. Türkmənistanın dəstəyi ilə irəli sürülən bu təklif beynəlxalq hüquqa zidd idi. İkinci təklif isə Rusiya ilə razılaşdırılmış "kompromis variant" adlanır. Bu təklifə görə Xəzər sahili hər bir dövlət 12 millik sahil zonası üzərində suveren hüquqa malik olur, 25 mil ərazi isə "iqtisadi zona" kimi qəbul edilir. Dənizin ortasında qalan ərazilər isə beş hövzə ətrafı ölkənin ümumi istifadəsinə verilir.

Bundan başqa İran ilk gündən Xəzəri dəniz yox göl kimi qəbul etdi. 1982-ci ildə BMT-nin qəbul etdiyi "Dəniz hüquqları Konvensiyasına" əsasən su hövzəsinin dəniz kimi qəbul olunmasının meyarı onun okeanla, ya başqa su hövzələri ilə birbaşa, boğazlar və çaylar vasitəsilə birləşməsi hesab olunur. "Dəniz hüquqları Konvensiyasını" əsaslanan İran Xəzəri heç bir dənizə və ya okeana çıxışı olmayan "qapalı su hövzəsi" adlandırır.

Xəzərin statusu və ya yeni qaydalara əsasən bölünməsi layihəsində İranın mövqeyi sahilyanı dövlətlərin deyil, yalnız İranın geosiyasi maraqlarına uyğun yönəlib. İranın mövqeyi, təkcə Xəzər dənizinin yeraltı ehtiyatlarının mənimsənilməsinə törətdiyi maneə kimi deyil, həmçinin dənizdə gəmiçiliyin, balıqçılığın inkişafına, sahilyanı ölkələr arasında sərhədlərin müəyyən edilməsinə və s. qarşı ciddi problemdir. Tədqiqatçılar Xəzərin statusu ilə bağlı nümayiş İranın etdirdiyi mövqeyinin aşağıdakı bir neçə prinsipə əsaslandığını qeyd edirlər.

1. Xəzər dənizi sahilyanı ölkələr arasında bölünsə də, hər hansı ölkə digər sahilyanı dövlətlərin razılığını almadan öz sularından sərbəst istifadə edə bilməsin;

2. Qonşu ölkələrin əksəriyyəti ilə İranın birbaşa dəniz sərhədi yaransın;

3. Xəzərin hərbiləşdirilməsinə yol verilməsin;

4. Ekoloji problemlər adı ilə Xəzərin dibi ilə neft-qaz kəmərlərinin çəkilməsinə mane olunsun;

5. Sahilyanı ölkələr arasındakı problemlərin həllində regiondan kənar dövlətlərin iştirakı məhdudlaşsın;

6. İranla ideoloji və siyasi ziddiyyəti olan Qərb dövlətlərinin hövzədə möhkəmlənməsinin qarşısı alınsın və s. [8]

Xəzərin bölünməsi məsələsində ilk gündən İranın hədəfi Azərbaycana zərər vermək oldu. 1994-cü ildə "Əsrin müqaviləsi" imzalandıqdan sonra İran Azərbaycanın Xəzərdəki enerji ehtiyatları çərçivəsində Türkiyə, Avropa Birliyi və ABŞ ilə əməkdaşlıq etdiyindən narahat idi. Bunun Rusiyada da narahatlıq doğurduğunu bildiyi üçün bu məsələdə Rusiya ilə eyni mövqedə idi. Qeyd etmək lazımdır ki, Rusiya Xəzəryanı dövlətlərə xarici bazarda rəqib kimi baxırdı. Azərbaycanın imzaladığı "Əsrin müqaviləsi"nin də reallaşmasının tərəfdarı deyildi. Digər tərəfdən neft və qaz boru kəmərlərinin Rusiya ərazisindən keçməsinə çalışırdı. Bu səbəbdən İran İslam Respublikasının mövqeyi Rusiya ilə üst-üstə düşürdü. Bundan başqa inqilabdan sonra İranın Qərblə münasibətlərinin pozulması və sanksiyalar səbəbindən İranın neft sənayesində problemlər yaranmışdı. Azərbaycanın Qərb ölkələri ilə əməkdaşlığı İranda birmənalı qarşılanmırdı. İranın narahatlığını görən Azərbaycan İran ilə yaranan problemlərin dinc yolla həllinə tərəfdar olduğunu bildirdi. Münasibətlərin gərginləşməsinin hər iki tərəfin mənafeyinə uyğun olmadığını görən Azərbaycan tərəfi məsələni konstruktiv müzakirələr yolu ilə həll etməyi üstün tutdu. Bu məqsədlə Xəzər dənizinin hüquqi statusunun təyin olunması ilə bağlı dörd xəritə təqdim etdi. İran xarici işlər nazirinin Avropa və Amerika məsələləri üzrə müavini Mahmud Vazei İranın mövqeyini bildirərkən Rusiyanın maraqlarını nəzərə alaraq bu məsələdə problemin olduğunu bildirdi. Yaranmış anlaşılmazlığı aradan qaldırmaq üçün 1996-cı il avqustun 26-28-də Həsən Həsənov İrana rəsmi səfər etdi. Səfər zamanı İran xarici işlər naziri Əli Əkbər Vilayəti ilə ikitərəfli münasibətlərin ən vacib məsələlərinə dair görüşlər keçirildi. Xəzər dənizinin hüquqi statusu ilə bağlı müzakirədə bu məsələnin Azərbaycan tərəfi üçün münaqişə deyil, müzakirə problemi olduğu bir daha vurğulandı. Müzakirənin davam etdirilməsi və problemin həlli ilə məşğul olan komitənin yaradılmasına dair razılıq əldə edildi. Azərbaycan tərəfi qeyd olunan məsələlərdə İranın mövqeyini bildirməsini təklif etdi.

1. Xəzər dənizində hansı problemlərin əsas götürülməsi müəyyənləşdirilməli
2. Yerin altındakı neft, balıqçılıq, ticarət gəmiçiliyi, ekologiya, sərhəd məsələsi
3. Xəzər dənizində hərbi vəziyyət [3, s. 583]

Qeyd olunan üç bənddən hansının mühüm olduğunu müəyyən etmək etməklə Azərbaycan-İran tərəfi məsələni kompromis yolla həllinə nail ola bilərdilər. Bu dəfə də tərəflər razılığa gələ bilmədi. Xəzər dənizinin hüquqi statusunun müəyyən olunmasında Azərbaycan tərəfi həmişə öz mövqeyini açıq şəkildə bildirib. Belə ki Azərbaycan Xəzər dənizində orta xəttin müəyyənləşdirilməsinə və onun milli sektora bölünməsinin tərəfdarı olub.

İran bölgüdə hər zaman milli mənafeyi baxımından çıxış edərək şimal ölkələrinin – Rusiya və Qazaxıstanın ortaq məxrəcə gəldiyini və cənub ölkələri – Azərbaycan, İran və Türkmənistanın da mövqeyinin bir olmasının tərəfdarı idi. Məsələyə diqqətlə baxsaq burada İran və Türkmənistanın arasında fikir ayrılığının olmadığı açıq şəkildə görünür. Bundan başqa xarici ölkələrin Xəzər dənizinə cəlb edilməsi siyasəti İranın milli mənafeyi və təhlükəsizliyi baxımından təhlükəli hesab edilirdi.

**Nəticə:** Xəzər dənizi əlverişli mövqeyi baxımından bütövlükdə region üçün mühüm əhəmiyyət kəsb edirdi. SSRİ dağılandan sonra Xəzər dənizi hövzəsində yaranan müstəqil dövlətlər RSFSR-İran arasında 1921-ci il və 1940-cı il müqavilələrinin indiki dövrə cavab vermədiyini və müvafiq məsələlərin həllində hüquqi əsası olmadığını bildirdilər. SSRİ-İran arasında imzalanmış sənədlər milli maraqlara uyğun gəlmirdi. 1992-ci ildən Xəzərin hüquqi statusunun müəyyənləşməsi məsələsi gündəmə gəldi. Məsələ ilə bağlı Xəzərsahili dövlətlərin ikitərəfli və çoxtərəfli görüşləri müzakirə və danışıqları başladı. Xəzərin hüquqi statusunun həllində fərqli mövqelərinin ortaya çıxması müzakirələrin bir neçə il uzanmasına gətirib çıxartdı.

Yeni geosiyasi şəraitdə Xəzər dənizinin statusunun müəyyənləşdirilməsi məsələsi Xəzəryanı dövlətlərin maraqlarını təcəssüm etdirir. Ulu öndər H. Əliyev də Azərbaycanın bu məsələdə siyasətinin qarşıdurma deyil, qonşu dövlətlərlə əməkdaşlığa yönəltdi. Bütün görüşlərində Xəzərdəki əməkdaşlığın prinsiplərini müəyyənləşdirmək yolunda atılmış addımları təhlil edərək, Azərbaycanın həmişə beynəlxalq normalara, tarixi təcrübəyə əsaslanan mövqeyinin obyektivliyini diqqətə çatdırmışdır.

## The Role of Heydar Aliyev in Determining the Legal Status of The Caspian Sea

**Keywords:** Caspian Sea, "Maritime Convention", Summit meeting, cooperation, status

When the Republic of Azerbaijan regained its independence, one of the main problems in its foreign policy was the determination of the legal status of the Caspian Sea. The fact that the Caspian Sea is rich in natural and energy resources has increased interest in this region in the Caspian states. After the return to power of Great Leader Heydar Aliyev on June 15, 1993, the work to determine the legal status of the Caspian Sea was increased. Bilateral and multilateral negotiations started and meetings were held with the Caspian littoral states. Heydar Aliyev defined the principles of cooperation regarding the Caspian Sea in every meeting he held, and drew attention to the objectivity of Azerbaijan's position, which is always based on international norms and historical experience. In this matter, Azerbaijan's policy was directed towards cooperation with neighboring states, not confrontation. As a result of Heydar Aliyev's efforts, all political and economic processes related to the Caspian region were determined by the strategic line put forward only by Azerbaijan.

## Ədəbiyyat siyahısı

1. Əliyev A. "Sahilyanı dövlətlərin Xəzər problemi"\Tarix və onun problemləri. № 1-2, 2009 s. 192-201

2. Həsənov S. Bakı Universitetinin Xəbərləri №2, Xəzərin statusu zirvə görüşlərinin müzakirəsində (Aşqabad sammiti), s. 26-37

3. Qasımlı M. Azərbaycan Respublikasının Xarici siyasəti (1991-2003), Bakı 2015: 2 hissədə. I hissə, 648 s.

4. Süleymanov Ə. Xəzərin milli sektorlara bölünmə prinsipində regional təhlükəsizlik problemi. Bakı 2011.).

5. Документы внешней политики СССР. Т. X. M., 1965, 429 c.

6. Шорохов В. Нефть и политика Азербайджана. М:ЦМИ 1997, 87 c.

7. https://sesqazeti.az/news/mia/353063.html

8. https://www.anl.az/down/meqale/525/2010/noyabr/141345.htm

**Dilbər Hüseynli**
AMEA akad. Z. M. Bünyadov adına Şərqşünaslıq İnstitutu,
Mərkəzi Asiya ölkələri şöbəsinin elmi işçisi

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN-QAZAXISTAN MÜNASİBƏTLƏRİ

**Açar sözlər:** Heydər Əliyev, Nursultan Nazarbayev, Azərbaycan, Qazaxıstan, siyasi münasibətlər

Müstəqillik əldə edən mərkəzi Asiya dövlətləri dövlətçilik ənənələrinə sahib deyildilər. Buna görə də Azərbaycanla müqayisədə Qazaxıstanda dövlətin müstəqillik qazanması və formalaşma prosesi bir qədər çətin oldu.

Hər iki dövlət strateji cəhətdən bir-biri üçün əlverişli zonada yerləşir. Azərbaycan Qazaxıstanın Avropaya, Qazaxıstan isə Azərbaycanın Mərkəzi Asiyaya inteqrasiyasında əhəmiyyətli rol oynayır. SSRİ-nin illər boyu apardığı antitürk siyasətinə baxmayaraq xalqlarımız eyni dilə və millətə aid olduqlarının fərqində idilər. Müstəqilliyini əldə edən respublikamız dünya dövlətləri ilə diplomatik münasibətlər qurmağa başladı.

İlk qurulan münasibətlər Türkiyə Cümhuriyyəti, mərkəzi Asiya dövlətləri, o cümlədən, Qazaxıstanla oldu. Sırf türkdilli dövlətlərlə münasibətlərin yaradılmasında Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Müstəqillik əldə edilən andan etibarən uzaqgörən siyasət aparan ölkə başçımız on illiklər boyu türkçülükdən uzaqlaşdırılmış mərkəzi Asiya dövlətləri ilə bütün sahələrdə əlaqələr quraraq etnik kimliyi eyni olan dövlətlərimizi yaxınlaşdırmağa çalışmışdır.

Azərbaycan Prezidenti Heydər Əliyevin Qazaxıstan Prezidenti Nursultan Nazarbayevlə ilk görüşlərindən biri 19 oktyabr 1994-cü ilə təsadüf edib. Türk dövlətləri başçılarının ikinci zirvə görüşündə iştirak edən Heydər Əliyev və Nursultan Nazarbayev görüşərək, iki ölkə arasında münasibətlərin inkişafı perspektivlərini müzakirə etmiş və gələcəkdə görüləcək işlər haqqında fikir mübadiləsi aparmışlar. Görüş zamanı Azərbaycan-Qazaxıstan münasibətlərini həm türk dövlətlərinin münasibətləri çərçivəsində, həm də ikitərəfli şəkildə qurmaq haqda qərar qəbul edilmişdi [1]. Bununla da, iki post sovet ölkəsi müstəqillik əldə etdikdən sonra ilk dəfə dövlət başçıları səviyyəsində rəsmi şəkildə görüşmüşdür. Heydər Əliyev bu görüşdə çıxış edərək bildirmişdir ki, "...Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan respublikaları da indi müstəqil dövlətlər içərisindədirlər. Bu respublikalarla Azərbaycan arasında tarixi ənənələr, dostluq və qardaşlıq əlaqələri əsrlər boyu mövcud olmuşdur. Biz əsrlər boyu bir yerdə yaşamışıq, bir adət-ənənələrdən istifadə etmişik və bir- birimizə həmişə kömək etmişik. Müstəqil olmadığımız 70 illik bir dövrdə də, sovetlər birliyinin tərkibində olduğumuz vaxtda da ölkələrimiz arasında, yəni Azərbaycan ilə Mərkəzi Asiya ölkələri arasında dostluq, qardaşlıq əlaqələri həmişə sıx olub, həmişə çox möhkəm olubdur və biz bir-birimizə həmişə dayaq olmuşuq" [2, s. 249]. 1995-ci ilin fevral ayının 14-də MDB dövlət başçılarının Almatıda görüşü keçirilir [3]. Bu görüş çərçivəsində artıq ikinci

dəfə Heydər Əliyevlə Nursultan Nazarbayev arasında dövlət başçıları səviyyəsində danışıqlar baş tutmuşdur. Bundan sonra 1995-ci il avqust ayının 9-u qazax şairi, yazıçısı, ictimai xadim, müasir qazax yazılı ədəbiyyatının banisi, maarifçi liberal islamın əsasında qazax mədəniyyətinin rus və avropa mədəniyyətləri ilə yaxınlaşması tərəfdarı olmuş Abay Kunanbayevin 150 illik yubileyi münasibətilə prezident Heydər Əliyev Qazaxıstana səfərə yola düşmüş və bu səfər iki dövlət arasında münasibətlərdə çox mühüm rol oynamışdır [4]. Bu səfər zamanı Heydər Əliyev yubiley münasibətilə təşkil edilmiş tədbirdə iştirak etmiş və nitqində xalqlarımız arasındakı dostluq, qardaşlıq münasibətlərindən, Azərbaycan xalqının Qazaxıstana bəslədiyi hörmət və məhəbbətindən, Abay Kunanbayevin qazax xalqı və bütövlükdə bəşəriyyət üçün yazıb yaratdıqlarından söz açmışdır. Abay Kunanbayevin yaradıcılığını yüksək qiymətləndirmiş və qazax xalqının da yazıçının irsinə olan dərin sevgisindən söz açmışdır. 1995-ci il oktyabr ayının 25-də BMT-nin 50 illik yubileyi ilə bağlı tədbir keçirilmişdir[1]. Bu tədbirdə Heydər Əliyevlə Nursultan Nazarbayev arasında növbəti görüş baş tutmuşdur. Görüş zamanı dövlət başçıları Azərbaycan Qazaxıstan münasibətlərinin perspektivlərini, iki ölkə arasında qurulan əlaqələri müzakirə etmişlər. 1996-cı il mayın 14-də, EKO-nun dövlət başçılarının zirvə toplantısında keçirilmişdir. Görüş zamanı Heydər Əliyev Nursultan Nazarbayevi Azərbaycana rəsmi səfərə dəvət etmiş və bu dəvətin nəticəsi olaraq 16-17 sentyabr 1996-cı il tarixlərində Qazaxıstanın prezidenti Nursultan Nazarbayev Azərbaycan Respublikasında rəsmi səfərdə olmuşdur [5, s. 71]. Heydər Əliyev Qazaxıstanın dövlət başçısının şərəfinə verilmiş ziyafətdə qonaqları salamlamış və çıxış etmişdir: "Azərbaycan tarixi keçmişimizi, xalqlarımızın dərin tarixi köklərini, dilimizin, dinimizin, ənənələrimizin ümumiliyini nəzərə alaraq, həmçinin əsrimizin əvvəlindən etibarən Qazaxıstan ilə Azərbaycan arasında iqtisadi münasibətlərin inkişaf etdiyini əsas tutaraq Qazaxıstanla münasibətlərə böyük əhəmiyyət verir. İndi, Qazaxıstan və Azərbaycan müstəqil, suveren dövlətlər olduğu bir vaxtda münasibətlərimiz keyfiyyətcə yeni xarakter kəsb etmişdir və bu münasibətləri dərinləşdirmək, inkişaf etdirmək üçün böyük imkanlarımız və ehtiyatlarımız var. Azərbaycan buna maraq göstərir, ona görə də mən Qazaxıstanın dövlət başçısının səfərini olduqca məmnuniyyətlə qarşıladım və münasibətlərimizin perspektivləri baxımından bu səfərə böyük ümidlər bəsləyirəm" [6, s. 207]. Səfər zamanı Azərbaycan və Qazaxıstan nümayəndə heyətləri arasında görüşlər keçirilmiş, müxtəlif sahələrdə mühüm sənədlər imzalanmışdır. Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında münasibətlərin əsasları haqqında müqavilə, investisiyaların təşviqi və qorunması haqqında saziş, neft qaz sənayesi sahəsində əməkdaşlıq haqqında saziş, hava əlaqəsi haqqında saziş, Xəzər dənizi məsələləri üzrə Birgə Bəyannamə, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi ilə Qazaxıstan Respublikası Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında saziş, Azərbaycan Respublikası Milli təhlükəsizlik nazirliyi ilə Qazaxıstan Respublikası Milli Təhlükəsizlik Komitəsi arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında saziş, Azərbaycan Respublikasının Milli Bankı ilə Qazaxıstan Respublikasının Milli Bankı arasında hesablaşmaların təşkili haqqında saziş və digər sazişlər imzalanmışdır. Heydər Əliyevin səyləri nəticəsində

Azərbaycanla Qazaxıstanın Xəzərin statusu və digər məsələlərdə birgə siyasət nümayiş etdirməsi ölkələrin diplomatik arenadakı səylərini də xeyli yaxınlaşdırmışdır[1]. 21 oktyabr 1996-cı il Daşkənddə keçirilən Türkdilli Dövlət başçılarının IV forumunda iştirak edən Heydər Əliyev öz nitqində Qazaxıstanla dostluq münasibətlərindən söz açmışdır[6, s. 216]. Bununla yanaşı dövlət başçısı soykökü eyni olan mərkəzi Asiya dövlətlərinin əməkdaşlığının genişləndirilməsi istiqamətində bir sıra addımların atılmasının vacibliyini vurğulamışdır. 1997-ci mayın 13-14-də İqtisadi Əməkdaşlıq Təşkilatının Aşqabadda keçirilən görüşü zamanı isə Nursultan Nazarbayev Heydər Əliyevi Qazaxıstana rəsmi səfərə dəvət etmiş və bu dəvətdən sonra Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev 10-11 iyun tarixlərində Qazaxıstanda rəsmi səfərdə olmuşdur. Bu səfər Azərbaycan-Qazaxıstan münasibətlərini yeni mərhələyə qaldırmışdır. Səfərin yekunlarına əsasən Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında bir sıra xüsusi əhəmiyyət kəsb edən sənədlər imzalanmışdır. Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında əməkdaşlığın daha da inkişafı və dərinləşdirilməsi haqqında Bəyannamə, Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında neftin beynəlxalq bazarlara nəql olunması üzrə əməkdaşlıq haqqında memorandum, Azərbaycan Respublikası hökuməti və Qazaxıstan Respublikası hökuməti arasında Azərbaycan Respublikası və Qazaxıstan Respublikası vətəndaşlarının vizasız gediş gəlişi haqqında saziş, azad ticarət haqqında saziş, mülki işlər üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında saziş, neft maşınqayırması sahəsində əməkdaşlığın əsas prinsipləri haqqında saziş və digər sənədlər imzalanmışdır. Qazaxıstana etdiyi ilk rəsmi səfər çərçivəsində Heydər Əliyev həmçinin, Qazaxıstan parlamentinin hər iki palatasının deputatları qarşısında çıxış etmişdir[1]. Bu səfər ümumiyyətlə, çoxəsrlik tarixə malik olan türk xalqlarının dostluğuna müsbət təsir etmişdir. 1998-ci il iyunun 9-10-da isə Heydər Əliyev Türkdilli dövlətlərin başçılarının beşinci Zirvə görüşündə iştirak etmək üçün Qazaxıstanda səfərdə olmuş və Qazaxıstan Prezidenti Nursultan Nazarbayevlə görüşmüşdür [1]. Bu səfər həm türkdilli dövlət başçılarının görüşü həm də Astananın Qazaxıstanın yeni paytaxtı elan edilməsi məsələsi ilə bağlı olmuşdur. Görüşlər zamanı H. Əliyev nitqlər söyləmişdir. Heydər Əliyev Qazax xalqının zəngin tarixindən, müsibətlərindən, məğlubiyyətlərindən söz açmışdır. 23-24 oktyabr 1998-ci il tarixlərində Qazaxıstan Respublikasının Baş naziri N. Balqımbayevin Bakıya rəsmi səfəri zamanı o, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən qəbul edilmiş, Baş nazir A. Rasizadə və Azərbaycan Beynəlxalq Əməliyyat şirkətinin Prezidenti ilə görüşmüş, Dübəndi və Sanqaçal neft terminallarında olmuşdur. Danışıqlar zamanı TRASEKA layihəsi çərçivəsində 1999-2000-ci illərdə Azərbaycan – Qazaxıstan ticarət-iqtisadi əməkdaşlığının inkişafı, Bakı-Aktau bərə xəttinin açılması və turizm sahəsində əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olmuşdur[5, s. 71].

1996-cı il noyabrın 6-da TÜRKSOY-un Bakıdakı toplantısı çərçivəsində keçirilən Türk dünyası yazıçılarının III qurultayında Heydər Əliyev aşağıdakı fikirləri səsləndirmişdir: "Xalqlarımızın böyük tarixini yenidən qiymətləndirmək, hər bir xalqın tarix boyu yaratdığı mənavi dəyərləri, mədəniyyət abidələrini bütün xalqlar üçün doğma etmək bizim bu gö-

rüşlərin mərkəzində duran vəzifələrdir. Bizim köklərimiz bir dilə, bir mənəviyyata, bir dinə bağlı olduğuna görə çox dərindir və mənəvi dəyərlərimiz tarixin bütün mərhələlərində nə qədər çətinliklərlə rastlaşıbsa da, dayanmayıb, inkişaf edib. İndi isə türkdilli xalqların müstəqil dövlətləri olduğuna görə və bizim əlimizdə böyük imkanlar yarandığına görə bu prosesləri daha da gücləndirə, daha da mütəşəkkil edə bilərik. Bu, bizim borcumuzdur" [7]. Türdilli dövlətlərlə münasibətlərin ən yüksək səviyyədə əsasını qoyan Heydər Əliyevin türk dünyasına töhfələri gələcək siyasi səhnənin formalaşmasında çox böyük rol oynamışdır.

Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu bu siyasi kursun layiqli davamçısı olan Prezident İlham Əliyev hal-hazırda başda Qazaxıstan olmaqla, türk dünyası ilə münasibətləri ən yüksək səviyyədə davam etdirir. Dövlət başçıları səviyyəsində və hökumətlərarası səfərlər baş tutur, iki ölkə arasında müxtəlif sahələrdə mühüm sənədlər imzalanır, əməkdaşlıq ən yüksək səviyyədə davam etdirilir.

Dostluqlarının yalnız rəsmi səviyyədə deyil həm də şəxsi səviyyədə də olduğu bilinən Nursultan Nazarbayevlə Heydər Əliyevi türk dünyasının siyas səhnədə önəmli yer qazanması uğrunda mübarizə birləşdirirdi. Heydər Əliyevin vəfatı ilə dərindən sarsılan Nursultan Nazarbayev türk dünyasının böyük bir şəxsiyyəti itirdiyini vurğulamışdır. Prezident İlham Əliyev sıx münasibətlər qurduğu Qazaxıstan Respublikasının keçmiş Prezidenti Nursultan Nazarbayevə "Heydər Əliyev" ordenini təntənəli surətdə təqdim etmişdir. Nitqində aşağıdakı fikirlərə yer vermişdir: "Heydər Əliyev" ordeni Azərbaycan dövlətinin ali mükafatıdır və mənə çox xoşdur ki, bu gün həmin mükafatı Heydər Əliyevin böyük dostu və Azərbaycan xalqının, Azərbaycanın dostu Nursultan Abişeviç Nazarbayevə təqdim edirəm. Nursultan Abişeviç, bu, həm də ona görə rəmzi xarakter daşıyır ki, Siz uzun illər boyu Heydər Əliyev ilə dostluq etmisiniz və onunla birlikdə işləmisiniz. Siz Sovet dövründə də həmişə ünsiyyət saxlayırdınız. Atamın söhbətlərindən xatırlayıram ki, sizin aranızda həmişə çox səmimi və yaxın münasibətlər olub. Ölkələrimizin müstəqilliyi dövründə də sizin aranızda həmişə xüsusi münasibətlər olub. Bunu bizim vətəndaşlar da bilirdi və indi də bilirlər, MDB məkanında da bunu bilirlər. Əslində, Qazaxıstan ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin əsasını siz ikiniz qoymusunuz [8]."

Ulu öndər Heydər Əliyev hər zaman Qazaxıstan və digər mərkəzi Asiya dövlətləri ilə əlaqələrin gələcəyinin parlaq olduğunu və soykökü eyni olan bu dövlətlər arasında əlaqələrə böyük ümidlər bəslədiyini qeyd etmişdir. Türkdilli dövlətlərlə münasibətlərə çox önəm verən Heydər Əliyevin siyasi kursunu hal-hazırda bu dövlətlərlə sıx əlaqələr qurmuş prezident İlham Əliyev uğurla davam etdirir.

## The Role of Heydar Aliyev in the Relations Between the Republics of Azerbaijan and Kazakhstan


**Summary**

**Keywords**: Heydar Aliyev, Nursultan Nazarbayev, Azerbaijan, Kazakhstan, political relations

National leader Heydar Aliyev had exceptional services in establishing relations with Turkic-speaking countries. From the moment of gaining independence, our head of the country, who has been pursuing a foresighted policy, has tried to bring our countries with the same ethnic identity closer by establishing relations in all fields with the Central Asian states, which have been separated from Turkism for decades. As a result of Heydar Aliyev's efforts, Azerbaijan and Kazakhstan demonstrated a joint policy on the status of the Caspian Sea and other issues, which brought the countries' efforts in the diplomatic arena much closer. In his speeches, Heydar Aliyev always talked about friendly relations with Kazakhstan and tried to deepen the relations. At the same time, the head of state has always emphasized the importance of taking a number of steps to expand the cooperation of Central Asian states with the same ancestry.


### Ədəbiyyat siyahısı:


1. http://lib.aliyev-heritage.org/az/549420.html 25.04.2023
2. Əliyev, Heydər. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. İkinci kitab: may, 1994 – dekabr, 1994 / bur. məsul R. Mehdiyev. – Bakı: Azərnəşr, 1997. – 604 s.
3. Azərbaycan. 1995. 14 fevral
4. Azərbaycan. 1995. 9 avqust
5. “Heydər Əliyev və Şərq” Türk dünyası. Altı cilddə. Altıncı cild. – Bakı: Çaşıoğlu, 2006. 479 s.
6. Əliyev, Heydər. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. Yeddinci kitab: iyun, 1996 – noyabr, 1996 / bur. məsul R. Mehdiyev. – Bakı: Azərnəşr, 1998. – 520 s.
7. http://www.anl.az/down/meqale/medeniyyet/2013/aprel/300832.htm 25.04.2023
8. https://president.az/az/articles/view/23244 25.04.2023

**Nərgiz Mürvətova**
AMEA akad. Z. M. Bünyadov adına Şərqşünaslıq İnstitutu,
Şərq-Qərb şöbəsinin kiçik elmi işçisi

# ПРИНЦИП НАЦИОНАЛИЗМА И ЗАПАДНЫЕ НАПРАВЛЕНИЯ В ПОЛИТИКЕ ГЕЙДАРА АЛИЕВА

**Ключевые слова**: Национальная энциклопедия, внешняя политика, национализм, АДР, идея азербайджанизма, Восток, Запад, дипломатические связи, Контракт века, политическая деятельность, СССР

В XX веке, когда распался Советский Союз и начал формироваться современный миропорядок, а на международной арене стали складываться новые отношения, Азербайджан вступил в важный и судьбоносный период своей истории. Наш народ, вынужденный в одиночку вести борьбу в водовороте серьёзных потрясений и катаклизмов, смог преодолеть тяжёлые испытания и уверенно шагнул к светлому будущему. Азербайджан от государств, возникших после распада СССРотличали не только его исторические традиции и прошлое, но и сложный характер вызовов и проблем,с которыми он столкнулся. Болеепятидесяти лет истории Азербайджана XX века тесно связаны с личностью Гейдара Алиева, который построил новый Азербайджан. Он приступил к этому строительству ещё с 40-х годов двадцатого столетия. В конце 60-х годов двадцатого столетия в жизненном пути Гейдара Алиева посвящённому родному народу,начался новый,более широкий, многогранный и насыщенный период деятельности. В 1969 годув период глубокого упадка во всех сферах Азербайджанской ССР,Алиев был избран Первым Секретарём ЦК Коммунистической Партии Азербайджана,с чего начался переломный период в истории республики.Именно с того времени Гейдар Алиев начал строить сегодняшний новый независимый Азербайджан.Он начал принимать решительные шаги для того, чтобы вывести Азербайджан из очень затруднительного положения, разрабатывал программы комплексного развития, обеспечивавшие всестороннее развитие республики, после чего началось их безотлагательное выполнение. Проводились важные структурные изменения в экономике республики, созданы прогрессивные отрасли промышленности. В результате, Азербайджан превратился в передовую сельскохозяйственную республику Советского Союза, стало успешно работать хлопководство и виноградарство. Пройдя долгий политический путь,на исходе XX века Гейдар Алиев окончательно убедился вверности достаточно давно созревшей у него мысли о приоритете национального фактора перед всеми другими идеями, нормами, лозунгами и принципами.Национальная идея оказалась куда более устойчивой,чем думали сторонники безграничной глобализации. Для политика-реалиста, каким всегда был Гейдар Алиев, было ясно одно: спасение нации возможно только через спасение и усиление национального государства. В

этом сыграл роль опыт его политической деятельности в условиях СССР. В середине 60-х годов прошлого века в соответствии с постановлением ЦК КПСС и Совета Министров СССР во всех союзных республиках были созданы главные редакции по подготовке национальных энциклопедий.Главным редактором был утверждён известный азербайджанский поэт и общественный деятель Расул Рза. Вопреки партийно-идеологическим установкам советского периода Расул Рза был против пагубной тенденции изображать азербайджанцев отсталой нацией, не имевшей до октября ни своей культуры, ни истории, ни значимого прошлого, на что Расул Рза приводил в пример «свелит культурных достижений» азербайджанского народа–Низами, Хагани, Насими, Шах Исмаила Хатаи, М.Ф.Ахундова и многих других. И в I-й том азербайджанской энциклопедии внёс не только выдающихся деятелей азербайджанского народа, независимо от их политических взглядов, но и многих представителей тюркоязычного ареала, внёс в энциклопедию подлинные азербайджанские названия сёл и населённых пунктов Армении и Грузии, в которых компактно проживали азербайджанцы. Это решение было к месту, так как в тот период в Армении и Грузии начали переименовывать названия деревень, рек, гор, которые испокон веков имели тюркское название. Всё это происходило с согласия и поручения Гейдара Алиева. Невероятным является то, что Гейдар Алиев сумел добиться присуждения поэту Расулу Рзе, ранее раскритикованному советскими идеологами, к его девяностолетию звания Героя Советского Труда. В 70-е -80-е годы Гейдар Алиев добился также присвоения званий Героев Советского Труда таким представителям азербайджанской культуры, как Кара Караев,Фикрет Амиров, Ниязи, Рашид Бейбутов, Таир Салахов, Сулейман Рагимов, Сулейман Рустам,Мирза Ибрагимов, Микаил Усейнов. Позже, став Президентом Азербайджанской Республики, он признался, что, защищая национальные интересы, и, став свидетелем односторонней политики, проводимой Москвой, в отношении тюркоязычных республик, вынужден был лавировать и действовать негромогласно. Ещё одна заслуга Гейдара Алиева – это присвоение государственной премии Зие Буниятову, за его книгу«Азербайджанское государство Атабеков». В решении национального вопроса приминительно к Азербайджанской Республике Гейдар Алиев опирался на богатое наследие азербайджанских мыслителей второй половины XIX – начала XX века, а также на опыт Азербайджанской Демократической Республики (1918-1920).

Уже в конце XIX века реалистически мыслящие азербайджанские интеллигенты пришли к выводу о необходимости перехода к национализму - ведущей идее нового века. Идею национализма развивали А. А. Бакиханов, М. Ф. Ахундов, Г. Б. Зардаби, следом за ними шли такие просветители как А. Гусейнзаде, А. М. Топчубашев, А.Агаев и другие. Создав АДР 28 мая 1918 года, просветители дипломатическим путём добились присоединения своей нации в ряды международного сообщества. Потомки высоко оценили деятельность азербайджанских просветителей начала XX сто-

летия. Значительно позже, в 1998 году в связи со 80-летием образования АДР, был издан указ Президента Гейдара Алиева, в котором отмечалось :« Азербайджанская Демократическая Республика осуществляла деятельность в напряжённой и сложной обстановке, создавшейся внутри и за пределами страны. Меры, проведённые государством за короткий срок, оставили большой след в политической и религиозной принадлежности, определении государственных границ,официальных атрибутов азербайджанской государственности, обьявлении азербайджанского языка государственным, создали прочную основу для будущей независимости Азербайджана. Шаги, предпринятые в области демократического государственного строительства, экономики, культуры, образования, военного строительства – это основные направления,отображающие 23-х месячную деятельность АДР. Наш народ, восстановивший в 1991 году свою государственную независимость, использовал богатые традиции краткосрочной деятельности АДР и на этом историческом наследстве создал независимое азербайджанское государство».

Гейдар Алиев в одном из своих выступлений сказал, что «государственность, в том числе и азербайджанская, должна покоиться на двух началах: общечеловеческих интересах и свободе индивидуального выбора народов». Оба этих начала присутствуют и в нашей государственности. После прихода к власти в 1993-м году, перед Гейдаром Алиевым в первую очередь стояли задача сплочения народа в разорённой стране, возрождения расколотого и деморализованного общества, находившегося на грани гражданской войны и в состоянии войны с Арменией. Президент был убеждён, что только политика сплочения всего народа может вывести республику из кризиса. Президент независимой Азербайджанской Республики Гейдар Алиев был инициатором разработки идеологии азербайджанства– нового термина, включающего в себя множество политических и культурных изменений. Слова Г. Алиева на I –м съезде азербайджанцев мира только подтверждают его политику: «Мы-азербайджанцы, Родина всех нас – Азербайджан. Эта земля взрастила всех нас, как народ, как нацию, как личность. Поэтому,в существе каждого из нас живёт этот дух. Дух и идея азербайджанства должны стать тем, что связывает нас друг с другом и побуждает к ещё более тесному сплочению. У каждого государства существует национальная идеология. Однако, Гейдар Алиев неоднократно напоминал, что эта идеология не означает полное растворение азербайджанской идеи в общетюрксой и общеисламской идеях. Азербайджанство означает многослойную этническую культуру Азербайджана, включая тюркские корни,кавказские реалии, национально- демократические традиции, исламские истоки, развитие в соответствии с мировыми стандартами.

Азербайджан находится на стыке Европы и Азии, и главная задача, которую ставил Гейдар Алиев во внешней политике республики – это построить добрые взаимоотношения и с Азией, и с Западными странами, соблюдая при этом принцип невмешательства во внутренние дела этих стран и требуя от них того же по отношению к

Азербайджану. Дипломатия и политические навыки Г. Алиева уникальны – налаживать отношения с разными странами он стал одновременно и слаженно. Кпримеру, официальные визиты Президента Азербайджанской Республики Гейдара Алиева в Исламскую Республику Иран, Марокко, Египет, Королевство Саудовскую Аравию, Пакистан сыграли исключительную роль  в развитии и укреплении связей республики с исламскими странами. Президент провёл плодотворную работу по созданию и развитию регулярных экономических и торговых связей, содействовал в расширении взаимоотношений в области науки, культуры, информации. Особое значение имеют отношения с Турцией, которые развиваются по сей день в разных направлениях-геополитическом, экономиком, образовании, культуре, военного сотрудничества.

Очень важное направление во внешней политике суверенного Азербайджана занимает установление стратегического партнёрства с Соединёнными Штатами Америки, что и сделал Алиев, совершив визит в США, добился смягчения 705-й поправки, положил основуновых дипломатических связей с этой страной.

Гейдар Алиев всегда уделял значение хорошим отношениям между республиками бывшего СССР. Установил взаимоотношения со странами Дальнего Востока. Официальные визиты Гейдара Алиева в Китайскую Народную Республику, Японию положили начало новому этапу в дипломатии нашего государства, дали сильный толчок становлению эффективных экономических, дипломатических связей, партнёрству в сфере образования, просвещения и искусства.

К моменту вступления в должность в азербайджано-российских отношениях накопилось достаточно проблем, так что партнёрство и сотрудничество казалось невозможным – главной причиной являлась неудовлетворённость состоянием дел в урегулировании Карабахского вопроса. Богатый опыт Г. Алиева, его правильный подход к протекающим в регионе и во всём мире политическим процессам привели к нормализации и развитию связей даже со странами, с которыми у Азербайджана не было сотрудничества совсем. Он всегда с оптимизмом смотрел в будущее российско – азербайждtotanских отношений, основанных на дружбе, взаимном уважении, равноправном взаимовыгодном сотрудничестве, на их дальнейшее развитие, которое отвечало бы коренным интересам двух стран, упрочнению мира и стабильности в регионе. Гейдару Алиеву удалось не только сохранить эти отношения, но и заложить основы динамично развивающегося сегодня сотрудничества между нашими странами.

Гейдар Алиев вписал в новейшую историю 20 сентября 1994 года как день подписания «Контракта века». В рамках соглашения Г. Алиев сдвинул с мёртвой точки проблему статуса Каспия. Необходимо особо отметить заслугу Алиева в реализации проекта Восток-Запад. В 1998 г в Баку по инициативе Президента Гейдара Алиева состоялся международный форум  «Восстановление Великого Шёлкого Пути». Этот саммит придал Баку статус узлового пункта в Международном Транзитном проекте. В его политике дипломатии «Шёлкового Пути» особо просматривался геополитиче-

ский контекст – наладить позитивное партнёрство по всем азимутам (США, Россия, Европа, Япония) и превратить Азербайджан в зону соединения интересов различных стран для извлечения выгод на благо своих народов.

Благодаря активной дипломатии Гейдара Алиева, Азербайджан сумел добиться изменения отношений демократических государств и ведущих мировых общественных организаций к нашей стране. Последовательные и целенаправленные шаги Алиева сделали Азербайджан полноправным членом Совета Европы,были расширены границы экономической, финансовой и гуманитарной помощи Европы Азербайджану.

Политическая, международная деятельность этого выдающегося человека, его руководство экономическим, хозяйственным, государственным строительством столь богато и обширно, что о нем можно писать книги, защищать диссертации.

**Unity of the West, East and nationalism in the policy of Heydar Aliyev**

**Summary**

**Keywords**:National encyclopediya, foreign policy,nationalism, idea of azerbaijanism, Earth, West, diplomatic relations, contract of the century, political activity, USSR.

The article mentions the state of the republic before Heydar Aliyev came to power. It also evaluates Aliyev's activities on a number of points in the restoration of the country. In particular, Heydar Aliyev's rule during the USSR was touched upon, and a small part of his multifaceted activities was mentioned. President H. Aliyev restored national values and united the people. The signing of the "Deal of the Century" is his personal service. He turned Azerbaijan into a country that is recognized, respected and of voice in the world.

**Литература**

1) «Гейдар Алиев –от политического руководителя к общенациональному лидеру» ,Ирада Гусейнова ,2005 г.

2) «Гейдар Алиев и внешнеполитический курс Азербайджанской Республики» , Сона Гурбанова , 2010 г.

3) «Национальный вопрос в деятельности Гейдара Алиева: к идеологии Азербайджанизма» Рау И.А., 2018.

4) https://azertag.az/ru/xeber/GEIDAR_ALIEV_I_VOSTOK-975617

5) https://azerbaijan.az/ru/related-information/147

**Ceyhun Mürşüdzadə**
AMEA akad. Z. M. Bünyadov adına Şərqşünaslıq İnstitutu,
Asiya-Sakit okeanı regionu ölkələri şöbəsinin
kiçik elmi işçisi

# HEYDƏR ƏLİYEV DÖVRÜNDƏ CƏNUBİ KOREYA-AZƏRBAYCAN ƏMƏKDAŞLIĞI

**Açar sözlər:** Heydər Əliyev, Cənubi Koreya, xarici siyasət, geosiyasət, İlham Əliyev.

Ulu Öndər Heydər Əliyev görkəmli dövlət xadimi və dünya səviyyəli siyasətçi idi. Azərbaycanın 1960-cı illərin sonlarından XXI əsrin əvvəllərinə qədər olan dövrü əhatə edən 35 illik tarixi bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər Heydər Əliyev respublikaya rəhbərlik etdiyi bütün illər ərzində ölkəmizin məsuliyyətini öz üzərinə götürmüş, həmfikirlərini ətrafında birləşdirmiş və onlarla birlikdə çətin və ciddi maneələri dəf edərək güclü müstəqil dövləti - müasir Azərbaycanı yaratmışdır.

Sovet İttifaqının dağılması ilə Azərbaycan xalqı öz müstəqilliyini bərpa etmək, dövlətçiliyi inkişaf etdirmək və möhkəmləndirmək üçün tarixi şans əldə etdi. 1993-cü ildə ümummilli lider Heydər Əliyevin prezident seçilməsindən sonra xalqın rifahının və ölkənin davamlı inkişafının ilkin şərti olan Azərbaycanın müstəqilliyinin və suverenliyinin möhkəmləndirilməsi istiqamətində uğurlu strategiya həyata keçirilməyə başlandı. Müasir müstəqil Azərbaycanın memarı və yaradıcısı, ümummilli lider Heydər Əliyev dövlət təsisatlarını təkmilləşdirdi, xarici əlaqələri genişləndirdi, hərtərəfli enerji strategiyasını həyata keçirdi və ölkənin uzunmüddətli inkişafının əsasını qoydu. Ulu öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsinə yönəlmiş strategiyası hazırda onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Azərbaycanın xarici siyasətində həmişə Şərqi Asiya ölkələri ilə ənənəvi dostluq münasibətlərinin möhkəmləndirilməsi strategiyası xüsusi yer tutub. Məhz müdrik və uzaqgörən siyasətçi Heydər Əliyev Şərqi Asiya ölkələrinə xüsusi rəğbət bəsləyirdi və bu baxımdan da Şərqi Asiya ölkələri ilə münasibətlərin inkişafına xüsusi önəm verirdi. “Şərqi Asiya dövlətlərinə məxsus nəhəng firmalar dünyanın demək olar ki, bütün ölkələrində geniş istehsal və satış bazaları ilə təmsil olunur. Bu şirkətlərdə işləyən ayrı-ayrı ölkələrin vətəndaşlarını əsl istehsal nizam-intizamı, yüksək professionallıq, ictimai-siyasi proseslərə qarışmamaq kimi keyfiyyətlər birləşdirir.” [1, səh. 297]

Heydər Əliyevin xarici siyasət müstəvisində realist, uzaqgörən və səbirli fəaliyyəti sayəsində Asiya ölkələri ilə, o cümlədən də Koreya Respublikası ilə münasibətlər normallaşdırıldı. Azərbaycan ticarət yollarının və sivilizasiyaların, mədəniyyətlərin və dinlərin kəsişmə nöqtəsi kimi ənənəvi olaraq dünya siyasətində mühüm rol oynayan regionda yerləşir. Azərbaycanın geosiyasi əhəmiyyəti onun strateji yerləşməsi ilə bağlıdır. Sovet İttifaqının

dağılmasından qısa müddət sonra Azərbaycan və Koreya münasibətləri rəsmi çərçivədə davam etməyə başladı.

Son illər Koreya Respublikası ilə postsovet məkanı ölkələri arasında iqtisadi əməkdaşlıq bir çox sahələrdə geniş vüsət alır. Ən perspektivli istiqamətlər arasında bu ölkələrdə karbohidrogen yataqlarının işlənməsinə və onun Koreyaya ixracına əsaslanan yanacaq-energetika kompleksi (YEK) sahəsində əməkdaşlıq daxildir. Əməkdaşlığın inkişafı üçün stimul Koreyanın enerji resurslarına artan tələbatı və bu ölkələrdən tədarüklər hesabına müəyyən şərtlər daxilində onların ödənilməsi imkanlarıdır. "Ölkələrimiz qısa müddət ərzində iqtisadi əməkdaşlıq sahəsində bir çox nəticələr əldə ediblər. Lakin, neft, qaz və digər enerji sektorunda, infrastrukturun inkişafı, su resurslarının inkişafı və s. əməkdaşlıq potensialı böyük olan sektorlarda əməkdaşlıq həyata keçirilərsə Koreya və Azərbaycan çox böyük nəticələr əldə edə bilər". [4, səh. 53]

Koreya Respublikasının yanacaq-energetika kompleksinin hazırkı vəziyyəti onun enerji təhlükəsizliyini təmin etmək üçün enerji təchizatı mənbələrinin şaxələndirilməsini tələb edir. Son dərəcə məhdud resurslarına görə, Koreya dünyanın ən böyük enerji istehlakçılarından biri olmaqla, demək olar ki, bütün enerji resurslarını idxal edir. Neft və qaza olan tələbatın böyük hissəsi Cənub-Şərqi Asiyadan idxal hesabına ödənilir. Bununla belə, Yaxın Şərqdəki siyasi qeyri-sabitlik səbəbindən Koreya Respublikasının başqa tədarük mənbələrinə ehtiyacı var. Buna görə də postsovet məkanı ölkələri Koreya tərəfindən strateji əhəmiyyətli və perspektivli enerji resursları mənbəyi kimi qəbul edilir.

Coğrafi yaxınlıq baxımından Şərqi Sibir və Uzaq Şərq Koreya Respublikası üçün ən böyük maraq kəsb edir. Lakin bununla yanaşı əhəmiyyətli resurs potensialına görə Azərbaycan və Koreya respublikaları arasında ikitərəfli əlaqələrin qurulması üçün mühüm variantlar mövcuddur. "Koreya Respublikasının ayrı-ayrı dövlət münasibətlərinin və özəl qurumlarının Azərbaycan Respublikasında fəaliyyəti üçün də ölkəmizdə dövlət səviyyəsində münasib şərait və geniş imkanlar yaradılmışdır." [5, səh. 229]

Azərbaycan da Koreya Respublikası ilə əlaqələrin inkişafında maraqlıdır, çünki bu, ölkənin şərqində sosial-iqtisadi dirçəlişi gücləndirəcək. Bölgədə iri neft və qaz hasilatı mərkəzlərinin formalaşması Azərbaycanın enerji təchizatının coğrafiyasını genişləndirəcək, sürətlə böyüyən Asiya bazarına daxil olmağa və dövlətin xarici siyasət və iqtisadi mövqelərinin möhkəmlənməsinə kömək edəcək. Bu kontekstdə Koreya Respublikası Azərbaycan üçün mühüm iqtisadi tərəfdaşlardan biridir.

İndiki mərhələdə enerji sahəsində də böyük resurs potensialına malik olan Mərkəzi Asiya və Qafqaz ölkələri ilə əməkdaşlıq qarşılıqlı maraq doğurur. Praktiki olaraq yalnız Azərbaycan öz resurslarının, o cümlədən Şimal-Şərqi Asiyaya tədarük coğrafiyasını genişləndirməyə, əlavə olaraq, Asiya dövlətlərindən xarici investisiyaları cəlb etməyə çalışırlar. Postsovet məkanı ölkələrinin neft-qaz kompleksinin modernləşdirilməsi, yeni neft-qaz hasilatı müəssisələrinin və nəqliyyat infrastrukturunun yaradılması üçün əhəmiyyətli investisiyalara ehtiyacı var. Koreya Respublikası isə regionda neft və qazın həm işlənməsi, həm emalı, həm də nəqli üçün investisiyalar təklif edə bilər.

Eyni zamanda, postsovet məkanında karbohidrogen xammalına və onların nəql marşrutlarına çıxış üçün həm Qərb, həm də Şərq tərəfindən eyni vaxtda rəqabət güclənir ki, bu da Koreya şirkətlərinin neft və qaz investisiya layihələrində iştirakını çətinləşdirir. Hazırda Azərbaycan və Koreya Respublikası əməkdaşlığın möhkəmləndirilməsində əsaslı irəliləyişlər əldə edib, iki ölkə arasında münasibətlər durmadan yüksəlir, ikitərəfli dialoq, qarşılıqlı faydalı əməkdaşlıq və qarşılıqlı yardım dinamikası qibtə olunası sürətlə inkişaf edir. Cənubi Koreyanın Azərbaycana marağı XXI əsrin əvvəlinə təsadüf edir, o zaman ki, neft bazarının getdikcə daha qeyri-sabit olduğu bir vaxtda ikincinin böyük enerji ehtiyatlarını kəşf etdi. Bu gün iki ölkə arasında mühüm ticarət tərəfdaşlığı mövcuddur. [6, səh. 330]

Müasir Azərbaycan öz dövlətinin inkişafı və möhkəmlənməsi yolunda inamla irəliləyir və biz əminik ki, belə dünya nəhəngləri ilə, ən əsası Koreya Respublikası kimi etibarlı dostlarla möhkəm tərəfdaşlıq əlaqələri inkişaf etdirməklə hər iki ölkənin uğurlu gələcəyindən əmin-amanlıqla danışa bilərik.

Qarşılıqlı maraqları mövcudluğu şəraitində Azərbaycan və Koreya Respublikası arasında diplomatik əlaqələr 1992-ci il martın 23-də qurulub. 30 yanvar 1997-ci ildə Koreya Respublikası MSLİNT Texnologiya İNK ilə "Xalq üçün mallar" Dövlət Konserninin iqtisadi əməkdaşlıq barədə niyyət protokolu imzalanmışdır. [3] Cənubi Koreya və Azərbaycan münasibətləri ilə bağlı bir məqamı da qeyd etmək lazımdır ki, 2000-ci ildə Moskvada ticarət və ticarətdən məsul olan Cənubi Koreyalı diplomatlar Cənubi Koreyanın Ticarət və Ticarət Nazirliyinin Azərbaycan administrasiyasına yazdığı məktubla Azərbaycana müraciət etmişlər. Həmin dövrdə Azərbaycan Dövlət Neft Şirkətinin (ARDNŞ) rezidenti olan Azərbaycanın hazırkı prezidenti İlham Əliyev Cənubi Koreyaya dəvət olunmuşdu. Əslində, bu dəvət iki dövlətin sonrakı inkişafı və təşəbbüslərinə yol açdı. Bundan başqa, 2006-cı və 2007-ci illərdə iki dövlət arasında keçirilən rəsmi görüşlər gələcək siyasi-iqtisadi əlaqələr, hərtərəfli əməkdaşlıq üçün zəmin olmaqla yanaşı, bu əlaqələr hər iki ölkəyə mübadilə sahələrini genişləndirməyə kömək etdi. Münasibətlər yarandıqdan sonra qısa müddətdə iki dövlət arasında iqtisadiyyata dair 50-yə yaxın sənəd imzalanıb. [10]

Cənubi Koreyanın Azərbaycandakı səfirliyi 2006-cı il martın 4-də açılıb. 20 oktyabr 2006-cı ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən "Azərbaycan Respublikası və Koreya Respublikası arasında münasibətlərin və əməkdaşlığın prinsipləri haqqında" Birgə Bəyannamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu imzalanmışdır. [7] Azərbaycanın Cənubi Koreyadakı səfirliyi 2007-ci il martın 14-də açılıb. Milli Məclisdə Cənubi Koreya ilə əlaqələr üzrə ikitərəfli işçi qrupu fəaliyyət göstərir. Cənubi Koreya parlamentində ikitərəfli əlaqələr üzrə parlamentlərarası qrup fəaliyyət göstərir. 2021-ci ildə ölkələr arasında ticarət dövriyyəsi 228 milyon ABŞ dolları təşkil edib. Azərbaycanda 77 Koreya şirkəti fəaliyyət göstərir. [11] Biz təhsil sahəsində də əməkdaşlıq edirik. 2020-ci ildə Bakı Mühəndislik Universiteti ilə İnha arasında ikili diplom proqramına start verilib.

İkitərəfli iqtisadi əlaqələr üzrə hökumətlərarası komissiya fəaliyyət göstərir. Cənubi Koreyanın ixracında polietilen, minik və yük avtomobilləri üçün şinlər, polad prokat, elektrik avadanlıqları, sürtkü yağları, dərmanlar üstünlük təşkil edir. Azərbaycanın ixracı əsasən kerosin, ərzaq məhsulları, mebeldən ibarətdir. Müasir dövrdə Koreya ilə Azərbaycan arasındakı əmtəə dövriyyəsi aşağıdakı kimdir:

Əmtəə dövriyyəsi (min doll.)

| **İl** | **İxrac** | **İdxal** | **Ümumi dövriyyəsi** |
|---|---|---|---|
| **2020** [8] | 82,58 | 178 579,69 | 178 662,27 |
| **2021**[9] | 83,81 | 227 573,62 | 227 657,43 |

10 yanvar 2022-ci ildə ölkə başçısı İlham Əliyev Koreya Respublikasının Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib. Görüş zamanı Koreya Respublikasının Azərbaycanda yeni təyin olunmuş səfiri Li İn-Yonq Koreya ilə Azərbaycan arasındakı əlaqələrin zəruriliyindən danışıb. "Səfir Li İn-Yonq son 30 il ərzində Azərbaycan Respublikası ilə Koreya Respublikası arasında əlaqələrin inkişaf etdiyini vurğulayaraq, iqtisadi əməkdaşlığın və insanlar arasında əlaqələrin ölkələrimizin potensialına uyğun olaraq daha da möhkəmləndirilməsinin vacibliyini bildirdi və səfir fəaliyyəti dövründə bu istiqamətdə səylərini əsirgəməyəcəyini qeyd etdi". [2]

Hazırda iki ölkə arasında 67 saziş imzalanıb. Cənubi Koreya ilə Azərbaycan arasında münasibətlər inkişaf etməkdə davam edir və hörmət və etimada əsaslanır. Ümid edirik ki, Koreya ilə Azərbaycan arasında əlaqələr genişlənəcək və möhkəmlənəcək. İki ölkə iqtisadiyyatın bir-birini tamamlaması əlaqələr üçün getdikcə daha güclü iqtisadi zəmin yaradır. Azərbaycanın xarici siyasəti dünya ölkələri ilə koordinasiyalı əlaqələr qurmaq yollarını tapmağa yönəlib. Hələ keçən əsrdə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə dünya ölkələri ilə əməkdaşlığın inkişafı üçün kifayət qədər aydın strategiya işləyib hazırlamışdır. Sevindirici haldır ki, bu strategiya müasir dövrdə də uğurlu bir şəkildə davam etdirilir.

## South Korea-Azerbaijan Cooperation During Heydar Aliyev's Period

**Summary**

**Keywords:** Heydar Aliyev, South Korea, foreign policy, geopolitics, Ilham Aliyev.


The strategy of strengthening traditional friendly relations with East Asian countries has always had a special place in Azerbaijan's foreign policy.It was the wise and far-sighted politician Heydar Aliyev who had special sympathy for the countries of East Asia, and in this regard, he attached special importance to the development of relations with the countries of East Asia.Due to Heydar Aliyev's realistic, visionary and patient activities in foreign policy, relations with Asian countries, including the Republic of Korea, were normalized.

In recent years, economic cooperation between the Republic of Korea and the countries of the post-Soviet space has been expanding in many areas.An intergovernmental

commission on bilateral economic relations operates.Currently, 67 agreements have been signed between the two countries.Relations between South Korea and Azerbaijan continue to develop and are based on respect and trust.


**Ədəbiyyat Siyahısı**

**Azərbaycan dilində**

1. Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı, "Azərbaycan" nəşriyyatı, 2005. 631 s.
2. İlham Əliyev Koreya Respublikasının Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib. "Respublika" qəzeti, 2022. 10 yanvar
3. Niyyət sazişi: [Koreya Respublikası MSLİNT Texnologiya İNK ilə "Xalq üçün mallar"] Dövlət Konserninin iqtisadi əməkdaşlıq barədə imzaladığı niyyət protokolu haqqında //"Azərbaycan" qəzeti. 1997. 30 yanvar.
4. Şahbazlı F., Alxasov O. Uzaq və yaxın Koreya. Bakı, "Şərq-Qərb" Nəşriyyat evi, 2012, 60 səh.
5. Talıbov R. Asiya ölkələri beynəlxalq münasibətlər sistemində. Bakı, "Elm və təhsil", 2015, 312 səh.

**İngilis dilində**

6. Aras B, Yılmaz R. Azerbaijan's Far Eastern orientation and South Korea.The Korean Journal of Defense AnalysisVol. 21, No. 3, September 2009, 329-343

**İnternet materialları**

**Azərbaycan dilində**

7. "Azərbaycan Respublikası və Koreya Respublikası arasında münasibətlərin və əməkdaşlığın prinsipləri haqqında" Birgə Bəyannamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu. 20 oktyabr 2006-cı il. https://e-qanun.az/framework/12414
8. Azərbaycan Respublikası Xarici Ticarətinin Gömrük Statistikası. AR Dövlət Gömrük Komitəsi Rəsmi saytı. Hesabat dövrü: 01.01.2020 – 31.12.2020. https://customs.gov.az/ uploads/foreign/ 2020/2020 _12.pdf?v=1640608671
9. Azərbaycan Respublikası Xarici Ticarətinin Gömrük Statistikası. AR Dövlət Gömrük Komitəsi Rəsmi saytı. Hesabat dövrü: 01.01.2021 – 31.12.2021. https://customs.gov.az/uploads/foreign /2021/2021_ 12.pdf?v=1643353987

**İngilis dilində**

10. Pashayeva R. Bilateral relations between Azerbaijan and South Korea.On Dec 20, 2019,https://www.researchgate.net/publication/ 342447180_Bilateral_Relations_between_Azerbaijan_and_South_Korea

**Rus dilində**

11. Замминистра: Отношения между Южной Кореей и Азербайджаном базируются на уважении и доверии. 5 октября 2022 г. https://report.az/ru/vneshnyaya-politika/elnur-mamedov-otnosheniya-mezhdu-yuzhnoj-koreej-i-azerbajdzhanom-prodolzhayut-razvivatsya/

**Elnarə Bünyatova**
AMEA akad. Z. M. Bünyadov adına Şərqşünaslıq İnstitutu,
Şərqşünaslığın tarixi və nəzəriyyəsi şöbəsinin
kiçik elmi işçisi

# ГЕЙДАР АЛИЕВ: ДОЛГИЙ ПУТЬ К ВОЗРОЖДЕНИЮ НОВОГО АЗЕРБАЙДЖАНА

**Ключевые слова;** Гейдар Алиев, центральный комитет, президент, совет министров, государство.

Последнее десятилетие XX века является судьбоносным в современной истории азербайджанского народа. В рассматриваемом историческом периоде под руководством общенационального лидера Гейдара Алиева народ Азербайджана сумел создать собственное независимое государство.

Становление и развитие современного независимого азербайджанского государства представляется торжеством политической линии Гейдара Алиева, нацеленной на всемерное укрепление национальной государственности. На основе разработанной им теории национального возрождения, ставшей бесценным достоянием и для последующих поколений, воплотилась в жизнь историческая мечта азербайджанского народа о независимом государстве.

Следует отметить что, становление государственной независимости страны в рассматриваемом историческом периоде протекало в чрезвычайно неблагоприятных условиях. Именно в этот важный период в истории азербайджанского народа, в сложной внутри и внешнеполитической обстановке, особенно ярко проявились феноменальные личностные качества общенационального лидера Гейдара Алиева. Исторической заслугой общенационального лидера в становлении независимого Азербайджанского государства в значительной степени было связано с разработанной и реализованной им внешнеполитической линией, нацеленной на достижение устойчивого международного положения страны. Хотелось бы вернутся в далекое прошлое, и вспомнить тяжелый многоступенчатый путь деятельности лидера страны.

После прихода Гейдара Алиева к руководству Азербайджана 14 июля 1969 года прошла треть века. До руководства республики он прошел путь в органах государственной безопасности от рядового работника до руководителя этой структуры. Широкий спектр его деятельности в органах безопасности, естественно, помог ему на новом посту первого секретаря Коммунистической партии Азербайджана. В те непростые времена Гейдару Алиеву было рекомендовано работать в рамках правил того времени, но общенациональный лидер обладал таким характером, что не мог оставаться в рамках этих «правил», он просто не вмещался ни в какие стандарты (3, стр.

7). Этому были доказательства его первые шаги в деятельности, что было необычно для СССР.

Он нацелено стремился улучшить положение своей страны, поэтапно решая все накопившиеся в Азербайджане проблемы. В первые же месяцы стало очевидным, что к власти пришел чрезвычайно талантливый, умелый реформатор, обладающий выдающимися организаторскими способностями, и никому не удастся предотвратить реформы Алиева, а создание в экономике Азербайджана новых отраслей промышленности свидетельствует о том, что Гейдар Алиев предвидел сегодняшний день независимого Азербайджана и начал строить его еще в 70 – е годы.

О заслугах и жизненном пути одной из уникальных личностей нашего времени, всемирно известного политического и государственного деятеля, Президента Азербайджанской Республики Гейдара Алиева сказано и написано очень много. Великая эпоха Гейдара Алиева – эпоха возрождения и расцвета азербайджанского народа. За этот период руководства Азербайджаном Гейдар Алиев на весь мир прославил свою родину и азербайджанский народ, благодаря своей сильной натуре, добился целостности Азербайджанаи всюду с гордостью достойно представлял ее (3, стр. 5).

Вернемся в советское время его деятельности, четырнадцать лет Гейдар Алиев возглавлял Центральный комитет Коммунистической партии Азербайджана - по советским временам это глава республики; пять лет он был вторым человеком в советском правительстве и членом Политбюро ЦК КПСС; с его именем связано создание и становление независимого Азербайджана в постсоветскую эпоху, который он возглавлял свыше десяти лет. Его возвращение в большую политику было сложно, но благодаря его стойкости и аналитическому уму он во многом преуспел. Талант и воля - ключевые качества личности Алиева. Высочайшая организованность и требовательность - прежде всего к себе.

Умение слушать и слышать одного человека и понимать устремления всех, кого объединяет емкое понятие - «народ», «нация» (5, стр. 9). В нем сочетались пророческая дальновидность большого политика и отвага смелой личности. Великодушный и незлопамятный, он умел прощать тех, кто ненароком ошибся, но неучи, корыстолюбцы не могли рассчитывать на его снисхождение. При рождении его назвали Гейдаром, на русском это значит - идущий впереди, предводитель (5, стр. 9). Он рос, и учился в родном Нахчиване, затем в Баку где ему открывался мир от Каспия до гор, где он стал политиком и государственным деятелем, национальным лидером, предводителем народа. «Я, Алиев Гейдар Али Рза оглы, - писал он в автобиографии,- родился 10 мая 1923 года в Нахичевани...». Сколько бы раз ни выводил эти строки - в Баку, Ленинграде, Москве, - всегда вставал перед глазами тихий и добрый город над Араксом (5, стр. 11).

Майские дни в родном Нахчеване, пережившем века и тысячелетия, чисты и высоки, как небо над весенней мечетью. В один из таких весенних дней в семье Али и

Иззет Алиевых родился четвертый ребенок. Назвали его Гейдаром, в память о брате Иззет-ханум, погибшем во время исхода азербайджанцев из Зангезура. Тому Гейдару навсегда осталось двадцать три. Мосты через Аракс в ту пору не объединяли, а разделяли разные берега. Но задумались об этом - и на одном, и на другом берегу -только через много-много лет. Для того должен был измениться сам окружающий мир. Или - точнее - люди должны были изменить его. Пройдут десятки лет, сменятся эпохи - и Гейдар Алиевич Алиев скажет ретивым «обновителям» истории: «Нельзя перечеркивать прожитые годы ради кого-то, чего-то. Ибо они, хорошие ли, плохие ли - история, а перечеркивать историю никому не дано». (5, стр. 19).

Это был и ответ оппонентам, и совет умудренного жизнью человека. Ему и его поколению в то время нечего стыдиться своей молодости - студенческой, комсомольской, военной...1939 году он с отличием окончил педагогическое училище и уже строил планы на будущее. Карьера его началась в Москве. Очень большую ценность представляют находящиеся в Экономическом архиве Российской Федерации документы, протоколы, освещающие деятельность Г.А. Алиева в общесоюзном масштабе, его участие в совещаниях союзных министерств и ведомств, выступления, задачи, которые он ставил для решения той или иной проблемы. Среди них можно особо отметить письмо ЦК Компартии Азербайджана и Совета Министров Азербайджанской ССР заместителю председателя Совета Министров СССР Н.А. Тихонову «Об ускорении перестройки нефтедобывающей промышленности Азербайджанской ССР» от 21 марта 1975 года (Фонд 4372, список 66, дело 7260, листы 119-120); подписанное 14 января 1983 года первым заместителем председателя Совета Министров СССР Г.А. Алиевым правительственное задание по открытию двустороннего движения по БАМу и материалы, связанные с этим вопросом (Фонд 4372, список 67, дело 5305, листы 64-67); протокол совещания у первого заместителя председателя Совета Министров СССР от 17 февраля 1983 года «О мерах по обеспечению грузоперевозок по Львовской железной дороге» (Фонд 4372, список 67, дело 5297, листы 202-204); протокол №1 совещания Комиссии Совета Министров СССР под председательством Г.А. Алиева «О строительстве Байкало-Амурской железнодорожной магистрали» (4 марта 1983 г.) (Фонд 9538, список 1, дело 4652, листы 104-115); протокол №2 (Фонд 4372, список 67, дело 6149, листы 222-231) (07.06.1984); протокол совещания у первого заместителя председателя Совета Министров СССР Г. А. Алиева и т.д. (6, стр. 20).

Гейдар Алиев считается не только строителем нынешнего азербайджанского государства, но и, по праву, основателем современного парламента страны. Как и в других социалистических республиках, принимаемые парламентом Азербайджана в советскую эпоху законы и решения служили реализации политических, экономических и идеологических целей Коммунистической партии. Хоть в стране и был сделан ряд осторожных шагов к национально-духовному возрождению в 50-60-е годы двадцатого века, целенаправленная деятельность в этой области началась только с из-

бранием Гейдара Алиева первым секретарем ЦК КП Азербайджана (4). Будучи главой республики, Гейдар Алиев с первого дня дальновидно сосредоточил работу всех органов государственной власти, в том числе парламента, на экономическом и социально-культурном прогрессе народа, на реализации политики национального возрождения. Искусный политик, он, умело используя имеющиеся возможности высшего законодательного органа, заложил прочную основу национального пробуждения и будущей независимости. Начиная с 1995 года, основной акцент внимания был сконцентрирован на процессе по переходу к рыночным отношениям сельского хозяйства. В связи с этим Гейдар Алиевым были приняты законы Азербайджанской Республики «Об основах аграрной реформы», «О реформе колхозов и совхозов», а также Закон Азербайджанской Республики «О земельной реформе» от 16 июля 1996-го года, Закон Азербайджанской Республики «О государственном земельном кадастре, мониторинге земель и землеустройстве» от 22 декабря 1998-го года, Закон Азербайджанской Республики «Об аренде земли» от 12 марта 1999-го года, утвержденный Законом Азербайджанской Республики от 25 июня 1999-го года «Земельный Кодекс Азербайджанской Республики» и т.д. (7, стр. 42). Гейдар Алиев является такой редкой исторической личностью, занимающей особое место в национальной истории Азербайджана, что его богатое наследие еще долго будет в центре внимания политологов, философов, историков и исследователей. Благодаря своим беспрецедентным заслугам в борьбе азербайджанского народа за независимость он ещё при жизни стал легендой и завоевал бесконечную любовь азербайджанцев всего мира. (4).

Путь к национальной независимости Азербайджана, был жизненно важен для него, исоответственно, должен быть правильно определен аспект влияния региональных процессов, параллельных внутриполитическим процессам. Внешняя политика в большой степени зависела от внутриполитических процессов, и это было очень трудное задание, учитывая в то время в Азербайджане социально-политическую ситуацию. Возвращение Гейдара Алиева к политической власти во второй раз в такой тяжелый период, привело к тому, что радикальные реформы в фундаментальных вопросах превратились в субъект политики. Азербайджанская Республика, которая имеет многовековые традиции государственности и, как независимая политическая сила, активно участвует в наше время в региональной и международной политике, с точки зрения исторических условий имеет подходящие условия для существования. (1, стр.76). Современное азербайджанское государство, продолжая многовековые традиции государственности, являясь гарантом национальной независимости, в рамках сильного государственного концепта-принципа обращается к политическим концепциям экономического, политического и военно-стратегического плана наиболее развитых стран мира. На этом сложном этапе великий лидер Гейдар Алиев определил курс строительства сильного государства и стал претворять его в жизнь. Минувший период показал, что именно эта модель является наиболее эффективной на постсовет-

ском пространстве. Известные ученые мира также подчеркивают в своих работах необходимость сильного государства. В их число входят такие мыслители, как Фрэнсис Фукуяма и Андрей Цыганков (2). Из приведенных выше фактов мы пришли к тому что, в результате всех этих событий Азербайджан смог достичь своих геополитических интересов в рамках экономики, переходя от уровня экономической независимости к уровню геополитического действующего фактора. Это идеальное сочетание демонстрирует интеллектуальный потенциал сильной государственной модели. Исходя из вышеизложенных аргументов, можно прийти к выводу о том, что внешняя политика Азербайджана адекватна принципу или формуле рационального реализма, то есть интеллектуального реагирования на фундаментальные проблемы региональной и международной систем. Эта политика является реализацией азербайджанской модели концепции сильного государства, определенной общенациональным лидером Гейдаром Алиевым.

## Heydar Aliyev and the Long Way to the Revival of the New Azerbaijan

### Summary

**Keywords:** Heydar Aliyev, central committee, president, council of ministers, state.


The article talks about the merits and life path of one of the unique personalities of our time, the world famous political and statesman, the President of the Republic of Azerbaijan Heydar Aliyev. The great era of Heydar Aliyev is the era of rebirth and prosperity of the Azerbaijani people. During this period of leadership of Azerbaijan, Heydar Aliyev glorified his homeland to the whole world and the Azerbaijani people, thanks to his strong nature, achieved the integrity of Azerbaijan, and proudly represented it everywhere with pride. And also about the formation and development of the modern independent Azerbaijan state, represented by the triumph of the political line of Heydar Aliyev, aimed at strengthening the national statehood in every possible way. Also, on the basis of the theory of national revival developed by him, which became an invaluable asset for subsequent generations, the historical dream of the Azerbaijani people about an independent state came true. It should be noted that the formation of the state independence of the country in the historical period under consideration proceeded in extremely unfavorable conditions. It was during this important period in the history of the Azerbaijani people, in a difficult domestic and foreign political situation, that the phenomenal personal qualities of the national leader Heydar Aliyev were especially clearly manifested. The historical merit of the national leader in the formation of an independent Azerbaijani state was largely associated with the foreign policy line developed and implemented by him, aimed at achieving a stable international position for the country.

**Литература**


1. Акбаров Мохаммед Гусейн, ОСНОВЫ ГОСУДАРСТВЕННОГО СТРОИТЕЛЬСТВА АЗЕРБАЙДЖАНА UDC 330:930.26 DOI: 10.34671/SCH.BSR.2019.0303.0018
2. Бакинский рабочий – 2016 - 13 мая.-№ 86.-С. 3. Концепт сильного государства: эффективность азербайджанской модели
3. Гейдар Алиев библиографический справочник Издательство Бакинского Университета Баку 2003.
4. https://www.meclis.gov.az/news-az.php?id=16&lang=ru Гейдар Алиев и Парламент Азербайджана
5. Жизнь ЗАМЕЧАТЕЛЬНЫХ ЛЮДЕЙ Серия биографий Основана в 1890 году Ф. Павленковым и продолжена в 1933 году М. Горьким
6. Ирада Гусейнова От политического руководителя к общенациональному лидеру Баку 2005.
7. International Journal of Innovative Technologies in Economy ISSN 2412-8368 4(16) May 2018 41 СТРАТЕГИЧЕСКИЙ ВКЛАД ГЕЙДАРА АЛИЕВА В РАЗВИТИЕ СЕЛЬСКОГО ХОЗЯЙСТВА АЗЕРБАЙДЖАНА

**Aynurə Məmmədova**
AMEA akad. Z. M. Bünyadov adına Şərqşünaslıq İnstitutu,
Şərqşünaslıq elminin tarixi və nəzəriyyəsi şöbəsinin
kiçik elmi işçisi

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN MƏNƏVİ İRSİNDƏ AİLƏ DƏYƏRLƏRİ VƏ ƏNƏNƏLƏRİ

**Açar sözlər**: Ailə, Heydər Əliyev, ümummilli, cəmiyyət, ənənə

## Giriş

**Biz milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi qoruyub saxlamalıyıq və gənc nəsli bu ruhda tərbiyələndirməliyik.**
**Heydər Əliyev**

Hər bir xalqın milli azadlıq və istiqlaliyyət tarixində xilaskar rolunu oynayan dahi insanları var. Həmin dahilər və insanlar öz qətiyyətləri ilə mənsub olduqları xalqı arxasınca aparıb, ən taleyüklü məqamlarda qalib rolu oynamışlar. Azərbaycan xalqının xilaskarı, ümummilli lideri Heydər Əliyev müasir dünya tarixinə parlaq və silinməz iz qoymuş böyük şəxsiyyət, qeyri-adi zəka, fitri istedad sahibi, müdrik dövlət xadimi kimi düşmüşdür. Fasilələrlə hələ 1969-cu ildən Azərbaycan Respublikasına rəhbərlik etdiyi dövrlərdə çoxuşaqlı və aztəminatlı, eyni zamanda müharibə və əmək qəhrəmanlarının ailələrinə xüsusi qayğı göstərən, onların övladlarının təhsilini nəzarətdə saxlayan, ailə münasibətlərini son dərəcə yüksək dəyərləndirən Heydər Əliyev hesab edirdi ki, cəmiyyətdəki qarşılıqlı münasibətlərdə olduğu kimi, ailədə də hər bir insan özünəməxsus statusa, qayda-qanuna, əlaqələrə və prinsiplərə riayət etməlidir.(5. s 99) Hər bir ailə üzvü öhdəsinə düşən funksiyaları yerinə yetirməli, ailənin rifahı üçün bacardığını etməli, ailə üzvlərinə hörmət və qayğı göstərməli, ailənin sevincini və kədərini birgə yaşamalı, bu sahədə mövcud olan ümumi ənənə və qaydalara sadiq olmalıdır. Ulu öndər ailəni cəmiyyətin bünövrəsi, özəyi sayır, Azərbaycanda sağlam cəmiyyətin, güclü dövlətin qurulub möhkəmləndirilməsində onun son dərəcə vacib amil olduğunu dönə-dönə qeyd edir və daim göz bəbəyi kimi qorunmasını tövsiyə edirdi. O, insanların ən müqəddəs arzularından olan məhəbbətin, mərhəmətin, biliyin və zəhmətsevərliyin ailənin bünövrəsi üçün vacib cəhətlər olduğunu qeyd edirdi: "Hər bir kəsin arzusu ailə qurmaq və ailə sahibi olmaq, ana, ata, valideyn olmaqdır. Bundan böyük xoşbəxtlik yoxdur". Ümummilli Lider Heydər Əliyev hesab edirdi ki, insan yalnız oxuyub təhsil aldığı məktəbdə, çalışdığı kollektivdə deyil, həmçinin böyüyüb boya-başa çatdığı ailədə formalaşır. Heydər Əliyev üçün ailə cəmiyyətin əsas dayağı, eynizamandaböyükideallarlayaşayan insanların boy

atdığı, tərbiyə aldığı və vətəninə xidmət üçünböyüdülübboya-başa çatdırıldığı birocaqidi. Axı dövlətin kiçik modeli-forması sayılan milli ailə olmasa, cəmiyyət də inkişaf edə bilməz.

Heydər Əliyevin ailə həyatı çox ibrətamizdir, ilk növbədə sadəlik və təvazökarlıq, sədaqət və etibar nümunəsidir. Heç bir çətinliyə, maddi və mənəvi sıxıntıya, siyasi təzyiqə baxmayaraq ailəni qoruyubsaxlamaqasanolmasada, ulu öndər bunuçoxböyükmüdriklik və bacarıqla yerinə yetirə bilmiş, təkcə övladlarına və yaxınlarına deyil, bütün xalqa belə bir nümunə göstərmişdir. Ulu öndərin həyat yolundan bəhs edən sənədli filmlərdən, müxtəlif kitablardan onun ailəyə nə qədər bağlı bir insan olduğunu görməmək mümkün deyildir. Xüsusilə onunömür-gün yoldaşı Zərifə xanım Əliyeva haqqında xatirələrini və söhbətlərini dinlədikcə, buzaman gözlərində giləlvalənən göz yaşlarını gördükcə böyük və müqəddəs bir məhəbbətin, son dərəcə nəcibinsani münasibətin şahidiolursan. Ulu öndər Heydər Əliyev öz xatirələrində qeyd edirdi:

“Gənc yaşlarımdan mənim həyatım dövlət işi ilə bağlı olubdur. Mən bütün həyatımı buna sərf etmişəm və bu gün də bu yolda çalışıram. Bu yolda mənim həmişə səmərəli, müvəffəqiyyətlə çalışmağımda, hesab edirəm ki, ailə vəziyyətimin rolu böyük olub. Zərifə xanım kimi həyat yoldaşım olduğuna və o, ailəmdə çox yüksək mənəvi mühit yaratdığına görə mən çox xoşbəxt olmuşam. Həyatımın bütün dövrlərində işlə məşğul olduğuma görə ailə məsələlərinə fikir verməyə vaxtım olmayıb. Bunların hamısı Zərifə xanımın üzərinə düşüb və o da bu vəzifəni şərəflə, sədaqətlə, çox böyük məharətlə yerinə yetirib.

Qarşılıqlı məhəbbət üzərində qurulan ailə xoşbəxt idi. Gənc zabit olan Heydər Əliyev həyat yoldaşının simasında özünə həqiqi bir dayaq tapdı. Təhlükəsizlik orqanlarında iş mürəkkəb idi və çoxlu vaxt tələb edirdi. Heydər Əliyev də öz işini sevir və çalışmaqdan yorulmurdu. O, bilirdi ki, ürəyindəki böyük planları icra etmək üçün zəhmətdən yaxşı heç nə yoxdur. Zərifə Əliyev öz elmi işini davam etdirsə də, həqiqi bir azərbaycanlı qadını kimi ailəni və onun qayğılarını birinci sayırdı. Ümumiyyətlə, məişət xırdalıqlarından yüksək olmaq, uzaqgörənlik və səbir onun xasiyyətinin əsas cəhətləri idi. Zərifə xanım fitri, sağlam düşüncəsi olan bir qadın kimi ərinə nədəsə məsləhətlər də verə bilərdi. Lakin o, belə təşəbbüslərdən uzaq idi, bütün diqqətini ailədə ılıq və rahat şəraitin yaradılmasına yönəltmişdi.(1. s. 1) Heydər Əliyev bilirdi ki, Azərbaycan qadını ailənin aparıcı qüvvəsidir və onun sözü böyük təsir gücünə malikdir. O, qadınlara üzünü tutaraq deyirdi: “Siz Azərbaycanın ictimai-siyasi həyatının fəal iştirakçılarısınız, arzu edirəm ki, bundan sonra da belə fəal olasınız və bilin ki, mən də öz tərəfimdən bütün imkanları yaratmağa hazıram. Bir arzum da var. çalışın öz intizamlılığınızı, dözümlülüyünüzü və sədaqətliliyinizi kişilərə də öyrədəsiniz. Ailəni, ailə dəyərlərini, münasibətlərini son dərəcə yüksək dəyərləndirən Heydər Əliyev hesab edirdi ki, cəmiyyətdəki qarşılıqlı münasibətlərdə olduğu kimi, ailədə də hər bir insan özünəməxsus statusa, qayda-qanuna, əlaqələrə və prinsiplərə riayət etməlidir. Hər bir ailə üzvü öhdəsinə düşən funksiyaları yerinə yetirməli, ailənin rifahı üçün bacardığını etməli, ailə üzvlərinə hörmət və qayğı göstərməli, ailənin sevincini və kədərini birgə yaşamalı, bu sahədə mövcud olan ümumi ənənə və qaydalara sadiq olmalıdır. Çünki ailə olmasa,

cəmiyyət də inkişaf edə bilməz. Ulu Öndər heç bir Azərbaycan ailəsinin taleyinə laqeyd qala bilmirdi. O, Azərbaycanda ailə adətlərimizin ləyaqətlə davam etdirilməsi üçün hər bir imkan və şəraiti yaradır, bu işdə dəstəyini xalqdan əsirgəmirdi. Azərbaycana rəhbərlik etdiyi hər bir dövrdə çoxuşaqlı və aztəminatlı ailələrə, əmək qəhrəmanlarının ailələrinə xüsusi qayğı göstərir, onların övladlarının təhsilini nəzarətdə saxlayırdı. Ailə üzvlərinin sağlamlığı, xüsusilə ana və uşaqların sağlamlığının mühafizəsi çox önəmli məsələlərdir. Heydər Əliyev ailədə sağlam uşaqların doğulması, eləcə də, narahatlıq doğuran məsələlərdən biri olan, qan qohumluğunun qarşısının alınması istiqamətində xüsusi fəallıq göstərir, tibb işçilərinə göstərişlər verir və ən müxtəlif səviyyələrdə müzakirələr aparırdı. 90-cı illərdə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və dəstəyi ilə ailənin möhkəmləndirilməsi, qadın və uşaq hüquqlarının müdafiəsi sahəsində Azərbaycan mühüm beynəlxalq Konvensiyalara qoşulmuş və respublikamızda müvafiq qanunlar qəbul edilmişdir. Ümummilli lider Heydər Əliyev cəmiyyətdə qadınların rolunun artırılması, qadınlarla kişilər arasında bərabərliyin gerçəkləşdirilməsi, qadın, ailə problemlərinin həlli istiqamətində də böyük işlər görüb. 1998-ci il yanvarın 14-də Azərbaycanda Qadın Problemləri üzrə Dövlət Komitəsi və onun tərkibində ailə institutu yaradılıb.(1, s. 1) Ailə İnstitutunun möhkəmliyi cəmiyyətin və dövlətin güclənməsinə, inkişaf etməsinə zəmin yaradır. Buna görə də çağdaş dövrdə Azərbaycan ailəsi dünyada ən yaxşı ailə modellərindən hesab olunur. Bütövlükdə isə, biz həmişə Azərbaycan ailələrinin möhkəmliyi ilə fəxr etmişik. Bu, əsasən milli mentalitetimizdən irəli gəlir. Ailə üzvləri arasında səmimi, mədəni münasibət, böyük-kiçik yerinin bilinməsi, ər-arvad, valideyn-övlad münasibətlərinin düzgün qurulması bizim ailələrə xas olan keyfiyyətlərdir. Əgər ölkəmizdə yüzlərlə, minlərlə insan qurduqları ailələrin brilyant, qızıl, gümüş yubileylərini keçirirlərsə, bu o deməkdir ki, Azərbaycanda ailə modeli qorunur və nəsildən-nəslə yaşadılır. (3. s. 5) Bu məqsədlə hər il may ayının 15-i Azərbaycanda “Beynəlxalq Ailə günü” qeyd edilir. Bu əlamətdar gün BMT Baş Assambleyasının 20 sentyabr 1990-cı il qətnaməsi ilə təsis edilib. Azərbaycanda ailə institutunun sütunları böyüyə hörmət, ailə başçısına sədaqət, qarşılıqlı sevgi və digər dəyərlərə söykənir. Bəlkə elə buna görədir ki, Azərbaycan ailəsi bütün dünyada monolitliyi ilə örnək göstərilir. Bəli. ailə öz təkrarolunmaz aləmi ilə inkişaf edən kiçik bir cəmiyyətdir. Bu kiçik cəmiyyətin cəmindən xalq, millət formalaşır. Millətin, ölkənin səviyyəsi bu ailələrin səviyyəsindən asılıdır.(4. s. 2)

Sözün hər mənasında müstəqil dövlətimizin ali sənədinin – Konstitusiyanın müəllifi olan Heydər Əliyev burada ailənin mahiyyətini, ailə üzvlərinin vəzifə və hüquqlarını da xüsusi maddələrlə müəyyən etmişdir. Eləcə də 2000-ci ildə Ailə Məcəlləsinin qəbul olunması nəticəsində ailə üzvlərinin digər hüquq və vəzifələri ilə yanaşı, mülki hüquqları da təsbit olunmuşdur. Ümummilli liderin rəhbərliyi altında hazırlanmış və ümumxalq referendumu ilə qəbul edilmiş Azərbaycan Konstitusiyasında hər bir vətəndaşın nikah hüququ təsbit edilib, dövlətin ailəyə qayğı siyasətinin əsas prioritetləri müəyyənləşib. Konstitusiyanın 17-ci maddəsinə əsasən, ailə və uşaqlar dövlətin himayəsi altındadırlar. Konstitusiya və qanunlarımız ailənin cəmiyyətdəki layiqli mövqeyinə təminat yaradır.(6. s. 1)

Heydər Əliyev Azərbaycanın suverenlik və müstəqillik rəmzi olmaqla yanaşı, böyük humanizmin, möhkəm və nümunəvi ailə başçısının simvoludur. Onun cəmiyyətin idarə olunmasında, insanlar arasında münasibətlərin formalaşmasında, möhkəm ailə prinsiplərinin yaranmasında və həyata keçirilməsində göstərdiyi nümunə də daim öyrəniləcək və tətbiq ediləcəkdir. Bu nümunə hər bir Azərbaycan ailəsinin etalonuna, meyarına çevriləcəkdir.

Bəli, Azərbaycan xalqı xoşbəxtdir ki, onun Heydər Əliyev kimi Ulu Öndəri, dünyanın hörmətlə yanaşdığı və qəbul etdiyi ümummilli lideri var. Və bu gün hər birimiz dərk edirik ki, müstəqil Azərbaycan dövləti bütün həyatı və fəaliyyəti tariximizə qızıl hərflərlə həkk olunmuş Heydər Əliyevin şah əsəridir. Şübhə yoxdur ki, xalqımız onun müəllifini özünün tarixində və qəlbində əbədi yaşadacaq. Çünki, o xalqına xidmət etmək üçün, ömrünün qalan hissəsini də xalqına bağışladı. O deyirdi ki, mən fəxr edirəm ki, azərbaycanlıyam. Ən böyük azərbaycanlı olan Heydər Əliyev, bizə müstəqil Azərbaycanı bəxş etdi. Bizə azərbaycançılıq ideyasını hədiyyə etdi. O, son nəfəsinə qədər nə etdisə, ölkəsi üçün, Vətəni üçün, xalqı üçün etdi. Azərbaycan və Heydər Əliyevin adı əsrlər boyu bütün dünyada qoşa səslənəcəkdir.

## Family Values and Family Traditions - Heydar Aliyev
## Summary

**Keywords**: Family, Heydar Aliyev, national, society, tradition

In the article, national leader Heydar Aliyev's family traditions, appreciation of family values and protection of moral values. it is mentioned that the services rendered in the enrichment are priceless. His attitude towards people and his family, both in his activities in high government positions and in ordinary life, is a bright manifestation of these values. The great leader considered the family as the foundation and core of the society. The great politician Heydar Aliyev, who exceptionally values the role of the family in the system of national and moral values, always considers the family a sacred example in protecting the gene pool of the people, unifying the society and mobilizing for a single goal, the freedom of the society as a whole. he saw his happiness and happiness in the happiness and happiness of every family. The value of the family is high when it contributes to the society. He gives him worthy children and true citizens. From this point of view, like all the works done by the great leader, the family he founded has been and continues to be an example for the people of Azerbaijan. Heydar Aliyev, who gained deserved respect and great reputation all over the world, always said that his family was behind this success.Because the family built on mutual love was very happy. After all, society cannot develop without the family, which is considered a small model of the state.

**Ədəbiyyat siyahısı**


1. https://sia.az/az/news/social/821804.html
2. Cəmilə Çiçək. Ailə dəyərlərini simvollaşdıran kultlar. Bakı. Elm və Təhsil. 2018. 64 səh.
3. Rauf Məmmədov.Azərbaycan ailəsi. Dünən və bu gün. Monoqrafiya. Bakı 2018. 6 səh.
4. Sabir Gəncəli. Ailə. Ensiklopedik toplu. Nəsillər, ailələr, talelər. Bakı. 2011. 88 səh.
5. Heydər Əliyev. Biblioqrafik Məlumat kitabı. Bakı Universiteti nəşriyyatı. 2003. 434 səh.
6. http://www.anl.az/down/meqale/xalqqazeti/xalqqazeti_noyabr2009/97297.htm

**MÜNDƏRİCAT**


**Gövhər Baxşəliyeva**. Heydər Əliyev və İslam əməkdaşlıq təşkilatı ....................................5

**Gövhər Baxşəliyeva.** Ümummilli Lider Heydər Əliyevin şərq siyasəti .............................11

**Elman Quliyev.** Heydər Əliyev fenomeni: dahi şəxsiyyətin dahi şəxsiyyətə dəyəri kontekstində ......................................................................................18

**Məryəm Seyidbəyli.** Müstəqil Azərbaycan diasporunun təşkilatlanması prosesində Heydər Əliyevin rolu ....................................................................................23

**Lalə Əhmədova.** Heydər Əliyevin dövlət quruculuğunda dil məsələsi ...............................28

**Adil Mirabdullayev.** Ulu Öndərin adı, ideyaları əsrlər boyu yaşayacaqdır ........................34

**Səriyyə Gündoğdu.** Heydər Əliyev siyasətində Azərbaycan-Türkiyə əlaqələrinin inkişaf strategiyası ..............................................................................40

**Günay Verdiyeva.** Ulu Öndər və Cavad Heyət ..................................................................49

**Vüqar Məmmədov.** Müstəqil Azərbaycanın şərq siyasəti Şərqşünaslıq institutunun tədqiqatlarında ......................................................................................53

**Əfşan Şəfiyeva**. Ümummilli Lider Heydər Əliyevin irsində Azərbaycan və milli dəyərlər ..........................................................................................64

**Hacıyeva Yeganə.** Heydər Əliyevin azərbaycançılıq siyasəti və bütöv Azərbaycan .............................................................................................73

**Sübhan Talıblı**. Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycan respublikasının yaxın və orta şərq diplomatiyası (1993-2003-cü illər) ...............................82

**Ülkər Əliyeva**. Vyetnam-Azərbaycan əlaqələrinin qurulması və inkişafında Heydər Əliyevin xidmətləri ...............................................................................104

**Namiq Məmmədov.** Türkiyə-Azərbaycan iqtisadi əlaqələrinin yaranması və inkişafında Heydər Əliyevin neft strategiyası ..................................................110

**Zenfira Şıxəlibəyli.** Azərbaycan-Çin əlaqələrinin formalaşmasında Heydər Əliyevin müstəsna rolu ..........................................................................................120

**Gülər Qafqazlı.** Azərbaycan və Səudiyyə Ərəbistanı əlaqələrinin qurulmasında Heydər Əliyevin rolu ....................................................................................126

**Səməd Bayramzadə.** Azərbaycançılıq tarixindən: ideyadan ideologiyaya .......................133

**Elnur Mustafayev.** Müstəqillik dövründə Azərbaycanın ərəb ölkələri ilə diplomatik münasibətləri (1993-2003-cü illər arasında) ..............................................151

**Lalə Mikayılzadə.** Heydər Əliyev və Azərbaycan təhsilinin inkişafı ...............................159

**Mahir Həmidov.** "Yumşaq güc" müstəqil Azərbaycan dövlətinin siyasətində mühüm amillərdən biri kimi ....165

**Aybəniz Həsənova**. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı ....171

**İsmayıl Əsədov**. Г. А. Алиев и вопросы ближневосточной политики ....175

**Ceyhun Ağayev.** Heydər Əliyevin şərq-qərb münasibətləri prizmasından dinlərarası dialoqun inkişafının gerçəkləşdirilməsində tarixi rolu. ....179

**Faidə Omarova**. Heydər Əliyev və Türk dünyası ....184

**Nigar Əlizadə.** Нефтяная стратегия Гейдара Алиева – как важный элемент внешней политики Азербайджана ....188

**Sevda İbrahimova**. Heydər Əliyev və Azərbaycan gənclərinin xaricdə təhsili ....194

**Orxan Nəcəfov**. Неизвестные страницы политической истории современной Сирии: роль Гейдара Алиева в урегулировании внутреннего конфликта в руководстве САР в 1984 году ....203

**Novruz Nuriyev.** Azərbaycanın şərq ölkələri ilə elmi-mədəni əlaqələrinin inkişafında Heydər Əliyevin rolu ....211

**Samid Bağırov.** Azərbaycan və İƏT əlaqələrinin formalaşmasında Heydər Əliyevin rolu ....216

**Solmaz Namazova.** Heydər Əliyevin dövründə ölkəmizdə səhiyyənin inkişaf tarixi ....222

**Sevinc Məmmədova.** Xəzər dənizinin hüquqi statusunun müəyyən olunması istiqamətində Heydər Əliyevin rolu ....227

**Dilbər Hüseynli.** Heydər Əliyevin və Azərbaycan-Qazaxıstan münasibətləri ....235

**Nərgiz Mürvətova.** Принцип национализма и западные направления в политике Гейдара Алиева ....240

**Ceyhun Mürşüdzadə.** Heydər Əliyev dövründə Cənubi Koreya-Azərbaycan əməkdaşlığı ....245

**Elnarə Bünyatova**. Гейдар Алиев: возрождению нового Азербайджана ....250

**Aynurə Məmmədova**. Ulu Öndər Heydər Əliyevin mənəvi irsində ailə dəyərləri və ənənələri ....256

Bədii tərtibat:  Ulduz Yusibova

Formatı: 60x84 $^{1}/_{8}$
Həcmi: 33 ç.v.
Sifariş:2
Tirajı: 200

Qiyməti müqavilə əsasında